Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

III cild

Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

III cild

Bakı 2022

Redaktor:

**Məhərrəm Qasımlı**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, III cild. Bakı, ADPU nəşriyyatı, 2022. - 512 səh.

Görkəmli şair, ədəbiyyatşünas, nasir, publisist, tərcüməçi Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "İlin ən yaxşı kitabı", "Araz" və s. ədəbi mükafatların laureatı Rafiq Yusifoğlunun "Seçilmiş əsərləri"nin III cildinə onun "Ömür ağacından düşən yarpaqlar" kitabındakı şeirlərinin bir qismi, "Arazular kəhkəşanı" və "Ayrılığın qəm hasarı" kitablarındakı poetik əsərləri daxil edilmişdir.

$© \frac{19479865}{1957(H)2022}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

## "Ömür ağacından düşən yarpaqlar" kitabından

### DÖYÜŞLƏRDƏ HƏLAK OLAN DAYILARIMIN XATİRƏSİNƏ

Gözəllər gül bağı saldı,
Yal üstündə, yal üstündə.
Qızılgüllər pardaqladı
Kol üstündə, kol üstündə.

Xəbər yoxdu oğullardan,
Şəkərlərdən, noğullardan.
Min söz keçir ağıllardan,
Xal yaranır xal üstündə.

Ocaq yandı, hanı közü?
Ayrılığa de, kim dözüb?
Anaların ağlar gözü
Bulaq oldu yol üstündə.

Nə söyləyim soruşsalar?
Kədər üzə qırış salar.
Arı hanı? – Qarışqalar
Şənlik edir bal üstündə.

Qoruyanda yurdumuzu,
Axdı qanım qızıl-qızıl.
Öldüm, məni bir rus qızı
Dəfn etdi bir yal üstündə.

Səni andım, könül coşdu,
Altım torpaq, üstüm daşdı.
Dara çəksələr də xoşdu
Bülbülü vüsal üstündə.

Nazlı yarım, qurban olum,
Çıxart qoynundan qolunu.
Bəlkə dirildim, yolunu
Gəl qəbrimin sal üstündən…

**16.01.1977**

## NÖVBƏSİZ BURAXIN

Cavanlar, bir az da gözləyərsiniz,
Növbəsiz buraxın qocaları siz.
İllər hamısını heydən salıbdır,
Xəyala başqa şey gətirməsinlər.
Onların beş-on gün ömrü qalıbdır,
Onu da növbədə itirməsinlər…

**10.03.1977**

***

Heç zaman itirmə öz inamını,
Həmişə dünyadan toy-düyün istə.
Zaman ovundurar gec-tez hamını,
Zaman qaysaq qoyar yaralar üstdə.

**18.04.1977**

***

Uşaqlıq çağlarımda
Çox girmişəm bu dama.
Dərdim özümə bəsdi,
Məni döymə, budama.

**20.04.1977**

## ƏLİMDƏ ƏLACIM OLA

Əlimdə əlacım ola,
hamını evləndirəm, –
Bircə subay da qalmaya!
Bircə ev uşaqsız olmaya.
Atalar düşünə öz balasını.
Şad xəbər yayıla
obalara, ellərə.
Körpə gözləri əridə
mənəmlik ehtirasını,
Körpə baxışları
kəmənd ola
nadinc əllərə!

**19.04.1977**

## AĞ YALAN VƏ QIRMIZI HƏQİQƏT

Dedi: –Yaxın sirdaşınam,
Səni özüm bilirəm.
Dedim: –Ay dost, qanım azdır,
Bir az qan ver, ölürəm.
–Dost olsaq da, gəl üz vurma, –
Cavabı çox oldu sərt.
…Ağ yalanı utandırdı
Bir qırmızı həqiqət…

**23.04.1977**

***

Çiçək kimi dərildim,
Qürbətdəyəm bir ildi.
Vətəndən külək əsdi,
Cana gəldim, dirildim…

*******

Üzündəki o məsumluq
Şərəfimdir, ismətimdir.
Təbəssümün bir ləpədir,
O da mənim qismətimdir.

**29.04.1977**

## BU GECƏ

Ay da sərxoşdur
bu gecə,
Ulduzlar da
bir balaca məstdilər.
Yarpaqlar da titrədilər,
Xumar-xumar əsdilər.
Ürəyimdə dəli həsrət
Oğrun-oğrun süzdüm
səni yenidən.
Təbəssümün məst elədi
Ulduzu da, ayı da,
Gecəni də, məni də.
Sən də sərxoşsan, gülüm,
Məst olmusan ay işığından,
Bulaqların asta-asta
danışığından.
Və bir də…
Boylanırsan bir ağacın
Dibinə hərdən-hərdən…

**05.05.1977**

## DƏRDİN VARSA

Qələm dolaşdı birdən,
Gileylər daşdı birdən.
Dərdlərimi yazırdım,
Kağız dil açdı birdən.
Dedi: –Dönə-dönə sən,
Gileylənmə mənə sən.
Dərdin varsa, ay oğlan,
Yaz buza, qoy günə sən…

**13.05.1977**

## DƏNİZ VƏ SAHİL

Günəş qalxdı üfüqdən,
Torpağın canı qızdı.
Qızıl şəfəqləriylə
Günəş afişa yazdı:

"Dənizin konserti var
Səhərdən axşamacan." –
Dənizin görüşünə
Tələsdi cavan, qoca.

Uzandım qumlar üstdə,
Dalğalar nənni oldu.
Sahil konsert salonu,
Dəniz müğənni oldu.

Gözlərimin yuxusu
Düşüb itdi sularda.
Süstlüyün, yorğunluğun
İşi bitdi sularda.

Ləpələrin diliylə
Odlu nəğmə oxudu. –
Çılpaq qızları görüb,
Titrəyirdi dəniz də…
Bütün şəhər burdaydı,
Heyf ki, sən yox idin
Dənizdə…

**29.05.1977**

***

Pay umaram o əldən, o dodaqdan,
Gözlərində mənim eşqim nurlanar.
Pərvanələr uçub gələr uzaqdan,
Ay üzünün dövrəsində fırlanar.

**13.06.1977**

## BU GƏLƏN YAR

Bu gələn yar Səlbidi,
Boyu məndən qəlbidi.
Üz-gözü gözəl deyil,
Gözəl onun qəlbidi.

Bu gələn yar Sonadı,
Tellərini sanadı.
Məhəbbət yollarında
Məni xeyli sınadı.

Bu gələn yar Lalədi,
Gözləri piyalədi.
İçdim təbəssümünü,
Məni xoşbəxt elədi.

Bu gələn yar Dürdanə,
Gözəllikdə bir dənə.
İnciməsin, eşqimi
Deyim mərdi-mərdanə.

Bu gələn yar Zərifə,
Möhtac deyil tərifə.
Gözlərinin dediyi
Qismət olar arifə.

Bu gələn yar Aliyə,
Həyat verər ölüyə.
Bircə qıyğac baxışı
İşləyəcək iliyə…

Bu gələn yar İncidi,
Qəlbimin sevincidi.
Mənim dilim qurusun,
Nə dedim ki, incidi.

Bu gələn yar Səlimə,
Əmr et, gedim ölümə.
Dirilərəm əlini
Toxundursan əlimə.

Bu gələn yar Sevildi,
Neçə dəfə sevildi.
Ancaq bircə oğlanı
Qəlbinin dostu bildi.

Bu gələn yar Ballıdı,
Yanaqları xallıdı.
Sədəf dişi şəkərdi,
Dodaqları ballıdı.

Bu gələn yar Şəkərdi,
Ellər ona nökərdi.
Gözəllərin gözəli
Əlinə su tökərdi.

Bu gələn yar Bircəgül,
Bircə danış, bircə gül.
Utandım, aparmadım
Bircəgülə bircə gül…

Bu gələnlər elmin,
Obamın ulduzları.
Xoşbəxt olsun yurdumun
Sədaqətli qızları…

**17.06.1977**

## SƏNİN ARŞININLA – MƏNİM ARŞINIMLA

Bir valideyn – mağaza müdiri mənə dedi ki, nə üçün güzəşt edib bizim uşağa yüksək qiymət yazmamısan?

Lap gülməyim tutur dediyin sözə,
Bir şey anlamazsan sən bu gülüşdən.
Deyirsən: –Nə vaxtsa gəlsək üz-üzə
Xəcalət çəkərsən tutduğun işdən…

Mənim təmizliyim hər vaxt ram edir
Bağrımın başından qopan ağrını.
Qəribə məntiqdir, ittiham edir
Əyri həqiqəti, oğru doğrunu.

Yüz il ac da qalsam, susuz da qalsam,
Düşmərəm bir saxta var həvəsinə.
Var-dövlət önündə əyilən olsam,
Qələm 5 yazardı 3 əvəzinə.

Gör nə şax baxıram sənin üzünə? –
Xəcalətli olsam, gözlərim enər.
Mən öz mənliyimi, baxma özünə,
Satmaram milyona, satmaram minə.

Yoxdur umacağım pak addan qeyri,
Həqiqət yalanın bağrını dəlib.
Düzün qapısına bir köhnə əyri
Yüz yerdən, min yerdən əyilib gəlib.

Düzlər çox əyrini salıblar yola,
Eybi yox, bir az da olarıq sərvaxt.
Sən haram yol ilə yıdığın pula,
Mənsə paklığıma güvəndim hər vaxt.

Nə vaxtsa alışar, gur işıq salar,
Həqiqət elə bil kül altda közdür.
Sənin arşınınla düz düzdə qalar,
Mənim arşınımla düz elə düzdür…

**20.06.1978**

## TƏBİƏTİN BÖLGÜSÜ

Fikirləşirəm
görən nədəndi:
Dəniz şəhərin
payına düşüb,

Çaylarsa kəndin?
Dağı, aranı
xəyalım gəzdi,
Bu cür bölgüyə
sevindi ürək.
Bir çay şəhərə
bəs eləməzdi,
Bir dəniz kəndin
nəyinə gərək?

**12.07.1977**

***

Hərəmiz bir çayın qoluyuq
Hamımız vətənin quluyuq,
Biz onu anamız bilmişik.
Hərəmiz bir çayın qoluyuq,
Hərəmiz bir dağdan,
bir kənddən gəlmişik.
Birisi kövrəklik gətirib,
Birisi kobudluq, loruluq.
Birisi təmizlik, duruluq…
Birimiz bir bina tikmişik,
Birimiz bir ağac əkmişik.
Axırda bu doğma ananın
körpəsi olmuşuq,
Hərəmiz Bakının – Xəzərin
Bir doğma ləpəsi olmuşuq…

**12.07.1977**

# KƏNDDƏ KEÇƏN BİR AYIM

Unutmaq olarmı bu doğma yeri? –
Qəribsəyən kimi yenə gəlirəm.
Bir ay kəndimizdə oluram hər il,
Elə bil imana, dinə gəlirəm.

Bir ay yaddan çıxır vəzifəm, adım,
Bir ay çevrilirəm şıltaq uşağa.
Elə bil açılır qolum, qanadım,
Qonuram quş kimi uca budağa.

Futbol oynayıram uşaqlar ilə,
Tənəyə, gileyə qulaq yumuram.
Şirin xatirələr gəlirsə dilə
Niyə özgələrdən mən pay umuram?

Əlimə yetişən merdən-meyvədən
Yolub doldururam qoynuma yenə.
Qoruqçu bu işə bənd olmur nədən,
Nə üçün köpəyi qısqırtmır mənə?

Yoxsa bir yaşdayam qızım Gülzarla,
Tənqidi nə yaman yumşaq deyirlər.
Kəndin qocaları giley-güzarla
Adıma "saqqallı uşaq" deyirlər.

Anıram ömrümün körpə çağını,
Qövr edir bir dəli haray içimdə.
Şəhərin bir illik yorğunluğunu
Kənddə əridirəm bir ay içində

**23.07.1977**

## QOCA ZURNAÇININ ÇALDIĞI HAVA

Təzə deyil aləmə səs saldığı,
Qara zurna ayqır kimi kişnəyib.
Bizim qoca zurnaçının çaldığı
Cavanların sümüyünə düşməyib.

Kəndimizdə yenə toy var, düyün var,
Zurna səsi ulduzlara ucalar.
Elə bil ki, qocalıblar cavanlar,
Toyxanada meydan sular qocalar…

**25.07.1977. Qubadlı**

***

Ürəyinin ağrısını
gözlərin deyər,
Bilirəm ki, nə söyləyir
o hiss, o xislət! –
Meyvələrin dəymişini
quş dimdikləyər,
Armudların yetişmişi
ayıya qismət…

**28.07.1977 Qubadlı**

## ALMA ALMAYA BƏNZƏR

Alma almaya bənzər,
Hamısı bir biçimdə.
Alma seçmək istərəm
Almaların içindən.

Alma gördüm budaqda,
Yanağında göz yeri.
Hər almanın öz dadı,
Hər almanın öz yeri.

Alma almaya bənzər,
Bir dadda olmayırmı
Bir ağacın alması?
Gərəkdir əkizlər də
Eyni dadda olmasın.

Yerə düşən almanı
Qaldırmaq hünər istər.
Sən mənə diş dəyməmiş,
Qurdu yox alma göstər…

**01.08.1977. Qubadlı**

## QIZLAR GÖLÜ

Üzməyin qaydasını
Bilməsək də hələ biz,
Dəlik daşın üstündən
Tullanardıq gölə biz.

Bu göl yaman dərindi,
Suyu buz tək sərindi.
Bir az yuxarı üzdüm,
"Qızlar gölü" göründü.

Burdakı göl girdədi,
Yox səs-səmir bu yerdə.
Bu göl dalda yerdədi,
Qızlar çimir bu yerdə.

Şeytan doldu qəlbimə,
Ürək əsdi bir azdan.
İstədim ki, bu gölə
Yaxınlaşım bir az da.

Hədə yağdı üstümə:
–Öz gölündə öl, ədə!
Bizim çimdiyimiz su
Gəlir sizin gölə də…

Ölərəm, düşsəm əgər
Bu qızların əlinə.
Üzüb qayıtdım yenə
Oğlanların gölünə…

**02.08.1977. Qubadlı**

## KÖÇ GEDƏR

Düşər qatı qaranlıq
Göydə günəş sönəndə.
Bulaq susar bir anlıq,
Dağda tütək dinəndə.

Yollar dağa səmt düşər,
Yada oba, kənd düşər.
Yadıma bir bənd düşər
Kəhər ata minəndə.

"Köç gedər ha, köç gedər,
Qaşqa madyan boş gedər.
O qızı mənə versələr,
Allaha da xoş gedər"…

Dayanıbdır uca dağ,
Zirvələri ağappaq.
Quyruq doğdu, a yaylaq,
Çoxmu qalaq sinəndə?

Hələlik dedim dağa,
Az qalıb ki, qar yağa.
Axsaq düşər qabağa,
Köç arana dönəndə…

**03.08.1977. Qubadlı**

## KƏNDİMİZƏ GEDƏN CIĞIR

Yol azdırmaz heç zaman bu bələdçi cığırlar.
Nədənsə onlar çox vaxt çeşmə üstə çıxırlar.
Özünə cığır açıb axır, axır sular da.
"Geniş yol"a qovuşur əvvəl-axır sular da.
Cığır səni qurtarar çox bəladan, xətərdən.
Cığırların içində baxma ot bitdiyinə
Yola da dönə bilər, öz-özünə itər də,
O baxır cığırların hayana getdiyinə!
Gəlib bir çəmənliyə tuş olduq gəzə-gəzə,
Eh, bir vaxt bu taladan əlvan güllər dərmişik.
Cığırlar babalardan miras qalıbdır bizə,
Biz onların çoxunu yollara döndərmişik.
Yada düşdü uşaqlıq, quş tək çırpındı ürək,
O köhnə cığır ilə dedim gedim kəndimə.
Zaman keçib, böyüyüb mən ata olduğum tək,
Bu cığır da böyüyüb yol olubmuş sən demə…

**04.08.1977. Qubadlı**

## İKİ BEYT

Əl götürmə Sevdadan,
Gözəlləri sev, dadan…
***
Yeri, əsdirə-əsdirə,
Yeri əsdirə-əsdirə…
***
Oğrun-oğrun gözlərimə baxanda
O çağları xəyalıma gətirdin.
Gilə-gilə gözümdən yaş axanda,
Gülə-gülə qabağımdan ötürdün.
***
Sən mənim ömrümün yazı olmadın,
Nə oldu, bəs niyə əhdi pozursan?
Əzizim olmağa razı olmadın,
Məşuqəm olmağa indi hazırsan…

**06.09.1978**

## MƏNƏ NƏ

Gözlərin bir cüt ülkərdi,
Dodaqların baldı, şəkərdi.
Yanaqların dağ çiçəyi,
Nəfəsin bahar küləyi.
Özün – yeriyən sərv ağacısan.
Saçların – bir topa bulud kimi
tökülüb sinənə…
Baxışların bahar şimşəyi…
Ancaq mənə nə bunlardan,
mənə nə?!

**12.09.1977**

## QURTARIR

Ət alıram, yağ qurtarır,
Yağ alıram, ət qurtarır.
Çay alıram, qənd qurtarır,
Qənd alıram çay qurtarır.
Bu münvalla
İl qurtarır, ay qurtarır…

**21.09.1977**

***

Bir gözələ tuş oldum
Gedəndə Ordubada.
Bircə baxışın ilə
Gedər min ordu bada..

**1978**

***

Nə danışır ürəyinin vurğusu?
Kimin üçün bəsləmisən o narı?
İstəmirəm o çiçəyi, doğrusu,
Ləçəyindən bal çəkibsə on arı…

**31.07.1978**

***

Bir də dolanarmı qolun boynuma,
Bir də o gözlərə gözüm baxarmı?
Bir də alarsanmı məni qoynuna,
Bir də gözlərimdə şimşək çaxarmı?

Bir də qayıdarmı geriyə o an? –
Yenə sevincimə sevinc qatarmı?
Bir də iki dağın tən arasından
Bir öpüm səadət mənə çatarmı?

Bir həsrət sinəmdə közərdi, söndü,
Ələndi üstümə qırıq kəlmələr.
Mənim hər barmağım bir simə döndü…
Həsrətin köksümdə quzu tək mələr.

Əlinə dəyəndə dinən əllərim,
İlahi diyarda yenə gəzərmi?
Sinəndə kösövə dönən əllərim
Sehrdən düşübdür, daha közərmir…

Ötəri bir şeydir bəlkə də bu qəm,
Axı bu dünyada nə çox gözəl var.
Məndən nə qaldığın deyə bilmərəm,
Səndən bu misralar qaldı yadigar…

**17.11.1978**

***

Gözəl gərək odumdan od götürə,
Elə bilmə alışmaqda bircəsən.
Huşum yoxdur, hər şey çıxır yadımdan,
Xəyalımdan silinmirsən bircə sən…

**26.02.1979**

***

Yola düşdü həsrətimin qatarı –
Xata oldu gəlib çıxdım vağzala.
Bir qız gördüm, yollar onda qurtarır,
Yanaqlar al, qaşlar qara, göz ala.

Arxasınca küçələri ölçərəm,
Baxışımla yad baxışı biçərəm.
Razı olsa, başımdan da keçərəm, –
Kim istəməz o gözlərə göz ola?!

Könül istər yar araya, yar seçə,
Sevgisiz gün bərabərdir bir heçə.
Xoş halına o kəsin ki, bir gecə
O boyasız dodaqlardan söz ala.

Gərək bir gün subaylığı atam mən,
Can atıram vüsalına çatam mən,
Arzum budur təzə tonqal çatam mən,
Könül istər bu ocaqdan köz ala…

**22.01.1980**

## BİR NƏFƏRLİK GÜNƏŞ

–Alovlandır ürəyimin qorunu,
Mənə pay ver gözündəki atəşdən.
Bir kimsədən əsirgəməz nurunu,
Səxavəti barı öyrən günəşdən!

–Bəsdir məni qoydun naşı yerinə,
Ariflərə bir işarə bəs edər.
Ürəyimi bağlamışam birinə,
Odum çatmaz hər yetəni isidəm…

**13.02.1980**

## BİR GÖZƏLƏ

Sən gedirdin
“xuraman-xuraman”,
Mən Tanrısı gözəllik olan
Cavid kimi
Süzürdüm qamətini arxadan.
Füzuli babam kimi

gözlərim ləzzət çəkirdi,
ürəyim əziyyət…
Baxa bilmirdim başqasına,
Gözlərim qoşulub
“gözəllik qoşqu”suna
Arxanca çəkirdi məni…
Ancaq…
Görə bilmirdim çöhrəni, –
O da qamətin kimi gözəlmi? –
Soruşdum özümdən.
Birdən bir oğlan
üz-üzə gəldi səninlə,
Onun özünü itirməsi
qaçmadı gözümdən.
Lalələr açıldı
fağırın yanağında…
Mən onun utancaq baxışında,
Büdrəyən ayağında
Gördüm sənin üzünü də…

**23.06.1980**

## TELEFON NÖMRƏSİ HAQDA REKVİYEM

**Yəhya Seyidovun xatirəsinə**

Yaddaşım  yaşıl bir budaq,
Üstündə telefon nömrələri
yarpaq-yarpaq…
Hər yarpaq bir yolun başlanğıcı,
Hər yarpağın arxasında
bir insan həniri…

Ən iri bir yarpaq düşdü,
ən iri.
Kəsildi bir insanın səs-səmiri,
Söndü bir ürəyin odu.
Zəngim gedər-gəlməz oldu.
Barmağımı yenidən soxdum
telefonun gözlərinə
günahı varmış kimi…
Bir qadın harayı
doğradı ümidimi.
Ürəyim qana döndü.
Quşu uçmuş yuvaya,
Suyu sovulmuş dəyirmana
döndü – 37-75-02…
Bir dəli həsrət
hıçqırıb-hıçqırıb susacaq.
Bir vaxt döyənək olan
bir səs cığırını ot basacaq…
Bir telefon nömrəsi ölüb
cib dəftərimdə…

**10.12.1980**

## HƏZİ ASLANOVUN EV MUZEYİNDƏ

Öz komandir
tankının üstündə,
əlində durbin
uzaqlara göz dikən Həzi
müharibə tüstülərinin arasından
bu günə baxır elə bil…
Görür qanı rəngində
qalstuk bağlamış
xoşbəxt uşaqları!

Cavanları, qocaları –
Evinə gələn bütün qonaqları…
Yan-yana düzülən
qızıl bayraqları,
İstisuyun büsatını.
Lənkəranın dağını, düzünü,
Azərbaycanın “iri addımlarını”,
Xanbulançayın ayna üzünü,
Ziyalılar evində
keçirilən görüşləri…
Təbəssümləri, gülüşləri…
Xəyala dalıb,
uzaqlara dikib gözünü.
Eşidib “Lənkəran bağlarında”
mahnısını,
Dodağı qaçır Həzinin…

**26.03.1981. Lənkəran**

## ÜÇÜNCÜ OĞUL

Həzi Aslanov deyərmiş: "Bir oğul oğul deyil, iki oğul yarım oğuldu, üç oğul oğuldu" …

Ev muzeyinin direktoru **Həlimə xanımın** sözlərindən

Həyatın bir üzü şirindi,
bir üzü acıdı.
Gah təbəssüm,
gah göz yaşı
qonur yanaqlara.
Üçüncü oğlun
evinin həyətində
əkdiyin innab ağacıdı,

Qapıda dayanıb
"xoş gəldin" deyir
Səni deyib gələn
qonaqlara…

**25.03.1981. Lənkəran**

## TƏK QALDIM

Mən neyləyim, ürəyimi üzür dərd,
Yuxarı bığ, aşağısa saqqaldı.
Yar inadkar, qardaş kobud, qohum sərt,
Doğmaların arasında tək qaldım.

Gecə-gündüz için-için ağladım,
Özüm oldum boğulan öz tüstümə.
Böyüklərin hörmətini saxladım,
Kiçiklər də ayaq açdı üstümə…

Mənə qarşı məhəbbət də qəlp imiş,
İnanmıram məni duyan tapılsın.
Nə günahı, yoxsa şıltaq qəlbimin
Təpik ilə sındırılan qapısı?!

Bu dünyadan axı hara köçüm mən? –
Ürəyimdən axşam-səhər qopar ah.
Gözəllərin, göyçəklərin içindən
Qismətimə düşənə bax, ay Allah?!

Hələ xəzan gəlməmişdən sovuldum,
Ürəyimə daş atdılar, kiridim.
İki odun arasında su oldum,
Sönmədilər, gilə-gilə əridim.

Neyləyəydim, dost-tanışdan etdim ar,
Sükutum da sinələrə dağ olub.
Yolunuzu gözləyəni, doğmalar,
Ögey kimi tapdadınız, sağ olun!

**07.09.1984**

## NAHAQ KÜSMÜŞƏM

Qohum-qardaş, sizdən nahaq küsmüşəm,
Həqiqəti kim vicdanla ölçüb ki?!
Tapdamısız, xətrinizə susmuşam, –
Üzr istəyim, – könlünüzdən keçib ki…

Yolunuzu gözləyirəm mən, fəqət
Hörmət yoxdu qanacağa, biliyə.
Qəlbinizdə yatan saxta məhəbbət
Qurban verir ağıllını dəliyə.

Deyirsiniz: yovuşmazam, quruyam, –
Yalançının bəbəkləri ağarsın.
Hörmətimi saxlayanın quluyam,
Mənliyimi tapdayanın ağası…

**02.06.1985**

## BU NƏ DƏLİLİKDİ

Gör kimi seçmisən, gör kimi, ürək? –
Məni el qınayar, oba qınayar.
O qızın nəfəsi üzümə dəycək,
Dəli bəbəyimdə həsrət qaynayar.

Elə hönkürürsən sən için-için,
Geriyə yol yoxdu, qabaq uçurum.
Neyləyim, bir sənin dincliyin üçün
Qırx illik hörməti yerəmi vurum?!

İçimdə elə bil ildırım çaxır,
Ağıl öz işində, öz hədəsində.
Bu nə dəlilikdi edirsən axı
Yaşın bu çağında, bu vədəsində?

**12.02.1986**

***

O boy-buxun, o şux sinə, o gözəl baxış…
İnildədi ürəyimin qırılmış simi.
Taleyimə belə gözəl yazılmayıbmış, –
Onu görüb dərk elədim bədbəxtliyimi…

**12.09.1986**

## İKİ EVİN ARASINDA

Dözmüsən ağrı-acıya,
Bəlkə də səhv eləmisən.
İki körpəni böyüdüb,
Sən iki ev eləmisən.

İki evin arasında
Xətir-hörmət dönüb tora.
Üstündən səni top kimi
O vurur bura, bu vurur ora.

Ürəyinin ağrısını
Vermirsən büruzə, nənə.
Bu taleyin oyunudu,
Ağlama, Füruzə nənə!

Qocalığa gülənlər də
Sənin yaşına gələcək.
İndi baş aparanların
Bir gün başına gələcək, –
Ağlama, Füruzə nənə!

**26.02.1987**

***

Sənin də evində kişi səsi var, –
Kövrəldin, bir anda gözlərin doldu.
Adi qadın idin əynində paltar,
Soyunub dünyanın gözəli oldun…

**1987**

## SƏNƏ DƏ QAR YAĞDI…

Nə vaxt girəcəyəm, torpaq, qoynuna? –
Bu dünya gözümdən düşüb yamanca.
Mişar tək sürtülür mənim boynuma, –
Dərdlərim kəmanə, qəlbim kamança…

Ürəyim budaqda əsən son yarpaq,
Əsər də qalmayıb məndə dözümdən.
Sənə də qar yağdı, güvəndiyim dağ, –
Bir qətrə yaş olub çıxdın gözümdən.

Uddum həqiqəti, susdum nə qədər,
Yamanca özündən razısan, – dedin.
Ələndi üzümə həzin bir kədər,
Üstümə çımxırıb mızısan, – dedin.

Mənim tək səbirli olarmış çətin,
Heç zaman çıxmadım öz cızığımdan.
Sənin təkəbbürün, sənin hörmətin
Çox şey qazanırmış mızılığımdan.

Mənim ürəyimə çəkildi yüz dağ,
Dilimdən qığılcım çırtladı bu gün.
Üfürüb, üfürüb dağ etdiyim "dağ"
Adicə sözümdən partladı bir gün…

İlahi, təpə də deyilmiş bu heç,
İlahi, İlahi, günahımdan keç…

**08.10.1988**

## BİR DOSTUMA

Kövrək hisslərini örtüb boran, qar,
Dost gülsə, sevincdən gözün dolardı.
Səni vəzifədən çıxartsaydılar,
Təzədən çevrilib adam olardın…

**22.10.1988**

*******

**Nə ağılla üç nəfər bir kabinaya minmişdiniz deyən bir nəfərə**

Qoruq-qadağaya sığa bilmirəm,
Bəlkə də yanında ən əskik mənəm.
Bir günəş olsam da, doğa bilmirəm,
Günəşin önünü kəsən dik mənəm.

Ləbbeh deyə-deyə yaşa dolardım,
Yeməkdə, içməkdə mahir olmuşam.
Ağlım olsa idi, rəis olardım,
Ağlım olmayıb ki, şair olmuşam…

**1991**

## YALOTU

Dağlarda doludur Yalotu,
Küləyin quludur Yalotu.
Min üzlə yaşamaq hünərmiş,
Katib də valiyə dönərmiş…

**1991**

***

Cızığımdan çıxmadım
xoş sözlərə aldanıb,
Elə üzümə gülür,
nə yağ, nə də ət verir.
Qoruqlar, qadağalar
ayağımdan sallanıb,
Nadanların yekəsi
mənə nəsihət verir.
Deyir: – Burda belə dur,
ordasa elə otur,
Canıma bir qorxulu
ağrı, vicvicə düşüb.
Özüm də mat qalmışam,
bu qotur oğlu qotur,
Dərs vermək həvəsinə
bilmirəm necə düşüb?

**05.07.1991**

*******

Başa düşər bu dünyada yalqızlar məni,
Xatirələr ürəyimə axın eyləyər.
Əsir etdi, yesir etdi bu qızlar məni,
Gözəllikdən zövq almayan axı neyləyər?

Bir istəklim səsimə səs verməyəcəksə,
Özün düşün, o ev mənə gor deyil, nədir?
Əgər sənin gözlərini görməyəcəksə,
Mənim nurlu bəbəklərim kor deyil, nədir?

**09.10.1993**

## ARAQ

Şeytansan, yolumun üstdə durmusan,
Qoy Tanrım dərdimə eyləsin əncam.
Həmişə sən məni yerə vurmusan,
Bu dəfə mən səni yerə vuracam…

**13.12.1993**

*******

Çöldə qar ələnir,
evdə saz dinir,
Qış susub, ürəkdə
bahar, yaz dinir…

**1994**

*******

Ürəkdə məhəbbət yoxsa,
Gizli görüşə dəyərmi?
Sənin bütün cızmaqaran
Bircə öpüşə dəyərmi?

***

Mənə xəyanət edən
Dodaqları kəsərdim.
Diz arzulayan başı
Nə çəkiclə əzərdim?

**1994**

***

Vidalaşasan gərək
ötən günlərin ilə,
Yarından ayrı düşən
tək sənsənmi, ağlama!
Keçmiş qeydlərimi
cırıb verirəm yelə,
Nə mənasız kəlmələr
gəlibmiş gör ağlıma!

**13.09.1995**

***

Dərd torpağı gil eylər,
Ömrü üzdü gileylər.
Bülbülə nə eyləsə,
Özgə etməz, gül eylər…

**1996**

## DALĞALAR

Əllərim dünyadan üzülüb,
Yenə də karvana düzülüb,
Sahilə, yanıma gəlirsiz,
Elə bil dərdimi bilirsiz.

Nəqarat

Dalğalar, dalğalar, dalğalar,
Mənim də qəlbimdə dalğa var.
Üzümdə buludlar oynayır,
Gözümdə bulaqlar qaynayır.

Bəs hanı, bəs hanı su pərim?
Yoluna incilər səpərim…
Yarımdan bir xəbər gətirin,
Qəlbimdən həsrəti itirin.

Nəqarat

**1996**

## ZARAFAT

Məni qınayan bir qıza

Kimsəyə atından düş deməmişəm,
Dözmüşəm həyatın soyuğuna da.
Bil ki, ömrüm boyu kiş deməmişəm
Hələ bir qonşunun toyuğuna da…

O boş eyhamları duyar fərsiz də,
Sataşma, ürəyim kövrəkdi, yavrum!
Pulsuz da yaşamaq olar, ərsiz də –
Mənə pul, sənə ər gərəkdi, yavrum…

Sevsəydin, qəlbində sökülərdi dan,
Məhəbbət ürəyi bəzəyir, gülüm.
Mənim pul sevdamla, sənin ər sevdan
Elə bir-birinə bənzəyir, gülüm…

**15.01.1997**

***

Qalmamışam bu dünyadan tamarzı,
Hər neməti şəkər olub, bal olub.
Taleyimdən necə qalım narazı? –
Neçə cığır qabağımda yol olub.

Dostum vardı, sanardım ki, qalamdı,
Ürəyimdə sevgi qalam-qalamdı.
Aylar keçdi, illər ötdü, dolandı,
Məsləksizə könül verib, qul olub.

Xosunlaşdı mələk donlu ilanlar,
Sünbülləri alaf kimi yolanlar.
Aman Allah, ayaq tutdu yalanlar,
Həqiqətin doğanağı pul olub…

**8.08.1997.Xəstəxana**

## EŞQ İLDIRIMI VURAN AĞAC

Bir ılıq nəfəsə təşnəyəm, acam,
Göz dağı olmuşam bir şux gəlinə.
Mən eşq ildırımı vuran ağacam,
Quruyub dönmüşəm qəm heykəlinə.

Necə yola verdin mənsiz ayları?
Könlü qırılmışa könül bağlama.
Dibimə gözündən sevgi çayları
Axsa da bitmərəm, daha ağlama!

**16.08.1997. Xəstəxana**

***

Əgər nəfəs dəysə açıla bilər,
Yol çəkir kösövün mürgülü gözü.
Bir təzə ocağın təməl daşıdı,
Sönməyə qoymayın sonuncu közü…

**30.09.1998**

# ZƏFƏR YOLU

## (Poema)

**416-cı Taqanroq atıcı diviziyası 1368-ci alayın komandirinin siyasi işlər üzrə keçmiş müavini, görkəmli dövlət xadimi, filosof əmim Mirağa Əliyevin əziz xatirəsinə.**

Gəldi xəyalıma alovlar, odlar,
Vulkana çevrildi ürəyimdə kin.
Günahsız körpələr, ərsiz arvadlar
Qanlı misrasıdır müharibənin…

Döyüş meydanıdır sanki masam da,
Eşitdim ellərin ahü-zarını.
Hərb "şeir yazanda" mən olmasam da,
Əzbərdən bilirəm yazdıqlarını:
Torpağa qarışan qanlar, cəsədlər,
Yaralı şəhərlər, yaralı kəndlər…

Davadır, göynədir bu söz sinəmi,
Fikirlər axışır od-alov kimi.
Masamın üstündə mən öz sinəmi
İrəli vermişəm Matrosov kimi…

Qəlbimdə alışır sönən mərmilər,
Ağrı yaş gətirib yaşımın üstə.
Nələrdən söz salır dinən mərmilər? –
Hələ də qorxu var başımız üstə…

Elin sinəsinə çəkildi min dağ,
Bu ağrı sümükdən iliyə keçdi…
Mən zəfər çalmışam otuz il qabaq,
Nə olsun ki, yaşım iyirmi beşdi…

***

Bitdi əfsanələr, bitdi nağıllar,
Sanki silkələndi torpağın altı.
Yığıldı bir yerə igid oğullar,
Dünyaya göz açdı 416…

Görəsən hardadır igid Koroğlu? –
Açım ürəyimi, deyim dərdimi.
Babəklər yetirən torpağın oğlu
Döyüşə girməkdən çəkinərdimi?

Otuzu noyabr, qırx ikinci il…
Gecə… Ürəklərin həyəcanları…
O gün yaddaşımdan silinən deyil,
Unutmaq olarmı heç o anları?!

Elə bil alovdur əsgər nəfəsi,
Darıxdıq, hücümlar başlasın barı!
İlk hucum, ilk "ura", ilk mərmi səsi,
Qarşıda alışan düşmən tankları…

Torpağın dərdini əsgərdən soruş,
Eh, ona tanışdır hər dərə, hər dik.
Vətən torpağını biz qarış-qarış
Azğın düşmənlərdən təmizləyirdik…

Əllərdə od saçan silah – avtomat,
Ürəkdə vətənə sonsuz məhəbbət…
İnsana bir dəfə verilir həyat,
Hamıda olurmu hünər, cəsarət?

Çətinlik istəyi sozalda bilmir,
Ürəkdə arzular hey gəlir dilə…
Ürəyin odunu azalda bilmir
Şimalın şaxtası, sazağı belə…

Qoruna-qoruna güllə selindən
İrəli gedirdi yenə dəstəmiz…
Müqəddəs torpağı düşmən əlindən
Alırdıq qurbanlar bahasına biz…

Yatma, vətən oğlu, ardımca tez gəl,
Amansız olana aman da yoxdur.
İrəli, irəli sözündən özgə
416-da komanda yoxdur!

Şir kimi atılaq düşmənə qarşı,
Saralsın çaqqalın bəti, bənizi…
Qırx ikinci ilin şaxtalı qışı,
Donubdur Don çayı, Azov dənizi…

Könül dünyamızda hava nə  xoşdur! –
Şaxta neyləyəcək bilmirəm bizə?!
Elə bil düşmən də çovğunlu qışdır,
Yaxın düşə bilmir ürəyimizə…

İgid öz işini qoymaz yarıda,
Çiçək gözləriylə güləcək bahar…
Əriyib axacaq buz qatları da,
Vətən torpağına gələcək bahar…

***

Buz üstə yol getdik Taqanroqacan,
Yağdı üstümüzə düşmən gülləsi…
Neçə dönməz igid yolda verdi can,
Eh, neçə nəğmənin kəsildi səsi…

Geriyə dönmədik ancaq bu yoldan,
Bizi qorxutmadı nə çovğun, nə qış…
Zərbəmiz düşməni salırdı haldan,
İrəli gedirdik biz qarış-qarış…

İtkilər artdıqca əzab da artır,
Kəsib qarşımızı neçə qarlı dik.
Düşmən – torpağımı saran buz qatı
Biz sanki günəşin şəfəqləriydik…

İnamım həmişə dadıma yetər,
İnamla döyüşsün gərək hər əsgər.
Vaxtı da qalmayır istirahətə,
Döyüşə-döyüşə dincəlir əsgər…

Gözümə neçə mərd insan görünür,
Neçə yaz, neçə qış olduq ərəsən…
"Döyüşdüm" söyləmək asan görünür,
Gərək o anları özün görəsən…

Qardaş, zəfər çalmaq çətinmiş necə!
Gərək qorxutmaya hər hədə səni.
Gərək o ağrılar sinəndən keçə,
Gərək o yaralar göynədə səni…

Tökülən qanımız getmədi hədər,
Sinəmiz ordenlə, medalla dolu…
Qafqaz dağlarından Berlinə qədər
Üç ilə yol saldıq, zəfərlər yolu!

Dinlə bu topların qorxunc səsini,
Qansızlar könlümü al qan edibdir.
Eh, neçə qəhrəman öz sinəsini
Vətənin önündə qalxan edibdir…

…Səhnələr gözümün önündən ötür,
Qəzetlər bu gündən qoparır məni.
Odlu bir cığıra dönür hər sətir,
Qanlı döyüşlərə aparır məni…

Düşmənin ilk oxu daşa toxunur,
Nəfəslər əridir qışın buzunu.
Silahlardan qopan ulduz axını
Söndürür düşmənin bəxt ulduzunu…

İrəli şığıyır 416,
Hər vətən oğlunda hünər görürəm!
Torpaqda nə qədər igidlər yatır,
Qan ilə yoğrulan zəfər görürəm…

Ağ günlər eşqiylə çırpınır ürək,
Pozur dincliyimi alçağın biri.
Düşmən səngərinə bir qumbara tək
Atılan görürəm bir komandiri…

Dinir pulemyotlar, dinir mərmilər,
Səngərdə ildırım çaxır elə bil…
İrəli şığıyır o ər oğlu ər,
Güllə də igiddən qorxur elə bil…

İşıq tək zülmətin durub qəsdinə,
Həmişə düşməndən zirək olubdur.
Ona güllə batmır, sanki üstünə
Vətən məhəbbəti zireh olubdur…

Nələr etmədiniz axı el üçün?!
Tökülən qanınız getmədi hədər.
Cəbhə xatirənə baxıram bu gün,
Özündən yazmırsan bircə kəlmə də…

Əlimdən qoymuram yerə qələmi,
Çağırış duyuram sənin səsində…
Şəklini veriblər, 43-də, əmi,
Qəzetin birinci səhifəsində…

Axı sən özün də qəhrəman idin,
Dillərdə nəğməyə dönmüşdü adın.
Özün zəfər çaldın, özgədən dedin,
O ağır günləri hey xatırladın…

Qəhrəman adınla hamı öyünür,
Qəzetlər, jurnallar səndən çox yazıb…
Analar, bacılar qələbə günü
Səni muştuluq tək bağrına basıb…

Vətən sürünməsin deyə sən o gün
İrəli süründün hey dizin-dizin…
Vuran ürəyiydin, görən gözüydün
O zaman min üç yüz altmış səkkizin…

Min dəfə sağ olsun bu torpaq özü,
Dünyaya sənin tək oğul gətirdi…
Hayana baxıram, qəhrəman sözü
Adının əbədi epitetidi…

Könlünün atəşi çətin ki, sönə
Elə bil yatdığın torpaq da dindi…
Güllələr önünə qoyulan sinə
Ordenlə, medalla bəzənib indi…

Anırıq keçmişi bir xəyal kimi,
Bu həsrət, bu itki bilmirəm nədir?
Müqəddəs qəbrin də bir medal kimi
Anamız torpağın sinəsindədir…

Ad var ki, igidlik rəmzinə dönər,
Bir qəhrəman kimi yaşamısan sən.
Hünərsiz oğuldan danışmaz “Hünər”,
“Hünər”də adını çəkdilər dünən…

Məlumat yığırlar nə vaxtdan bəri
Necə döyüşübdür bizim ordular?
Dünən də Xersonun pionerləri
Sənin ünvanını soruşurdular…

Mənim sevincimin hüdudu hanı? –
Ürək iftixarla alışdı, yandı…
Yazdım ki, əmimin yeri, ünvanı
İgidlər diyarı Azərbaycandı…

**9 may 1975**

# TƏMSİLLƏR VƏ SATİRİK ŞEİRLƏR

## QARĞA MƏHƏBBƏTİ

Qarğanın qulağına çatdı belə bir xəbər,
Rəis təyin ediblər Sağsağanı bu səhər.
Sağsağanın yanına tez uçub gəldi qarğa,
Nəvazişlə əyildi gah sola, gah da sağa.
Dedi: – Məhəbbətimdi məni bura gətirən,
Sağsağan, ey sevgilim, bil, səni sevirəm mən.
Çox keçmədi, Sağsağan çıxdı vəzifəsindən,
Qarğa dedi: – Heç zaman səni sevməmişəm mən…

**1966**

## ALA QARĞA

İclasda söz alıb
bir gün Saxsağan,
Bütün Qarğaları
tənqid eylədi.
Dedi ki, düzəlməz
bunlar heç zaman,
Onların mayası
riya, hiylədir.
Yerdən söz atdılar
elə bu zaman:
– Sarsaq,
bəs sən kimsən? –
Ala qarğasan!

## İŞ PLANI

İdarədə Çaqqalın
İşi yağ tək gedirdi.
Şirin iş planını
Tülkü təsdiq edirdi…

## İÇİ BOŞ OLMASA

Hər yana səs düşdü,
dəfin üstündə
Elə ki, çalğıçı
əlləri gəzdi.
Kimsə pıçıldadı
qulaqlarıma:
İçi dolu olsa,
səs eləməzdi…

**25.06.1973**

## QƏND VƏ ÇAY

Ətriylə, dadıyla
öyünürdü Çay:
–Yanğı söndürməkdə
varmı mənə tay?

Qənd dözə bilmədi:
– Dadlısan əgər
Niyə mənsiz içmir
səni bir nəfər?

**05.08.1974**

## XORUZLAR VƏ BEÇƏLƏR

Həmişə özlərini
Xoruz sanır beçələr.
Xoruzlar olmayanda
Xoruzlanır beçələr.

**21.02.1975**

## KAĞIZ

Qələm öz dərdlərini
pıçıldadı kağıza,
Kağızsa bir gün onu
saldı dil-ağıza…

**05.03.1975**

## CƏCİK

Cəcik hesabına
böyüyər meyvə,
Ağaclar dil açar:
–Hələ biz dəcik!
Meyvə yetişəndə,
meyvə dəyəndə
Gərəksiz şey kimi
atılar cəcik.

## SEL VƏ BULAQ

Yağış yağdı şıdırğı,
Sel öz yolunu azdı.
Bəyənmədi Bulağı,
Dedi: – Suyu çox azdı!

Yağış kəsdi, susdu Sel,
Göydən şəfəq yağırdı.
Bulağın şəffaf suyu
Əvvəlki tək axırdı…

**03.07.1975**
**Qubadlı**

## SARMAŞIQ

Sarmaşıq dırmanaraq
Bir gün lobya şaxına,
Dedi ki, əziz dostlar,
Bir az gəlin yaxına.

Bütün bağa, bostana
Yaraşığam, yaraşıq…
Nə qədər suvardılar,
Bar vermədi sarmaşıq…

**19.07.1975**
**Qubadlı**

## QUŞUN CAVABI

Günahsız quşcığazın
Qırılmışdı qanadı.
Kərtənkələ gülərək
Onu xeyli qınadı.

Dedi: – Nə sızlayırsan,
Nə var burda, ay dəli?
Mənim qanadım yoxdur,
Yaşamıram deməli?

Quş güldü:
– Heç zaman sən
Anlamazsan bu dərdi.
Uçmaqçın yaranmışa
Sənin kimi sürünmək
Ölümdən də betərdi…

**23.10.1975**

## BEÇƏ BƏYİN TOYUNDA

Təkəbbürlə əlini
Sinəsinə döyürdü.
Beçə bəyin toyunda
Xoruz sağlıq deyirdi:

–Özünə uğurlu yol
Seçənin sağlığına.
İçək iftixarımız
Beçənin sağlığına.

Baxın, ona yaraşır
Bu toy-büsat necə də! –
Sağlıqdan xoşallanıb
Xoruzlandı Beçə də…

Ayağa durdu Toyuq,
Dedi ki, gedir ərə,
Gözümüzün işığı,
Əzizimiz Çil Fərə.

Xoruzun sağlığına
Mənim bir əlavəm var:
Fərə xanım, Beçə bəy
Qoy qoşa qarısınlar!

Bir toyuq rəqsi çalın,
Biz də əl vuraq gəlin,
Hamı kənara dursun,
Oynasın bəylə gəlin…

Beçə ağzını büzdü,
Deyilik kəndçi, kündçü.
Bir Qarğa rəqsi çalın
Mümkünsə bizim üçün.

Çalğıçılar qızışdı,
Meydana girdi beçə.
Səs-küydən bilmirdi ki,
Neyləsin toyuq-cücə.

Göyərçin Hinduşqayla
Gəlib çıxdı bir azdan.
Zorla şabaş aldılar
Burda Ördəkdən, Qazdan.

Biçarə Alabaxta
Təzə almışdı maaş.
Son qəpiyinə qədər
Beçəyə verdi şabaş.

Toy qurtardı, qonaqlar
Evə döndü naəlac.
O ay Alabaxtanın
Balaları qaldı ac…

**31.10.1975**

## ODUN VƏ ÇIRPI

Çırpı öyündü:
–Mən tez yanıram,
Odundan əvvəl
Alovlanıram.

O hey danışdı,
Dinmədi Odun.
Dedilər girək
İçinə odun.

Elə o saat
Çırpı od aldı.
Odun gec yandı,
Közləri qaldı.

Lovğa Çırpının
Közü qalmadı.
Daha deməyə
Sözü qalmadı…

**11.07.1976**
**Qubadlı**

## ARI VƏ KƏPƏNƏK

Nə vaxtdandır kəpənək
Yana-yana qalıbdır.
Söyləyir ki, bu arı
Çiçəklərin balını
Daşıyıb ad alıbdır.

Çəmənlərə baxın bir,
Elə bil ki, xalıdır.
Arıda bal nə gəzir,
Bal güllərin balıdır…

Dedilər ki, kişinin
Zəhmətini danırsan.
Gül-çiçəyin üstünə
Sən ondan çox qonursan.

Arı güldən bal çəkir,
Yoxdur bunun yalanı.
Ay kəpənək, bəs sənin
Düzəltdiyin bal hanı?!

**16.01.1977**

## İKİ QANCIQ

Haray-həşir qopdu birdən
Qarşıdakı təpə üstə. –
İki qancıq boğuşurdu
Bir heyvərə köpək üstə…

**15.01.1977**

## İKİ KÜÇÜK

Məqsədləri, istəkləri,
Niyyətləri bir idi.
İki küçük həvirləşib,
Boğdu yekə bir iti.

**03.08.1977**

**QURD VƏ QOYUN**

Qurd görəndə sürüdən
Ayrı düşən Qoyunu,
Dedi: –İndicə onun
Tutacağam toyunu.

Gülüb, şirin dilini
O saat saldı işə:
–Qoyun bacı, bilirsən,
Çaqqalsız olmaz meşə.

Deyirlər ki, Canavar
Kül üfürüb gözlərə,
Qoyunları öldürür, –
İnanma bu sözlərə.

Bilirsən, qurdların da
Yaxşısı var, pisi var.
"Bir dana bir naxırın
Ad-sanını batırar"…

Qulağını bəri əy,
Gizli sözüm var sənə.
Birdən düşmən eşidər,
Hoqqa düzəldər yenə.

Qoyun bərk sevinirdi,
Özünə dost tapmışdı.
Yaxın gəlcək Qurd onun
Boğazından yapışdı.

Qoyun dedi: –İncidir,
Dost, zarafatı burax!
–Axı Qurdla Qoyunun
Nə dostluğu, ay axmaq?!

Qoyun içini çəkdi:
–Mənə nə etsən, azdı.
Əgər ağlım olsaydı,
Adım Qoyun olmazdı…

**05.03.1977**

## TISBAĞANIN HƏDƏSİ

Tülkü, Çaqqal, Tısbağa,
Yığıldılar bir bağa.
Çaqqal dedi: – Ay Bağa,
Öldük axı acından.
Tez gedib yemək alsan,
Biz çıxarıq borcundan.
Tısbağa razılaşdı,
Sonra yola düzəldi.
Tülküylə Çaqqal bağda
Onu durub gözlədi.
Keçdi iki-üç saat,
Gəlib çıxmadı bağa.
Tülkü hey sümsünərək
Baxırdı sola, sağa.
Söydülər Tısbağaya:
–Ay filan oğlu filan!
Onların yanındakı
Kol tərpəndi bu zaman.
–Niyə məni söyürsüz? –
Tısbağa verdi sual.
Yoxsa yemək dalınca
Getmərəm ha, ay Çaqqal!

**23.03.1977**

## İKİ HƏPƏND

Sısqa sular kimi
Araq selindən
coşdular.
Əvvəl qədəhləri
toqquşdurdular,
Sonra özləri
toqquşdular…

## SƏRXOŞUN ARIYA MƏSLƏHƏTİ

Bəsdir şirə yığdığın
Gül-çiçəkdən,
yarpaqdan.
Sənin yerinə olsam,
Bal çəkərdim
araqdan…

**16.01.1977**

## İCLASBAZ

**V.Mayakovskiyə**

Dedilər ona:
–Belə yaramaz,
Lap təngə gəldik,
Gündə bir iclas…

Tərk edək gəlin
Bu iclasları,
Tərgidək gəlin
Bu iclasları.

Dedi iclasbaz:
–Razıyam, ancaq
Səsə qoymaqçın
Bu məsələni
İclas çağıraq…

**20.02.1973**

## ARAVURAN

Üzdə günahsızdır bir mələk kimi,
Daldada şişirdər hər adi sözü.
Vurar bir-birinə bütün aləmi,
Çəkilib kənarda dayanar özü.

**19.07.1974**
**Qubadlı**

## QƏZET KÖŞKÜ ÖNÜNDƏ

Gör nə qədər növbə var,
Görəsən nə satırlar?
Baxıb gördü qəzetdi,
Kişi uğundu getdi:

–Neyləyirlər qəzeti? –
Düzü baş açmıram mən.
Bizdə bir top qəzet var,
İşlənmir keçən ildən…

**10.12.1973**

## SƏRXOŞUN ARAĞA SÖZU

Süfrədə hər şey bütöv,
Dost, bircə sən yarımsan.
Kim nə deyir qoy desin,
Sən ki, mənim yarımsan!

**27.09.1975**

## BUYNUZLU DƏLİ

Azman bir
dayı kölgəsində
yatardı,
Yetdiyinə yetər,
Yetmədiyinə
daş atardı.
Onun əlindən
qonşular bezar idi. –
Dəlinin buynuzu
olmaz deyiblər,–
Bunun buynuzu da
var idi…

**09.03.1975**

## BİR NƏFƏRƏ

Mən bir dəri, bir sümüyəm,
Dağ gövdəli "igiddi"…
O yaxşıca içən idi,
Ancaq bir gün tərgitdi.

O nadanın tənəsinə
Oğulsan döz.
Ona araq təsir edir,
Mənasə söz…

**22.06.1975**

## BU GİCBƏSƏR

Bircə ilin içindəcə
Batıb zərə bu gicbəsər.
Qocaları, cavanları
Salıb şərə bu gicbəsər.

Alıb səpir sağa, sola,
"Uğur ola! Uğur ola!"
Ar eləmir, bir xaxola
Gedib ərə bu gicbəsər.

Naz eləyir lata, lütə,
Mələk donlu bu ifritə.
Elə bil ki, dönüb itə
Hürə-hürə bu gicbəsər.

Vətən üçün yanar çətin,
Muğamatı qanar çətin.
Millətini danıb bütün
Birdən-birə bu gicbəsər.

Anlamaq olmur sözünü,
Pudralayır üz-gözünü,
Qoca toyuqdur, özünü
Sanır fərə bu gicbəsər.

Nələr qazanır bir günə,
Gözəl söyləyir çirkinə.
Axır sənin də kürkünə
Düşər birə, ay gicbəsər.

**13.08.1975**

## XORUZ

Soruşursunuz ki,
nə üçün səhər-səhər
banlayıram?
Səhər mənsiz də
açıla bilər,
bunu anlayıram.
Unutmayın ki,
xoruz toyuqların əri,
cücələrin atasıdır…
Quqquluqu
toyuq dilincə
qalx komandasıdır…

**26.11.1975**

## İNDİNİN XORUZLARI

İndinin xoruzları
Cılızlaşıb nə qədər,
Banlayır axşam, səhər.
Ancaq öz aramızdır,
Günah onlarda deyil,
İndiki gecələr də
Gündüz olub elə bil…

**27.11.1975**

## BİR İLİN İÇİNDƏ

Bir qoca var idi,
cavan qız aldı,
Özü cavanlaşdı,
qadın qocaldı…

**18.12.1975**

## BİR ŞORGÖZƏ

Üz-üzəsən bir alagöz,
könül yaxan dul ilə,
Gözlərindən odlu-odlu yaş axır.
İki dağın arasından
enib gedən yol ilə
Enib gedir sənin həris
baxışların aşağı.
Nə yaxşı ki, sərhədçi tək
kəsir sənin yolunu,
Onun zərif əndamını
qucaqlayan qurşağı…

## ALTDAN-ALTDAN

O yan, bu yana yortdu,
Dövləti, varı artdı.
Pendir adıyla satdı
Qurudu altdan-altdan.

Qızdı, azdı yolunu,
Görmədi sağ-solunu.
Vicdan satıb, pulunu
Qorudu altdan-altdan.

Cadı lavaş yerinə,
Darını maş yerinə,
Bezi qumaş yerinə
Sırıdı altdan-altdan.

Namus, qeyrət talandı,
Görmürsən nə kalandı?
Quyruğu tapdalandı,
Qıvrıldı altdan-altdan.

Görünəndə gözümə,
Zəhər qatdım sözümə.
Hırıldadı üzümə,
Qovruldu altdan-altdan…

**12.01.1977**

***

Könlündən alimlik keçir,
Saya bilmir üçə kimi.
Özünü çəkir hər yerdə
Beş şahılıq beçə kimi…

**15.02.1977**

## BİR REDAKTORA

Hərdən yağlı tikələri
Özü üçün çəkə bilir.
Hər misranı bir şiş sanır,
Hər sözü bir tikə bilir…

**21.04.1977**

## ZARAFATYANA

Ceyran südü selə döndü,
Dəyirmanlar düşdü işə.
Şişdən çəkib tikələri
İsti-isti çəkdik dişə,
Rəhimağalı kəndində.

Az gəlməyib başımıza,
Axı biz də əhli-halıq.
Pozulmaz andlar pozuldu,
Qoltuqda qayıtdı balıq
Rəhimağalı kəndindən.

Toxundu kəllə-kəlləyə
Neçə qədəh cingildədi.
Birdən girdik toyxanaya,
Dingir-dingir dingildədik
Rəhimağalı kəndində.

Getmədiyim yer qalmadı,
Dərilməmiş nar qalmadı.
Sevilməmiş yar qalmadı
Rəhimağalı kəndində…

**Ağsu, 1979**

## BİR İLDƏ SÜRDÜYÜM KEFLƏR

(Zarafat)

Ay olur ki, dincəlirik
Qadınların hesabına.
Nə söyləyim heç bilmirəm
Mən onların insafına?

Hünərin var hədiyyə tap,
Hünərin var bir azləngi.
Səkkizi mart körpüsündə
Dayanıbdır Ərəbzəngi.

Dediyini eləməsən,
Tapança tək açılacaq.
Bir ildə sürdüyüm keflər
Bircə gündə puç olacaq…

**02.03.1980**

## TƏRPƏNMƏRƏM

Bəzi sürücülərin dilindən

Tələsməsin hər kimin ağlı varsa başında,
Mənim tək səbri olmaz torpağın da, daşın da.
Batdı sakit adamlar, yatacaq bu maşında,
Məndən də həyasızı olmasa, tərpənmərəm,
Müştərilər hay-haray salmasa, tərpənmərəm.

Basabasdı, neyləyim, götürməzdin "veş", bacım,
Adamların çiynindən iməkləyib keç, bacım.
Dal qapını açmaram, gəl qabağa düş, bacım,
Bircə nəfər də bilet almasa, tərpənmərəm,
Müştərilər hay-haray salmasa, tərpənmərəm.

Oğulların içində varmı mənə tay, kişi?
Neyləyim gecikirsən, salma hay-haray, kişi.
Cibim dolub kassaya, nə borcuna, ay kişi,
Dönməsə qara qəpik almasa, tərpənmərəm,
Müştərilər hay-haray salmasa, tərpənmərəm.

Yağış yağır gör necə, sən küçədə bax suya,
Sel-su olmasa axı işlərimiz axsıyar?!
Kim tələsir, ay bacı, düşüb minsin taksiyə,
Ağzınacan avtobus dolmasa, tərpənmərəm,
Müştərilər hay-haray salmasa, tərpənmərəm.

**27.09.1974**

## MƏNƏ NƏ

Özü yanmırsa əgər çarə tapılmaz sönənə,
Yanmayır peçləriniz? – Gözlərim aydın, mənə nə?!

Ev soyuqdursa əgər çarəsi var, çıx eşiyə,
Qıymayırsız nə üçün, ay dayı, yorğan-döşəyə?
Nə şikayətdir axı, dost, kişi də heç üşüyər?
Özü yanmırsa əgər çarə tapılmaz sönənə,
Yanmayır peçləriniz? – Gözlərim aydın, mənə nə?!

Uşağın xəstələnib? – Mən həkiməmmi, a xala?
Məndə vicdan nə gəzir körpələrə rəhmim ola?
Səndən əvvəl yüzü gəldi, lələşin saldı yola.
Bacı bəsdir, bu qədər zəhməti verdin çənənə,
Yanmayır peçləriniz? – Gözlərim aydın, mənə nə?!

Neyləyim ki, eviniz hey soyuyub döndü buza,
O karandaş, o kağız, başlayın hey yazhayaza.
Siz alınca cavabı qış da dönər güllü yaza,
İsinər evləriniz, qorxma soyuqdan, a nənə,
Yanmayır peçləriniz? – Gözlərim aydın, mənə nə?!

**1976, noyabr**

## ƏLLİLİYİM, YÜZLÜYÜM

Yuxum qaçıb, yatmamışam heç gecə,
Varlığımı sarıb qorxu, vicvicə.
Lüt oğlu lüt şax yeriyir gör necə? –
Əbəs imiş ona ağız büzdüyüm,
Əldən çıxdı əlliliyim, yüzlüyüm…

Kasıbları astanadan qovurdum,
Bu dərd mənim ürəyimi qovurdu.
Tufan gəldi, sizi göyə sovurdu…
Əllərimi birdəfəlik üzdüyüm –
Palazqulaq əlliliyim, yüzlüyüm.

Olmamışdı heç bu qədər yandığım,
Yetər daha özümü şah sandığım,
Hərdən açıb çomadanı, sandığı
Dəstəsini heyran-heyran süzdüyüm –
Əldən çıxan əlliliyim, yüzlüyüm…

20 Yanvar tərpətmədi telimi,
23 yanvar qırdı mənim belimi.
Gözləmirdim heç bu qəfil ölümü…
Ütüləyib səliqəylə düzdüyüm,
Qalaq-qalaq əlliliyim, yüzlüyüm…

Görməmişdim ürək didən güvəni,
Siz batdınız, indi kimə güvənim?!
Arzum budur olasınız kəfənim,
Bəsdi daha bu zillətə dözdüyüm,
Mənim xəzəl əlliliyim, yüzlüyüm,
Mənim gözəl əlliliyim, yüzlüyüm…

**25.01.1991**

# BAMƏZƏ XATİRƏLƏR

## MƏŞƏDİ MURAD

**“Bibimin xatirə boğçası”ndan**

Uzun boylu imiş bizim Məşədi,
Məzəsi boyundan uzunmuş hələ.
Yenə bir gün ondan bibim döşədi,
Mən də qələmimi götürdüm ələ.

***

Bizim tərəflərdə hər yan meşədi,
Meşə kənarında bir dəyirman var.
Dəyirmançı imiş bir vaxt Məşədi,
Yanına gələrmiş çoxlu adamlar.

Deyirlər bir dəfə bir cüvəllağı
Deyib oğurlaram Məşədidən un.
Ancaq baş tutmayıb bu fırıldağı,
Qulaq as danışım, gülməkdən uğun…

Kişinin atını açıb buraxıb,
Qışqırıb: – At getdi, kişi, durma, qaç!
Məşədi oğlanın üzünə baxıb,
Deyib ki, ay bala, əllərini aç!

Un ilə doldurub onun ovcunu,
Sonra da üstündən çəkib bir cızıq.
Qorxub ki, tərpənsə dağıtsın unu,
Məşədi gəlincə düz durub yazıq…

***

Səfərdən dönəndə qalır gecəyə,
Bir sünnü kəndinə o gəlib çıxır.
–Sünnüsən, şiyəsən?
Deyib ki, şiyə. –
Görüb hamı ona çəpəki baxır.

Kəndin kənarında görür bir ev var,
Deyir: – Qəbul edin Allah qonağı.
Göz-gözü görməyir, həm də yağır qar,
İnsafınız olsun, donuram axı?!

Bu dəm qonaq gəlir Hafiz əfəndi,
Ona sual verib gedir fikirə.
Biçarə Məşədi neyləsin indi? –
Yazığın kürkünə darışır birə.

Paxırı açılır namaz qılanda,
Yatanda altına salırlar çapıd.
Ac qarın qəribə bir fit çalanda,
Xeyri yox, yenə də özünü tox tut.

Yumşaq döşək üstdə, sən işə bax bir
Gedib xorultuya Hafiz əfəndi.
Onunsa yerinə qor dolub, bilmir
Bu mərdiməzarla neyləsin indi?!

Hafiz əfəndinin bel dolağını
Evin gəlininin yerinə atır.
Əvvəlcə seyr edib o, sol-sağını
Yuxulu gəlini yerindən dartır.

Sonra öz yerinə girir xəlvətcə,
Gəlin haray salır, düşür hay-həşir.
Əfəndi möhkəmcə döyülür gecə,
Məşədi kənardan baxıb irişir…

***

Novruz bayramında bir adət imiş
Qadından bəy seçib məzə çıxartmaq.
Bəydən asılıymış həmin gün hər iş,
Taxtda əyləşərmiş əlində çomaq.

Arvadlar hər kəsdən etsə şikayət,
Onun hüzuruna gətirərmişlər.
Günahı olmasa verərmiş xələt,
Günahın ki, oldu, korlandı işlər.

Bəyin hüzurunda durub Məşədi,
Hər yandan ortaya şikayət yağır.
Qorxudan boynunu burub Məşədi,
Deyəsən cəzası olacaq ağır.

Asılsın! – Deyirlər keçmədən bir az,
Bir məsləhət verir ağaya hərə.
Oğulsan ağacdan Məşədini as,
Bir şərtlə, ayağı dəyməsin yerə.

Ay qızlar, ay qızlar, məni buraxın,
Bəyə bir sözüm var, – xoş dil açır o.
Sonra "təxti-taca" gələrək yaxın,
Bəyi marçhamarçla öpüb qaçır o.

Kənardan qışqırır: – Ay bəy, incimə,
Bayram öpüşünün öz ləzzəti var.
Arvadlar başlayır yenə him-cimə,
Tutun! – Məşədini tutmaqmı olar?!

***

Dinclik də yox imiş obaya, elə,
Ən adicə iş də bir savaş imiş.
Deyirlər yadelli torpağı ilə
Sərhəd tarladakı böyük daş imiş.

Gecələr Məşədi durub yuxudan
Daşı o tərəfə yomalayarmış.
Hər dəfə qayaya güc vuran zaman
Torpağı artarmış on-on beş qarış.

Yerin sahibləri gələrək dilə
Heyrətlə baxarmış biri-birinə.
Beş-altı yadelli güc-bəla ilə
Daşı qaytararmış köhnə yerinə.

Yola qoymaq üçün davalı işi
Bir gün xaçpərəstlər deyiblər ona.
Əgər sənindisə bu torpaq, kişi,
And iç Yaradana, and iç Qurana.

Birbaş evlərinə yollanır Murad,
Bu saat Quranı gətirim deyə.
Ay kişi Quranla olmaz zarafat, –
Deyərək arvadı əl açır göyə.

Fəqət Məşədinin qərarı qəti,
Heyrət götürübdür yazıq qarını.
Əri əlləriylə eşib həyəti
Torpaqla doldurur çarıqlarını.

Quranı götürüb qayıdır birbaş,
Yalan söyləyənə Quran qənimdir.
Deyir: – Bu Qurana and olsun, qardaş,
Üstündə durduğum torpaq mənimdir.

Özgə bu torpaqdan götürməz xeyir,
Hamı çaşıb qalır, mənzərəyə bax.
Şərt qoyan xaçpərəst naəlac deyir:
Ay kivrə, bağışla, səninmiş torpaq…

**29.06.1973**

## MƏCİD KİŞİ

O verdi qoltuğuma qulpu sınıq bardağı,
Göstərdi uzaqdakı paqqıldayan bulağı.
Dedi ki, tez ol görüm, nə durmusan, a tənbəl,
Tez apar bu bardağı doldur, bulaqda qoy gəl.
Anlamadım onu mən ağıl olmaz uşaqda,
Mən doldurub bardağı qoyub gəldim bulaqda.
Acıqlandı üstümə, dedi: – A fərasətsiz,
Dodağımız çatlayıb, susuz qalaq indi biz?!
Mən qayıdıb bulaqdan gətirəndə bardağı,
Gördüm Məcid kişinin azca qaçdı dodağı…

**28.12.1977**

# MƏMİŞİN MƏHƏBBƏTİ HAQQINDA “BALLADA”

## Zarafat

Evlənmək istəyirdi Məmiş otuz yaşında,
Dedilər ki, bir qız var bu namda, bu nişanda.
İstəyirsənsə əgər görüş düzəldək sizə,
Qızı razı salarsan özün başlayıb sözə.
Məmiş ilə o qızı tək qoydular otaqda,
Yazıq qız neyləyəydi, yoruldu oturmaqdan.
Gördü daşdan səs çıxır, haray yoxdu Məmişdən,
Süpürgəni götürdü  əlinə o “gülbədən”.
Başladı süpürməyə, öz-özünə döz, – dedi.
Məmiş gəldi qeyrətə, qıza “qızıl söz” dedi:
–Ürəyimin dərdini sənə necə deyim, az?
Nə qəşəng süpürürsən, süpürgəni yeyim, az!
–Əlimdəki köhnədi, təzəsi var örüşdə…
Bir şey başa düşmədi Məmiş heç bu görüşdən.
Qız qapını göstərdi, Məmiş yola düzəldi.
Soruşdular: –Nə xəbər?
Məmiş dedi: –Düzəldi…
Düşündü, qız arifdi, dərdlərimdən halıdı,
Doşab aldım bal çıxdı, bir gör nə həyalıdı?!
O məni sevməsəydi, qızarmazdı pul kimi,
Həvəslənib açıldı Məmiş qızılgül kimi.
Məhəbbət Məcnun kimi o gənci saldı dağa,
Getdi sevgilisinətəzə süpürgə yığa…

**02.01.1977**

## AĞ YOXUŞ

Ayrıldı kəndlərindən, on il qaldı şəhərdə,
Dədə-baba yurduna gələrdi hərdən-hərdən.
Eyninə almazdı heç nə qarı, nə yağışı,
Qalxırdı birnəfəsəŞərif bu Ağ yoxuşu.
Ağ yoxuşun başında gəncliyi, uşaqlığı,
Ağ yoxuşun başında doğmalar yığın-yığın.
Avtobusdan düşən tək üz tutdu dağ yoxuşa,
Şəhərdən gələn kişi dırmandı Ağ yoxuşa.
Yolun tən yarısında oturdu dincin ala.
Gileyləndi: – Ağ yoxuş əcəb ucalıb, balam!
Girdi xatirələrin geniş, isti qoynuna,
Şərif qocalığını götürmədi boynuna…

**11.01.1977**

## DANIŞQAN

Nəzər kişi danışanda
verməzmiş sözünə ara,
Bir evə qonaq gəldimi,
verərmiş özünü ora.

Kəndə dönürmüş rayondan
bir gün Nəzər pay-piyada,
Katibin maşını gəlib
ona çatır yarı yolda.

Saxladıb maşını katib
deyir: – Əyləş, Nəzər kişi.
Nəzər o qədər danışır,
belə görcək katib işi

Deyir ona: – Ay ağsaqqal,
bir söz deyim, ancaq küsmə!
Sən canın, al bu onluğu,
kəndə qədər kəlmə kəsmə!

Kişi alıb on manatı
söhbətinə verir ara,
Katib dalır düşüncəyə,
fikri gedir uzaqlara.

Birdən dilə gəlir Nəzər
ölçə-ölçə əl-qolunu.
Susmaqdan bağrım çatladı,
qardaş, geri al pulunu!..

**21.01.1982**

## PALTO

Qonşumuzun əynində
Təptəzə palto gördüm,
Qəşəng idi, kişiyə
Gözaydınlığı verdim.

Dedim: – Palton mübarək!
Tərs-tərs baxdı üzümə,
Susdu, cavab vermədi
Ancaq mənim sözümə.

"Heyvagülü" çalındı,
Toyxanaya girdik biz.
Əynində təzə palto
Rəqs elədi kəndçimiz.

Kişinin geyimini
Heyranlıqla süzüb mən,
Bilmirəm necə oldu,
Dedim ona yenidən:

– Yaxşı paltodur, ancaq
Bir az uzundur sənə.
Aparıb ayağını
Bir azca kəsdirsənə!

O, rəng verib rəng aldı,
Yaman pörtdü, qızardı.
Dodağını gəmirib
Üstümə bərk bozardı:

– Ay rəhmətliyin oğlu,
Sözün yoxdu deyəsi?
Qoyar onu kəsdirim
Heç paltonun yiyəsi?!

**06.03.1991**

## "Arzular kəhkəşanı" kitabından:

### ÖTƏN GÜNLƏRDƏN YADİGAR NƏĞMƏLƏR

#### ÖZÜMLƏ SÖHBƏT

O kimdir ağlayır hey için-için? –
Sil bircə ürəkdən dərdi, qübarı.
Sözün gərəksizsə insanlar üçün,
Özün insanlara gərək ol barı!

Bircə büdrəyənin qolundan yapış,
Bir qəlbisınığa ver ürək-dirək.
Çıx evdən, hamıya qaynayıb qarış,
Şair el içində yaşasın gərək.

Müqəddəs bir işin get arxasınca,
Hörmətlə çəksinlər sənin adını.
Çağlayan sulardan şeir yazınca,
Su ver, bir təşnənin söndür odunu.

Gərəksiz sözlərdən bezibdir masa,
Niyə keçirirsən ömrünü hədər?!
Palaz şeirlərin, eh, heç olmasa
Faydası olaydı bir palaz qədər.

Başını axşamdan qoyma balınca,
Dad gözəl dünyanın yüz nemətini.
Masa arxasında işsiz qalınca,
Get oxu həyatın şeiriyyətini.

Sənətkara alqış, sənətə alqış! –
Yazma söyləmirəm, qüdrətinə bax!
Əgər öləcəksə qırxı çıxmamış,
Gəlməsə yaxşıdı dünyaya uşaq…

**15.06.1974**

## VƏRƏQLƏR ÜSTÜNDƏ

Ürəyim dolubdur, ancaq bilmirəm
Xəlvətcə bir guşə tapım haradan?
Dərdimi yazmağa tələsir qələm,
Neyləsin səs-küydə yazıb-yaradan?

Elə bil ürəyim dil açıb deyir:
Mövzular başına, dost, qəhət deyil.
Batıra bilmirsə sözün səs-küyü,
Heç onu yazmaq da məsləhət deyil.

Şirin xatirələr dönər gileyə,
Vərəqlər üstündə çatılar qaşım.
İlham pərisini eşidim deyə
Dalar səssizliyə ömür yoldaşım.

Qəlbimdə alışan kəlmələr bəzən
Kağızın üstünə enməmiş sönər.
Vərəqlər üstündə yol gedərəm mən,
Hər misra bir təzə cığıra dönər.

Sözdən bağlayanda ətirli boğça,
Əlimi zəhmətin alovu qarsar.
Zəif misraları cızıqladıqca,
Açdığım cığırı sanki ot basar.

Bəzən bir zəhərli gülləyə dönüb,
Xəbis ürəkləri dəlib çıxaram.
İki sevən gəncin peyman etdiyi
Hicra bir guşəyə gəlib çıxaram.

Hərdənbir tarlaya, hərdən zavoda
Zəhmətkeş əlləri gedib sıxaram.
Siqaret tüstüsü dönər buluda,
Bəzən meyxanaya gedib çıxaram.

Bəzən qocaların söz məclisinə
Gedib, hikmət dolu sözlər yığaram.
Üşümüş inamım bir az isinər,
Yenə ürəklənib yola çıxaram.

Haraya getmədim mən bu həyatda? –
Bəzən toyxanaya, bəzən də yasa.
Mənasız olardı bəlkə həyat da
Kədər, qəm sevinclə əkiz olmasa.

Fikrimi dağıdar cahilin biri,
Qəzəbdən saçlarım gümüşü olar.
Şeirimə həyatın addım səsləri,
Bir də körpələrin gülüşü dolar.

Gedirəm, arabir silib tərimi
Getdikcə önümdə yollar açılar.
Qucaqlamaq üçün ilham pərimi
Hər yandan həsrətli qollar açılar…

**30.04.1973**

## İMZAM

Bəzi şeirə hörmət
İmzaya görə.
Bəzi imzaya hörmət
Şeirə görə.
Hansı yaxşıdı
Söylə görək?!
Heç nə söndürə bilməz
Qəlbimdəki həvəsi.
Ya Yusifin oğlu deyin,
Ya Seyidəlinin nəvəsi.
Elə həminki Rafiqəm,
Həmin ürək, həmin qələm.
Qoy ən ağır zəhmət gözə durmasın,
Ürəkdə qalmasın bir arzu, bir kam.
İmzamın çiynində şeirim durmasın,
Şeirimin çiynində dayansın imzam…

**13.05.1973**

***

Demirəm o qadın dünyada təkdir,
Nə olsun ki, məni anam doğubdur?!
Övlad gələcəyə inam deməkdir,
Analar övlad yox, inam doğubdur.

Az-çox tanınmağım, adıma hörmət
Ellərdən aldığım ən xoş ənamdır.
Mən belə deyərdim edib cəsarət,
Rafiq Yusifoğlu – Rafiq İnamdır…

**15.04.1973**

## MƏNƏ ELƏ GƏLİR

Sözlərim onları titrədə bilmir,
Nə deyir o ötən çağlar sükutla?
Dinləyir sözümü eh, neçə ildir
Dərələr sükutla, dağlar sükutla.

Həm arzu, həm də ki, bir inamdı bu,
Mən şeir deyəndə ən gur səslərin
Tonu da bir anda alçalmalıdır.
Dilsiz qayalar da pozub sükutu
Haçansa bir dəfə əl çalmalıdır…

**26.06.1973**

## İNAMIN GÜCÜNƏ

Qızlar söz deyəndə biri-birinə,
İşıqlı kəlmələr qanıma hopar.
Baxışlar dəyəndə biri-birinə,
Həsrətli gözlərdən qığılcım qopar.

Çırpınan ürəyim az qalır uça,
Ellərə səadət daşıyırammən.
Dönsəm də ildırım vuran ağaca
İnamın gücünə yaşayırammən…

**08.08.1974**

***

Pozulubdur yaşıdların sırası,
Harda qalıb o saçların qarası?
Dönməzlərin, igidlərin içindən
Oğul gərək oğulları arasın.

Qurub-tikən qadir əlim olubdur,
Nəğmə deyən azad dilim olubdur.
O, codların codu idi bir zaman,
Baş açmıram, niyə həlim olubdur?

Yağacağam, qara bulud kimiyəm,
Biçən gərək, bol məhsullu zəmiyəm.
Mən sahildə dayansam da, elə bil
Dalğaların qucağında gəmiyəm…

**10.08.1974**

***

Sözlərim kimisə gətirib dilə,
Bir az da gözünə tərif qatıblar.
Yenə maraq dolu bir məktub ilə
Mənim ünvanıma qarmaq atıblar.

“Qaynar gözlərimin işığı sönüb,
Möhtacdır bəlkə də o, qələminə.
Sənin şeirlərin mizraba dönüb,
Toxunub könlümün sarı siminə.

Gözümün işığı zəif olsa da,
Ayıra bilirəm yaxşını, pisi.
Məni avam bilmə, salıram yada
Babam Cavanşiri, nənəm Tomrisi.

Vədəsiz ensə də tor gözlərimə,
Yəqin ki, görərəm üzümə gülsən.
Vallah, işıq gələr kor gözlərimə
Əgər zəhmət çəkib evimə gəlsən.

Al, bu da ünvanım, ancaq itirmə,
Qədəm bas evimə yaxın dost kimi.
Sən Allah, sözümə pis məna vermə,
Açmaq istəyirəm sənə dərdimi."

O, imdad istəyir, axı mən kiməm?
Şairəm, ürəyim tutulub yasa.
Elə çağırır ki, guya həkiməm,
Ölüm yatağında xəstədir osa.

Məndən nə istəyir o bədbəxt ana?
Görəsən cavandır, yoxsa qocadır?
Gedim, ya getməyim həmin ünvana? –
Fikirlər başımda haça-haçadır.

Şübhələr könlümü çəkir min yerə,
Bu gecə gözümdən qaçıbdır yuxu.
Qorxuram gördüyüm ayrı mənzərə
Poza qəlbimdəki bu məsumluğu.

Məni qoysalar da lağa, loğaza,
Nə həvəs, nə də ki, maraq əskilər.
Versin bütün şəhər ağız-ağıza –
Filankəs gedibdir filankəsgilə.

Narahat qəlbimdən bir ağrı qopub,
Kədər var insanın gülüşündə də.
Şair şeir tapıb, gözəllik tabıb,
İraq, üzdən iraq, it leşində də…

Sözlərim kimisə gətirib dilə,
Bir az da gözünə tərif qatıblar.
Yenə maraq dolu bir məktub ilə
Mənim ünvanıma qarmaq atıblar…

**14.02.1974**

## QARADAĞ

Yurdumdakı yüksəlişi görəndə
Ayaq tutub yeriyibdir Qaradağ.
Kərpic-kərpic ucaldıqca ağ evlər,
Kərpic-kərpic əriyibdir Qaradağ.

Tər axıtdıq, əzab çəkdik neçə il,
Şəhər etdik neçə kəndi, qardaşım.
Hər mərtəbə bir misradır elə bil,
Hər bina bir şeir bəndi, qardaşım!

İşlərimiz axıb gedir yağ kimi,
Yağış olub səhralara yağ, ay dost.
Şairsənsə, sən də Qaradağ kimi
Əriyərək vərəqlərə ax, ay dost!

**05.12.1974**

***

Şirin hesab elə hər vaxt acını,
Tənqiddən qorxmağın
nə mənası var?
El-aləm bilir ki, bar ağacını
Meyvəsinə görə yoluşdurarlar…

**03.06.1973**

## KİŞİLİK

Düzü, qəribədir, gördüm yuxumda,
Biri kişilikdən dəm vurur yaman.
Bir anda gözümdən qaçdı yuxum da,
Yaxşı ki, ayıldım elə bu zaman.

Gördüm ki, fikirlər könlümü didir,
Götür-qoy elədim azı neçə yol.
Düşündüm, görəsən kişilik nədir? –
Nə gözəl deyiblər: "Ac ol, kişi ol!"

Kişinin nəfəsi dağı əridir,
Kişilik insanın olur canında.
Kişi tanıyıram, ərlər əridir,
Kişi var kişidir arvad yanında.

Xəyanət – kişinin sinəsinə ox,
Kişi həqiqət tək düz olmalıdır.
Kişilər təkcə öz namusuna yox,
Bütün namuslara göz olmalıdır.

Qeyrət kişi üçün ən ağır yükdür,
Hər işdən kişilik işi duyulmaz.
Kişilik mərdlikdir, mərdanəlikdir,
Hər başı papaqlı kişi sayılmaz.

Yaxşı əməllərə həmişə göz dik,
Kişilik ürəyə köz salmamaqdır.
Deyirəm bəlkə də əsl kişilik,
Elə kişilikdən söz salmamaqdır…

**1969**

## SƏRHƏDSİZ MƏHƏBBƏT

İstəsən silahla qabağına dur,
Yenə də döndərə bilməzsən geri. –
Məhəbbət heç yerdə sərhəd tanımır,
Gəzir yer üzünü Füzuli şeiri…

Hər zaman şövq ilə o gəlir dilə,
Heç zaman dəyişmir sözünün tonu.
Bir də ki, ən sayıq sərhədçi belə
Yolundan saxlaya bilməzdi onu…

**27.06.1973**

## "ŞƏBİ-HİCRAN"I DİNLƏYƏRKƏN

Kükrədi bir dəniz,
Haray saldı dalğalar.
Hücum çəkdi sahillərə
qatar-qatar…
Sığmadı bir salona,
Sığmadı bir şəhərə,
Sığmadı bir ölkəyə –
Od düşdü yerə, göyə.
Nələrə qadirmiş insan?
Hər səs – bir odlu dalğa.
Xor – səs dənizi.
"Şəbi-hicran" – tufan…

**16.11.1973**

## "KARVAN" GEDİR

**S.Hacıbəyovun xatirəsinə**

Bu dünyaya karvan gəlir,
Bu dünyadan karvan gedir.
Bu dünyaya insan gəlir,
Bu dünyadan insan gedir.
Bu gün onu yola saldıq
son mənzilə,
Yanaqlara süzüldü yaş
gilə-gilə.
Onun odlu ürəyindən
Yola düşən odlu "Karvan"
Dolanır ki, oba-oba,
Oymaq-oymaq, ölkə-ölkə,
Sarbanını tapa bəlkə…
Bilmirəm ki, yaradanlar
Niyə belə cavan gedir?
Qəbristanda sarban yatıb,
"Karvan" gedir,
"Karvan" gedir…

**25.09.1974**

***

Kimsə unudub varlığını,
ürəkdən çalır…
Dəyirman daşı kimi fırlanan
qramafon valı
Nəğmə üyüdür elə bil.
Xoş bir ahəng
heyrətə salır məni.
İynə düşüb səs cığırına
Ürəklərə qovur nəğməni…

**30.09.1974**

# MƏNİM DİLİM

**Həsənoğluya**

Əsrlərcə saymadılar
Bizim doğma dilimizi.
Bir şey yazmaq istəyəndə
Saxladılar əlimizi.

Sən dedin ki, öz xalqımın
Qüdrətini gərək bilim.
Şeir yazdın – başdan-başa
Musiqiymiş mənim dilim…

Bir-birinə qoşulduqca
Sözlər haray qopardılar.
Könül açan misraların
Elə müjdə apardılar.

Qələminin qüdrətiylə
Yad söz itdi ilim-ilim.
Atalıykən, analıykən
Yetim idi mənim dilim.

Dünyagörmüş nuranilər
Söylədilər əhsən, oğlum!
Öz dilində şeir yazıb
Dilə düşən Həsənoğlu

Ürəyinin qanı ilə
Misraları "əhmər"lədi.
Hünəriylə, qeyrətiylə
Yazanları dəhmərlədi…

Kişilərin arasında
Barmaq ilə göstərilən
kişi imiş…
O zamanlar
bizim dildə şeir yazmaq
Əsl oğul işi imiş…

**26.04.1973**

***

Böyük fikir
Dar sədləri keçə bilər.
Çəyirdəyi deşib çıxar
meyvə tumu
Safsa əgər…

**17.10.1973**

***

Şeir quşdur,
bir qanadı əruz,
bir qanadı heca.
Sərbəst onun quyruğudur;
Qanadsız, quyruqsuz
quş necə uçar?

**18.12.1975**

## TƏRİFLƏRİN ÇİYNİNDƏ

Dedilər ki, dahisən,
Sevinirik nə qədər
Eşidəndə adını.
Tériflərin çiynində
Aparıb dəfn etdilər
Onun istedadını…

**12.12.1973**

***

Gecə yazmaq istəmirəm,
Siz məni danlamayın,
Ay dostlar, nahaq yerə.
Birdən yuxum qarışar
Yuxusuz gecələrdə
Yazdığım şeirlərə…

**03.06.1977**

## SƏNƏT YOLLARINDA

Çiçəklər boy atdı yağış yağanda,
Yaxşılıq pisliyi əydi hər yanda.
Biri badalaqla məni yıxanda,
İkisi yapışdı qolumdan mənim.

Ucaldı, möhnətə kim sinə gərdi,
İstəyim – yaşayıb yaratmaq dərdi.
Daş da daşlığıyla dilə gələrdi
Xəbərdar olsaydı halımdan mənim.

Niyə bu həyatdan inciyək, küsək? –
Bizə töhfəsi var nə qədər desək.
Bədxah gah daş atdı, gah da ki, kəsək,
Döndərə bilmədi yolumdan məni.

**20.08.1976**

***

Çoxdandır heç kimi salmıram oda,
Kəsilib şeirimin səsi, sorağı.
Nə vaxtdır yazmıram bircə misra da,
Həmişə püskürmür vulkanlar axı?!

**14.08.1973**

***

Mən bir fikir ağacıyam,
Ömrüm telə bağlıdır.
Mən bir fikir ağacıyam,
Köküm elə bağlıdır.

Ağ günlərə yetmək üçün
Hər zoğum bir yol olur.
Elin hikmət bulağından
su içəndə
Meyvələrim bol olur…

**26.02.1975**

***

Xışıldaya yarpaq kimi,
Həzin-həzin dinə şeirim.
İki ürək arasında
Bir körpüyə dönə şeirim.

Bir yanğılı onu içə,
Duyğularım dilə gələ.
Bir məhəbbət gəlib keçə,
Bu körpüdən ürək ilə…

**28.02.1975**

## KAŞ QATAR OLAYDIM

Yuxudan eləməz bu səs heç kimi,
Təkərlər mürgümə xoş ahəng qatar.
Gecə yol gedərəm, qızmar şiş kimi
Sancılar zülmətin bağrına qatar.

Qışqırsam harayım dağlara çatar,
Muştuluq aparın o doğma kəndə.
Kaş qatar olaydım, işıqlı qatar
Yaxın dostlarıma qoşulub mən də…

**20.07.1974**
**Qubadlı**

## BİR GÜNDƏ

Ən güclü kəllər dahilərdir, nəfəs dərmədən gündə 18 saat işləyənlərdir.

**Jül Renar**

Qələmim çətinə düşməyib hələ,
Məni öz seyrinə çağırır aləm.
Saat yox, on səkkiz dəqiqə belə
Oturub yazmağa gəlmir hövsələm.

Məni imtahana çəksəydi həyat
Gözəl söz deməkdə mahir olardım.
Gündə işləsəydim on səkkiz saat
Yəqin elə mən də dahi olardım…

## DARIXIRAM

"Tutuldum şairliyin darıxmaq azarına."

**S.Yesenin**

Yaman darıxıram, yaman, əzizim,
Tuta da bilmirəm bir yerdə qərar.
Kimisə, nəyisə axtarır gözüm,
Dinclik də bilmirəm düzü, xeyli var.

Olubdur qəlbimdə dərd düyün-düyün,
Sevincim nə üçün qəmlə tutuşmur?
Dünənki istəyə çatıram bu gün,
Yenə də, yenə də nəsə çatışmır.

**19.12.1971**
**Yerevan**

## DÖYÜŞƏN ŞEİRLƏR

"Mənim başqa yolum yoxdur; nəğməmxalqımın düşmənlərinə qarşı amansızdır."

**P.Neruda**

Çili yaralıdır,
Çili qan itirib…
Dost-düşmən dar ayaqda bilinir.
Öz qanında boğmaq istəyirlər Çilini.
İgidlərin qanıyla yoğrulmuş torpaq
Ayağa qalxacaq yenidən.
Səmada bahar şimşəkləri
çaxacaq yenidən.
Gələcək azadlığın sorağı…
Dünya bir kitabdır,
Çili ən qanlı varağı.
Sözlər döyüşür Çilidə
Həlak olmuş igidlərin yerinə.
Güllə batmır
Pablo Nerudanın şeirlərinə…
Şeirdə hikmət olsa,
Göz yaşını qurudar.
Gərək sözə qarışsın
Bəbəklərin nuru da.

İnamı olan insan
Qoymaz işi yarıda.
Sənətkar mahir olsa,
Olmaz sözün yeri dar.
Gərək əməlləriylə
İgid eli yarıda.
Şeirləri döyüşür,
Ölmüşsə də Neruda…

**18.07.1974**
**Qubadlı**

## KİPR

**“Dünyanın nəbzi” silsiləsindən**

İki yerə bölünüb Kipr,
Yarısı yunandır, yarısı türk.
Zərbə vursa yunan türkə,
Türk yunana,
Məhv olmazmı o müqəddəs
Kipr ana?!

**17.08.1974**

## İLK MUNCUQ

**“Dünyanın nəbzi” silsiləsindən**

Açıldı ağ günə təzə bir qapı,
Qırılıb töküldü
nəhəng bir təsbehin –
NATO-nun sapı.
Yerə düşdü ilk muncuq –
Yunan eli.

Axdı sevinc seli,
Dünyamızı sevənlərə
gətirdi pənah.
Gözünüz aydın, ay insanlar,
Başqa muncuqlar da qopacaq
bu gün-sabah…

**17.08.1974**

## DÜNYANIN NƏBZİ

Yaraları zoqquldayır,
Sürətlə vurur dünyanın nəbzi.
Bir mərmi partlayışı var
bu vurğuda.
Bu dərd yeni deyil,
Bu ağrı deyil yeni.
Siyasətçilər loğman kimi
tutmaq istyirlər
dünyanın nəbzini.
Gərək xəstə
səs-küydən qoruna –
Təskinlik verir
dünyanın övladlarına.
Gözlərdəki inama bax.
Sanki deyir:
Dünyamız sağalacaq…

**22.08.1974**

## ÖZÜNÜZ YARADIN

Getdikcə daha çox insan yaxşı həyat sorağı ilə xaricə getmək üçün vətəni tərk edir.

**Qəzetlərdən**

Xoş gün gəzirsiniz ölkəbəölkə,
Necə qurtaracaq bu işin sonu?!
Səadət tapdınız bir yerdə bəlkə? –
Kimdə nə yoxdursa, axtarır onu.

Sizin bu axtarış əbəsdir fəqət,
Səadət naminə ayrı yol seçin.
Vətəndən kənarda varmı səadət
Namuslu, qeyrətli vətəndaş üçün?

Ağ günlər uğrunda hər şeydən keçin,
Şad olub sevinər onda vətən də.
Dağ-daşa düşməyin səadət üçün,
Özünüz yaradın onu vətəndə…

**22.08.1974**

## ZƏNGLƏR

**“Dünyanın nəbzi” silsiləsindən**

Deyirlər Xrosimada
Səs-səsə verir bütün saatlar
Hər gün saat
səkkiz on beş dəqiqədə.
Bu haray deyil hədər,
Bu həyəcan deyil hədər.
Sağalmayıb hələ,

Qövr eləyir
Xrosimanın yarası.
Kəsilmir zənglərin arası.
Bu səslər
Bütün dünyaya çatasıdır.
Bu səslər
Ürəklərdən qopan
həyəcan nidasıdır.
Zənglər xəbərdarlıq edir ellərə,
Zənglər kəmənd olmaq istəyir
Nadinc əllərə…

**30.08.1974**

## BİR GÜNÜN QİYMƏTİ

Maoçu məhkəmə nümayişçilərdən on nəfərini otuz illik həbs cəzasına məhkum etmişdir.

**Qəzetlərdən**

O gün adamların çıxmaz yadından,
Qeyrət bəzək olub əsl insana.
Ay vətənsevənlər, vətən adından
Həbs edib saldılar sizi zindana.

Hakim baş sındırıb hey gecə-gündüz,
Verdi hərənizə otuzca il iş.
Vətənə bağlanan bircə gününüz
Demə otuz ilə bərabər imiş…

**29.07.1976**

## ŞEKSPİRƏ

Övlad üçün həmişə
Ata ürəyi əsər.
Hamlet – oğlunun adı,
"Hamlet" – yazdığın əsər…
Bir adda iki övlad,
Necə doğmadır bu ad?
Oğlun bir insan ömrü
Yaşayıb sonra köçdü.
Əsərin əsrlərin
Od-alovundan keçdi.
Ürəkləri özünə
Seçdi əbədi mənzil.
Oğlun köçdü, əsərin
Dünyadan köçən deyil…

**05.08.1975**

## XALQIN ÜRƏYİNİN NURU

9 May günü

Təki can sirdaşım qayıtsın deyib,
O xoşbəxt zamanlar dönsün yenidən –
Qələbə naminə əsirgəməyib
Mərd qızlar öz nişan üzüyünü də.

Hamısı döyüşüb, sayım hansını?
Hərəsi çovğuna düşən bir çiçək.
Qəhrəman oğullar qan yuvasını
Dövrəyə alıblar üzük qaşı tək.

Bugünkü döyüşdə bir əzəmət var,
Topları yönəltdik Berlinə sarı.
Düşdü Reyxstaqa projektorlar,
Şəfəqlə boğdular yarasaları.

Etdi qan yurdunu talan şəfəqlər –
Basılmaz ağ günlər yaradan ölkə.
Düşməni lərzəyə salan şəfəqlər
Xalqın ürəyinin nuruydu bəlkə?!

**13.07.1974**
**Qubadlı**

## XATINLILARIN İNAMI

Hər ev bir ocağa döndü
1942-ci ilin 22 martında.
Novruz bayramını
belə qarşıladı
Dirlet Vaqner Xatında.
Bu il bahar şimşəkləri yerinə
Güllələr dinir…
Cızhacızla yanır
Kəndin 149 sakini.
Bir qoca yanmayıb
ocaq daşı kimi.
Od içindən salamat çıxıb
Səməndər quşu kimi.
Ancaq o necə çəksin bu dərdi?
Bu yanğı
o yanğıdan da betərdi.
Dəhşətə bax,
Vaqner insanlardan
ocaq çatıb isinir…

Bəlkə də qoca sağ qalıb
bütün dünyaya danışa
Xatınlıların faciəsini?!
Gözləri önündə alov dilimləri,
Xəyalında ötən günlərə uçar…
Elə bil xatınlıların
od içindən salamat çıxan
ümididir bu qoca…

**07.07.1974**

## NAMƏLUM ƏSGƏRİN QƏBRİ ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Torpaq lərzəyə gəlib
Güllələrin səsindən.
Vurublar bir igidi
Namərdlər sinəsindən.
Ömrünün bahar çağı
Baharından ayrılıb.
Elə bil ki, durnadır,
Qatarından ayrılıb.
Bəxtiyardır, ölsə də
O gənc cavan yaşında.
Vətəninə atılan
Bir gülləni saxlayıb
Ürəyinin başında.
Qəbrinin üstündəki
Çiçəkləri tərpədir
Yel əscək sərin-sərin.
Torpağın sinəsində
Özü də bir qəlpədir
Bu naməlum əsgərin.

***

El-aləm axıb gəlir
Onun ziyarətinə.
Bu müqəddəs məzara
Baxan var həsrət ilə.
Qəlbi daş gəlsə bura,
Gözləri dolasıdır.
Birinin atasıdır,
Birinin balasıdır.
Birinin nişanlısı,
Birinin… Eh, nə sayım?
Bəlkə də elə mənim
Ya əmimdir, ya dayım?
Ürəyinin atəşi
Ürəkləri isidir.
Hamının doğmasıdır,
Hamının əzizidir.
Ömrünün bahar çağı
Baharından ayrılıb.
Elə bil ki, durnadır
Qatarından ayrılıb…

**07.02.1975**

## BİR GÜLLƏNİN YARALARI

Bir sinəyə tuşlandı
Bir silahın lüləsi.
Bir ömrə nöqtə oldu
Düşmənin bir gülləsi.
Yaralar sağalmayıb
Ötsə də qanlı illər.

Bir gözəlin sirdaşına,
Bir uşağın atasına,
Bir bacının qardaşına,
Bir ananın balasına
Dəymişdi bu güllə…

**17.02.1975**

## ÖLƏNLƏRİN QƏZƏBİ

Bir xatirə danışdılar dünən mənə.
Lənətlədim o günləri dönə-dönə.
Eliza Kox adlı bir qız dava vaxtı,
Əsrlərə zülm eləyib, –
Eşidəndə qəzəbimiz şahə qalxdı.
İki əsir öldürməsə o hər səhər,
Bal da yesə olub zəhər.
Pələnglərə atmaq üçün
Güclüləri seçərmiş o.
Ölüm-dirim vuruşuna
baxa-baxa
Sərin pivə içərmiş o.
Pələng ilə bir qəfəsdə
Cəng eləmək deyil asan.
Məhv olarmış məsum insan…
Deyirlər ki,
o qız işıq düymələri düzəldibmiş
Ölənlərin dırnağından.
Evi nura qərq olurmuş
Barmağını dırnaqlara basan zaman.
İnsan ölüb, arzuları
Sönməyibdir, qafil, hələ:
Bu ki adi işıq deyil,
Əsrlərin qəzəbidir yanır belə.

Yandıracaq bu od səni,
Heç olarmı belə insan?
Söylə görüm nə cürətlə
Barmağını dırnaqlara uzadırsan?
O ki adi işıq deyil,
Evin nura dönməyəcək.
O işıqlar ölənlərin qəzəbidir,
Sönməyəcək, sönməyəcək…

**28.11.1975**

## ƏSGƏR NƏĞMƏLƏRİNDƏN

Təzə gələnlərə sən aciz demə,
Çəkinər, sıxılar onlar bir qədər.
"Qoca" əsgərlərsə "dönüb hakimə",
Yaralı təqvimi iynələyərlər…

Elə ki, göylərdə ulduzlar sönər,
Ayaqlar urvata salar yolları.
Əsgər çəkmələri mizraba dönər,
Dindirər yolları, çalar yolları…

**1974**

## BU NECƏ OLAN İŞDİ

Əsgərliyə gedəndə
kefsizləyən atamdan,
gözü nəmli anamdan çox
özümü düşünürdüm.
Qayıdanda evləndim,
Təlimməşqinə çağırdılar,
İndi mən özümü yox,
qızımı düşünürdüm…

**09.01.1976**

## ÖLMƏZ ZƏFƏR

Pardaqlanmış qızılgül
Həya edər, yaşınar.
Bənövşəbığ cavanlar
Dolub on beş yaşına.

Vətən çağırır, haydı!
Bu nə hay, nə haraydı?!
Ayrılıq necə qıydı
O gözlərin yaşına?

Düşmən, əbəsdir arzun,
Əzmi var ordumuzun.
Göz dikmə yurdumuzun
Torpağına, daşına.

Gör neçə nəfər gedir,
Oğul gedir, ər gedir,
“Oğlanlar əsgər gedir,
Kül qızların başına!”

Ölsə də neçə nəfər,
Qazandıq ölməz zəfər.
Qəhrəmanlar səpdilər
Gül qızların başına…

**18.01.1976**

## SÜLH GÖYƏRÇİNİ

Ağ rəngli libas geyir
Qışda əyninə dağlar.
İnsanlarsa baharda
Geyir qar rəngli paltar.

Ancaq sülh göyərçinim
Ağ donludur həmişə.
İstəmirəm o rəngin
Üzərinə qan düşə…

## ARZU

Anaların qəlbindən yox olaydı təlaşlar,
Təzə nəğmə qoşaydıq təbiətə, günəşə.
Topların lüləsində yuva quraydı quşlar,
Dünyanı nəğmə ilə tutaydılar atəşə…

**1972**

## YAŞIM AZ OLSA DA

–Neçənci ildənsən?
–50-dən.
–Yox bir!
İnana bilmərik, bu ola bilməz.
–Yaşım o qədər də böyük deyildir,
Cavan olduğuma inanmır heç kəs.

İllərin üstündə ucalmışammən,
İllər gedibsə də, izi qalıbdır.
Yaşım az olsa da, qocalmışammən,
Zaman bənizimə qırış salıbdır.

Üzümdə gənclikdən de, əsər hanı?
Bir dostum: –Qəmini gəl unut dedi!
Yaşlı bir şair də söhbət zamanı
Zarafatla mənə "qoca qurd"– dedi.

Qayğılar üzümdə silinməz bir iz,
Ağrılar qəlbimə elə dəyir ki!...
Evli bir dostumla görüşəndə biz
Gözlərində təlaş mənə deyir ki,

Vaxt ötür, bir azca gəldimi xoşa,
Kim olsa, dayanma, köksündən oxla!
İçi qızıl olsa, yenə daz başa
Qızlar yaxın düşməz, yadında saxla!

Dostum, bu təlaşlar bil ki, hədərdi,
Məni tərk etməyib cavanlığım da!
Elə bu özü də bir növ hünərdi,
Qoca sayılıram cavanlığımda…

**17.10.1970**

## KÖNLÜMÜN PƏNCƏRƏSİ

Dalğalar könlümdə yatan ilhamın
Dinləmək istəyir hər vaxt səsini.
Mənsə tələsmirəm, köksüm yananda
Açıram qəlbimin pəncərəsini…

**03.07.1975**
**Qubadlı**

## UÇAN YUVALAR

Ev-eşik qurmağın öz aləmi var,
Bir quş yuva qurdu, bala çıxartdı.
Dünyaya təzəcə gələn "zılğa"lar
Səsini quşların səsinə qatdı.

Titrədir yuvanı xoş bahar yeli,
O hansı bəxtiyar quşun səsidir?
Yuva – quşcığazın obası, eli,
Yuva – quşcığazın yer kürəsidir.

Qanadlar titrəyir, ürək tələsir,
Göydə qanad çalmaq necə də xoşdur!
Bir uçan yuvaya döndü hərəsi,
Hər yuva beş-altı quş olub uçdu…

**23.11.1975**

## QIRMIZI KİTAB

**Nəsli tükənmək təhlükəsi qarşısında olan heyvanların, quşların və bitkilərin adları "Qırmızı kitab"a yazılır…**

Dağların başına yenə qar düşüb,
Dağların dərdini duyan gərəkdir.
Qırmızı kitaba çox adlar düşüb,
Qırmızı – əl saxla, dayan! - deməkdir.

Ürək döyünməyir eyni ahənglə,
Könlümə bir eşqin odu düşübdür.
Qırmızı kitaba qırmızı rənglə
Alagöz ceyranın adı düşübdür.

İtən nəsilləri gətirək yada,
Gözəllik dünyadan qopub getməsin.
Ən ağır itkidir axı dünyada
Nəslin tükənməsi, nəslin itməsi?!

**23.11.1975**

## İNSANLARA

İnsanlar, mehriban olaq bir qədər,
Biz ləkə yaxmayaq heç vaxt təmizə.
Dünyanın dərdləri kifayət edər,
Gəlin dərd verməyək bir-birimizə…

Nə qədər dəyişib bu günkü insan,
Batıb nadanların səsi, ünü də.
Bizim zəmanədə həssaslığından
Ürəklər itirib dözümünü də.

Gərəkli bir işin qulpundan tutaq,
Qoy dedi-qoduya heç vaxt olmasın.
Qərəzli tənqidi biryolluq ataq,
İclasın qərarı “infarkt” olmasın…

**10.01.1974**

## İŞIQ KÖRPÜSÜ

Gözdən qiymətli şey varmı adamda?
Qəribə gəlməsin sizə sözlərim.
Gözəl dünyamızla mənim aramda
İşıq körpüsüdür nurlu gözlərim.

Onsuz tanımaram pisi, yaxşını,
Onsuz insan necə arayar, seçər?
Mənim varlığıma işıq qoşunu
Gözlərim olmasa bəs hardan keçər?

Şəfəqlə yoğrulub həyat elə bil,
İşıqlı dünyadan hamı pay umur.
Gözlərim təkcə öz ömrümə deyil
Bütün ömürlərə daşıyaydı nur…

**02.02.1975**

## ŞİR

Heyvanlar içində məğrur şirə bax,
Meşələr sultanı düşüb çətinə.
Özü bir qəfəsə sığışıb, ancaq
Qəfəs darlıq edir əzəmətinə.

Qotazlı quyruğu yerlə sürünür,
Oynayır gözündə boranlı bir qış.
Qəfəsdə nə qədər yazıq görünür,–
Şiri şir eləyən azadlığıymış…

**14.11.1974**

## SƏHƏR QAYĞILARI

Hələ toranlıqdır, işıq deyildir,
Burda səhərlərin öz qayğısı var.
İşıqlar göz vurur iki bir, üç bir,
Yuxudan oyanır demək adamlar.

Tələsir, tələsir nə qədər insan,
Tinlərdə taksini güdənlərə bax.
Tutub avtobusun qapılarından
Sallana-sallana gedənlərə bax.

Küələkdə bir ana nəvazişi var,
Oyadır Xəzərin ləpələrini.
Tələsə-tələsə ata-analar
Bağçaya aparır körpələrini…

**05.11.1976**

## MƏN BİR BALIQ İDİM

Arabir dənizin sahilinə çıx,
Balıqqulağıyla hər yan dolubdur.
Mən balıq olmuşam, adi bir balıq,
Qibləm, qibləgahım dəniz olubdur.

Mənim ən müqəddəs arzularım da
Dənizdə alışıb, sahildə sönüb.
Yadımdan çıxarmı, könül tarımda
Hər ləpə bir titrək mizraba dönüb.

Dayazı sevmədim, üzdüm dərində,
Şirin xatirələr könül oxşayır.
İşıqlı dünyadan köçənlərin də
Həmişə dünyada ruhu yaşayır.

Qırılıb simləri könül tarımın,
Vətən həsrətini duyub getmişəm.
Dənizdən gedəndə qulaqlarımı
Dəniz sahilində qoyub getmişəm.

O dadlı nəğməyə həsrətəm axı? –
Ləpələr oxusun qoy xısın-xısın.
Balıq həsrətdisə, balıqqulağı
Dəniz nəğməsinə həsrət qalmasın…

**17.06.1975**

## MİLLİLİK

Elə yerlim var ki, yadlar yanında
Söyləyə bilmirəm bizim ellidi.
Adi çaylaq daşı hayanda olsa,
Obası bəllidi, eli bəllidi…

**05.07.1975**
**Qubadlı**

## BAR AĞACI

Başımda dumana çevrilib fikir,
Dərdli bir ağacın getdim yanına.
Şaftalı o qədər bar gətirib ki,
Sınıb budaqları düşüb yanına…

**20.07.1974**

## ONA YANIRAM Kİ…

Göylər nərə çəkdi yenə: "Gum-gurum"…
İki bulud bir-biriylə toqquşdu.
Ona yanıram ki, qopan ildırım
Günahsız ağacın başına düşdü…

## İŞIQ ADASI

İşıqlarımız sönüb,
Girmişəm qaranlığın qoynuna.
Gecə qara qollarını
Dolayıb boynuma.
Xəyalım qaranlıqdan
almaqmı istəyir kamını?
Heç kəs məni görmür,
Gözlərimi yumub
Şəfəqlərin altında
Görürəm hamını.
Ürəyimin, arzumun işığını
Nə vaxtsa işıqlara qatasıyam.
Elə bil qaranlıq dənizində
Kəşf olunmamış
Bir işıq adasıyam…

**24.01.1976**

## ÇÖRƏYİN NAĞILI

Dən-dən səpdilər torpağa,
Sünbül-sünbül qalxdı.
Bafa-bafa biçib,
Dərz-dərz bağladılar.
Taya-taya vurdular,
Xırman-xırman yığıldı
Torpağın bərəkəti, elin varı.
Fırlandı dəyirman daşı,
Üzü kimi ağ oldu
Dəyirmançının üst-başı.
Ələk-ələk ələndi,
Kündə-kündə
düzüldü dəstərxana.
Təndirə od saldı anam. –
Alnındakı tər damlaları
muncuqladı ulduzlar tək.
Elimizin sərvəti,
Gözümüzün işığı,
Qolumuzun qüvvəti
Çörək doğuldu, çörək…

**28.02.1975**

***

Eşqi bulaq kimi coşur, çağlayır,
Həyatda qazanır özünə ad-san.
Dünyaya gələndə özü ağlayır,
Dünyadan gedəndə ağladır insan.

**05.06.1973**

## ÇATMA

Əl uzatdım, heç əlim çatmadı,
Nehrənin dar ağacı – çatmadı.
Nehrəyə mat qalmışam,
Edib işləri ağ o.
Asılmasa çatmadan,
Heç kəsə vermir yağ o…

**01.07.1973**

## XƏLBİR

Zir-zibilin üzünə bağlı,
Yaxşılar üçün açıq qapı.
Divin həqiqət sandığı
oyuncaq –
Cırtanın su qabı.
Pisi yaxşıdan seçənlə əlbir,
Ələyin böyük qardaşı – xəlbir…

**05.07.1973**

***

Deyirlər dünyada haqq-ədalət var,
Düzlərin üzünə açıqdır qapı.
Ədalət beləmi olur, insanlar,
Büllur kül qabıdır, saxsı gül qabı?!

**19.12.1973**

***

Özünə çatırmı aldığın maaş,
Yoxsa özgələrdən umursan kömək?!
Qonşunun toyudur, səs salma, qardaş,
Ağır günlərimiz başlanır demək…

**23.09.1973**

## ALOVA DÖNÜR

**“Ulduz” jurnalının redaktoru Əhməd Cəmil biz cavanları redaksiyaya çağırıb tapşırdı ki, istehsalat mövzusunda şeirlər yazaq.**

Hər yerdə qəribə bir əzəmət var,
Əməyin sevinci ayrı aləmdir.
Göylərə dirənən nəhəng sobalar
Zavodun əlində sanki qələmdir.

Bəlkə siqar çəkir bütün fəhlələr,
Tüstüsü bir nəhəng bacadan çıxır?
Əl-ələ verəndə, dostlar, bir qədər
Səsimiz daha da ucadan çıxır.

Hayana baxırsan alovdur, oddur,
Hər kəsi işinin üstündə tanı.
Zavod elə bil ki, bir “paraxoddur”,
Baş alıb gəzəcək bütün dünyanı.

Fəhlə qardaşımdan sən hünər istə,
Elin arxasında durub dağ kimi.
Sobada, zavodun başının üstdə
Alov dalğalanır al bayraq kimi…

**22.04.1974**

## QOCA GÜLBƏSLƏYƏN

Demə ki, gözünün işığı sönüb,
Qoca ürəyində gülür ilk bahar.
O titrək barmaqlar dırmığa dönüb,
Çiçək ləklərini hamarlayarlar.

Arabir düşünər gənclik çağını,
Qartalın ürəyi uca dağ istər.
Qoca gülbəsləyən cavanlığını
Açılan güllərlə qaytarmaq istər.

Gülləri sulayar o, cərgə-cərgə,
Könlündən bir həzin bayatı keçər.
Sanki gül kolları su ilə birgə
Şirin layla içər, zümzümə içər.

Zəhməti gətirdi bahar qocanın,
Ömrün qürubunda işə yaradı.
Adicə gül deyil, bunlar qocanın
Yerdən baş qaldıran arzularıdı.

**23.04.1974**

## DƏNİZ SUYU

Alimlər dəniz suyundan istifadə etmək haqqında düşünürlər.

**Qəzetlərdən**

Səhralar susuzdan fəğan qoparıb,
Babalar məzahla deyiblər hərdən:
Səni dəniz ilə susuz aparıb,
Susuz da geriyə qaytararammən.

Yenə qoca alim gedib xəyala,
Coşur düşüncəsi, gülür arzusu.
Dəniz qulağının dibində ola,
Susuzdan dodağın çat-çat,– nədir bu?!

Eh neçə ürəkdə düyünlər, dağlar,
Dərdli bir ər kimi düşünür Xəzər.
Mənə elə gəlir şoran torpaqlar
Övladı olmayan qadına bənzər.

Səhrada bitməzmi əlvan çiçəklər? –
Bu yerlər həsrətdir ota, yarpağa.
İnsan zəkasından nur içən Xəzər
Həyat gətirəcək şoran torpağa.

Sona yetəcəkdir bu umu-küsü,
Ətirli çiçəklər boy atacaqdır.
Bəxtəvər atanın, Xəzərin səsi
Hər səhər onları oyadacaqdır…

**12.01.1976**

## YARATMAQ ARZUSU

Bilmirəm neyləyim, darıxırammən,
İşsizlik adamın gəlir arına.
Qopub bir gündüzün adiliyindən,
Düşəm bir gecənin qovğalarına.

Sanki çərçivədə arzu kiçilir,
Düşünə bilmirik çox vaxt dərindən.
Söhbətim ölçülü, sözüm ölçülü,
Günlərim fərqlənmir biri-birindən.

Adilik ox kimi bağrımı deşir,
Qəlbimdən keçəni gərəkdir deyəm.
Gündəlik normanı, gündəlik işi
Yerinə yetirən cihazam, nəyəm?

Sıyrılım şaxtadan ilk bahar kimi,
Günlərim olmasın solğun, qoxusuz.
Hovuzda yaşayan balıqlar kimi
Bəsdir yaşadığım rahat, qorxusuz.

Elə düşünmə ki, naşükürəmmən,
Dinclik də adamın gəlir arına.
Qopub bir gündüzün adiliyindən,
Düşəm bir gecənin qovğalarına…

**30.01.1978**

***

Biçə-biçə biçənəyin otundan,
İçə-içə bulaqların suyundan.
Od almışam bu torpağın odundan,
Boy almışam çinarların boyundan.

Nağılını dinləmişəm nənəmin,
Öz anamın laylasına yatmışam.
İncidəndə bir nazənin sənəmi,
Mən atamın qınağını dadmışam.

Hey düşmüşəm adamların dilinə,
Neçə görüş həsrətiylə yanmışam.
Əlim dəyib bir gözəlin əlinə,
Eh, özümü nə bəxtəvər sanmışam!

İndiki tək anlamazdım əzəllər,
Sanki indi anlamıram heç nəyi.
Ürəyimdə at oynadıb gözəllər,
Arzularım köhlən kimi kişnəyib…

**29.07.1978**

## ZAMANIN İMZASI

İllər calandıqca yaşımın üstdə,
Qayğım gündən-günə çoxalır, artır.
Görünməz əl gəzir başımın üstdə,
Qara saçlarıma ağ imza atır…

**11.02.1978**

***

Könlüm dostu, yarı arayar, seçər,
Heyf, aramızda xəbislər də var.
Yaxşımın üstündən sükutla keçər
Pisimi hay-küylə qarşılayanlar.

Cavan bir çinaram, qalxıram təzə,
Bədxahın qəlbinə həyəcan dolub.
Yaşıl budaqlarım görünmür gözə,
Bir quru yarpağım budaqcan olub…

**28.01.1976**

***

Dərdsizlər dərdimi çətin ki, duya,
Açılan bir zaman solacaq yəqin.
Məni bu həyata borc verib dünya,
Nə vaxtsa geriyə alacaq yəqin.

Əlli il, altmış il insan ömrümü? –
Gedir, hamı gedir göz görə-görə.
Necə çalışım ki, mənim ömrümü
Zaman xərcləməsin havayı yerə?!

**04.03.1976**

## İNSANLAR KİMİ

Bir vaxt kimsə ona düşmədi yaxın,
Görkəmi qışsa da, qəlbi baharmış.
Üzdən lüt görünən qocaman dağın
Sən demə qoynunda xəzinə varmış…

**02.08.1976**

***

Ürəyin peşəsidir
gecə-gündüz döyünmək,
Dəm vururuq: ömrümüz
getməyibdir havayı!
Saçın ağarmasıyla
qürrələnmək, öyünmək
Özgə bir şey deyildir
toxtaqlıqdan savayı…

**04.08.1977**
**Qubadlı**

## BU DÜNYADAN GEDƏNDƏ

Son nəfəsdə gözümdə
canlandı doğma yurdum,
Can atsam da cənnətə,
yollarım duman idi.
Bu dünyaya gələndə
heç kəsi tanımırdım,
Bu dünyadan gedəndə
hamı məni tanıdı…

**24.01.1992**

***

Bir gün ölüm şərbətini
Öz əlinlə içəcəksən,
Heç darıxma, əvvəl-axır
Bu dünyadan köçəcəksən.
Necə uzun örkən olsan,
Doğanaqdan keçəcəksən.

**31.01.1992**

## QƏBİR

Bir beşikdir,
orda yatan
durmaz bir də,
Cavan yatır,
qoca yatır
hər qəbirdə.
Arzuları həqiqətə
çevirməyə
ömür çatmır.
Nə yaxşı ki,
qəbirlərdə
İnsan yatır,
Arzu yatmır…
Həyat hara,
dinclik hara?
Vay o gündən
ürək özü
Qəbir ola
arzulara…

**27.11. 1975**

***

Bir insan köçdü dünyadan,
Adamlar axışıb gəldilər.
Bir yası neçə yerə böldülər,
Hərə bir ağrı apardı ürəyində…

***

Yatırıq, dururuq,
Yatırıq, dururuq…
Bezirik yatıb-durmaqdan,
Yatırıq, ta durmuruq…

**1990**

## BU DÜNYANIN BİR OVUC TORPAĞI

Bu dünyanın otu çoxdu,
Biçməklə qurtarmaq olmaz.
Bulaqların suyu bumbuz,
İçməklə qurtarmaq olmaz.
Meyvələri neçə sayda,
Tükənərmi dərmək ilə?
Elə gözəl neməti var,
Nə çıxar tək görmək ilə? –
Gözüm doymadı, doymadı…

Gözəl-gözəl arzuların
Çoxuna çata bilmədim.
Şirin-şirin nemətlərin
Çoxundan dada bilmədim.
Bu dünyanın yeri çoxdu,
Gəzib qurtara bilmədim –
Zaman qoymadı, qoymadı…

Çəməni çiçək dənizi,
Dərməklə çiçəyi azalmaz.
Sevmək ilə bu dünyanın
Gözəli, göyçəyi azalmaz…
Bir ovuc torpağını
çox görməyin gözlərimə
bu dünyanın…

**05.12.1980**

***

Ay ana,
vüqar yaxşı şeydir,
ancaq
Məni öldürsələr,
ağla üstümdə!
Yoxsa düşmənlərin sevinərlər –
Elə bilərlər ki, öldürüblər
Qəlbindəki
analıq hissini də…

**19.05.1987**

***

Anıb ötən günləri
Hönkürdüm bütün gecə.
Dedin: – Kişi ağlamaz.
– Anam, bəs şair necə?!

**07.05.1988**

## GÜNƏŞ

Babalar zülmətdə işıq yandırıb,
O nurun şöhrəti tutub hər yanı.
Çıraq bir daxmanı işıqlandırıb,
Deyir: – Qərq etmişəm nura dünyanı.

Yeri tumarlayır şəfəq əliylə,
Çox boranlı ömrü döndərir yaya.
Nurlu ləhcəsiylə, işıq diliylə
Günəş öz sözünü deyir dünyaya.

İsidir hamını bu od, bu atəş,
Bayramdır o, göydə görünən vədə.
Dünyanı işığa qərq edən günəş
Özündən deməyir bircə kəlmə də…

**13.11.1975**

## CANLI HEYKƏL

O məhzunluq mənə nələr demirdi? –
Güldüyünü görməmişdim heç onun.
Temir kişi elə həmin Temirdi,
Bir tükü də ağarmayıb saçının.

Bu dağlarda udur təmiz havanı,
Baxışları elə hər an yoldadı.
Yola salıb neçə-neçə cavanı,
Neçə dəfə Əzraili aldadıb.

Xəyaldadır, görən anır haçanı?
Salam verdim, nə dindi, nə danışdı.
Kirpiyi də tərpənmədi heç onun,
Elə bildim canlı deyil, heykəldi…

**12.08.1977**

## AZADLIQ

Ölümdən çəkinmə, ağ günlərə çıx,
Qorxağı mərmi də oyatmayacaq.
Elə bir ağaca bənzər azadlıq,
Qanla sulanmasa, boy atmayacaq…

**30.07.1974**

## İÇƏRİŞƏHƏR

Qədəm qoydum qoynuna,
dindi qəlbimin simi.
Nə qədər arzu, istək
hər daşında qalıbdır.
Uşaqkən öyrənilən
bir gözəl şeir kimi
Bu şəhər Bakımızın
yaddaşında qalıbdır.

**28.07.1976**

## DOĞMA DAŞLAR

Qoy öpüm bu daşları,
Onlar necə doğmadır! –
Kim deyir daş yadlaşır?
İnsanlıq tarixini
Yaşatmaq olardımı
Olmasa daş yaddaşı?

**12.08.1977**

## BAKI

Mənim doğma şəhərəim,
Qoy sənin gələcəyin
Şeirimin baxtı olsun!
Deyirəm Bakı adlı
Elə şeir yazım ki,
Bütün şeirlərimin
Doğma paytaxtı olsun!

**1972**

## DAN ULDUZU

Göydə par-par parıldayır,
Hünərin var dan ulduzu.
Nurlu, aydın bir səhərdən
Xəbər verir dan ulduzu…

**29.08.1977**

*******

Deyir görən Ay necədir?
Nə var Marsda, Yupiterdə?
Tay-tuşuyla maraqlanır
Elə bil ki, bizim Yer də.

Şairəmsə, insanların
Arzusunu gərək biləm.
Hər insan bir planetdi,
Hər könül bir sirli aləm.

**11.02.1975**

## GÜNƏBAXAN

Günəbaxan boy atdı,
Göyə ucaldı, qalxdı.
Əvvəl günə baxırdı,
Böyüdü, yerə baxdı.

Ömrünün son çağında
Həyatı dərk elədi.
Boğazını üzdülər,
Dünyanı tərk elədi…

**15.08.1988**

## SAZ

### Aşıq Ədalətə

Sinəsinə sazı basıb,
Ürəklərə od ələdi.
Dağ çayıdır saz havası,
Simlər sanki şəlalədi…
Ulu Qorqud zamanından
Məclisləri bəzərdi saz.
Yerdə sönmüş kösöv idi,
Ədalətin sinəsində
Yavaş-yavaş közərdi saz.
Tellər titrək, əllər titrək,
Ürəyinin hərarəti
Odlu bahar günəşi tək
Dili donmuş sədaların
Dilini açdı.
Yenə coşdu,
çağladı saz.

Atasına həsrət qalan
bir qız kimi
Ədalətin sinəsində
ağladı saz…

**03.09.1975**

## MUĞAM

Muğam elə ağacdır ki,
Neçə-neçə budağı var.
Bir budağı "Çahargah"dır,
Biri "Şur"dur, biri "Qatar"…

## YETİM SEGAH

O, duyğular çırağıdır,
Əsrlərlə yanasıdır.
Bu dünyada ona
ölüm-itim olmaz.
Odlar yurdu Azərbaycan
O kəsin ki, anasıdır,
Yetim olmaz, Yetim segah,
Yetim olmaz!
Bir ürəyin harayını
Min ürəyə yetirmisən,
Yetim segah!
Söylə, kimin yetimisən,
Yetim segah?!
Bircə gün də yaşamazdın
Ürəklərin arzusuna
tən olmasan.
Muğamımız yetimləşər
sən olmasan…

# NƏĞMƏLİ ÖMÜRLƏR

**Radioda "Nəğməli ömürlər" verilişini aparan aspirant dostum Rafael Hüseynovun xahişi ilə**

Hər sözdən, hər bəstədən
Aləmə nur saçılar.
Arzuların qönçəsi
Nəğmə-nəğmə açılar,
A nəğməli ömürlər.

Hər ləpəsi bir nəğmə –
Çay kimi daşarsınız.
İnsanların qəlbində
Əbədi yaşarsınız,
A nəğməli ömürlər.

Kövrəlirik, doluruq,
Ürək dəmir deyil ki!
Nəğməylə yoğrulmayan
Ömür ömür deyil ki,
A nəğməli ömürlər.

Bəstənizə tamarzı,
Səsinizə təşnəyik.
Biz nəğməsiz heç nəyik,
A nəğməli ömürlər…

**18.02.1979**

## YENİ İL AXŞAMI

Kəsdim ardıcı,
Düzdüm ardıcıl.
Bəzədim onu
Təzə gəlin tək.
Bu axşam ona
Elçi gələcək…

**30.11.1975**

## OTUZ BEŞ YAŞIM

Pasportumdakı
doğru deyil, qardaş!
Otuz beş yaşım var mənim,
Nədir ki, iyirmi altı yaş?!
Qayğısız günlərim
uzaqda qaldı.
İyirmi altı yaş, üstəgəl altı: –
Dördü qızımın yaşı,
İkisi oğlumun.
Üstəgəl üç –
Atasız keçirdiyim illər…
Qınamasın məni ellər.
Qayğılar xırmana
döndərib başımı,
Qayğılar artırıb yaşımı…

**02.09.1977**

## MƏN İNSANAM

Quşsan əgər uç göyünə,
Daha dənizlə nə işin?
Balıqsan get dənizinə,
Daha göylərlə nə işin?
Torpaq sənə bəs etmirmi,
Get taxıl ək becər, kişi…
Ağlımməni uca edib,
İnsanam, hər şey mənimdi.
Hava mənim, torpaq mənim,
Dəniz mənim, göy mənimdi…

**12.06.1985**

## HAMININ ÜRƏYİ VAR

Həsrətdən göynəmirsə,
Neynirəm o qəlbi mən?
Gözlərim pəncərədi,
O pəncərədən keçib,
İşıq düşür qəlbimə,
Sevgi düşür qəlbimə…
O adam bədbəxtdi ki,
Heç kəsə könlü yoxdu.
Hamının ürəyi var,
Hamının könlü yoxdu…

**05.06.1985**

## ACI HƏQİQƏT

Biri gec gedir,
Biri erkən.
Ölüm doğanaqdı,
Ömür örkən.
Uzun ömür istəyərsən
Yaşamağa üzün olsa!
Doğanaqdan keçəcəkdir
Örkən necə uzun olsa…

**30.08.1977**

## KİTABXANA

Qarşımda bir yığın kitab
xəyala dalmışam,
Deyirəm: qəribə dünyadı…
Kitabın cildi qapıdır elə bil,
Üstündə müəllifin adı…
Elə bil çırpılır təpəmə
Həqiqət dəyənək olub…
Kasıbın qapısını açan yoxdu,
Zənginin qapısı döyənək olub…

**04.11.1977**

***

Təklikdən darıxma,
gələcəyə bax,
Bu gün dənə olan
sünbüldür sabah…

**19.07.1974**
**Qubadlı**

## FUTBOL TOPU

Meydançada mübarizə,
Meydançada haray-həşir.
Sanki vəzifədi futbol topu, –
Bunun ayağından qopub,
O birinin ayağına düşür.
Çoxunun damağından
getməyib hələ
qol vurmaq dadı.
Hünər bu topu özündə çox
saxlamaqda deyil,
Hünər qol vurmaqdadı…

**17.12.1981**

## KAMAN

Dadlı  xatirələr geri dönəndə
Özümü sayıram qəhrəman kimi.
Kaman çalınanda, kaman dinəndə
Qaşlarım çatılır bir kaman kimi.

Zili nalə çəkər, yandırar bəmi,
Tikanmı çıxarar o, yarasından?
Sanki əsrlərin həsrəti, qəmi
Çıxar kəmanəylə sim arasından.

Bir ürək alışar, çəkib zəbanə,
Göz yaşı qəlbimi sel-sel yandırar.
Simlərin üstündə gəzən kəmanə
Duyan ürəkləri tel-tel yandırar.

Kiminsə qanına hopar zəlzələ,
Bax onun səsində yatan nisgilə.
Elə bil, elə bil qopar zəlzələ,
Kəmanə ətrafa alov püskürər.

Nakam insanları düşünəndə mən
Habil kaman çalar titrək əliylə.
Dünyada ilk dəfə qanı tökülən
Habilimi anar  kaman diliylə?

**28.03.1971**

## ADSIZ ŞEİRLƏRİM

Sizə ad tapmadım qoymağa düzü,
Durub-dayandınız səssiz-səmirsiz.
Adsız şeirlərim, həyatın özü
Sizə ad verəcək, darıxmayın siz…

**1970**

## ARAZ DƏRDİ

Dərd hesab eləmə hər az dərdini,
Dərdsizlər ah-fəğan qopara bilməz.
Mənim sinəmdəki Araz dərdini
Arazın özü də apara bilməz…

**1970, iyun, Bilgəh.**

## ARAZ

Araz nur olub axsa da,
O sahilə, bu sahilə.
Həsrət qoyub bu insafsız,
O sahili bu sahilə…

**1978**

## MEYVƏLİ MİSRALAR

Çıxacaq önünə yüz təzə fikir,
Bacar təbiətin qılığına gir.
Dünyada ən böyük şair odur ki,
Dünən yazdığını bu gün bəyənmir.

Şair tək hər cövrə dözüb təbiət,
Heç nə birdən-birə olmayıb hazır.
Çiçək misraları pozub təbiət,
Yerinə meyvəli misralar yazır.

**20.06.1973**

## OCAQ YERİ

Yenə damğalayıb anamız yeri
Kim vurub düzlərə bu süni xalı?
Dəydikcə gözümə ocaq yerləri
Sanıram deşilib güllü bir xalı.

Təbii olubdur hər an təbiət,
Çəmən neyləyir ki, süni "bəzəyi"?
Yenə də sağ olsun loğman təbiət,
Yağış ilmələrlə onu gözəyir…

**11.06.1973**

## TƏBİƏT DONUNU DƏYİŞDİRİR Kİ…

Hər fəslin çaları bir sevinc olur,
Ana təbiətin qüdrətinə bax.
Yazda yaşıl olur, yayda tunc olur,
Payızda sapsarı, qışda ağappaq.

Arzular sayrışır ulduzlar təki,
Ürəyim pay umur qışdan, bahardan.
Təbiət donunu dəyişdirir ki,
Gözlər yorulmasın eyni çalardan.

**31.01.1974**

## FƏSİLLİ ARZULAR

Baharda söylədim tez gələydi yay,
Yayda arzuladım qızıl payızı.
Payızda şaxtalı qışdan umdum pay,
Qışda xatırladım ətirli yazı.
Hələ duymamışdım indiyə qədər
İnsanda fəsilli olurmuş arzu…

**17.08.1973**

## FƏSİLLƏRİN NƏRDİVANI

Gəldi torpağıma gül üzlü bahar,
Yurdumda bu təzad bilmirəm nədir?
Düzlərdə gül-çiçək, dağ başında qar,
Qışın bir ayağı zirvələrdədir…

Lövhələr qəlbimi salıb heyrətə,
Yayda qoca dağlar bir cavan olur.
Mən heyran qalmışam bu təbiətə,
Dağlar fəsillərə nərdivan olur.

Hardasan, ay şaxta, vədə yetişib,
Zirvəyə ələnir ağ yavaş-yavaş.
Qış göydən dağların çiyninə düşüb,
Arana yeriyir bax yavaş-yavaş…

**30.11.1975**

## TƏBİƏT

Yazda qıza bənzəyir,
Təravətli, ətirli.
Yayda dönür gəlinə,
Hərarətli, xətirli.
Eh, təbiətin işi
Qəribəymiş nə qədər!
Payızda ana olur, –
Övladları meyvələr.

**29.08.1974**

## RƏSSAM BAHAR

Qış ağ kətan saldı sanki,
Dümağ etdi yeri qəsdən.
Bahar günəş fırçasını
Gəzdirdi ağ kətan üstdə.

Ağacların çiçəyini
Elədi ağ.
Sonra çəkdi budaqlara
Yaşıl yarpaq.

Fırçasının hərarəti
Şəlaləyə ahəng verdi.
Boya seçdi səxavətlə,
Hər çiçəyə bir rəng verdi.

O, qurtarıb öz işini
Qüdrətini duyur indi.
Rəssam bahar fırçasını
Bulaqlarda yuyur indi…

**15.01.1976**

## NƏ OLAYDI

Nə olaydı, dönüb kiçik yarpağa,
Budağında yellənəydim, ay Vətən.
Güllüyündə gül dərincə qürbətin,
Küllüyündə küllənəydim, ay Vətən.

**19.04.1977**

## BAHAR LÖVHƏSI

Dərəyə bir həzin səs dolub, nədir? –
Şəlalə inləyən kaman olubdur.
Güllərin ətrindən məst olub, nədir? –
Dağların başını duman alıbdır.

**20.02.1973**

***

Dağların, düzlərin loğmanı bahar,
Tez gəl, sətəlcəmdir anamız torpaq.
Gün çıxsın, dağlarda qoy ərisin qar,
Xəstə tərləməsə, ayılmayacaq…

**24.12.1973**

## YAĞIŞDAN SONRA

Şehə bax, üstündə sanki zər gülür,
Hər kiçik damlanın çaları mindi.
Kəsib narın yağış, şəfəqlər gülür,
Elə bil yamaclar təpiyib indi…

**16.06.1973**

***

Şəfəqlər altında min rəngə çalar,
Güllərin mirvari sırğasına bax.
Sellənə-sellənə çağlayır sular,
Buğlana-buğlana dincələr torpaq…

**24.02.1974**

***

Torpaq yağışı da uddu sevincək,
Yerə həyat verdi göylərin qəmi.
Çəməndə boy atan hər ot, hər çiçək
Dikəldi yağışın baş daşı kimi…

**20.01.1976**

## YAYIN GİLEYİ

Nəfəsi od qoxulu yay
Bir gün mənə etdi giley:
–Fəsillərin arasında
Elə mənəm sənə ögey?

Nə deyim ki, arifsənsə
Elə bu da bəsdi sənə.
Bu soyuqluq nədir axı
Fəsillərin istisinə?!

–Sənin kimi atəşlidir
Günümmənim, ayımmənim.
Axı odun istisini
Od nə bilər, yayımmənim?

***

Yayın qızmar çağında
Ehtiyac var buza da.
Yay odlu bir dənizdir,
Soyuducu buz ada.

Qışın oğlan çağında
Ehtiyac var oda da.
Qışsoyuq bir dənizdir,
İsidici od ada…

**14.11.1975**

## PAYIZ LÖVHƏSİ

Meyvələrin yanaqları qırmızı,
Ürəyinə düşən bir şey var, istə.
Qaynanası nə çox istər payızı,
Nə vaxt gəlsə, gəlib çıxar bar üstə…

**15.02.1973**

## PAYIZ NOTLARI

Yarpaqlar hərəsi bir oda döndü,
Kövrək duyğuları yandırdı, yaxdı.
Lüt qalan hər budaq bir nota döndü,
Baxdım, ürəyimə xoş səda axdı…

Dinlədim xəzəlin xışıltısını,
Bir xoş səda gəldi eh, hər addımdan.
İşdəki danlaq da çıxdı yadımdan,
Evdəki giley də çıxdı yadımdan…

**1973**

## PAYIZ TOYLARI

Əzgillər budaqdan asıla qaldı,
Yazgüllər böyüyüb düşdü sevdaya.
Ağacın qəlbinə hicran od saldı,
Uçuşan yarpaqlar can atdı toya.

Bir arpa boyu da artdı boyları,
Gözəllər seçilib sonalandılar.
Dağlara səs saldı payız toyları,
Meşələr həsrətlə xınalandılar…

**16.12.1976**

## PAYIZIN SONUYDU

Payızın sonuydu, endim sahilə,
Məni göynədirdi uğursuz eşqim.
Qəmgin görməmişdim dənizi belə,
Sahildə gözümə dəymirdi heç kim.

Dənizi, sahili qınamıram mən,
Sanki adamları gözləyir onlar.
Oğulu, uşağı çəkilib gedən
Ataya, anaya bənzəyir onlar…

**04.01.1976**

## QAR YAĞIR

Qar yağır, qar yağır vermədən ara,
Qar yağır, qar yağır uca dağlara.
Demə unudulmur payızın qəmi,
Meydan şaxtanındı, qarındı bu gün.
Təmiz qar bir anda ağ tənzif kimi
Yaralı torpağa sarındı bu gün.
Şaxta at oynadır yenə o yanda,
Bəs bahar nə zaman haya çatacaq?
Torpağın yarası qaysaqlayanda
Açıb o tənzifi çaya atacaq…

**17.01.1972**

## QAR YAĞIR E, QAR YAĞIR

Torpaq qarsız darıxıb,
Yerə ilk nübar yağır.
Mənimsə ürəyimə
Şirin duyğular yağır,
Qar yağır e, qar yağır…

Kamanmı çalır yellər?
Dilə gəlir könüllər.
Çılpaq qalmışdı çöllər,
Dağlara paltar yağır,
Qar yağır e, qar yağır…

Qonur yerə ahəstə,
Torpağın, daşın üstə.
Hər titrəyiş bir bəstə,
Təzə mahnılar yağır,
Qar yağır e, qar yağır…

Əllərində yun əlcək,
Oynayırlar sevincək.
Körpələrin qəlbinə
Elə bil bahar yağır,
Qar yağır e, qar yağır…

Buludlar noğul tökür,
Daşda kəkliklər səkir.
Təbiət tablo çəkir,
Neçə cür çalar yağır,
Qar yağır e, qar yağır…

Eh, nə edir o nadinc?!
Ürək onsuz deyil dinc.
Bu gün hamıya sevinc,
Mənə intizar yağır,
Qar yağır e, qar yağır…

**12.12.1973**

## QIŞ LÖVHƏSİ

Tar bağlayıb yolları,
yaradıbdır qar təpə,
Külək qoymaz yeriyəm,
gözlərimə qar təpər.
Yoldan dönmərəm, məndə
qoymasa da qar təpər…

**08.01.1977**

***

Lopa-lopa qar ələnər,
Yaza qalmaz.
Topa-topa güllər açar,
Düzə qalmaz…

**1976**

## BU QIŞ

Bu qış fürsət axtarırdı
havaxtdan,
Bu qış meydanı bahara verib,
saldı onu sərvaxtdan.
Havalar birdən-birə soyudu…
Bu qış bahardan sonra gəlib,
Payızı yetim qoydu…

**28.02.1981**

***

Yarpaq düşdü, ot soldu,
Çöllər yetim göründü.
Qar yağdı, dağlar, düzlər
Ağ kəfənə büründü.

Kükrəməyin, daşmağın
Gəldi vədəsi, vaxtı.
Yaz gələndə təbiət
Kəfəni deşdi çıxdı…

**08.12.1975**

## QIŞDAN YAZA

Endi torpağın başına
Qarlı qışın buz qılıncı.
Bahar gəldi, sındırıldı
Bu torpağın buz quluncu.

Ana yurdun qış donunun
Buz düyməsi açılan tək,
Göründü əlvan sinəsi,
Yaxasında min rəng çiçək…

**31.01.1980**

## GÜNƏŞ BİRCƏ DƏNƏDİR

Ürəyimdən keçənlər
Bu dünyada deyil az.
Nə istəsən tapılar,
Ancaq hamıya çatmaz.
Günəş bircə dənədir,
Şəfəqləri sularda
Gör nə qəşəng rəqs edir?!
Meşəyə də, dağa da,
Səhraya da, bağa da,
İnsana da, quşa da,
Torpağa da, daşa da
Bircə günəş bəs edir…

**24.04.1974**

## MEŞƏ

Bu gün qonaq gəlmişəmmən
Meşələrin sinəsinə.
Düz yerimək mümkün deyil,
Yeriyirəm sinə-sinə…

Elə bil ki, yaşıl meşə
Gedib səhər yuxusuna.
Yemşan ətri qarışıbdır
Həmərsinin qoxusuna.

Əzgil, fındıq, quşarmudu
Meşələrin bəzəyidi.
Yarpaqlara sığal çəkən
Sərin səhər küləyidi.

Hey gedirəm, yorulmuram,
Qəlbimdəki həvəsə bax!
Cökəylə qol-boyun olan
Fısdığa bax, vələsə bax!

Ağcaqayın əl eləyir,
Vən ucalır buludlara.
Heyran-heyran göz qoyuram
İri, nəhəng palıdlara.

Bilmirəm üstümə düşən
Hansı ağac kölgəsidi.
Sanki meşə ağacların
Beynəlmiləl ölkəsidi…

**1971**

## YAŞIL DƏNİZ

Doğmadır, əzizdir
Meşəmiz.
Yaşıl bir dənizdir
Meşəmiz.
Qoynunda neçə cür
Heyvanlar gəzirlər.
Bu yaşıl dənizdə
Balıq tək üzürlər.
Dörd yana baxıram,
Çəkilib qırağa.
Hər yarpaq bir ləpə,
Hər budaq bir dalğa.

**16.12.1973**

## SU ATA,
## TORPAQ ANA

Bir ağac quruyarsa,
Anamız torpaq üçün
Ağır itki deyilmi?
Ana torpaq, ata su,
Övlad bitki deyilmi?!

Quraq yeri qurudub,
Yenə də ana torpaq,
Çalışıb ki, solmasın
Bircə gül, bircə yarpaq…

Oğlunu quraqlığın
Odundan keçirib o.
Sevimli əri sudan
Qalan son qətrələri –
Şirin xatirələri
Ağaca içirib o…

**12.01.1976**

## TƏK AĞAC

Bir düzün ortasında
Bir dənə düz ağac var.
Onun kölgəliyində
Sərinlənir yolçular.

Burda dincələnlərə
Yelpik olur hər yarpaq.
Bu ağacın dibindən
Qaynayır bir buz bulaq.

Çəmənin sərin suyu
Gecə-gündüz çağlayır.
Sanki tək qaldığından
Qoca palıd ağlayır.

İstiyə bax, istiyə,
Alışıb yanır hər yan.
Bəlkə tərləyib ağac? –
Tər axır dabanından…

Saralıbdır çöl-çəmən,
Bu il yaman quraqdı.
O ağacı saxlayan
Yaxşı ki, bu bulaqdı…

**11.07.1975**
**Qubadlı**

## MEŞƏBƏYİ

Aşa bilməz bir baltalı öz həddini,
Səməd kişi səyirdəndə səməndini.
Ağaclar da şux saxlayar öz qəddini,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Qoymaz əli baltalılar əl-qol aça,
Övlad kimi qiymət verər hər ağaca.
Meşədəki bütün quşlar toxtaq uçar,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Vüqarlıdır bir qocaman palıd kimi,
O olmasa, haraylasın palıd kimi?
Ağac kəssən, dolacaqdır bulud kimi,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

Elə bil ki, darı dəlir qulaqları,
Qartal kimi seyr eləyir uzaqları.
Qanadıdır ağacların budaqları,
Meşəbəyi meşədədir,
Ən səfalı guşədədir.

**14.07.1974**
**Qubadlı**

## PALID ƏZƏMƏTİ

Heç bir şey gəlməyir eyninə,
Bürünüb bir topa buluda.
Dibçəkdə boy atan ağacı
Tay tutma qocaman palıda.

**02.09.1973**

## LİMON AĞACI

Ağ libasda görəydiniz kaş onu,
Solar, özgə baxışına dözməyir.
Bir gəlindi, sanki qışdan yaşınıb,
Sevgilisi ilk baharı gözləyir…

**27.03.1981**
**Astara**

## ÇİNAR KÖLGƏSİNDƏ

Gün qalxdı, yamaclar nura bələndi,
Yel əsdi, üstümə çiçək ələndi.

Uzandım ağacın kölgəsində mən,
Çəkdim ciyərimə dağ havasını.
Sənin qucağında, Vətən, ay Vətən,
Duydum yaşamağın xoş mənasını.

Yarpaq əllərini açıbdır çinar,
Elə bil ovcunda süzür günəşi.
"Torpaq soyuq olur" deyən adamlar
Torpaqdan almırmı odu, atəşi?

Duydum ulu yurdun sədaqətini,
Arzular közərdi, çırpındı ürək.
Torpaq soyuq deyil, hərarətini
Bizə bəxş eləyir son qətrəyədək.

Dedim: – Boylu çinar, biz ki həmyaşıq,
Bir söz de, dilləndir könül tarımı.
Yerdəki hərarət, göydəki işıq
İsitdi arzumu, duyğularımı…

**02.07.1976**
**Qubadlı**

## MEŞƏ BULAĞINDA

Endim bulaq üstə mən su içməyə,
Bir qız daranırdı baxıb çeşməyə.
Utandı, əlindən düşdü darağı,
Güzgüsü qırıldı ayna bulağın…

**11.07.1976**
**Qubadlı**

## TƏBİƏTİN QORUĞU

Bir vaxt bu yerlərdə quş yox idi heç,
Uzaqdan baxanın sevinir gözü.
Sel oyub, hünərin var qabağa keç,
Qoruq düzəldibdir təbiət özü.

Dərələr açıbdır iri ovcunu,
Düşən çıxa bilməz elə dərindi...
Quşlar görən kimi köhnə ovçunu,
Yandıq verə-verə oxuyur indi…

**11.07.1976**
**Qubadlı**

***

Elimi, obamı seyrə çıxmışam,
Yaya təhvil verib öz yerini yaz.
Doğma kəndimizə gəldim bu axşam,
Gəldim həzinləşim, kövrəlim bir az.

Əski yaraların göynəyir yeri,
Qorxuram ürəyim təzədən sına.
Nəğməkar qəlbimin döyüntüləri
Qarışıb qatarın taqqıltısına…

Axır yanağıma göz yaşı dən-dən,
Sevincək olmuşam, bu gün sevincək.
Baxıram qatarın pəncərəsindən,
Ürəyim açılır bir pəncərə tək.

Haraya köçürüm duyğularımı? –
Təbiət düzləri önümə sərdi.
Mənim kökdən düşən könül tarımı
Kökləyən yaralı xatirələrdi…

**03.07.1975**
**Qubadlı**

***

Könlüm istəyir
Uça dağlara.
Uca dağlara.

**29.08.1975**

## DAĞLARIN MEDALI

Göylər qaşqabaqlı, buludlar kövrək,
Damcılar ələndi üstümə tək-tək.
Üzümə dağların havası dəycək,
Könlüm havalandı bir qartal kimi.

Leysana təşnədir, yer cadar-cadar,
Şıdırğı yağışın öz aləmi var.
Damcı əlləriylə sanki buludlar
Daşları çalırdı bir qaval kimi.

Dağ ürəkli oğul dağa qısılıb,
Yerin sinəsində nələr yazılıb?
Elə bil işıqlı evlər asılıb
Dağların döşündən bir medal kimi…

**10.07.1974**
**Qubadlı**

***

Bir xoş səda enib gələr,
Sular coşar, sular çağlar.
Dodağında gur çeşmələr
Tütək çalır sanki dağlar.

Xəyalım bir lövhə çəkdi,
Hara baxsan gül-çiçəkdi.
Dağ elə bil bir inəkdi,
Məmələri buz bulaqlar…

**27.02.1975**

## DAĞ VƏ ÇAYLAR

Bulaq gücünü dağdan,
Çay gücünü bulaqdan
Alıb axır çöllərə,
Obalara, ellərə.
Ətirli gül-çiçəklər
Yamacları bürüyüb.
Dağ sanki bir gözəldir,
Çaylar onun hörüyü…

**10.12.1975**

***

Gəlmişəm mən kəndə
Düşmüşəm kəməndə.
Ətirli çəməndə
Az qalır gül daşa.

Sevir bir qız məni,
Deyir ki, üz məni.
O sanır buz məni,
Tuş olub gül daşa.

Eşqini danma gəl,
Ey gözəl, yanma gəl,
Məni daş sanma gəl,
Dolanaq gəl qoşa.

Oxuyur küləyim,
Naz satır çiçəyim.
Sevincdən ürəyim
Dönübdür bir quşa.

Odlardan keçmişik,
Ağ günlər seçmişik,
Xalqımın keçmişi
Yazılıb hər daşa.

Yorğunsan, nəfəs dər,
Oturaq bir qədər,
Şəhərdən gələnlər
Gülməsin bardaşa.

Ürəkdə min həvəs,
Hər yana düşdü səs,
Kim xəbər verdi bəs
Qohuma, qardaşa?

Arzular boy atar,
Burda min büsat var,
Yaradan insanlar
Layiqdir alqışa.

Nur – dağın selində,
İş insan əlində.
Güllü yaz elində
Yer olmaz sərt qışa.

Unutma sən barı,
Bu şirin çağları.
Seyr elə dağları,
Veriblər baş-başa.

Boşalmaz dolmayan,
Güllər ək, solmayan.
Heç şair olmayan
Bu yerdə söz qoşar…

**13.12.1975**

## YAYLAQ

El qayıtdı, yaylaqlarda
Sürü qalmadı, qalmadı.
Nur çeşməli bulaqlarda
Pəri qalmadı, qalmadı.

Oxuyardı bulaqların,
Hanı, hanı o çağların?
Qar ələndi, ocaqların
Yeri qalmadı, qalmadı.

Pay umdular baharından,
Yayda buzundan, qarından.
Dar günündə dostlarından
Biri qalmadı, qalmadı.

**16.01.1977**

***

Gözümün önündə dayanıb dağlar,
Xəyal ayaq tutub ora yeridi.
Zirvələrə qalxan cığırlar ki var,
Elə bil alpinist kəndirləridi…

**1975**

# BULAQ

Onu qorxutmadı nə qar, nə sazaq.
Qışın şaxtasında isindi bulaq
Açıq-açığına.
Üç aylıq ağanın kefi pozuldu,
Günün qızmarında dönüb buz oldu
Yayın acığına.

Həmişə ürəkli olmaq istədi,
Palaza bürünmək istəməsə də,
El ilə sürünmək istəməsə də,
El üçün gərəkli olmaq istədi…

**25.02.1977**

# DAĞ SELİ TƏK

Zaman keçir sürətlə, hisslər yuvası ürək
Təzə üzünü görür ayın da, günəşin də.
Kövrək xatirələrim qışın qarı, buzu tək
Əriyib selə dönür qəlbimin atəşində.

Təzəcə qurşanmışammən kağıza, qələmə,
Cavanam, dağ seliyəm, bulanığam hələ mən.
Vaxt gələr ki, suyumun lili, qumu yox olar,
Coşqunluğum azalar, duruluğum çoxalar…

**21.04.1977**

## AĞAC KİMİ

Düşünürəm, ağacların nə qəribə taleyi var? –
Mən bir ağac tanıyırdım, yarpaqları yandı, soldu.
Yoxa çıxdı kölgəsi də, onu kəsib yandırdılar.
İstisinə isindilər, külü isə gübrə oldu.

Əgər dara düşən olsa, harayına gələ biləm.
Deyirəm kaş öləndə də ağac kimi ölə biləm…

**1975**

## DAĞ ÇAYI

Çeşmə-çeşmə paqqıldayan gözü var,
Onun üçün maneələr heç nədi.
Axıb gedir, çöllər, düzlər, tarlalar
Dağ çayının nəğməsinə təşnədi.

Zirvədəyəm, unutmuşam özümü,
Könül açır zümrüd donlu yamaclar.
Dağ şairdi, çayalar onun sözümü? –
Oxucumu otlar, güllər, ağaclar?!

**01.02.1980**

## NUR ÇAYI

Nəhəng əjdahanı ram edib insan,
Göstərib dünyaya mahirliyini.
Həyata, insana gərək olandan
Kür yerə qoyubdur öz kürlüyünü.

Vahimə yaradan sonsuz harayı
İndi ən müqəddəs arzuya dönüb.
Dağda haray salan neçə dağ çayı
Onun qucağında quzuya dönüb.

Aşır bərələri, aşır bəndləri,
Elə doğmalaşıb, demə qəribdir.
Bir göz həkimidir sanki, kəndlərin
Qaranlıq gözünə işıq veribdir.

Geriyə qayıtmır ömür-gün kimi,
Axır, dayanmadan axır Kür çayı.
Nura qərq edirsə eli gün kimi,
Gərəkdir adını qoyaq Nur çayı…

**13.07.1974**
**Qubadlı**

***

Nur gətirib səhər mehi
Arzuların bəbəyinə.
Kim doldurub büllur şehi
Lalələrin göbəyinə?

**1975**

## GÖYGÖLLƏ SÖHBƏT

Suyun büllür imiş, cumdum dərinə,
Gördüm duruluğun hamıya çatar.
Sənin o nazbalış ləpələrinə
Kövrək duyğularım baş qoyub yatar.

Sənsiz keçən günlər hədərmiş, hədər,
Vuruldum özünə, təbiətinə.
Göy gölüm, bağışla, bu vaxta qədər
Gələ bilməmişəm ziyarətinə.

Suyundan bir ovuc götürməmişəm,
Bu ömrə bəs necə ömür deyimmən?
– Ay oğlan, mən heç nə itirməmişəm,
Neyləyim, özün küs öz taleyindən.

**28.04.1977**

## GÖYGÖL

Şairlər hüsnünə nəğmə qoşarlar,
Gözəllik önündə coşub-daşarlar.
Səndən söz açanlar büllurlaşarlar,
Səni anmayanı kim andı, Göygöl?!

Günəş dağ belində qızıl bir yəhər,
Bəs kimi gözləyir bu azman kəhər?
Gəldim görüşünə mən səhər-səhər,
Qonağın gözəllik umandı, Göygöl.

Adi göl sanmadım axı mən səni,
Azmı istəyirəm dənizdən səni?
Qorumaqmı istər yad gözdən səni? –
Kəpəzin ətəyi dumandı, Göygöl.

Yüyür qabağıma, daşınma məndən,
Sənə gül ataram, daş umma məndən,
Özgəsi deyiləm, yaşınma məndən,
Gizləmə üzünü, amandı, Göygöl.

Ürək bir ləpəyə – bir simə bənddi,
Mən Göygölə vurğun, o kimə bənddi?
İndicə dinəcək, bir himə bənddi,
Elə bil köklənmiş kamandı Göygöl.

Hər qırçın ləpəndə ürəyim qalıb,
Mənə elə gəldi günlər qısalıb.
Xoşbəxtlik zirvəsi olub vüsalın,
Sənin ayrılığın yamandı, Göygöl.

**28.04.1977**

*******

Dənizə gedirəm hər səhər tezdən,
Dənizlə başlayır mənim iş günüm.
Ürəyim, gözlərim doymur dənizdən,
Susdura bilmirəm dəniz eşqini…

**18.05.1977**

## DƏNİZ LÖVHƏSİ

Nəğmələrin hər çaları
ürəkləri oda salır,
Nəğmələrin xoş ahəngi
ruhumuza nur səpələr.
Mən sahildə dayanmışam,
dəniz sanki kaman çalır,
Ləpədöyən kamandısa,
kəmanəsi göy ləpələr…

**22.06.1975**

## GÖYLƏR SANKİ DƏNİZDİR

Göylər mənə əzizdir,
Orda nələr, nələr var?!
Göylər sanki dənizdir,
Dalğaları buludlar.
Sehrli bir aləmlə
Dayanmışam üz-üzə.
Ulduzlar gözəllər tək
Baş vurublar dənizə.
Buludlar tərpənəndə
Mənə elə gəlir ki,
Dalğalar coşub-daşır.
Dalğalar ulduzların
Başı üstündən aşır.
Bu lacivərd göylərin
Seyrindən doymur ürək,
Yuxu getmir gözümə.
Yağışlar dalğaların
Saçlarından qoparaq
Gümüşü dalğalar tək
Səpələnir üzümə…

**15.08.1975**

***

Dalğalandı, yenə də dindi Xəzər,
Dənizi seyr elədim, coşdu ürək.
Mavi bir don geyinib indi Xəzər,
Dalğalarsa bu donun qırçını tək.

Suya gircək o gözəl gəldi dilə,
Kükrədi, mavi sular döndü qara.
İstədimmən də qoşam həsrət ilə
Qəlbimin dalğasını dalğalara.

Bu qədər ayrılığa qəlbmi dözər?
Dənizin qoynuna cümdüm yenidən.
İltimas eyləyərək mavi Xəzər
Donunun altına aldı məni də…

**20.05.1976**

***

Lövhələr tükənən deyil,
Baxırsan soluna, sağına.
Külək bir çobandır elə bil,
Dalğaları qoyun-quzu kimi
qatıb qabağına…

**29.08.1974**

## XƏZƏRDƏ BİR DALĞA ÖPDÜ ÜZÜMDƏN

Xəzərdə bir dalğa öpdü üzümdən,
Kövrəldim, yaş axdı mənim gözümdən.

Dalğa dilə gəlib dedi: – Ay qardaş,
Salam gətirmişəm dağlardan sənə.
Ötən çağlarımız qayıdaydı kaş,
O doğma yerlərə dönəydik yenə.

Bir dağ çayı idim, sanki quş olub
Şığıdım, dağlardan düzlərə endim.
Araza qoşulub, Kürə qoşulub,
Xəzərə qovuşdum, dalğaya döndüm.

Xoşbəxtdir özünə doğru yol seçən,
Səni gördüyümə xeyli şadammən.
Sizin evinizin önündən keçən
O büllur köynəkli Bərgüşadammən.

Özünə yol tapıb axıbdır mənə
Sənin su içdiyin sərin çeşmələr.
Fikirli-fikirli baxıbdır mənə
Məktəbə gedəndə anan o səhər…

Sən düşcək yadına o gəldi dilə,
Baxışı hər şeyi danışdı mənə.
Kövrəldi, gözündən çıxan bir gilə
Özü də bilmədən qarışdı mənə.

…Öpdüm o dalğanı mən əsə-əsə,
Elə ki o mənə adını verdi.
Onun üz-gözümdən aldığı busə
Ana öpüşünün dadını verdi…

**26.02.1977**

## DƏRƏDƏN ZİRVƏYƏ

Onun tərifinə nə desən azdır,
Hər yana xoş ətir gətirir külək.
Elə bil təbiət füsünkar qızdır,
Onun görüşünə can atır ürək.

Hayana baxıram güllük, çiçəklik,
Sanki gözəllikdən məst olmuşammən.
Endim bir talaya, bir topa kəklik
Bir atım qırma tək qalxdı dərədən.

Belə qonaqlığa de, kim bəs deyər?
Təbiət səninçin get süfrə açsın.
Dərədən zirvəyə qalxan dəstəyə
Ürəyim az qaldı qoşulub uçsun.

**22.06.1973**

## QAQQILDAYA-QAQQILDAYA

Bilməzdi ki, bir vaxt nədir kədər, təklik,
Qaqqıldaya-qaqqıldaya oxuyardı.
Xoş səsinə səs verərdi neçə kəklik,
O nəğmədə bir dünyalıq sevinc vardı.

Qayalara səpir indi göz yaşını,
Axı təkdir, indi könül dağlayır o.
Ovçu vurub onun ömür yoldaşını,
Qaqqıldaya-qaqqıldaya ağlayır o.

**25.07.1973**

## NƏĞMƏYƏ ATILAN GÜLLƏ

Talada gülləni atan kim idi? –
Bir həyat tükəndi, bir kef duruldu.
Elə bil kəkliklər qoşa sim idi,
Atılan gülləylə biri qırıldı.

Təbiət qınayır bizi elə bil,
Bir sükut götürüb dərəni, dağı.
Atılan adicə bir quşa deyil,
Nəğməyə atılan gülləydi axı?

**15.09.1973**

## NƏ DEYİM

Dağı göstərdi mənə:
–Heç ora çıxmaq olar?
Yəqin ki, zirvəsində
Qarğaların tükü var.

Məni götürüb fikir,
Axı ona nə deyim?
Zirvədə qarğa tükü
Axtarana nə deyim?!

**04.08.1974**

## DAĞLARA BAŞ SAĞLIĞI

Çiynində bu dərdin yükü qalıbdır,
Qartalın dərdini qartal kimi çək.
Zirvədə yupyumşaq tükü qalıbdır
Dağlar övladının xatirəsi tək…

**04.08.1974**

## QUŞLAR VƏ İŞIQ XƏTTİ

Quşlar işıq xəttinə
düzülüb kəhrəba tək,
Od rəngli bir örtüksə
düşüb yerin üstünə.
Elə bil ki, quşları
məftil şişə çəkərək,
Qoyublar köz-köz
olan lalələrin üstünə…

## ƏSİRGƏMƏZ

Açıb qızılgüllər, sanki bağ yanır,
Meyvəli budaqlar bar əsirgəməz.
Ağac kölgəsində axtar bağbanı,
Heyva əsirgəməz, nar əsirgəməz.

Özün öyrədərsən, atı xam istə,
Bulaqlar oxuyar hey muğam üstə,
Xəyala dalanda bir muğam istə,
Tarzən əsirgəməz, tar əsirgəməz.

Sən çıxmaq istəsən zirvəyə kəsə,
Nəhəng uçurumlar yolunu kəsər.
Yayın ortasında, könlün istəsə,
Səxavətli dağlar qar əsirgəməz…

**19.07.1974**
**Qubadlı**

## BİLİNMƏZ

Od-su arasında qalan bir insan
Ağlayar, gözünün yaşı bilinməz.
Köpürən çayların, daşan çayların
Ayağı bilinməz, başı bilinməz.

Çalışar, vuruşar hər oğlan, hər qız,
Artar ildən ilə bizim varımız,
Elə dərindi ki, dəryalarımız
Dibinin çınqılı, daşı bilinməz.

Çaylar damarında axar qan kimi,
Dayanıb yenilməz pəhləvan kimi,
Gözə görünsə də bir cavan kimi,
Bizim bu dağların yaşı bilinməz.

Çatar buludlara əli dağların,
Nə vaxt açılacaq dili dağların?
O qədər çoxdu ki, gülü dağların
Səhərdən axşama daşı, bilinməz…

**15.07.1974**
**Qubadlı**

## QAYNAĞA DÖNDÜ

Mən qonaq gələndə bu doğma kəndə
Sevincdən ürəyim yarpağa döndü.
Ətirli çəməndə, güllü çəməndə
Qaçışan uşaqlar oğlağa döndü.

Seyrə çıx gərəksiz işə uyunca,
Ağaclar düzülüb yollar boyunca.
Bulağın suyundan içdim doyunca,
İlhamım qaynayan bulağa döndü.

Lövhələr ürəkdən silinən deyil,
Budağa dəyərsən, aşağı əyil.
Ulduzlar titrədi, əsdi elə bil
Elə ki, ay göydə orağa döndü.

Hünərin çatırsa, bu lövhəni çək,
Kəpəzdə qar qalıb, ətraf gül-çiçək.
Zirvəyə dırmaşdım bir alpinist tək,
Dağlarda ürəyim bir dağa döndü.

Doğma oylaqlarda doğmalar yaşar,
Sevincdən ürəyim kükrəyər, daşar.
Əriyib qarışdım torpağa, daşa,
Burdakı gözəllik qaynağa döndü…

**22.07.1974**
**Qubadlı**

## ÇAYLAR

Yaşamağa səsləyir bizi
Həyatın qadir səsi.
Ömür çaydır,
Hər gün onun bir qətrəsi…
Çaylar bir-birinin
Görüşünə tələsir.
Yolda batanı da olur,
Vüsala çatanı da…

**10.12.1975**

## QƏRƏNFİL

Axşam zanbaqla
bir qaba qoydum
Qərənfili mən.
Səhər soldu o,
Bilmirəm nədən?
Ayrı qoyaydım
Onları gərək.
Birgə yaşamaq
Çətindir, çətin
Sevmirsə ürək…

**10.01.1976**

## DUYĞULARIM

Ürəyimdə yuva salıb
Ən müqəddəs arzu kimi.
Üzdən bənzər bir pələngə,
Sakitsə də quzu kimi.

Doğmalaşıb sevgilimin
Toxuduğu çələng qədər.
Görünsə də quzu kimi,
O qorxuncdur pələng qədər.

Mənim adi görkəmimdə
Uzaq yaşar, yaxın yaşar.
Üzdən sakit nəhrlərdə
Daxili bir axın yaşar.

Ürəyimdə neçə-neçə
Deyilməmiş söz yatıbdır.
Buz altında şəlalə var,
Kül altında köz yatıbdır…

**01.08.1974**

## DÜŞÜNCƏ HAQQINDA DÜŞÜNCƏLƏR

Düşünürük həmişə,
Düşünürük hər zaman.
Düşüncələr olmasa
Necə yaşayar insan?
Ac yaşamaq mümkündür,
Mümkün olmayıb ancaq
Düşüncəsiz yaşamaq.

Atam köçdü dünyadan,
Çarə yoxdu ölümə.
Nə vermişəm görəsən
Vətənimə, elimə?

Öz alnımın təriylə
Gül balamı böyüdüm.
İşıq saçsın ömrünə
Nəsihətim, öyüdüm.

Göz yumaraq yaşamaq
Söylə insan ömrümü?!
Düşüncələr bəzəyir
Həyatımı, ömrümü.

Niyə rüşvət var hələ,
Niyə nadan var hələ?
Dünya dağıla bilər
Düşüncəsiz uzanan
Titrək bir barmaq ilə.

Həyatdakı hər şeyi
Gərək dərindən duyum.
Düşünürəm həmişə,
Düşüncə havam, suyum.

Dünyamızın işləri
Qaydasına düşüncə,
Hamımıza gərəkdir
Hava kimi düşüncə…

***

Şair miz arxasında
Gecə-gündüz düşünür.
Hər şeir bir maşındır,
Fikirlər sərnişini…

Gözlərimin nurunu
Misralara qatıram.
Hər şeiri top kimi
İnsanlara atıram.

Hamı qəbul eləmir
O harayı, o səsi.
Yaxşısı geri dönmür,
Geri qayıdır pisi.

Gözlərimdən çıxan yaş
Gözümə qayıdarmı?
Sözüm ürəkdən qopsa,
Özümə qayıdarmı?!

**23.10.1975**

***

Şeytan balam dəcəlləşir
İldən-ilə.
Elə bil ki,
kəpənəkdir
Uçub qonur
güldən-gülə.
Çiçəklərin arasında
İtib qızım,
Çiçəklərin arasında
Bitib qızım.

Bir çeşmədir bağ içində,
Nəğmə axır dodağından.
Gözəlləşər su içəndə
Qızım qızlar bulağından…

**17.08.1974**

## QIZIM

Bir təyyarə meydanıdır ona
Ana ağuşu – isti bir qucaq.
Əllərini vurur bir-birinə,
Az qalır sevincindən uça.
Böyüyür gözlərimdə
Onun körpə dünyası.
Qızımın sevincinin
bir qanadında
mən uçuram,
bir qanadında
anası…

**20.08.1974**

# “Ayrılığın qəm hasarı” kitabından:

## ZİRVƏYƏ GEDƏN YOLLAR

### ALLAHIM

Allahım, sən olmusan
Əzəldən pənahımız.
Pərən-pərən düşmüşük,
Nə idi günahımız?

Qaçqınların harayı
Göylərə bülənd olub.
Müqəddəs yurd yerimiz
Kafirlərə kənd olub.

Qudurub qəvi düşmən,
Bizə yar ol, Yaradan!
Anaların qəlbini
Sağalt  dərddən, yaradan!

Yetmir köməyimizə
Daha səbr, hövsələ!
Allahım, yurdumuzu
Bəlalardan hifz elə!

## ULU TANRIM

Dəli sevda dolanmırsa başında,
Sevmirsənsə, bu dünyada qəribsən.
Ulu Tanrım, baş əyirəm qarşında,
Mənə sevmək istedadı veribsən…

Məhəbbətdi imanım da, dinim də,
Ay nuru var sevgilimin üzündə.
Diz çökürəm gözəlliyin önündə,
Şeh öpürəm çiçəklərin gözündə.

Sevən qəlbdə nə sırsıra, nə şaxta?-
Salıb mənim saçlarıma sevgi dən.
Ulu Tanrım, gözlərimi işıqdan
Ürəyimi əskik etmə sevgidən!

**03. 07. 2001**

## ƏSRİN İLK ŞEİRİNİ MƏN KİMƏ YAZIM

**Anamın əziz xatirəsinə**

Sevirəm, keçsə də ömür yarıdan
Qorxuram bu sevda yolunda azım.
Qəlbimə təpər ver, Ulu Yaradan,
Əsrin ilk şeirini mən kimə yazım?!

Ucadır insanın eşqi, əməli,
Bütün zamanların odur bəzəyi.
Eşq ilə qoyulsun əsrin təməli,
Ayları, illəri sevda bəzəyir.

Hərəmiz bir eşqin şirin barıyıq,
İllər üstümüzə çökür toz kimi.
Məhəbbət daşıyan eşq qatarıyıq,
Zaman çəkir bizi parovoz kimi.

Saçımda bərq vurur illərin qarı,
Sükut qəbristanda xəyala dalıb.
Sərnişini düşən eşq vaqonları
Zaman qatarından açılıb qalıb.

Qəlbini atdılar oda anamın
Arzuları düşdü hey pərən-pərən.
Qəbri ayrı düşən ata-anamın
Ruhları qovuşa bilibmi görən?!

İllərlə biz həsrət odunda bişdik,
Düşdü tariximə bir qara kölgə.
O əsrin başında didərgin düşdük,
Bu əsrin önündə sevindik bəlkə?!

Qəlbimə təpər ver, Ulu Yaradan!
Əsrin ilk şeirini mən kimə yazım?
Sevirəm, keçsə də ömür yarıdan,
Qorxuram bu sevda yolunda azım.

Həsrət bərq vurursa gözüm yaşında,
İnləməyə dəyməz "vətənim!" – deyə.
Olsam da dünyanın hansı başında,
Qəlbimdə eşq varsa, vətənimdəyəm…

**02. 01. 2001**

## FÜRSƏT

"Nə gözəl fürsətdi bu həyat! "

**N. Hikmət**

Bulaqların gözündən öp,
Gözəl fürsətdi yaşamaq.
Yamaclarda çiçək ara,
Uca-uca dağlara qalx!

Gəzib yağışın altında
Seyr elə göy qurşağını.
Qənimət bil, gözünə təp
Ulduzların işığını.

Fürsət varkən gəzib dolan
Zümrüd donlu meşələri.
Öpüb qoxla kol dibində
Titrəyən bənövşələri.

Baş vur dənizin qoynuna,
Qucaqla ağ ləpələri.
Məhəbbətlə köksünə sıx
Gül qoxulu körpələri.

Ürəyində həyat eşqi
Seyrinə çıx təbiətin.
Nə qədər imkanın çatır
Dadına bax hər nemətin.

Qoxla güllərin ətrini
Ürəyinə təpər gəlsin.
Çiçəklərin rənginə bax,
Sevinsin, gözlərin gülsün.

Bu gözəlliyi görənin
Çətin ki, gələr yuxusu.
Dinlə nəğməkar quşları,
Ürəyin nəğmə oxusun.

Qoyma ki, qəlbin üşüyə,
İsin bir eşqin oduna.
Könlündə sevda olanın
Qocalıq düşməz yadına.

Sevgi ömrün bəzəyidi,
Elə bir insanı sev ki,
Alıb səni qanadına
Göylərə ucaltsın sevgi…

Bu dağları, dərələri
Gözün daha görməyəcək.
Bir də bizə bu fürsəti
Ulu Tanrı verməyəcək…

**04. 02. 2001**

## XOŞBƏXTLİK

İstidə isinib,
soyuqda üşüyürsənsə,
Xəyallara dalıb,
kimisə düşünürsənsə,
Bu dünyaya gəlib,
insan kimi yaşayırsansa,
Daha nə istəyirsən?

Zirvələrə dırmanmağa
ayaqlarının gücü çatırsa,
Bu dağlar, bu meşələr
könlünə yatırsa,
Şəlalələrin şaqraq səsi
Sevincinə
sevinc qatırsa,
Daha nə istəyirsən?

Ətirli çəmənlərdə
gəzə bilirsənsə,
Dənizlərdə, göllərdə
üzə bilirsənsə,
Məhəbbətin şirin əzabına
dözə bilirsənsə,
Daha nə istəyirsən?

Gözəl görəndə
gözlərin gülürsə,
Ürəyin sevgidən
inləyə bilirsə,
qulaqların
yarpaqların pıçıltısını,
ləpələrin, quşların səsini
dinləyə bilirsə,
Daha nə istəyirsən?

Baxışların
güllərin rəngini görə bilirsə,
Əllərin
sevgilinin saçlarını
hörə bilirsə,
qızlara vermək üçün
çiçək dərə bilirsə,
Daha nə istəyirsən?

Gözlərin
bir cüt ilahi gözə əsirsə,
Qəlbinin telləri
sevgidən əsirsə,
Sevdalı ürəyin
görüşə tələsirsə,
Daha nə istəyirsən?

İnsanların doğmasını,
yadını bilirsənsə,
Dünyada hər şeyin
adını bilirsənsə,
Yaşamağın ləzzətini,
dadını bilirsənsə,
Daha nə istəyirsən?

Tanrı səni
bu dünyaya gətiribsə,
Gözlərindən qəflət pərdəsini
götürübsə,
Qəlbində arzu gülləri
bitiribsə,
Səni səadətə, xoşbəxtliyə
yetiribsə,
Daha nə istəyirsən? –
Xoşbəxtlik bu deyilmi?!

**11. 08. 2001**

## ZİRVƏLƏRƏ GEDƏN YOLLAR

Boz dağların arasından
Zümrüd dünyaya üz tutdum.
Bu dağları, dərələri
Ürəyim sevdi, göz tutdu.
Qızıl lalələrə baxdım
Sözlər qəlbimdə köz tutdu.
Zirvələrə dırmandıqca
Yolumu duman, sis tutdu.
Küləklər açdı yaxamı,
Yaralı qəlbim göründü.
Dağlar elə bil utandı,
Duman örpəyə büründü.
Çay öpdü sərt qayaları,
Dilbilməz daşlar oxudu.
Ürəyimdə dəli sevda,
Meşədə quşlar oxudu.
Bəbəyimdə yaşı görüb,
Ağaclar, kollar sevindi.
Dəydi mizrab ayaqlarım,
Cığırlar, yollar sevindi.
Gözəlliyə qıyanlara
Ülu Tanrı qənim olsun!
Sıldırımda bitən çiçək
Özgənin yox, mənim olsun.
Əgər ölsəm, həmərsinin
Ləçəyi kəfənim olsun!
Zirvələrə gedən yolun
Üstü ağac, altı ağac.
Doğrudan da, gözəlliklər
Məskəniymiş Altıağac…

**15. 05. 2000**

## TANRIM, KEÇ GÜNAHLARIMDAN

Belə də gözəllik olar? –
Havalandım, dəli oldum.
Heyrətdən ürəyim əsdi,
Göz yaşım dağ seli oldu.

Gözəl təpə, gözəl dərə,
Gözəl gülü gözəl dərə.
Dərib verdim gözəllərə,
Güllərin qatili oldum.

Tanrım, keç günahlarımdan,
Hər sözüm yanğılı ahdı.
Gözəllərə gül verməmək
Elə özü də günahdı…

**15. 05. 2000**

## GÖZƏLLİYİN QARŞISINDA

Gözəllik önündə matam,
Sanki qıfıllanıb dilim.
Məni sevən gözəllərin
Heyrətdən gözləri dolub.
Onlar məndən soruşurlar:
–Bu nə işdi, ay müəllim,
Təbiəti sevən şair
Nə üçün susub, lal olub?!
–Ay qızlar, adam sevəndə
Məzlumlaşır, fağırlaşır.
Əllərimin sığalından
Məst olubsa, gül neyləsin?

Bilmirəm ki, heç nə deyim,
Qəlbim əsir, dilim çaşır,
Gözəlliyin qarşısında
Lal olmayıb, dil neyləsin?!

**15. 05. 2000**

## BİZ ÖLSƏK DƏ

Biz ölsək də,
bu dünyadan
getmirik,
Cildimizi dəyişirik,
itmirik…
Torpaq olub,
torpağa qarışırıq.
Çiçək olub,
budaqda sayrışırıq.
Ağac olub,
ocaqda alışırıq.
Tüstü olub,
dumana qarışırıq.
Buludların
kirpiyindən qopuruq.
Yağış kimi
çəmənlərə hopuruq.
Kainatda
gur səsimiz yaşayır,
Küləklərdə
nəfəsimiz yaşayır…
Biz ölsək də,
bu dünyadan getmirik,
Cildimizi dəyişirik,
itmirik…

**2000**

**AĞLAŞMA**

Ölüb gedir,
bu həyatla
Kim ki, ayaqlaşmadı.
Bu dünyanın son sözü,
son səsi
ağlaşmadı…
Əllər bumbuz soyusa da,
Arzular  bir qaynar
təndirdi.
İnsan ölüm ayağında istəyir ki,
dünyaya doyunca baxsın.
Ağlaşma səsi
ölüm quyusuna sallanan
kəndirdi,
ancaq
canını tapşıranın heyi yoxdu
o səsdən yapışıb qalxsın…
Ağlartı səsi
yası bəzəyir.
Ağlartı səsi pozur
ömrün boyu daddığın sevinci,
nəşəni.
Ağlartı səsi
saman çöpünə bənzəyir,
xilas edə bilmir
ölüm girdabına düşəni…
Doğmalar ağladıqca
yanaqları incilər bəzəyir.
Göz yaşı –
o dünyaya gedənin ardınca atılan
suya bənzəyir.

**31. 10. 2000**

## YARPAQ VERİR

Yağan soyuq yağışlar
Payızdan soraq verir.
Görür kağızım yoxdu,
Ağaclar yarpaq verir…

## ZƏLZƏLƏ

Düşdü kəndə, şəhərə
Zəlzələnin güzarı.
Həyəcandan çatladı
Neçə ana məzarı…

**25. 10. 2000**

## SEVDA GÖYLƏRİNDƏ SÜZÜRƏM HƏLƏ…

Doğmalar içində dönmüşəm yada,
Ürəyim baxmayır sözümə yenə.
Bu nazlı dünyada, gözəl dünyada
Yer tapa bilmirəm özümə yenə.

İşarır, çırtlayır sönən közlərim,
Bu dərdin əlindən hara köçüm mən?!
Havadan nəm çəkir həsrət gözlərim,
Yenə qəm karvanı keçir içimdən.

Bənövşə arzular boynu bükülü,
Nəfəsin ayrılıq küləyi olub.
O ötən ayların, illərin külü
Arzu közlərimin bələyi olub…

Gözümdə bir eşqin şimşəyi çaxar,
Göylər qəm yağışı tökər dünyaya.
O közlər kül altdan sıyrılıb çıxar,
O kül duman olub çökər dünyaya.

Həsrətin əlində qalıbdır yaxam,
Bu dərdə, ağrıya dözürəm hələ.
Yayından sıyrılan bir qızıl oxam,
Sevda göylərində süzürəm hələ…

**04.02.2001**

## SON PAYIZ

Göylərin bol-bol yağışı
Kənara yağıb, yan durub.
Yaşıl-yaşıl meşələri
Quraqlıq yaxıb, yandırıb.

Köksündə ölən ağaclar
Meşəyə göz dağı olub.
Elə bil ki, payız gəlib,
Yarpaqlar saralıb, solub.

Ancaq ki, bu son payızdı,
Şən yarpaqlar gülməyəcək.
Yanıb-sovulan meşəyə
Daha bahar gəlməyəcək…

**24. 08. 2001**
**Qayabulaq**

## ƏSRİN İLK QARI

Dərələrə, dağlara
Əsrin ilk qarı yağdı.
Təkcə dəniz bozarıb,
Hər yan, hər tərəf ağdı.

Ora çırpır özünü,
Bura çırpır özünü,
Ancaq ağarda bilmir
Qış dənizin üzünü.

İstəsə, ləpələri
Dönər gözəl çələngə.
Nə ehtiyacı var ki,
Dənizin özgə rəngə?!

**21. 01. 2001**

## SİSƏYLƏR OXUYUR

Evimdən qovuldum,
Qırıldı umudum.
Qəlbimdən keçdi ki,
Hər şeyi unudum.

Heç belə bilməzdim,
Əbəs imiş bu səy.
Gecələr çöllərdə
Oxuyanda sisəy,

Məndə dözüm qalmır,
Qəlbim tir-tir əsir.
Qərib yurdumuza
Varlığım tələsir.

O səs qaranlıqda
Elə bil nur saçır.
Yaş həsrət gözümdə
Olub puçur-puçur.

Xəyalımdan ötür
Çöllər, düzlər, dağlar.
Həzin sisəy səsi
Ürəyimi dağlar.

Mənə layla çalır
Bu gecə böcəyi.
Titrəyən ürəyim
Bənövşə ləçəyi.

Gecə səhərəcən
Oxuyur sisəylər.
Vətən unudulmaz,
Əbəsdi bu səylər…

**08. 02. 2001**

## YURD YERİ

"Çalışıram ki, Sizin qəlbinizdə
özümə yurd yeri tapa bilim".

**Sədaqət Məmmədova**

Zaman çapır öz atını, doğulur, ölür adamlar,
Əzizim, yazdığın məktub mənim qəlbimi göynətdi.
"Yer var bir lalə tapanda sevinir, gülür adamlar,
Yer də var ki, lalələri adam üzünə həsrətdi"…

Qəlbimizdə nisgil yatır tox tutsaq da özümüzü,
Ürəkdə neçə arzuya dərin məzar qazılıbmış.
Taleyimiz belə gəlib, yaş göynədir gözümüzü,
Alnımıza doğma yurddan ayrı düşmək yazılıbmış.

Deyirsən: bizim dağların yerini heç hara vermir,
Ürəyində ağrı, nisgil, gözlərində yaş gəlmisən.
Mənim şair ürəyimdə ağrılar heç ara vermir,
Qəlbim qaçqınlar yurdudur,
öz yurduna xoş gəlmisən!…

**31. 05. 2001**

## YUXUDA GÖRÜŞ

Ümidimiz də qalmayıb
Arzuya,
murada yetməyə.
Yamanca ilişib, əzizim,
Həsrətin əli
yaxamıza…

Görür ki,
hünərimiz yoxdu
görüşünə getməyə,
Kəndimiz özü gəlir
yuxumuza…

**14. 11. 2001**

## AZADLIQ SAVAŞI

Bir gün sən də qoşuldun
Azadlıq savaşına.
Ölkə azad olunca
Nələr gəldi başına?!

İndi çarə gəzirsən
Dərdinə, azarına.
Azadlıq istəyirdin,
Düşdün qul bazarına…

## KUZUN YOLUNDA

–Narahatdı, nahamardı
nədən yol?
– Çətin olur gözəlliyə
gedən yol…

## ANA TORPAQ

**Dostum Rəşid üçün**

Gözlərimdə
şimşəklər çaxdı,
Görəndə gözlərinin
dolduğunu.

Torpağa
analarımızı
tapşırandan sonra
dərk elədik
Torpağın ana
olduğunu!

**19. 07. 2001**
**Kuzun**

## MEŞƏDƏ

Ağaclar, quşlar
məni görəndə
sevinir;
Baltam, silahım
yoxdu axı əlimdə?!
Meşə mənə
"xoşgəldin" eləyir,
sevgi kükrəyir
könlümdə…

**20. 07. 2001**

## YOX

Küləklər açır qapımı
Halımı yoxlayanım yox.
Çiçək kimi açılmışam,
Ətrimi qoxlayanım yox.

Köz tapmadım közüm kimi
Utancağam sözüm kimi.
Ürəyimi özüm kimi
Anlayanım, duyanım yox.

Gərək bir qəm evi tikəm,
Arxayın göz yaşı tökəm.
Tufanlar qoynunda təkəm,
Vəfadarım, həyanım yox.

Pətəyimdə şan qalmadı,
Daha məndə can qalmadı,
Damarımda qan qalmadı,
Yaramı bağlayanım yox.

Tikdiyimi zaman sökür,
Gözlərimə duman çökür,
Hamı öz dərdini çəkir,
Ölmüşəm, ağlayanım yox…

**14. 08. 2001**

## BƏLKƏ

Dirildik yenidən, öldük yenidən,
Dünyanın dərdini böldük yenidən.
Bizi ayrı salan ölümdən qorxma,
Bəlkə bu dünyaya gəldik yenidən…

## QƏLBİMƏ SÜZÜLƏN İŞIQ

Xoş gəldin, ulu göylərdən
ayağı üzülən işıq!
Dönərək şeh damlasına
gözümə düzülən işıq!
Mənim sevdalı ürəyim
bəxtəvərdi nur içində,
Bəlkə Tanrı elçisisən,
qəlbimə süzülən işıq?!

**15. 08. 2001**

## QƏDRİNİ BİL

Ura günü olur bağın, bostanın,
Bitəcəkdir bir gün ömür dastanın.
O dünyada nə dost var, nə sevgili,
Qədrini bil sevgilinin, dostunun…

## DÜNYA HƏMİŞƏ GÖZƏLDİ

Dodağımda söz çiçəkdi,
Ocağıma köz bəzəkdi.
Dünya həmişə gözəldi,
Onu görən göz gərəkdi…

## ŞAİR DƏRƏR

Hər əzaba sinə gərər,
Neçə aylı sinə görər.
Ürəkdə bitən ən zərif
Çiçəkləri şair dərər**…**

## XEYİR VƏ ŞƏR

Mənim dərd çəkən ürəyim
İnsanlarla təmasdadı.
Əlim toyun yaxasında,
Ayaqlarımsa yasdadı…

## ÖMÜR YOLDAŞIMA

Dünən körpə uşaq idik
Gör kimlərin tayı olduq?
Xala olduq, bibi olduq,
Əmi olduq, dayı olduq.

Kaş düşə qismətimizə
Baba olaq, nənə olaq.
Sonra arxayınca dönüb,
Yarpız olaq, nanə olaq…

**16. 08. 2001**

## ELEGİYA

Təzə bir qönçə idim,
Açılmamış dərildim.
Allahın dərgahında
Bəlkə yenə dirildim!..

## QƏRİBƏ ADAM

Zərif könlüm nə qədər tufana sinə gərib,
Həqiqətə çevrilir qəlbimə bir şey damsa.
Tufanlı bir havada məni sahildə görüb,
Bir dostum söylədi ki, nə qəribə adamsan!

Gülüb dedim: – Nə vaxt  ki,ağrı qopub sinəmdən,
Gah dənizə, gah aya baxmışam fağır-fağır.
Doğmalar arasında elə bil qəribəm mən,
Mənim qəribəliyim qəribliyimdən doğur.

**02. 09. 2001**

## EVİN-EŞİYİN YOXDU?

Mən dənizə getmişəm,
Hava yaman soyuqdu.
Dostum məndən soruşur:
–Evin-eşiyin yoxdu?

Belə soyuq günlərdə
Quş da çıxmaz yuvadan.
Sahildə nə gəzirsən
Sən bu soyuq havada?

Mən görüşə getmişdim,
Güclü yağış yağırdı.
Adamlar təəccüblə
Dönüb bizə baxırdı.

İldırım şaqqıldadı,
Qəfil bir şimşək çaxdı.
Kimsə soruşdu: –Sizin
Ev-eşiyiniz yoxdu?!

Gülərək cavab verdim
O deyingən kişiyə:
–Ürəyim çox böyükdü,
Sığışmır ev-eşiyə…

**28. 08. 2001**

## BULUD BALASI

Çiçəklər yağış gözləyir,
Göyü bulud alasıdı.
Buludu doğrayan şimşək
Bilmir bulud balasıdı?!

## SANKİ MEŞƏ GÖZƏLLƏŞIB

Şəhərdə bir azca qalıb,
yenidən döndüm Qubaya,
İstədim beş-on günü də
dincəlməyə həsr edim mən.
Özüm də çaşıb qalmışam,
sanki meşə bircə aya
Dəyişib öz görkəmini,
gözəlləşib həsrətimdən.

## SEVDİM

Ətirli güllər bitirən
Bu qara torpağı sevdim.
Bağban yadıma düşmədi,
Yaratdığı bağı sevdim.
Yamacları gül-çiçəkli,
Başı qarlı dağı sevdim.
Bircə kəlmə söz deyəndə
Titrəyən dodağı sevdim.
Yaşıl budaqlar incidi,
Sarı bir yarpağı sevdim…

## GÖZƏLLİK SOLTANI

Baharda bütün yarpaqların
yamyaşıl rəngi olur.
Payızda
sarı, qırmızı, narıncı yarpaqlar
son baharın
gözəllik çələngi olur.

Ömrün başlanğıcında
hamı bir-birinə
bənzəyir.
Ömrün sonuna yaxın
hər insanı öz qazandığı
ad-san, hörmət
bəzəyir…
Bir ağacın yarpağı tökülüb,
birinə təzəcə dən düşür,
biri yaşıldı hələ…
Ürəyim yamanca doğmalaşıb,
gözəllik soltanı
payız ilə…

**01. 11. 2001**

## DÜNYANIN ƏN AĞIR DAŞI

Yalnız ölüm qadirdi
qəlbimdəki çiçəkləri
soldurmağa.
Dünyanın ən ağır daşı
baş daşıdı, –
heç kimin gücü çatmaz onu
qaldırmağa…

**07. 11. 2001**

## PAYIZ AĞLAYIR…

Payız ağlayır, gözündən
yarpaq-yarpaq yaş tökülür,
Yeri isti olan bilməz
üşüyən torpaq nə çəkir!

Biz uçuşan yarpaqlara
baxanda gözümüz gülür,
Ancaq bilmirik budaqdan
ayrılan yarpaq nə çəkir?!

**12. 11. 2001**

## YARPAQ BOYU

Saralan yarpaqlara baxanda
içim göyüm-göyüm göynər!
Ağaclar paltarlarını soyunub,
bir yarpaq boyu
genişlənib göylər…
Nə çiçəyi var, nə yarpağı,
elə bil meşələr
müflisləşib, qocalıb…
Xəzəllər yerə döşənib,
Torpaq
bir yarpaq boyu ucalıb…

**17. 11. 2001**

## PAYIZIN SON GÜNÜ

Qaralan buludların
Gözünə getmir çimir.
Meşəyə yağış yağır,
Çılpaq budaqlar çimir…

Ağacların üstünə
Düşən damcılara bax!
Bir kirpikdi elə bil
Yaş asılan hər budaq…

Damcılar  alay-alay,
Damcılar qoşun-qoşun…
Hava yaman soyuyub,
Nəfəsi gəlir qışın.

Bir azdan ağacların
Gözündə yaş donacaq.
Budaqların üstünə
Ağappaq qar qonacaq…

**17. 11. 2001**
**Qayabulaq**

## AĞACA BAX

Ağaca bax, bəxtəvərdi,
Şipşirin röyalar görür.
Zəhmətini mən çəkirəm,
Barını özgələr dərir…

**27. 09. 2001**

## PAYIZLA QIŞIN GÖRÜŞÜ

Lopa-lopa qar yağdı,
Birdən hava dəyişdi.
Gözümün qabağında
Payızla qış görüşdü.

Möcüzəydi, bir anda
Qara çevrildi yağış.
Təbiəti payızdan
Təhvil aldı qarlı qış…

**18. 11. 2001**
**Qayabulaq**

## SEVGİ İLAHİ PAYIDI

Gözəllər məni sevirlər,
Sən bunu dərd eləmisən.
İndiyəcən neçə mərdi
Qovub, namərd eləmisən.

Tanrı qüvvə verən qolu
Pəhləvanlar bükə bilməz.
Sevdayla dolu qəlbimə
Xəbislik üzükə bilməz.

Heç zaman göz dikməmişəm
Bir kimsənin qismətinə.
Baş əymişəm gözəllərin
Namusuna, ismətinə.

Qəlbim sevgi vağzalıdı,
Taleydən özgə payım var.
Başım üstə gülümsəyən
Nə qədər nurlu ayım var.

Bir şey başa düşəmmədin
Sən şeirimi höccələyib.
Neçə-neçə qərib sevda
Ürəyimdə gecələyib.

Gözəllər ac arılardı,
Ürəyim bir gül ləçəyi.
Nəfəsimlə isitmişəm
Neçə üşüyən çiçəyi.

Qismət Ulu Tanrınındı,
Zor ilə pay alammazsan.
Özünü öldürmə, kişi,
Sən mənə tay olammazsan!

Neçə-neçə əsrlərin
O başından gəlir səsim.
Bir ilahi məhəbbətlə
Yoğrulub ruhum, nəfəsim.

Məndə babam Nəsiminin,
Füzulinin qüruru var.
Sözümdə Tanrı işığı,
Nəfəsimdə Haqq nuru var.

Mənim yerişimi gedib,
Həyatını zay eləmə.
Çəkib yırtıq dağarcığı
Çuvalıma tay eləmə!

İnsan var-dövlətiylə yox,
Məhəbbətiylə böyükdü.
Dəvə necə kiçik olsa,
Dərisi ulağa yükdü…

Sevgi İlahi payıdı,
Nə günahım axı mənim?!
Qəlbin təmizlənsin deyə,
Bir şeirimi oxu mənim!

**08. 10. 2001**

* * *

Yarpaq kimi titrəyirəm mənə soyuqdu,
Güzəranın fitnəsinə uyub gəlmişəm.
Heç şəhərdə yaşamağa ürəyim yoxdu,
Mən qəlbimi o dağlarda qoyub gəlmişəm.

**09. 12. 2001**

# QIZLAR, MƏNİ XATIRLAYIN

## SEVGİ ÖMRÜN TƏMƏLİDİ

Allahım, sənin rizanla
Qəlblərə sevda səpirəm.
Ömründə sığal görməyən
Zərif telləri öpürəm.

Könlümün titrək telləri
Bir cüt sarı sim olubdur.
Gözəllərin uman yeri
Sevdalı qəlbim olubdur.

Sevənlərin təbəssümü
Mənə sevinc bağışlayır.
Sevgi ömrün təməlidi,
Hər şey sevgidən başlayır.

Allahım, sevgi, məhəbbət
Yaraşıqdı xoşbəxt elə.
Sən məni sevən qızların
Hamısını xoşbəxt elə!

**14. 08. 2001**

## SEVDA BAĞI

Mənim eşqim tərtəmizdi,
Heç zaman xılt götürməyib.
Bir kimsənin ürəyinə
Sevgim ağrı gətirməyib.

İnləyən bir qəlb görəndə
Bir buluda dönüb ürək.
Eşqim arzular üstünə
Səpilib yaz yağışı tək.

Məni sevən gözəllərin
Qəlbi gün kimi parlayıb.
Sevgim pas tutan hissləri
Təmizləyib, ovxarlayıb.

Nə qədər küskün gözəlin
Nəmli gözündən öpmüşəm.
Çat-çat olan ürəklərə
Sevda toxumu səpmişəm.

Sevə bilməyən kəsləri
Qəlbimə qoymaram yaxın.
Gül-çiçəkdən əskik olmur
Heç vaxt mənim sevda bağım…

**14. 08. 2001**

# XOŞBƏXT ŞAİR

"Sizi tanıdıqdan sonra sevməmək günah olardı. Siz dünyanın ən xoşbəxt şairisiniz. Çünki heç bir şairi bu qədər qız sevməyib".

**Fatma Fidayət qızı**

Mən gözəllik təşnəsiyəm,
Gözəllər gəlir xoşuma.
Nura həsrət pərvanə tək
Qızlar dolanır başıma.

Şirin nə var bu dünyada
Məhəbbətin barı kimi?!
Dodaqlarım gül üzlərə
Qonur təşnə arı kimi.

Ümid dolu sözüm dönür
Gözəllərin gərəyinə.
Həyat eşqi sönənlərin
Od salıram ürəyinə.

Məndən imdad diləyənə
Dar məqamda hay verirəm.
Sevda dolu ürəyimdən
Sevənlərə pay verirəm.

Qəlbim məhəbbət yuvası,
Gözəllər sevgi hərisi.
Deyin, hansı şairin var
Bu qədər ilham pərisi?!

**08. 02. 2001**

# XƏZİNƏ

"Mən Sizin qəlbinizi bir xəzinəyə bənzədirəm. Lakin bu xəzinə qızılla deyil, ondan da qiymətli bir cəvahirlə – sevgi ilə doludur. Qəribədir, bu xəzinənin nə qapısı, nə də gözətçisi var. Xəzinədar istədiyi vaxt oradan sevgi verir, əvəzində yenisini qazanır".

**Sevinc İmanova**

Qəlbim qızlara qurbandı,
Bəs onların sözü nədi?!
Sevgiylə dolu ürəyim
Bir qıfılsız xəzinədi…

Ürəyi buza dönənlər
Məni görüb köks ötürür.
Hamı sönmüş ocağına
Ürəyimdən köz götürür.

Xəzinəmə hücum çəkən
Qızlar qoşun-qoşun olsun!
Sən də ordan bir pay götür,
Gülüm, halal xoşun olsun!

**29. 05. 2001**

## KÖMÜR

"Şeirləriniz Sizin mənəviyyatınızın güzgüsüdür"

**Bir məktubdan**

Gülüm, qəlbimə yol tapan
Sözlərinin mənasıdı.
Yazırsan ki, şeirlərim
Ürəyimin aynasıdı.

Düzünü de, o güzgüdə
Özün özünü gördünmü?
Kül altında mürgüləyən
Həsrət közünü gördünmü?

Əgər sevgiylə yoğrulsa
Ömür əsl ömür olar.
Mənim sevgi ocağımda
Qara gözlər kömür olar…

**04. 05. 2001**

## BU SEVDALI GECƏ

"Mən təpədən dırnağa Sizin vurğununuzam. Qəlbimdə Sizə qarşı təmiz, saf məhəbbət var. Ürəyimdə hələ nə qədər deyiləsi sözüm qalıb. Lakin yazmayacam. Qoy deyəcəyim sözləri Sizin şair ürəyiniz hiss etsin!"

**Sevinc Rzayeva**

Hazırsan könlümdə ocaq çatmağa,
Sevdalı qəlbimə girib, azmısan.
Həsrətim qoymayıb səni yatmağa,
Mənə səhərəcən məktub yazmısan.

Sevdalı gözünün yuxusu qaçıb,
Əlləri qoynunda tənha qalmısan.
Kağızın üstünə ay tək nur saçıb,
Gözümə bir aylı cığır salmısan.

Yuxusuz gecələr getməyib hədər,
Bir sonsuz həsrətə qənim olmusan.
Xoşbəxtəm, o gecə səhərə qədər
Məni düşünmüsən, məni anmısan.

Nələr yazmamısan? – Yaşarır gözüm,
Məktubun ruhuma salıb vəlvələ.
Etiraf etmisən, ancaq, əzizim,
Deyə bilmədiyin sözlər var hələ.

Kaş ki, əllərinə yetəydi əlim,
Bilirəm sübhədək qovrulduğunu.
Ürəyin titrəyə-titrəyə, gülüm,
Açıqca yazmısan vurulduğunu…

Bu sevdalı gecə bir ömrə dəyər,
Qəlbində yurd salan nəğmələr imiş.
Deyə bildiklərin budursa əgər,
Deyə bilmədiyin gör nələr imiş?!

P.S. Sevda dolu məktubunun hər kəlməsini
Həsrət dolu gözlərimə təpsəm, doymaram.
Səhərəcən mənə məktub yazan gözəlin
Səhərəcən əllərindən öpsəm, doymaram!

**06. 04. 2001**

## DÜNYA GÖZƏLLƏŞİB SİZİ SEVƏNDƏN

"Sizi tanıyandan yağış, dəniz, insanlar, yer, göy – hamısı mənə qəribə gəlir. Elə bil iyirmi il idi heç bunları tanımırdım. Bir sözlə, yağışı, dənizi, insanları yenidən sevməyə başlamışam".

**Fatma Fidayət qızı**

Dadmışam sevginin ilk nübarını,
Qəlbimdə bir dərin iz açmısınız.
Mənim öz könlümün qapılarını
Mənim öz üzümə Siz açmısınız…

Sən demə ağlımı başımdan alan
Zərif çiçəklərin xoş iyi imiş.
Gah coşan, gah da ki, xəyala dalan
Dəniz məhəbbətin beşiyi imiş…

Baxıb albalının budaqlarına
Ulduzlar sevgiylə işıldayırmış.
Yağış çiçəklərin qulaqlarına
Məhəbbət nəğməsi pıçıldayırmış.

Başıma göylərdən çiçək ələnib,
Qəlbimdə gül açıb arzum, diləyim.
Ömrüm başdan-başa nura bələnib,
Sevgi yuvasına dönüb ürəyim.

Həsrətdən yuxu da getmir gözümə,
Qəlbimin telləri çəkilib tarım.
Çəmənlər, çiçəklər gülür üzümə,
Necə gözəl imiş bu dünya, Tanrım!

Görəsən bəxtəvər varmı dünyada
Şairi sevəndən, sözü sevəndən?!
Üşüyən ürəyim qalanıb oda,
Dünya gözəlləşib Sizi sevəndən…

Dadmışam sevdanın ilk nübarını,
Qəlbimdə bir dərin iz açmısınız.
Mənim ürəyimin qapılarını
Mənim öz üzümə Siz açmısınız…

**22. 04. 2001**

## MƏHƏBBƏTİN XƏTRİNƏ

Yollarda qalıb gözüm,
Bu dərdə necə dözüm?
Bilmirəm hansı sözüm
Dəyib sənin xətrinə?

Ayrı düşdüm ahumdan,
Göylər yandı ahımdan.
Gülüm, keç günahımdan
Məhəbbətin xətrinə!

Yenə xəzan qopubdur,
Həsrətin at çapıbdır,
İntizarın hopubdur
Şeirimin hər sətrinə.

Meyl etmədim hər gülə,
Rəhmin olsun bir gilə,
Ürəyimi qərq elə
Saçlarının ətrinə.

Ayrı düşdüm ahumdan,
Göylər yandı ahımdan.
Gülüm, keç günahımdan
Məhəbbətin xətrinə!

**2001**

## BİLİRSƏN NƏ DADLISAN?

Sevgi dolu bir ürək
Sevənlərin bəsidir.
Mehriban baxışların
Ürəyimi isidir,–
Alovmusan, odmusan?
Süzdürüb gözlərini
Hey mənə naz satmısan.

Baxışınla eşqini
Qəlbimə nəqş etmisən.
Bir öpüşlə dünyanı
Sən mənə bəxş etmisən.
Bilirsən nə dadlısan?
Bəxtəvərsən, sevginin
Sevincini dadmısan.

Arzular qönçə tutub
Məhəbbət yağışında.
Eh, necə bəxtəvərəm, –
Ürəyimin başında
Eşq ocağı çatmısan.
Qəlbimi ram eləyib,
Muradına çatmısan.

Qəlbindəki məhəbbət,
Gülüm, puçur-puçurdu.
Dönüb mələk olmusan,
Sevgi səni uçurdur.
Elə bil qanadlısan,
Göylərdən ürəyimə
Eşq toxumu atmısan.

Baxışınla eşqini
Qəlbimə nəqş etmisən.
Bir öpüşlə dünyanı
Sən mənə bəxş etmisən,
Bilirsən nə dadlısan?
Bəxtəvərsən, sevginin
Sevincini dadmısan!

**2001**

## MƏKTUBUNUN SON SÖZÜ

**Sədaqət üçün**

Məktubunun son sözü  buydu:
“Öpürəm Sizi!” –
Əkdiyin söz gülünü dərəndə gözüm güldü.
Çəkinmədən yazdığın o bir “öpürəm” sözü
Aramızdakı illər, aylar fərqini sildi.

Elə bildim səninlə bir gündə doğulmuşam,
Sandım ki, eşqimizin çiçəyi təzə açır.
Qəlbimin zülmətini əritdi bir nurlu şam,
Təzə sevənlər kimi tər tökdüm puçur-puçur.

Mənim qaraçı qəlbim yenə səfər üstədi,
Həsrətli gözlərimdə dəli şimşəklər gəzdi.
Əllərim tellərinə sığal çəkmək istədi,
Dodaqlarım həsrətlə dodaqlarını gəzdi.

Nəfəsin alışdırdı kül altındakı közü,
Pərvanələr o nurun uçub başına döndü.
Həyəcanla yazdığın o məktubun son sözü
Təptəzə bir sevginin təməl daşına döndü.

**21. 04. 2001**

## QƏLBİNƏ SEVGİ DÜŞƏNLƏR

**Aynur üçün**

– Siz qızların ürəyinə
Sevgi tumu səpirsiniz.
Qönçələyən çiçəkləri
Nəvazişlə öpürsünüz.

Necə dözsün ayrılığa? –
Eşqə düşən ürək sızlar!
Bu qədər sevməkmi olar? –
Divanədi bütün qızlar!

Yamyaşıl rəngə boyayır
Baxışınız xəzəlləri.
İtirməkdən qorxmursunuz
Sevdiyiniz gözəlləri?

– Neçə-neçə qəlbi daşın
Ürəyini yuxaldıram.
Mən sevənlərin sayını
Gündən-günə çoxaldıram.

Sevə bilsə, ilanın da
Şəkər süzülər dilindən.
Qəlbinə sevgi düşənin
Pislik gələrmi əlindən?

Dönər paka, müqəddəsə
Sevgi odunda bişənlər.
Şərə meydan oxuyacaq
Qəlbinə sevgi düşənlər.

**04. 05. 2000**

## SEVGİ DOLU GÜNLƏR

"Mən Sizə sevgi dolu günlər arzu edirəm. Bir gününüz də sevgisiz keçməsin!"

**Bir məktubdan**

Mənə sevgi diləyirsən,
Sevgisiz günün olmasın!
Getdiyin evdə heç zaman
Rəqibin, günün olmasın!

Mənim sevgi sarayımın
Qıymaram daşı olasan.
Sən öz tale üzüyünün
Bərq vuran daşı olasan!

**04. 05. 2001**

## GÖZLƏRİN DEYƏNİ SÖZLƏRİN DEMİR

**Günay üçün**

Aldım məktubunu, titrədi əlim,
Ürəyim nə daşdı, nə də ki dəmir.
Qəlbindən keçəni yazsan da, gülüm,
Ürəyin deyəni gözlərin demir…

Sözlərin bir qədər ütülü, qorxaq,
Gözlərin heç nəyi almır vecinə.
Qaçmaq istəsəm də mən səndən uzaq,
Bələdəm sevginin qadir gücünə.

El bizə nə deyər?
– Düşün dərindən! –
Ağlım ürəyimə "Bir utan!" – deyir.
Məhəbbət boylanır bəbəklərindən,
Ancaq ki, bu sevda baş tutan deyil…

Bu dəli istəyi məhv edəm gərək, –
Gözlərim qorxudan üzünə baxmır.
Ancaq mən neyləyim, sevdalı ürək
Heç zaman ağlımın sözünə baxmır…

**12. 05. 2000**

## QORXURAM

Ürəyim titrəyir gözün güləndə,
Neyləyim, gözəllik önündə matam.
Yamanca qorxuram səni sevməkdən,
Qorxuram bu yaşda günaha batam…

**04. 05. 2001**

## BİR MƏKTUBA CAVAB

Yazırsan: mən elə mürəkkəbəm ki,
Təsvir eləməyə mürəkkəb çatmaz.
Sevdalı qəlbimdə bir həsrət yükü,
İntizar gözlərim yuxu da yatmaz.

Sözlərin yarama səpələnən duz,
Göynəyə-göynəyə sahildə gəzdim.
Məndən bir xoş sözü əsirgəyən qız,
Mən səndən heç nəyi əsirgəməzdim…

Şeir dəyirmanım susar gözəlsiz,
Sevənlərə çatır şairin ərki.
Yazırsan: “Həyat da, Siz də gözəlsiz!” –
Sənsiz bu gözəllik nəyə dəyər ki?!

Şipşirin sözlərdən çələng toxuyan
Titrək barmaqların məni cəlb edir.
Sizin bağçanızda nəğmə oxuyan
O bülbül – sevdalı şair qəlbidi.

Sevən də sevəndən alarmı qisas?!
Məhəbbət oduyla gizli yanırsan.
Sən məni hamıdan mehriban, həssas,
Sən məni hamıdan varlı sanırsan.

Köksümə çırpılır quduz dalğalar,
Sevda dənizində adamıyam mən?!
De, kimin bu qədər sevgilisi var?! –
Dünyanın ən xoşbəxt adamıyam mən!

**13. 05. 2001**

# MƏNİM ƏLLƏRİM

Mənə zarafatla dedi bir gözəl:
Gözlərin həmişə gözəli görüb!
Tutub əllərimdən soruşdu: – Bu əl
Görəsən nə qədər qız əli görüb?!

Dedim: – Əzizimdi sevən könüllər,
Başımda min eşqin havası olub!
Çiçəyə çevrilib əlimdə əllər,
Ürəyim sevdalar yuvası olub…

Uçrumdan qurtulub əlimdən tutan,
Uduzub, – kim mənə acıq eləyib…
Sevdalı nəfəsim kül altda yatan
Neçə yetim közü ocaq eləyib…

Duyanı yoxdusa, insan qəribdi,
Köksümə nə qədər tellər sığınıb…
Gözlərim nə qədər gözəl görübdür,
Əlimə nə qədər əllər sığınıb…

Sevda yollarında qəlbim əridi,
Qanlı göz yaşıyla gözüm dolubdur.
Ovcum bəxtəvərlər bəxtəvəridi,
Neçə qız əlinə vətən olubdur…

**18. 05. 2000**

## SƏNİN MƏKTUBUN

**Səbinə üçün**

Sizi görcək qəlbi əsib qəlbi buzların,
Ürəkləri isindirən köz olmusunuz.
Neçə-neçə qəlbi kövrək qönçə qızların
İlk sevgisi, sevgilisi siz olmusunuz…

Nə gizləyim, o qızlardan biri də mənəm,
Gecə-gündüz can atıram vüsala yetim!
Bir ilahi məhəbbətlə göynəyir sinəm,
Bəxtəvərəm, taleyimdən yox şikayətim.

Həzin-həzin dillənəndə könül tarınız,
Neçə sevgi bulağının eşq gözü dolub.
Qəm libaslı, həsrət yüklü misralarınız
Neçə sevgi ocağının ilk közü olub.

Baxışınız şimşək kimi məni yandırıb,
Sevda dolu nəğmənizlə ürək üzürsüz.
Sevdiyiniz gözəlləri pərvazlandırıb,
Bəs bu qədər ayrılığa necə dözürsüz?

Məhəbbətə çevrilərmiş ürəkdəki kin,
Bu dünyada hər bir dərdin davası varmış.
Bu nə işdi, bir sevdalı şair qəlbinin
Neçə-neçə qız köksündə yuvası varmış…

Sizi görcək qəlbi əsib qəlbi buzların,
Ürəkləri isindirən köz olmusunuz.
Neçə-neçə qəlbi kövrək qönçə qızların
İlk sevgisi, sevgilisi siz olmusunuz…

**27. 05. 2000**

## GEC OLACAQ

**Pəri üçün**

Ayrılıq xəzanından
Ürəyim titrəyəcək.
Bir gecikmiş sevginin
Çiçəkləri solacaq.
Məhəbbət yollarında
Ayağın büdrəyəcək,
Yadına düşəcəyəm,
Ancaq çox gec olacaq.

Eşqin dəyməz, bilirəm
Gözlərimin yaşına,
Şirin xatirələrdən
Ürəyim güc alacaq.
Nə vaxtsa dəyəcəkdir
Başın əhlət daşına,
Qayıtmaq istəsən də,
Əzizim, gec olacaq…

Demirəm ki, qəlbimdə
Məhəbbət buza dönüb,
Bu həyat yollarında
Sevənlər ucalacaq.
Göz yaşın yanağında
Bir cüt ulduza dönüb,
Məni soraqlasa da,
Qovuşmaq gec olacaq…

**28. 05. 2000**

## NƏ BİLƏYDİM ƏSİRMİŞ AYRILIĞIN YELLƏRİ

**Naibə üçün**

Mən sevdalı kəpənək, sən bir zərif çiçəksən,
Mehriban mələk kimi dayanmısan qarşımda.
Biləndə ki, bir uzaq diyara köçəcəksən,
Həsrətin gizildədi ürəyimin başında.

Ayrılığın zülməti bəbəklərimə hopdu,
Qibləgahım olmusan, sənə üz çevirmişəm.
Ürəyimin başından şirin bir ağrı qopdu,
Bilməzdim ki, mən səni bu qədər sevirmişəm!

Gözlərindən axacaq dəli həsrət selləri,
Əbədi ayrılıqdan ürəyim çatlayacaq.
Nə biləydim əsirmiş ayrılığın yelləri,
Nə biləydim əllərim əlinə çatmayacaq?!

Nə biləydim hicranın şimşəkləri çaxacaq,
Vədəsiz don vuracaq bir körpə məhəbbəti?!
Nə biləydim belə tez əlimizdən çıxacaq
İkimiz bir şəhərdəyaşamaq səadəti?!

Bu dünyaya gələndən məni həsrət izləyir,
Ancaq ki, bircə dəfə taleyimdən küsmədim.
Bilirsənəmi, əzizim, məni nələr gözləyir? –
Sənsiz doğma şəhərdəqərib olmaq, – qismətim.

Uzaq-uzaq yollara dikiləcək gözlərim,
Səndən məktub alanda qəlbim bahar olacaq.
Təskinliyim budur ki, sevgi dolu sözlərim
Uzaq, qərib şəhərdə sənə simsar olacaq…

**03. 06. 2001**

## VAR İMİŞ

**Sevda üçün**

Neçə sevgi toxumu var köksümdə,
Hər yarpağı, hər xəzəli sevmədim.
Sevda sözü gül açsa da dilimdə,
Sevda adlı bir gözəli sevmədim.

Titrək əli buz tək soyuq gözəlin
Sinəsində yanar ocaq var imiş.
Mənim sevgi yollarımın üstündə
Sevda adlı dayanacaq var imiş…

**03. 06. 2001**

## EŞQ FIRTINASI

**Nuriyyə üçün**

Mənə zəng elədin səsində tufan,
Tanrı özü yetsin sənin dadına.
Suların qoynuna baş vuran zaman
Yenə mən düşmüşəm sənin yadına.

Solub dodağında busə nübarı,
Bəlkə gizli-gizli yanmısan, gülüm?
Səni qucaqlayan şən dalğaları
Həsrət qollarımmı sanmısan, gülüm?!

O mehriban səsin titrəyir nədən? –
Bilirsən ki, qəlbim eşq hərisidi.
Elə düşündüm ki, mənə zəng edən
Dənizdən boylanan su pərisidi.

Baxırdı gözümə bir su sonası,
Əllərin ovcumun içində idi.
Qəlbimi titrədən eşq fırtınası
Kim bilir, neçə bal gücündə idi?!

**18. 08. 2000**

## SƏNİN HƏSRƏTİN

**Günel Qasımovaya**

Ay qəlbi kövrək quzum,
Gəl sən məni qınama.
Özümdə olmamışam
Sən gələndə yanıma.

Gətirdiyin gülləri
Vermişəm özgəsinə.
Köksümün atəşini
Duyarmı özgə sinə?

Xəbər də tutmamışam
Təmiz məhəbbətindən.
Bilmirəm necə çıxım
Sənin xəcalətindən?!

Mehriban gözlərini
Seyr etməkdən doymuram.
Ancaq ki, ürəyinə
Xal salmağa qıymıram.

Mənim qəlbim sərt qaya,
Sən bir kövrək şüşəsən.
Qorxuram məni sevib,
Alovlara düşəsən.

Mən dünya görmüş kişi,
Sən on doqquz yaşında…
Həsrətin bardaş qurub
Ürəyimin başında…

**25. 08. 2000**

## BİR YER TAPILAR

Demə şair eşqi bircə günlükdü,
Açılıb üzümə bağlı qapılar.
Mənim ürəyimdə yaman tünlükdü,
Ancaq səninçün də bir yer tapılar…

## ÖPƏRƏM

Sözümü havada tutan
Qızın gözündən öpərəm.
Ürəyimdə ocaq çatan
Qızıl közündən öpərəm!

## MƏNLİK DEYİL

Heç bilmirəm neyləyim,
Düşmüşəm əcəb oda.
Özgə bir yana qalsın,
Danlayır məni o da.

Nurlu bir məhəbbətin
Gözünə zülmət çökür.
Tanrı bu sevgi ilə
Bizi sınağa çəkir.

Özgənin bağçasından
Gül dərmək mənlik deyil.
Elləri üstümüzə
Güldürmək mənlik deyil.

Ürəyimin başında
Məhəbbətin yaşayır,
Qəlbimdəki həsrəti
Öldürmək mənlik deyil…

Qəm didir ürəyini
Yaş aparır gözünü.
Oda, közə vurursan
Pərvanə tək özünü.

Sevda dolu qəlbimiz
Dönüb dəli ozana.
Axı bəndə neyləsin,
Gülüm, Tanrı yazana?!

Əlimizdən nə gəlir
Dayanıb köks ötürdük.
Nəmli kirpiyimizlə
Nə qədər od götürdük.

Qəlbin bir himə bənddi,
Sən hər şeyə hazırsan.
Ancaq əlacın yoxdu,
Unut məni! –yazırsan.

Özgənin bağçasından
Gül dərmək mənlik deyil.
Elləri üstümüzə
Güldürmək mənlik deyil.

Ürəyimin başında
Məhəbbətin yaşayır,
Qəlbimdəki həsrəti
Öldürmək mənlik deyil…

**25. 08. 2000**

## YANIMA TƏK-TƏK GƏLİN

**Zarafat**

Cüt gözüm Sizə qurban,
Yanıma cüt gəlməyin!
Amandı, bir ürəyi
İki yerə bölməyin!

Gözünüzə baxanda
Gözlərim utanmasın.
Dodağımda titrəyən
Sözlərim utanmasın!

Bəndənizin yanında
Göz üstədi yeriniz.
Birinizə baxanda
Qısqanmayın biriniz.

Gözəlləri görəndə
Başımdan gedir huşum.
Bir azca vasvasıyam,
Hamıya qonmur quşum.

Gəlir mənim xoşuma
Tək-tək qız, tək-tək gəlin.
Məni sevən gözəllər,
Yanıma tək-tək gəlin!

**05.08. 2000**

## MƏNDƏN DAŞ İSTƏYƏN QIZ

Göz dikmisən gözlərimə,
Bəbəyindən sevgi daşır.
Deyirsən: – Mənim üçün də
Gətirin bir dəniz daşı.

Qəlbimə həmdəm gəzirəm,
Mənə simsar olarsanmı?
Məndən daş istəyən gözəl,
Könül versəm, alarsanmı?

**15. 09. 2000**

## SƏNİN XƏTRİNƏ

**"Tək Sizin xətrinizə dərsə gəlirəm" deyən Cəlaləyə**

Sənin məhəbbətin, sənin həsrətin
Hopubdur şeirimin kövrək sətrinə.
Gözlərin gözümdə yuva qursa da,
Həsrətəm saçının doğma ətrinə.
Ay mənim xətrimə dərsə gələn qız,
Hər şeyə hazıram sənin xətrinə.

**05. 10. 2000**

## DUEL

Ünvanıma tuşlanan
Hər bir sözündə sevgi.
Duelə çağırırsan
Məni gözündə sevgi.

Bir dalda yer seçək ki,
Kimsə mane olmasın.
Qəlbimizdəki arzu
Gözümüzdə qalmasın.

Alovlara, odlara
Çataq bir-birimizi.
Öpüş güllələrinə
Tutaq bir-birimizi…

**05. 10. 2000**

## HƏR ŞEY SƏNİN ƏLİNDƏDİR

Sözlərin həsrət könlümü
Paraladı, dilimlədi.
Məhəbbətin ürəyində,
Acı sözlər dilindədi.

Məndən gen gəzdiyin bəsdi,
Əlin soyuq, qəlbin isti.
Ovcumun içində əsdi,-
Sevdiyini əlin dedi!

Hönkürürəm gildir-gildir,
Ürəyimi güldür, güldür.
İstər yaşat, istər öldür,
Hər şey sənin əlindədir!

**18. 12. 2000**

## BƏS DEYİRDİN AĞLAMARAM?

**İlahə üçün**

Bəs deyirdin ağlamaram,
Nə tez oldun qəlbi kövrək?!
Sözlərim ağlatdı səni,
Gülüm, göz yaşın mübarək!

Qəlbimin telləri əsir,
Heç mən səni incidərəm?!
İstəyirəm yanağından
Damla-damla inci dərəm.

Bir şam kimi əriyirsən,
Xəbərin yoxdu özündən.
Ayrılıq tufanı əsir,
Gəl öpüm nəmli gözündən!

**05. 10. 2000**

## İLHAM PƏRİMƏ

Hər şeirim sevdalı nəğmə,
Ürəyim möhtacdı qəmə,
Bu sirri kimsəyə demə, –
Sənsən uman yerim mənim,
Pərim mənim!

Həsrətimi varaq duyur.
Qəm qəlbimi varaqlayır.
Hər an səni soraqlayır
Sözüm mənim, şeirim mənim,
Pərim mənim!

Ürəyim tutulub eşqə,
Arzular çin ola keşkə!
Sənə qovuşmaqdan başqa
Yoxdu dərdi-sərim mənim,
Pərim mənim!

Yaş fərqimiz bir qərinə,
O qədər üzmə dərinə!
Sənin sinənin tərinə
Qarışaydı tərim mənim,
Pərim mənim!

Nəm – gözümün qarasında,
Qəm – qəlbimin parasında.
Qollarının arasında
Cənnət olar yerim mənim,
Pərim mənim!

**14. 10. 2000**

## SƏN HAZIRCA LEYLISƏN

**Aynur Kəlayeva üçün**

Yazdığım avtoqrafda
Xoş sözlər az olubdur.
Ürəyindəki tufan
Üzünə yazılıbdır.

Qəlbin yarpaq tək əsir,
Yamanca gileylisən.
Tək Məcnunun çatışmır,
Sən hazırca Leylisən…

**25. 10. 2000**

## VƏTƏN QIZI

**Ülviyyə üçün**

Gözəllərin arasında azmışam,
Bu sevdayla bəlkə qəlbim qızına!
Vətən adlı neçə şeir yazmışam,
Birini də yazım Vətən qızına.

Bilirsən ki, meylim yoxdu hər gülə,
Bir çiçəkli budaq desin sevgini.
Gəl şairi öpüşlərə qərq elə,
Dil deməsin, dodaq desin sevgini…

Duyarammı məhəbbətin odunu
Ürəyimdə günəş kimi doğmasan?!
Vətən qızı, Vətən kimi ülvisən,
Vətən qızı, Vətən qədər doğmasan…

**28. 12. 2000**

## ÖPDÜM

Ayrılıq yelləri əsdi,
Doluxsunmuş gözü öpdüm.
Sən mənə sevirəm dedin,
Dodağında sözü öpdüm…

## GÖR HƏLƏ NƏLƏR OLACAQ

Gözün sevgi gülşənimə
Düşən titrək izi görüb.
Pərvanə qəlbim titrəyir,
Kül altında közü görüb.

Nə biləydim ürəyimdə
Arzular mələr qalacaq?!
İçin-için köz işarır,
Gör hələ nələr olacaq?!

Əllərindən yapışanda
Qəlbimdən nələr keçəcək?!
Bu bəxtəvər dodaqlarım
Üzünü vətən seçəcək…

Bir qəribik, yurd yeri ver,
Nə zaman köçək köksünə?!
Dodaqlarım kəpənək tək
Can atır çiçək köksünə…

**29. 12. 2000**

## ƏSRİN ZİRVƏSİNDƏ

Gəlib bir cüt gözəl mələk donunda
Cənnətə döndərdi görüş yerimi.
Döndüm bəxtəvərə əsrin sonunda,
Öpdüm İlahəmi, öpdüm Pərimi!

Həsrət ocağında yandım, qovruldum,
Köksümün başında min arzu, dilək.
Əsrin zirvəsində bəxtəvər oldum,
Dodağım gül açdı, ürəyim çiçək.

İşlərim düşsə də hərdən müşkülə,
Mən öz taleyimdən bir yol küsmədim.
Şadam, təzə əsrə təzə eşq ilə
Köçmək səadəti oldu qismətim…

**30. 12. 2000**

## TALE SƏNİ MƏNİM ÜÇÜN SAXLAYIB

Sənə simsar bir qəlbimdi, bir vətən,
Dərd əlindən can atsan də qürbətə,
Dözəmməzdin bu hicrana, firqətə,
Köks ötürmə için-için ağlayıb,
Tale səni mənim üçün saxlayıb.

Tək qalmısan, səni sıxır dörd divar,
Bu ömürdü, sevinci var, dərdi var,
Göz yaşınla həsrətimi az suvar,
Köks ötürmə için-için ağlayıb,
Tale səni mənim üçün saxlayıb.

Bəxtəvərdi, cilvələnir dənizim,
Düşüb eşqin dəryasına mən üzüm!
Bəxt ömrünə şəfəq salıb, əzizim,
Yusifoğlu eşqə könül bağlayıb,
Tale səni mənim üçün saxlayıb…

**31. 12. 2000**

## MƏNİ ÇAĞIRIRSA ƏNGİN ÜFÜQLƏR

Dərələr ötərəm, dağlar aşaram,
Yoluma nur saçar şimşəklər mənim.
Sənin nəfəsinlə dolan bir şaram,
Harasa aparır küləklər məni…

Dolub ürəyimə uçmaq həvəsi,
Zərifcə bir şara tikanlar qənim.
Uçuram, içində sənin nəfəsin,
Yolumu gözləyir tikanlar mənim…

Süzülür, ruhuma axır şəfəqlər,
Sevdalı ürəyim düşmür həvəsdən.
Əgər çağırırsa əngin üfüqlər,
Saxlaya bilməzsən məni qəfəsdə…

**04. 02. 2001**

## ÜRƏYİMLƏ BACARMADIM

**C. Samirə üçün**

Gözlərindən sevgi nuru itməsin,
Körpü saldın sal buzların üstündən.
Söylədin ki, Allah əskik etməsin,
Müəllim, Sizi biz qızların üstündən…

Bir xoş sözün təşnə üçün bəs etdi,
Mənə baxan nə sevdalı gözlərdi?!
Buz əllərin ürəyimi isitdi,
Kül altında qalan odum közərdi.

Daha heç nə deyil mənim gərəyim,
Elə bilmə ilham atım büdrədi.
Döndü payız yarpağına ürəyim,
Nəfəsinlə əsim-əsim titrədi.

İnsan oğlu bu dünyada qonaqdı,
Hər gözəldən bac almadım, neyləyim?!
Bilirdim ki, səni sevmək günahdı,
Ürəyimlə bacarmadım, neyləyim?!

**19. 01. 2001**

## BU ÜRƏK Kİ, SƏNDƏ VAR

Zəlzələ vaxtı evdən təkcə mənim kitabımı
özü ilə götürüb qaçan **Billurəyə**

Yaşayıb zəlzələnin qorxunc həyəcanını,
Qaçanları görmüsən öz heyrətli gözünlə.
Kimisi pul götürüb, kimisi öz canını,
Sən mənim kitabımı götürmüsən özünlə.

Heç kəs qala bilməyib billur saray içində,
Hər kəsi öz hayında görən gözlərin dolub.
Bu vurhavur içində, bu hay-haray içində
Dünyadan umacağın mənim sözlərim olub…

Sən ömrün puçluğunu bir anda hiss etmisən,
Ancaq həyat eşqiylə dinib qəlbinin simi.
Mənim şeirlərimi qoynunda hifz etmisən
Ana öz balasını xilas eləyən kimi…

Bu ürək ki, səndə var, qəlbin nurla dolacaq,
Eşqinin göylərində sökülməyib hələ dan.
O kitab ömrün boyu talismanın olacaq,
Hifz eləyəcək səni min xətadan, bəladan…

**10. 02. 2001**

## BU QIZIN QƏLBİ

**Gülşən üçün**

Təzə sevgi bağımdan
Gül dərən qız Gülşəndi.
Ölmüş elə gözəldi,
Əlindəki gül şəndi.

Gül əllərdə gülə bax,
Yaraşıqdı gül gülə.
Görməmişdim heç belə
Gül sevinə, gül gülə.

Ona bir xoş söz dedim,
Sevindi, qəlbi güldü.
Qoxlamaq istəyirəm,
Bu qızın qəlbi güldü…

**18. 02. 2001**

## TALE SƏNƏ YAR OLACAQ

Nə yaman fağır olmusan,
Üzünü qəm alıb sənin.
Qəlbindəki dəli sevda
Gör nə günə salıb səni?!

Lalə yanağın bənzəyir
Körpəcə bir dan yerinə.
Məni görcək sevgi axır
Damarında qan yerinə.

Sevildiyini biləndə
Qəmin bağrı yarılacaq.
Darıxma, əzizim, bir gün
Tale sənə yar olacaq…

**19. 02. 2001**

## BU SEVGİ YUXU
## DEYİL Kİ…

Əlim əlində sevinib,
Gözüm gözündə durulub.
Ürəyim sözlə doludu,
Dilimə kilid vurulub.

Dodaqların gül ləçəyi,
Dəli könlüm ac arıdı.
Sənin həsrət dodaqların
Ürəyimin açarıdı.

Həsrət köksünə sıxılsa,
Ürəyim oxudu bəlkə.
Özüm də çaşıb qalmışam,
Bu sevgi yuxudu bəlkə?

**19. 02. 2001**

## BU SEVGİ YÜXUYMUŞ

Neçə yol bulandım, duruldum,
Özüm də bilmədən vuruldum.

Titrədi ürəyim nanə tək,
Həsrətin gözümdə yaş oldu.
Bir sevda nəğməsi oxudu,
Ürəyim köksümdə quş oldu.

Geriyə yol yoxdu, bilirəm,
Sevgidən ürəyim hey əsir.
Kəpənək dodağım titrəyir,
Qonmağa bir dadlı yer gəzir.

Əllərim əlində məst olub,
Dikilib gözümə gözünüz.
Ürəyim alınmaz qalaydı,
Yol tapdı qəlbimə sözünüz.

Sən baxan göylərdə ay ollam,
Sevməkdən gözəl şey yox imiş.
Qorxuram yuxudan ayılam,
Biləm ki, bu sevgi yuxuymuş…

**19. 02. 2001**

## İLHAM PƏRİMƏ

Gözlərim gözünü görüb,
Yaxanı ələ vermisən.
Mənə yazdığın məktubu
Sən cırıb yelə vermisən.

Söz deməyə utanırsan,
Dili laldı məhəbbətin.
Kağızı cıra bilərsən,
Sevgini öldürmək çətin...

**19. 02.2001**

## MƏNİM NƏ GÜNAHIM

**Qeysə üçün**

Gözəl maşınımı sən çirkli görüb,
Narahat olmusan,
çox sağ ol, gülüm!
Neyləyim, düz sözə nə söyləyəsən,
Bir azca tənbələm,
qısadır dilim.

Məni yer adamı duya bilmirsə,
Göylərdi pənahım,
a Qeysə xanım.
Yerin çirkabını, yerin tozunu
Göylərin yağışı yuya bilmirsə,
Mənim nə günahım,
a Qeysə xanım?!

**19. 02. 2001**

## ŞEİRİN TƏMƏL DAŞI

**Vaqif Qurbanova**

İllər boyu şeirlərim
Qəlblərə sevgi daşıdı.
Yoxdu ayrı umacağım,
Mükafatım göz yaşıdı.

Hər gözəlin dediyi söz
Qəlbimdə inci, zər olur.
Sevgi qəmiylə yoğrulan
Ürəyim bəxtəvər olur.

Öpdüm bir qızın üzündən,
Qəlbim xoşbəxt an yaşadı.
Gülüb dedin: – Bu öpüş yox,
Bir şeirin təməl daşıdı…

**22. 02. 2001**

## JALƏ ÜÇÜN

Şairin qəlbinə
Yol tapdın, gözəl, sən.
Jalə – sübh şehidi,
Şeh kimi gözəlsən!
Əzizim, sözlərin, gözlərin
Gəlibdir gör kimin xoşuna? –
Özün də bir qətrə jalə tək
Düşmüsən qəlbimin başına…

* * *

Məni tanıyan gündən
Gözündən yuxu qaçıb,
Sözlərim işıq kimi
Ürəyinə nur saçıb.
Yanağımı oxşayan
Bu qaynar nəfəs nədi?
Şeh içində bərq vuran
Sevgi deyil, bəs nədi?!

**22. 02. 2001**

## ŞAHNAZLA SÖHBƏT

– Müəllim, o dünyaya gedəndə kimi özünüzlə aparmaq istərdiniz?
– Öz qəmimi.
– Kaş məni aparaydınız.

–O dünyaya gedəndə
Aparmaram Şahnazı.
Qoy qalıb bu dünyada
Şahnaz çəksin şah nazı!

**22. 02. 2001**

## SEVİNC MƏNƏ YAR OLUB

Mən heç bilməzdim səni
Bu qədər qəlbi yuxa.
Kövrəldiyini görüb
Dincliyim çıxıb yoxa.

Qəlbində tufan qopub,
Gözlərin inci səpir.
Gözlərim yanağında
Bərq vuran şehi öpür.

Ürəyim tir-tir əsir,
Durma boynunu burub.
Sən Sevincsən, qəlbində
Qəm niyə yuva qurub?

Sevib gözəl bir qızı
Könlüm bəxtiyar olub.
Çəkil önümdən, kədər,
Sevinc mənə yar olub…

**22. 02. 2001**

## İNDİ İNANDIM Kİ…

Gözümdən bir tük də yayına bilməz,
Gözünün içində qəm yuva qurub.
Sənin eşq günəşin təzəcə doğur,
Mənimsə yolumu gözləyir qürub.

Bəlkə beş-on il də uzandı ömrüm,
Ürəyim həsrətdi bal öpüşlərə.
Təşnə dodaqlarım bir məqam gəzir,
Titrək dodağından bir öpüş dərə.

Uf da eləmərəm, qurbanlıq kimi
Qəlbimi başına çevirsən, gülüm!
Daha qısqanırsan məni qızlara,
İndi inandım ki, sevirsən, gülüm!

**22. 02. 2001**

## ƏLLƏRİNİ QOYNUNDAN ÇƏK

Həsrət qəlbimə dağ çəksə,
Sevinc bizdən ayaq çəksə,
Üstümüzə zülmət çöksə,
Ay üzünü çıraq elə.

Niyə qəlbində qəm olsun?
Niyə yanağın nəm olsun?
Kirpiklərim qələm olsun,
Ağ üzünü varaq elə.

Arzuların çiçək-çiçək,
Adın göyçək, özün göyçək,
Əllərini qoynundan çək,
Əllərimi qonaq elə…

**04. 03. 2001**

## ÖZÜM ÖZÜMDƏN UTANDIM

Ürəyim göynəyir, gülüm,
Bilmirəm heç necə gülüm?
Odumdan çox imiş külüm,
Yandım, közümdən utandım.

Əllərin dəydi əlimə,
Meydan oxudum ölümə.
Bu nəydi gəldi dilimə? –
Qəfil sözümdən utandım.

Demə şair kamsız köçdü,
Bu dünya sevgisiz heçdi,
Ürəyimdən bir hiss keçdi,
Özüm özümdən utandım…

**04. 03. 2001**

## KƏPƏNƏK

“Kaş bir kəpənək olaydım,
Siz şeir yazanda başınızın
üstündə uçaydım”.

**Aynurə Qasımova**

Bir kəpənək olasan,
Uçasan güldən-gülə.
Mən də səni izləyəm
Sevinclə, gülə-gülə.

Məni şirnikdirəsən,
Düz yanımdan ötəsən.
Çiçəklərin içində
Gizlənəsən, itəsən.

Zərif qanadlarına
Səngər ola ləçəklər.
Yanında hey vurnuxam,
Mənə gülə çiçəklər.

Axır ki, qismət ola
Küsənlərə barışıq.
Səni köksümə sıxam
Bu gül-çiçək qarışıq…

**08. 03. 2001**

## XƏYALIN HARDADI

**Cəlaləyə**

Bu dərdə də dözəcəyəm,
Əzəl gündən qəm çəkənəm.
Duyuram ki, hicran gəlir,
Mən havadan nəm çəkənəm.

Sevdalı könlün hönkürür,
Ta bir də çətin ki, gülüm.
Əllərin mənim əlimdə,
Xəyalın hardadı, gülüm?!

**10. 03. 2001**

# BİR GÖZƏLİN ARZUSU

"Sizin qələminiz olsaydım, şeir yazında əlinizi məndən çəkməyə imkan verməzdim".

**Aynurə Qasımova**

Həyat qədər şirinsiniz,
Sizdən çətin ki, doyaydım.
Kaş ki, yazan əlinizi
Öpüb alnıma qoyaydım.

Köksümdə günəş doğaydı,
Gələydi baharım, yazım.
O əllərə sahib olmaq
Kaş olaydı alın yazım!

Qızlara şeir yazdınız,
Ancaq ki, Sizdən küsmədim.
Əlinizdə qələm olmaq
Olaydı mənim qismətim.

Qəlbinizin ağrısını
Mən özümə götürəydim.
Əlinizin istisini
Ağ kağıza ötürəydim.

Qələm olsam, yazdığınız
Kəlmələrdən doyardımmı?
Əlinizi bir an məndən
Ayırmağa qoyardımmı?!

**08. 03. 2001**

## SEVİL ÜÇÜN

Dünyaya sevilməkçin
Gəlmisən, ay Sevilim!
Sən sevildiyin kimi
Kaş ki, mən də sevilim.

Qəlbi sevdalı şair
Sevilə gülərmi heç?!
Sevməyi bacarmayan
Sevilə bilərmi heç?!

**10. 03. 2001**

## İZİM QALAYDI

**Valya üçün**

Kaş ki, bir də gəzəydik
Səninlə meşələri.
Tellərinə düzəydim
Şehli bənövşələri.

Həsrətli bəbəyində
Buludlar ötüşəydi.
Titrək dodaqlarına
Gizlicə şeh düşəydi.

Öpəydim tellərindən,
Öpəydim gözlərindən,
Ürəyim məst olaydı
Sevdalı sözlərindən.

Mehriban gözlərində
Yenə gözüm qalaydı.
Sevgi çəmənzarında
Mənim izim qalaydı…

**10. 03. 2001**

## CIRILAN ŞEİR

"Bir gün pilləkəndə Sizin şeirə rast gəldim. Kim isə cırıb atmışdı. Gözlərim önündə həyəcanla şeir oxuduğunuz anlar canlandı. Birdənbirə vahimələndim.Tez əyilib şeir parçalarını götürdüm, elə bil rahatlıq tapdım."

**Samirə Quliyeva**

Gördüyü yuxunu yoza bilməyən
Acı həqiqətə nifrətlə baxıb.
Adımı qəlbindən poza bilməyən
Bir qız hayıfını şeirimdən çıxıb.

Bərq vurub gözündə bir titrək ulduz,
Doğma nəfəs dəyib qərib şeirimə.
Kağızı dörd yerə parçalayan qız
Bir dadlı işgəncə verib şeirimə.

Hamını isitməz qəlbimin közü,
Heç kimə pis gözlə baxma, əzizim!
Tanrının hökmüylə yazılan sözü
Bəndə poza bilməz, qorxma, əzizim!

Sevməyən nə bilər şeirin odunu,
Gürzəyə neyləsin axı ovsunlar?!
Sağ ol, qoymamısan mənim adımı
Pillələr üstündə tapdalasınlar.

Durmuşam haqq ilə nəfəs-nəfəsə,
Nadanlar yanında sözüm qəribdir.
Neyləyə bilərik, Tanrı hər kəsə
Ürəyinə görə sevgi veribdir…

**13. 03. 2001**

## BATAQLIQDA BİTƏN ZANBAQ

Gileylisən taleyindən,
Bəxtin qara, ləçəyin ağ.
Sənə yermi qəhət idi,
Bataqlıqda bitən zanbaq?!

Ağrılar qəlbini üzüb,
Yuxu da getmir gözünə.
Bataqlıqda bitməyini
Dərd eləmisən özünə.

Hər gün baxıb ətrafına
Qamışlıq, çamur görürsən.
Bataqlığın qəlbindəki
Sevgidən xəbər verirsən.

Uzaq olsan da, üstünə
Gün tək nur səpə biləydim.
Sənin nəmli gözlərindən
Bircə yol öpə biləydim!

İstəsən köç ürəyimə,
Qıymaram fikir edəsən.
Qorxuram qəlbimi görüb,
Bataqlığa şükr edəsən!

**28. 03. 2001**

## İMZASIZ MƏKTUBA İMZALI CAVAB

Sözlərindən duyuram ki,
Mənim üçün darıxmısan.
Yazdığın həzin məktuba
İmza qoymaqdan qorxmusan.

Dünyanın böyük dəlisi
Bu gün sənin qarşındadı.
Sən sevməkdən qorxursansa,
Hələ ağlın başındadı.

Xəmirim belə yoğrulub,
Qınama, məni qınama.
Ağlın başından çıxanda
Qaçıb gələrsən yanıma…

**29. 03. 2001**

## MƏNDƏN NARAZISAN BİLMİRƏM NİYƏ?

***Sona üçün***

Yazırsan ki, sev məni,
İnsan gərək düşünə!
Mən qarışa bilmərəm
Ürəyimin işinə…

* * *

Məndən narazısan bilmirəm niyə?
Yandırır, göynədir söz ürəyimi.
Sənin ürəyinə dəyməyim deyə,
Xətrinə dəymişəm öz ürəyimin.

Eşqinin yolları dirənib dağa,
Pərişan görkəmin qəlbimi sıxıb.
Bir sevən ürəyi ovundurmağa
Bilmirəm söz niyə qəhətə çıxıb?!

Sevən bəxtəvərdi, sevgidən güc al,
Bu eşqin önündə gərək əyiləm.
Sənin məhəbbətin ucadan uca,
Bəlkə də heç ona layiq deyiləm.

Danışa bilmirəm, qısadır dilim,
Demə şair niyə üzümə baxmır?!
Seçən mən deyiləm, ürəkdi, gülüm,
Dəlinin biridi, sözümə baxmır.

Nəyimi sevmisən, axı nəyimi?
Həsrət alovu var sənin canında.
Üzü qara olsun bu ürəyimin,
Məni xəcil edib sənin yanında…

**29. 03. 2001**

## HEÇ DARIXMA

"İtirdiklərimin geri qaytarılmasını qızıl balıqdan xahiş etmək istədiyimi arzulayanda təəccüblə soruşdunuz ki, yəni çox şey itirmisən? Əgər bilsəydiniz ki, mən nə itirmişəm, belə sual verməzdiniz".

**A. Vüsalə**

Körpə qəlbin yaralanıb,
Əziz insan itirmisən.
Qanadların bərkiməmiş
Sən dərd yükü götürmüsən.

Baş əymə dərdə, ağrıya,
Tərk etməsin səni qürür.
Sevgilər təzə başlayır,
Qarşıda bir ömür durur.

Heç darıxma, Tanrı sənə
Sevgi payı göndərəcək.
Həyatını başdan-başa
Gülüstana döndərəcək…

**31. 03. 2001**

## GİLEYLİ BUDAQ

"Budaq öz ağac anasından nə qədər inciyib küssədə, heç vaxt ondan öz könlü ilə ayrıla bilməz. Bir gün Sizin kimi bir günəş doğacaq, budağın üstünədüşüb, onu isidəcək"…

**M. Sərmayə**

Niyə səndən gül dərmədim,
A məndən gileyli budaq?
Qəlbim Məcnuna dönəydi,
Sən olaydın Leyli, budaq!

Səni ovundurmaq üçün
Bircə sözüm bəs edəydi.
Nəfəsimin hərarəti
Ürəyini isidəydi.

Güləydi çiçək gözlərin,
Yarpaq dodağın əsəydi.
Uzanıb titrək əllərim
Gül dərməyə tələsəydi.

Kərəm kimi həsrətinlə
Alışıb yana biləydim.
Kaş balaca bir quş olub,
Üstünə qona biləydim!

**05. 04. 2001**

## SEVGİ

**Gülnar üçün**

Sevgi elə bir hissdi ki,
onu yadların yanında
danmaq istəyirsən.
Sevgi elə bir oddu ki,
yandıqca uf demirsən,
bir az da yanmaq istəyirsən!
Sevgi yanğısı neyləyəsidi
ürəyi təşnəyə,
gözü göynüyə!
Özünü bəxtəvər sanırsan
qanadların ütülə-ütülə,
yaraların
göynəyə-göynəyə!

**13. 01. 2002**

## İKİNCİ ÖMÜR

İçimi sızım-sızım sızıldadır,
göyüm-göyüm göynədir
ayrılıq dərdi.
Xoş xatirələrə
dalmağın özü də
ikinci bir ömür
yaşamağa bərabərdi…

**13. 01. 2002**

## SƏNİN YUXUN

**Qızqayıt üçün**

Üzümdən, gözümdən öpdün
asta-asta, tələsmədən.
Gördüyün yuxunu mənə danışdın
bircə kəlmə də kəsmədən…

**13. 01. 2002**

## SƏNİN PƏNCƏRƏNƏ QONAN GÖYƏRÇIN

"Siz qızların ürəyində sevda atəşini alışdıran xoşbəxt adamsınız. Həmin qızlardan biri də mənəm. Bir vaxt qəlbinə kölgə düşmüş bir qız Sizin şeirlərinizlə sehrlənərək öz dərdini azacıq da olsa unutmuşdur… Dünyaya yenidən gəlmək mümkün olsaydı, mənim pəncərəmə qonan və hal-hazırda qonmağında olan göyərçin kimi yazı masanıza qonub Sizi seyr edərdim."

**Elgün Cabbarova**

Sevən ürəklərə nur çiləyirəm,
Taleyim məşələ döndərib məni.
Sınıq ürəkləri ovundurmağa
Bəlkə ulu Tanrı göndərib məni?!

Dərdin şumladığı gənc ürəyində
Mən sevgi toxumu bitirəcəyəm.
Körpəcə qəlbinə düşən kölgəni
Nurlu bir eşq ilə itirəcəyəm.

Hərdən ağlayırsan sən için-için,
İlk eşqin göynəyi unudularmı?
Sənin pəncərənə qonan göyərçin
Mənim ürəyimdi, xəbərin varmı?

**23. 04. 2001**

## BU QIZ KİMDİ

Bu qız kimdi? –Xanımdı,
Ciyərimdi, canımdı.
Qapqara bir xalı var,
Dodağında balı var.

Əlləri bumbuz olur,
Sanki Quba qarıdı.
Üzündəki təbəssüm
Məhəbbətin barıdı.

Dodağı gül ləçəyi,
Ürəyim ac arıdı.
Mehriban baxışları
Qəlbimin açarıdı…

**21. 04. 2001**

## MƏKTUBUN QƏLBİMİ NURLA DOLDURUB

“Heç ağlıma gəlməzdi ki, mən nə vaxtsa hər hansı bir müəllimə, şairə məktub yazacam. Burda yaxşı deyiblər ki, sevda nədi bilməzdim, o da gəldi başıma.”

**Mehparə Orucəliyeva**

Gözünə baxanda ürəyim dinib,
Gəl, gözüm üstündə saxlayım səni!
Ancaq qaş-qabağın tikana dönüb,
Qorxmuşam gül kimi qoxlayım səni.

Məni tanısan da körpə çağından,
O vaxtlar başına dünya dar imiş.
Qəlbim üşüsə də qaş-qabağından,
Demə ürəyində sevgi var imiş…

İlk dəfə duyursan eşqin dadını,
Təzə eləyirsən nübar, əzizim!
Sən də mənim kimi qaraqabaqsan,
Ancaq ürəyində nur var, əzizim!

Durma bənövşə tək boynunu burub,
Sevgidir diləyim ulu varlıqdan.
Məktubun qəlbimi nurla doldurub,
Ürəyim titrəyir bəxtiyarlıqdın…

**23. 04. 2001**

# UNUTMA, DÜNYANIN AXIRI DEYİL

"Hələ gəncliyin ilk addımlarını atdığı zaman taleyin çətin sınaqları ilə qarşılaşan bir qız üçün Sizin şeirləriniz həm göz yaşı, həm də təsəllidir."

**Nailə Kərimova**

Bahar buludu tək gözlərin dolub,
Bəxtiyar anların hara çəkilib?
Mənim şeirlərim göz yaşı olub,
Sənin kirpiyində dara çəkilib.

Qəlbimin səsinə mən qulaq asıb,
Yoluna incilər səpərdim sənin.
Qınayan olmasa, bağrıma basıb,
Nəmli gözlərindən öpərdim sənin.

Bahardan ayrılan solğun çiçəksən,
Bir gün ləçəklərin ətir saçacaq.
Yenə sevəcəksən, seviləcəksən,
Solan arzularım çiçək açacaq.

Yüz ağrı dadsan da cavan yaşında,
Hələ bu dərdlərin ağırı deyil.
Ağ günlər dayanıb sənin qarşında,
Unutma, dünyanın axırı deyil…

**23. 04. 2001**

## ƏSİR ELƏMİŞƏM QƏLBİMDƏ SİZİ

"Mənim qəlbimə elə bir sevgi ilə daxil olmusunuz ki, oradan çıxmaq çox çətindir".

**Xanım Məmmədova**

Nə əmr eləsəniz, bilin, hazıram,
Qıymaram incidə, üzə qəm Sizi.
Bir də ayıldım ki, məktub yazıram,
Bir də ayıldım ki, sevirəm Sizi!

Zərrəcə qorxum yox dardan, çətindən,
Məhəl də qoymuram dosta, tanışa.
Yazdığım sözlərin hərarətindən
Qorxuram dözməyə, kağız alışa!

İşarır bir eşqin ilahi közü,
Ona saymazyana baxmaq çətindi.
Əsir eləmişəm qəlbimdə Sizi,
Mənim ürəyimdən çıxmaq çətindi…

**12. 05. 2001**

## YARAŞMIR

**Gülşən üçün**

Gəzirsən məndən uzaq,
Ürəyin dönüb buza.
Sən tək mehriban qıza
Ürək üzmək yaraşmır.

Gəl ruhumu təzələ,
Oğrun-oğrun göz elə!
Sədaqətli gözələ
Yel tək əsmək yaraşmır.

Qəlbim bir titrək yarpaq,
Könlümdəki eşqə bax!
Mənə kədər, qaşqabaq,
Sənə küsmək yaraşmır…

**14. 05. 2001**

## BACIM OLMAQ İSTƏYİRSƏN

**Gülşən üçün**

Ömrümü gülşən etmisən mənimçün gül dərə-dərə,
Şair əli sən tək qıza əlvan güllər dərməzdimi?
Bacım olmaq istəyirsən, sağ ol ürəyinə görə,
Lazım bilsə Tanrı özü mənə bacı verməzdimi?

**31. 05. 2001**

## HARA GETSƏM, HARDA OLSAM…

Sevda dolu ürəyinə
Yaxın simsar bilir məni.
İki daşın arasında
Yoluxmağa gəlir məni.

Onun təmiz məhəbbəti
Ömrümə yaraşıq olub.
Ürəyimdə həyat eşqi,
Gözlərimdə işıq olub.

Dodaqlarım bəxtəvərdi
Ay tək nur saçan üzündə.
Ürəyim dönüb qəvvasa
Üzür sevgi dənizində.

Solarmı sevda gülləri? –
Məhəbbətə nə yay, nə qış?
Gözəllərin hamısından
İlham pərim vəfalıymış.

Hara getsəm, harda olsam,
Vəfalıdı, tapar məni.
Götür məni qanadına,
İlham pərim, apar məni!

**May, 2001**

* * *

Çəməndən dərilən tər çiçəklərin,
Güllərin ətrini sevənlər bilər.
Adi adamlardan sən heç nə umma,
Sevginin qədrini sevənlər bilər.

## ÜRƏYİNİ ÜZMƏ, CÜLÜM

**Rübabə üçün**

– O gün əlim boş deyildi,
Müəllim, məni bağışla!
Qızlar əllə salamlaşdı,
Mən isə uzaqdan, başla.

– Könlümdə sənə sevgi var,
Elə bilmə qəlbim buzdu.
Ürəyini üzmə, gülüm,
Məgər baş əldən ucuzdu?

**29. 05. 2001**

## SƏNƏ LALƏ BAĞIŞLADIM

"İlk dəfə çayı mənə Siz göstərdiniz. Dərib mənə verdiyiniz laləni indi də saxlayıram."

**Ə. Nüşabə**

Ulduzlar tək sayrışırdı güllər yamacda,
Gözəlliyin qarşısında titrədi ürək.
Sənə lalə bağışladım Altıağacda,
Utandınmı? –Yanaqların yandı lalə tək.

Ürəyimdə eşq kükrədi şəlalə kimi,
Həsrət dolu gözlərini gördüm yaxından.
Nə biləydim, bağrı yanıq bu lalə kimi
Ürəyinə xal düşübmüş körpə çağından?!

Sevda dolu qəlbin dinsin telli saz kimi,
Sənin könlün nura möhtac zərif çiçəkdir.
Mənim eşqim ürəyinə köçüb yaz kimi,
Həsrətinin buzlarını əridəcəkdir…

**27. 05. 2001**

## SEVGİ SƏRHƏD TANIYIRMI?

"Müəllim, sevgi sərhəd tanıyırmı?"

**Elyana Seyidəliyeva**

Sözlərinlə söylə kimin
Bostanına daş atırsan?
Məni şirəyə, qızları
Qarışqaya oxşadırsan.

Sevda dolu ürəyimi
Acı həsrət bürüyəcək.
Qarışqalar dodağında
Şirin canım əriyəcək.

Könlüm sevgi yuvasıdı,
Qəlbin məni qınayırmı?
Nəyə görə soruşursan:
Sevgi sərhəd tanıyırmı?

Ürəyim istəməsəydi,
Görüşünə gələrdimmi?!
Sevgi sərhəd tanısaydı,
Səni sevə bilərdimmi?!

**29. 05. 2001**

## KÜSMƏ MƏNDƏN, ƏZİZİM

Mənə acığın tutub,
Titrəyir dodağın da.
Qəlbim yarpaq tək əsir
Ömrümün budağında,
Küsmə məndən, əzizim!

Sübhədək qovruluram,
Yuxu getmir gözümə.
Sən küsəndə, ürəyim
Baxmır mənim sözümə,
Küsmə məndən, əzizim!

Sevənlər günahdan da
Keçə bilsinlər gərək.
Qoy qonsun dodağıma
Dodağın kəpənək tək,
Küsmə məndən, əzizim!

İndidən üşüyürəm,
Hicran yelləri əsir.
Sən küsəndə elə bil
El-aləm məndən küsür,
Küsmə məndən, əzizim!

**27. 05. 2001**

# QIZLARSIZ MƏNİM NƏ GÜNÜM?

“Yaxşı ki, Siz varsınız. Xoşbəxtik ki, bizə Siz dərs deyirsiniz.”

**Samirə Rafiq qızı**

Etdiyim zarafatları
Sən neçə yerə yozmusan.
İkibaşlı sözlərimin
İçinə düşüb, azmısan…

Minib xəyal köhlənini
Hey dağa, daşa çapmısan.
Qəlbimdəki nuru görüb,
Axtardığını tapmısan.

Xoşbəxtlərin xoşbəxtiyəm,
Məni körpə bir yar anıb.
Sevdalı gözümü görüb,
Qəlbində sevgi yaranıb.

Mən də belə yaranmışam,
Sevgidi imanım, dinim.
Yazırsan: “Qızları sevin!” –
Qızlarsız mənim nə günüm?!

Məni sevən gözəlləri
Bir zaman qoyurdun lağa.
İndi əllərin tələsir,
Əllərimə sığınmağa…

**30. 05. 2001**

## TAT QIZI

Əllərin əlimdə
Titrəyir, tat qızı.
Qəlbimin başında
Bir ocaq çat, qızın!
Nə olar, eşqinlə
Sağalt bu xəstəni!
Mən səni sevirəm –
"Mən türə bəxastənüm!"

* * *

Sənsiz yaşaya bilmirəm,–
"Tüsüz yaşamış
ne eburum!"–
Bu yaşda
eşqə düşmüşəm,
Nə həyam var,
nə abırım…

**13. 07. 2001**

* * *

Gözəlliyə xələl
gətirə bilməz
Bir-iki busə.
İnanmırsansa,
Bu yek,
bu du,
bu sə!…

**07. 08. 2001**

## TALIŞ QIZI

Göz yaşlarıyla
Dolubdu didə,
Sənin həsrətin
Qəlbimi didər.
Ay talış qızı,
Az tınım pidə!
( Mən səni sevirəm! )

**13.07. 2001**

## AZ BOTONO MARDƏM

( Mən sənin
dərdindən ölürəm)

Ay talış gözəli,
Qaldır məni yerdən,
Yanağını söykə,
Yanağıma hərdən.
Əgər sevirsənsə,
Nə örtü, nə pərdə? –
Az botono mardəm!

Eşqin göylərindən
Qov dumanı, çəni,
Qəlbim əsə-əsə
Gözləyirəm səni.
Heç bilirsən necə
İncitmisən məni? –
Narahatam, pərtəm,
Az botono mardəm!

Nə vaxtsa dediyin
Gileyli sözlərin
Mənim ürəyimdə
Qalıbdır izləri.
Xəbərin yoxdurmu,
Sevdalı gözlərin
Salıb məni dərdə,
Az botono mardəm!

Ömür vəfasızdır,
Gəl ağ günlər görək.
Əlindən tutanda
Tir-tir əsir ürək,
Ancaq unutma ki,
Çiçək kimi kövrək,
Qaya kimi sərtəm,
Az botono mardəm!

Həsrət gecə-gündüz
İçimdə at çapar,
Səninlə olanda
Qəlbim dinclik tapar.

Hara istəyirsən,
Tut əlimdən apar!
Eşqin yollarında
Sına məni, mərdəm,
Az botono mardəm!

**30. 09. 2001**

## BU DA MƏNİM TALEYİMDİ

Ürəklərə sevgi ağrı gətirir,
Qoy sevməsin kim qəm yükü çəkəmmir!
Məhəbbətdə Promotey kimiyəm,
Şirin-şirin əzablarım tükənmir…

Həsrət közü ürəyimi göynədir,
Elə bil ki, muradıma çatıram!
Od səpirəm gözəllərin qəlbinə,
Sinələrdə isti ocaq çatıram.

Gözəllərin alov saçan baxışı
Gözlərimin qarasını aparır.
Məni sevib ayrılanda hər gözəl
Ürəyimin parasını aparır.

Bu da mənim taleyimdi, neyləyim? –
Gecə-gündüz alışıram, yanıram.
Həsrət odu göynətsə də içimi,
Mən özümü çox bəxtəvər sanıram…

**04. 07. 2001**

## MƏHƏBBƏTLƏ YÜKLƏNİBDİR MESAJIN

Heç bilmirəm axı kimsən, nəçisən,
Ürəyimi eşq hədəfi seçirsən,
Dincliyimi şimşək kimi biçirsən,
Məhəbbətlə yüklənibmi mesajın?

Nə dincliyin, nə gecələr yuxun var.
Eşq göynəkli şirin sinə dağın var,
Sətirlərdə nisgilin var, ahın var,
Ürəyimə köklənibmi mesajın?

Gözlərimi həsrət qoyma gözünə,
Ehtiyac var sənin titrək sözünə,
Niyə məni həsrət qoydun səsinə? –
Qəlbin boşmu, tükənibmi mesajın?!

**21. 07. 2001**
**Qayabulaq**

## GİZLİ SEVDA

"Deyirlər ki, sevinc bir şeh damlasıdır, güləndə tələf olur, insan gözlərindən qəm-qüssə görsənir. Mən istərdim ki, həmişə Sizin gözlərinizdən məhəbbətlə dolu baxışlar görünsün!"

**Bir mesajdan**

Mesajların ürəyimi
Oxşayır yaz mehi kimi.
Sözlərin mənim qəlbimə
Düşür səhər şehi kimi.

Məni bəxtəvər eləyən
Sevda dolu sözlərindi.
Bərq vuran şeh damlaları
Bəlkə sənin gözlərindi?

Bəlkə bu sevgi olacaq
Ürəyimin yaraşığı?
O şehin hər damlasında
Bərq vurur həsrət işığı.

Elə bil ki, məst olmuşam,
Qəlbimdə sevgi sayrışır.
Gülüm, yazırsan ki, mənə
Sevdalı gözlər yaraşır!

İstəyirsən ki, o gözlər
Gözündəki odu görsün.
Dodaqlarım dodağında
Mürgüləyən közü görsün.

Ancaq bilmirəm ki, kimsən,
Qəlbimə yağır yağışlar.
Özün söylə, kimə baxsın
Məhəbbət dolu baxışlar?

Əvvəl-axır gizlənməkdən
Usanıb, yorulacaqsan.
Çıxıb üzə, sarmaşıq tək
Boynuma sarılacaqsan…

Sevən qəlbin kövrələcək,
Bulud kimi dolacaqsan.
Məhəbbət kəhkəşanımda
Təzə ulduz olacaqsan…

Nəfəsin ciyərlərimdə
Olub titrək meh, güləcək.
Bizim sevgi güllərinin
Ləçəyində şeh güləcək…

**10. 08. 2001**
**Qayabulaq**

## SONRA BİLƏRSƏN

**Mesajında məni insafsız adlandıran kimliyini bilmədiyim qıza.**

Sevən könlüm neçə qıza himayəçidi,
Hələ heç kəs deməyibdir qəlbi buz mənə.
Bilmirəmsə məni sevən kimdi, nəçidi,
Nə haqq ilə söyləyirsən insafsız mənə?

Sevirsənsə, haqqım yoxdu qınayım səni,
Dara düşsən, tez yanıma qaçıb gələrsən.
Əvvəl-əvvəl söylə kimsən, tanıyım səni,
"İnsaflıyam, insafsızam" –
sonra bilərsən…

**11. 08. 2001**

## QORXUTMA MƏNİ

"Sənin həyatına qəfil gəlmişdim,
Qəfil çıxıb getsəm, qınama məni!"

**Bir məktubdan**

Eşqin göylərində şimşək tək çaxıb,
Bir alov salmısan canıma mənim.
Gözlərim gözünə həsrət qalıbdır,
Nə vaxt gələcəksən yanıma mənim?!

Sözünü sevmişəm özündən əvvəl,
Küskün ürəyimi dindirəcəksən.
Qəlbinə uyğunsa boyun, buxunun,
Məni bəxtəvərə döndərəcəksən…

“İnsafsız” deyirsən mənə arabir,
Hər sözün qəlbimə bir oxdu, gülüm!
Qəfil getməyinlə qorxutma məni,
Sevgidə geriyə yol yoxdu, gülüm!

**13. 08. 2001**

## ŞAİR ƏLLƏRİNİ ÖPƏN GÖZƏLƏ

**“Sizin şeir yazan əllərinizdən öpürəm”.**

Ürəyin həmişə arayıb, seçib,
Hamı oxşamayıb sənin könlünü.
Sevdalı qəlbindən gör nələr keçib, -
Öpmək istəmisən şair əlini.

Bilmirəm ağlayım, yoxsa ki, gülüm,
Şair tora düşsə sözündən düşər.
Qorxuram özümü görəndə, gülüm,
Sevdiyin sözlər də gözündən düşə.

Üşüsən, qəlbimin oduna qızın,
Qələmim başına incilər səpər.
Şair əllərini öpən bir qızın
Şair dodaqları dilindən öpər!

**13. 08. 2001**
**Qayabulaq**

## XƏCALƏT

"Xəcalət çəkirəm, utanıram Sizinlə
üz- üzə gəlməkdən!"

**Bir mesajdan**

Qoymaram ki, üzünə
Kədər buludu çökə.
Sevgi günah deyil ki,
Sevən xəcalət çəkə!

Onsuz da mənim eşqim
Ürəyinə köçübdür.
Qaç gəl mənim yanıma,
Utanmaqdan keçibdir…

## YAZIRSAN Kİ…

Yazırsan ki, nuru artıb gözümün,
Məhəbbətlə ulduzlara baxmaqdan.
Gecə-gündüz danlayıram özümü,
Utanıram üzünüzə çıxmaqdan.

Duyuram ki, sevən qəlbin kövrəkdi,
İçin-için göynəyirəm, əzizim!
Elə mənə utancaq qız gərəkdi,
Utanmazı neyləyirəm, əzizim?!

**17. 09. 2001**

## QƏDƏMİN MÜBARƏK OLSUN

Sən mənim ulduzlu gecəm,
Sən mənim günüm, ayımsan.
Elə bil göylərdən gələn
Gecikmiş sevgi payımsan.

Sənin titrək nəfəsinlə
Közərdi sönən ocağım.
Bu sevgi mənə bəs edər,
Yoxdu ayrı umacağım.

Təki sənin köksündəki
Bir duyumlu ürək olsun!
Mənim sevdalı ömrümə
Qədəmin mübarək olsun!

**20. 09. 2001**

*** * ***

Əgər yad nəfəs dəysə,
Sevgi perikər, qaçar.
Əgər məni sevirsən,
Sirr saxlamağı bacar!

**21. 09. 2001**

## SEVDALI QƏLBİMDƏN GÜL DƏRƏCƏKSƏN

Daşlı-kəsəklidir məhəbbət yolu,
Qoşulmaq olarmı hər əsən yelə?!
Təmiz bir qəlbin var sevgiylə dolu,
Ancaq eşq yolunda uşaqsan hələ.

Sevgi dəyirmanım hələ nə qədər
Vəfasız gözəllər üyüdəcəkdir.
Qəlbinə düşübsə məhəbbət əgər,
Bu sevda səni də böyüdəcəkdir.

Hər yoldan ötənə salmazlar meyil
Hər ocaq közünə alışmaq olmaz.
Sevgi ciddi işdi, əyləncə deyil,
Ondan harda gəldi danışmaq olmaz.

Qəlbi saf olanda uduzmur heç kim,
Bir gün ürəyini güldürəcəksən.
Ötəri deyilsə sənin bu eşqin,
Sevdalı qəlbimdən gül dərəcəksən…

**22. 09. 2001**

## ÖZÜN DƏ SÖZÜN TƏK GÖZƏL İMİŞSƏN

**Günay üçün**

Uzaqdan-uzağa öz sözlərinlə
Mənim ürəyimi oynada bildin.
Həsrət xəzəliylə gözü tutulan
Bulağı təzədən qaynada bildin.

Sözünə vuruldum özündən əvvəl,
Könlümü bəxtəvər sandım, əzizim!
Baş əydim ilahi məhəbbətinə,
Sənin həsrətinlə yandım, əzizim!

Bir gün qismət oldu görüşmək bizə,
Əlimə sığındı titrək əllərin.
Özün də sözün tək gözəl imişsən,
Qəlbimdə kükrədi həsrət selləri…

Bir az utansan da, gözlərin gülür,
Boynun bənövşə tək yana əyilmiş…
Nə yaxşı qəlbimə eşq nuru saçan,
Gülüm, sən imişsən, özgə deyilmiş!

**28. 09. 2001**

## MƏHƏBBƏT ŞAN-ŞÖHRƏT DEYİL

Gülüm, qoru aramızda
Olan hörməti, izzəti.
Özgəylə bölüşmək olmaz
Sevgi bəxş edən ləzzəti.

Məhəbbət şan-şöhrət deyil,
Gizlicə sevməyi bacar!
Hamıya sirrini açsan,
Sevginin də dadı qaçar.

Qəlbin tərtəmiz olacaq,
Eşq odunda bişəcəksən.
Sevgin ötəri deyilsə,
Məni başa düşəcəksən…

**07. 10. 2001**

## BULAQ OLUB ÇAĞLAYARAM

Bir mən olum, bir də ki, sən,
Bir kimsəsiz ada olsun!
Nə gözəl qəlbin var imiş,
Qəlbim sənə fəda olsun!

Titrək əllərin toxunsa,
Kaman kimi dinərəm mən.
Gözlərin gözümə baxsa,
Bəxtəvərə dönərəm mən.

Bilsəm eşqimə təşnəsən,
Bulaq olub çağlayaram.
Başımı qoyub köksünə
Xoşbəxt-xoşbəxt ağlayaram…

**07. 10. 2001**

## SAĞ OL

**Müzəffər müəllimə**

Deyirsən ki, şeirlərim
ürəklərə şəfəq saçıb,
Gözəllərin hamısının
arzuları çiçək açıb.
Qəlblərinə sevgi səpib
dəli etmişəm onları,
Bu məktəbdə qız qalmayıb,
hamısı qoşulub qaçıb.

Ürəyim mükafat alıb
bu mehrə, ülfətə görə,
İnsanı danlamaq olmaz
arzuya, niyyətə görə.
Sözlərin sevən qəlbimi
nurla doldurdu, əziz dost,
Sağ ol mənim əməyimə
verdiyin qiymətə görə.

**27. 09. 2001**

## AYRILIĞIN QƏM GÜLLƏRİ

“Gülü bir gün, Sizi hər gün,
Gülü solanacan, Sizi ölənəcən
sevəcəm”…

**Bir mesajdan**

Bu ürək ki,
səndə var, gülüm,
Qoymaram ki, sola
Qəlbindəki sevda gülü…
Gözlərim murada çatar,
gözümün üstündə
saxladıqca səni.
Ətrin, gözəlliyin artar,
Öpdükcə,
qoxladıqca səni…
Vüsalına can atacam,
ömrümə bir gün qalanacan,
Ayrılığın qəm gülləri
solanacan,
Sən mənim,
mən sənin olanacan…

**18. 11. 2001**

## KİMƏ LAZIMDI SEVGİSİZ ÜRƏK

Qənim kəsilib könlüm özümə.
Heç zaman mənim baxmır sözümə.
Nə qoruq bilir, nə də qadağa,
Gündə bir qıza olur sadağa.

Bilmirəm nədi onun diləyi?
Məni hər yerdə rüsvay eləyib…
Hey gecə-gündüz yanır, əriyir,
Başıma bir ip salıb sürüyür.
Şehli güllər tək hey ətir saçır,
Hər gün başıma bir oyun açır.
Səni susdurum köksümdə gərək,
Məni incitdin, bəsdir, ay ürək!
Bir insaf elə, saça, yaşa bax!
–Nəyinə gərək mənsiz yaşamaq?
Sən yenə də sev gözəl qızları.
Yaxına qoyma qəlbi buzları!
Şıltaqlığıma dözəsən gərək.
Kimə lazımdı sevgisiz ürək?!

**28. 08. 2001**

## BELƏYMİŞ BU EŞQİN ALIN YAZISI

Gecələr əllərin uzanır göyə,
Ömrünün hər anı keçir il kimi.
Bu qədər layiqkən sən xoşbəxtliyə,
Qəfəsə düşmüsən bir bülbül kimi.

Beləymiş bu eşqin alın yazısı,
Fələk işimizi düyünə salıb.
Yarasa xislətli bir ov tazısı
Gör mənim şamımı nə günə salıb?

Sevginin yolunu bağlamaq olmaz,
Xəbislər qorxudan yan duracaqdır.
İşığı qəfəsdə saxlamaq olmaz,
Bir gün ev-eşiyi yandıracaqdır.

Yenə üzümüzə tale güləcək,
Bu eşq qandalı da çürüdəcəkdir.
Sevgilim yanıma qaçıb gələcək,
Qəlbimdən zülməti əridəcəkdir…

**12. 09. 2001**

## MƏNİ SEVƏNLƏRİN NƏ GÜNAHI VAR

"Sizi sevənlərə nifrət edirəm".

**Bir məktubdan**

Bilmirəm istəyin, diləyin nədi?
Sevgi don deyil ki, alıb geyəsən.
Hələ həyatıma sən gəlməmişdən
Qadağa qoyürsan mənə deyəsən?!

Qəlbim tənhalıqdan yamanca qorxur,
Nura can ataram son nəfəsdə mən.
Könlüm öyrəşməyib qadağalara,
Yaşaya bilmərəm dar qəfəsdə mən.

Sevgidir qayada çiçək bitirən,
Sevgidir yaşadan torpağı, daşı.
Məni sevənlərə nifrət edirsən,
Deməк məhəbbətin kükrəyir, daşır…

Sağ ol bu sevginə, eşqinə görə,
Könlümün telləri dindi, əzizim!
Sevgi günahdısa, sənin özün də
Günah içindəsən indi, əzizim!

Ancaq sevənlərə nifrət eləmə,
Hər qəlbin öz dostu, öz pənahı var.
Mənim nə günahım sevirlər məni,
Məni sevənlərin nə günahı var?!

**25. 09. 2001**

## İMZASIZ MƏKTUBA İMZALI CAVAB

**Gülnar üçün**

İmzasız yazdığın məktub
Ürəyimə nur ələyib.
"Qızıl gül ətirli salam"
Məni bəxtəvər eləyib.

Şehli gülü öpən şair
Ləçəyini tanımazmı?
Qubanın sevda ətirli
Çiçəyini tanımazmı?

Üzünə gülüş yaraşır,
Təbəssüm var dodağında.
Qara gözlərin canlanır
Gözlərimin qabağında.

Ürəyim sevinclə dolur
Mən görəndə hər gün səni.
İmzanı gizləsən belə,
Ələ verdi sevgin səni.

O gün mənim ürəyimi
Çəkmişdi dara gözlərin.
Bir cüt sevgi buluduna
Dönmüşdü qara gözlərin.

Sənə baxanda ürəyim
Vüsalına tələsirdi.
İpisti, titrək əllərin
Xoşbəxt ovcumda əsirdi…

Ciyərim heç unudarmı
Qızılgülün qoxusunu?
Gözlərin deyən sözlərin
Yazmamısan çoxusunu…

Səndən yaman xoşum gəlir,
Nə əmr eləsən, hazıram.
Mən imzasız məktubuna
İmzalı cavab yazıram…

Sevgidən titrəyən əlim
Ürəyimin üstündədi.
Məni bu qədər sevməkdə,
Canı yanmış, qəsdin nədi?!

**13. 10. 2001**

## ONSUZ DA DUYMUŞDUM SEVİRSƏN MƏNİ

Mənim də qəlbimi didirdi həsrət,
Etiraf etməyin məqamı çatıb.
Gözüm görürdü ki, gizli məhəbbət
Sənin ürəyində bir təndir çatıb.

Sevincdən ürəyim bir dağa dönüb,
Gör kim dilləndirdi könül tarımı?!
İmzasız məktubun bulağa dönüb,
Suvardı soluxan arzularımı…

Sevdalı üzünü mənə çevirsən,
Çəkilər qəlbimə yığılan duman.
Onsuz da duymuşdum məni sevirsən,
Yalançı olmayıb zənnim heç zaman…

**15. 10. 2001**

## ƏGƏR SEVİRSƏNSƏ…

"Əgər hamının təriflədiyi, hamıya düzgün yol göstərən Sizsinizsə, məni də xoşbəxt edin! Məni tək Siz yaşada bilərsiniz".

**Bir məktubdan**

Sağ ol ki, etibar edirsən mənə,
Yazırsan ürəkdən vurulduğunu.
Hələ bulanıqsan dağ selləri tək,
İnşallah görərəm durulduğunu…

İlk dəfə duyursan eşqin dadını,
Açılıb sevdanın həsrət qolları.
Sevən dözməlidi şirin əzaba,
Daşlı-kəsəklidi ömrün yolları.

Əzizim, əlimdən bircə bu gəlir,
Sənə eşq yolunda uğur diləyim.
Əgər sevirsənsə, xoşbəxtsən elə,
Xoşbəxtin nəyini xoşbəxt eləyim?!

**17. 10. 2001**

# TƏNHA YARPAQ

"Həmişə Sizə məktub yazmaq arzusunda olsam da, heç vaxt cürət etməmişəm. Lakin bu gün gördüyüm bir tənha yarpaq məni buna vadar etdi."

**Bir məktubdan**

Məktubda göndərdiyin qızılgüllə,
yazdığın həsrət dolu sözlərlə
sevgi dünyamı
yenidən bəzəyirsən, əzizim!
Yazırsan ki,
yağışda islanan
tənha payız yarpağına
bənzəyirsən, əzizim!
O yarpağı külək
harasa aparıb, –
Özündə, sözündə
deyilsən səhərdən.
İndi o tənha yarpaq
dönüb bəxtəvərlər
bəxtəvərinə, –
xəbərin yoxdumu
xəbərdən?
Payızın göz yaşlarıyla
islanmış sarı yarpaq
qatarından ayrılan
durna kimi
uça-uça gəlib qondu
dizimin üstünə.
Əllərim əsə-əsəgötürdüm onu,
öpüb qoydum
gözümün üstünə!

* * *

Sevgi dolu sözlərin qaçırıb
gözlərimin yuxusunu.
Göndərdiyin qızılgüldən
alıram indi
saçlarının qoxusunu…

* * *

Bütün yalqızlar
ona sığınır;
ürəyim torpağa bənzəyir.
Sənin həsrət dolu
məktubun, əzizim,
mənim sevgi dünyama
düşən bir
yarpağa bənzəyir…

**20. 10 2001**

## NİYƏ ÇOX SEVİRSƏN

"Ay Rafiq müəllim, qızlar Sizi niyə belə çox istəyirlər?"

**Bir qızın sözlərindən**

–Mən də bu sevdaya əsir olmuşam,
Bəxt ulduzu sanır yalqızlar Sizi.
Bu nə möcüzədi, çaşıb qalmışam,
Niyə çox istəyir bu qızlar Sizi?

– Ürəyim sevgiylə danışsa, dinsə,
Haqqın nuru yanır mənim üzümdə.
O sevən qızlardan biri də sənsən,
Niyə çox sevirsən məni? – Özün de!

**20. 10. 2001**

## SƏNİN YAZDIQLARIN DÜZDÜRSƏ ƏGƏR…

“Mən şeirəm, sazam, təpədən dırnağa sevgiyəm”.

**Bir məktubdan**

Gizlicə yazmısan sözünü mənə,
Hər kəlmən qəlbimi odlara atır.
Təqdim eləmisən özünü mənə, –
Əl boyda kağızda bir dünya yatır.

Titrəyir qəlbimin qırılmış simi,
Yamanca hücuma keçmisən, gülüm.
Bilmirəm nə üçün mənim qəlbimi
Sən sevgi hədəfi seçmisən, gülüm?!

Könlüm eşq yolunda gəlib ərsəyə,
Gecələr gördüyün röya kimiyəm.
Sən hardan bildin ki, eşq hərisiyəm,
Gül-çiçək bitirən qaya kimiyəm?!

Sevdalı qəlbimə mən qulaq asıb,
Dəli bir sevdaya salaram səni.
Əgər bir sazsansa, köksümə basıb,
Qəlbim əsə-əsə çalaram səni…

Yazırsan vüsalın dünyaya dəyər,
Şeirlə, sevgiylə yoğrulmusan sən.
Gülüm, yazdıqların düzdürsə əgər,
Demək mənim üçün doğulmusan sən…

**20. 10. 2001**

## O GÖZLƏRDƏN MƏN YAMANCA QORXURAM

Mavi dəniz dalğasını andıran
Bəbəklərə həyəcanla baxıram.
Elə bil ki, fırtına var içində,
O gözlərdən mən yamanca qorxuram.

Sevgi dünyam təzə rəngə boyanıb,
Çəkilibdir gözlərimin yuxusu.
Ürəyimdə bir həyəcan oyadıb,
Qəfil gələn qasırğanın qorxusu…

Gəl-gəl deyən o sevdalı bəbəklər
Açıq-aşkar çəkir məni döyüşə.
Ala gözlər qəlbimdəki sevginin
Qorxuram ki, ünvanını dəyişə…

Yenə qara bulud kimi dolmuşam,
Qalmayıbdır bircə damcı hövsələm.
Ulu Tanrı, özün mənə kömək ol,
Ürəyimi tufanlardan hifz elə!

**25. 10. 2001**

## QUYRUQ

**M. Aynurə üçün**

Nə niyyətlə soruşdun sən:
Quyruğu sevirəmmi mən?
Bu nə sözdü?– Çaşıb qaldım,
Düşündüm, xəyala daldım.

Kömək etdi gözün mənə,
Agah oldu sözün mənə…
İlk gündən səni sevmişəm,
Həsrət çəkmək olub peşəm.
Hava, su tək gərəyimsən,
Yaz ətirli çiçəyimsən.
Görürəm, sevgin böyükdü,
Həsrətin qəlbimə yükdü.
Sanma ki, duymuram səni,
Dərməyə qıymıram səni.
Allahdan buyruq alasan,
Ağzımda quyruq olasan…

**28. 10. 2001**

## SEVGİNİN ÖNÜNDƏ BAŞ ƏYİRƏM MƏN

"Mən onu görəndə titrəyir dilim,
Mən onu görəndə sevinir qəlbim.
Mən onu görəndə eh, bilsəniz siz,
Nələr keçirirəm gizlicə, səssiz?"

**H. Ramilə**

Adam fikirləşmir könül verəndə,
Nələr çəkdiyini bilirəm sənin.
Qəlbin sevinirsə məni görəndə,
Hər gün görüşünə gələrəm sənin.

Sevdalı gözünü axtarar gözüm,
Yaxşı anlayıram indi mən səni.
Tanrıdan diləyim budur, əzizim,
Məhrum eləməsin sevincdən səni.

Gözəllər qəlbimə kəsilib qənim,
Həsrət sazağında üşüyürəm mən.
Ayrı nə gəlir ki, əlimdən mənim,
Sevginin önündə baş əyirəm mən…

**30. 10. 2001**

## YENƏ GÖRÜŞÜMƏ BİR QIZ TƏLƏSİR

"Bilmirəm nə deyim, başlayım hardan? –
Qəlbimdə bir qönçə məhəbbət yatır.
Başqa birisini sevdiyim halda,
Ürəyim necə də Sizə can atır!"

**Mətanət Həsrət**

Yenə görüşümə bir qız tələsir,
Üşüdür qəlbini həsrət küləyi.
Hər məni görəndə titrəyir, əsir,
Nanə yarpağına dönüb ürəyi.

Sevinir qəlbimdən çiçək dərənlər,
Həsrət sazağında de, kim üşümür?!
Nədənsə həmişə məni görənlər
Dənizi düşünür, dağı düşünür.

Bilmirəm nə görüb məndə bu qızlar? –
Hopub ürəklərə eşqim, həsrətim.
Başımın üstündə yanır ulduzlar,
Mən yazıq ömrümü kimə həsr edim?!

Yaxşı ki, dönməyib ürəyim buza,
Şairin sovqatı məhəbbət olar.
Mənim görüşümə can atan qıza
Canımı verməsəm, qəbahət olar…

**04. 11. 2001**

## SEVGİLİMİN AD GÜNÜ

Məhəbbət göylərində
Biz qoşa uçan quşuq.
O, dünyaya gələn gün
Qəlbimə düşüb işıq.

Kainat gözəlləşib
Yarımın ad günündə.
Baş əyirəm mən onun
Məhəbbəti önündə.

Taleyimə bir təmiz,
Ülvi sevgi yazılıb.
Qəlbim nura bələnib,
Ömrüm bahar, yaz olub.

Məhəbbət sevənlərin
İmanıdır, dinidir.
Bu gün tək onun deyil,
Eşqimin ad günüdür…

Kaş üstümüzdən hicran
Buludu sovuşaydı.
Əlimiz birləşəydi,
Həsrətlər qovuşaydı.

Dilsiz baxışlarımız
Danışaydı, dinəydi.
Sevgilimin ad günü
Toy-bayrama dönəydi…

**22. 11. 2001**

## XOŞ GÖRDÜK,
## TƏZƏ ÇİÇƏYİM

"Siz şeir oxuyanda elə bilirəm ki, o şeirləri yalnız mənim üçün oxuyursunuz. Elə həyəcanlanıram ki, az qalır ürəyim köksümdən çıxıb quş kimi uça"…

**X. Xuraman**

Tapınca bir-birimizi
Neçə yaz, neçə qış gördük.
Mənim sevgi gülşənimin
Təzə çiçəyi, xoş gördük!

Gizlicə heyran olsam da,
Şux qamətə, incə belə,
Yatsam yuxuma girməzdi
Sevəcəksən məni belə?!

Ürəyinə düşən sevgi
Gözlərinə çəkib pərdə.
Görüşməyə can atırsan
Mənimlə bir hicra yerdə.

Girmisən eşq dəryasına,
Nə göydəsən, nə yerdəsən.
Könlündən keçirsə əgər,
Bir mən olaram, bir də sən…

Nəfəsinlə kül altında
Uyuyan közlər alışar.
Biz susarıq, lal olarıq,
Baxışlar, gözlər danışar.

Tapınca bir-birimizi
Neçə yaz, neçə qış gördük.
Mənim sevgi gülşənimin
Təzə çiçəyi, xoş gördük!

**21. 11. 2001**

## YENİ ÜFÜQLƏR

"Mən əvvəllər Sizin necə açıq ürəkli, səmimi, təmiz qəlbli bir insan olduğunuzu bilirdim. Ancaq indi Sizi tək müəllimim deyil, ürək dostum, sirdaşım, qəlbimin şairi sanıram və çox sevirəm.Hər zaman Sizi sevən, həsrətində olduğu insanaəli deyil, ürəyi məktub yazan **O.Gülnar** ".

Sən həsrətlərdən
cadar-cadar olan ürəyimi
məhəbbətlə dindirdin.
Elə bil ki, küsüb gedən baharı
geri döndərdin.
Elə ki, gözündə
yaş muncuqladı,
içimdə təzə, təptəzə bir sevgi
tumurcuqladı…

Qəlbimin qaranlıq
küncünə səpələdin
sevdalı ürəyinin şəfəqlərini.
Sən bir az da genişləndirdin
mənim sevgi dünyamın
üfüqlərini…

**24. 11. 2001**

## MƏNİ SEVƏNLƏRİN BİRİ DƏ ARTDI

"İndi Sizin dərsinizi səbirsizliklə gözləyirəm. Heç bilmirəm niyə? Əmin ola bilərsiniz, Sizi sevənlərin biri də artdı"…

**Gülnar Bəylərli**

Axır ki, ürəyin murada çatdı,
Sevdalı bir şair çətin ki, susa!
Məni sevənlərin biri də artdı,
Məni sevməyənlər batdılar yasa.

Bahara döndərdim çovğunlu qışı,
Eşqim ağızlarda bir dastan oldu.
Şeirim mum elədi bir qəlbi daşı,
Ot bitməz səhralar gülüstan oldu.

Hər titrək misramı şam edə bildim,
Sözlərim qadirdi səni isidə!
Axır ki, qəlbini ram edə bildim,
Artdı bu dünyanın bir dəlisi də…

**01. 12. 2001**

# İLAHİ, BU NECƏ MƏHƏBBƏT İMIŞ?

"Özüm özümü anlaya bilmirəm. İlahi, mən Sizi nə çox sevirmişəm?! Yatsaydım yuxuma girməzdi ki, mən kimisə bu qədər çox istəyəcəyəm!"

**M. Gülnar**

Bir məktub yazmısan sən əsə-əsə,
Uduzmaz qəlbimdən məhəbbət uman.
Təzəcə tapmısan, ancaq nədənsə
Məni itirməkdən qorxursan yaman.

Dikmisən uzağa qara gözünü,
Şümşad qamətini əymiş bu sevgi.
Anlaya bilmirsən özün özünü,
Deyirsən: – İlahi, nəymiş bu sevgi?!

Təzəcə köz tutur könül ocağın,
Mənə əl verirsən gəlib yaxına.
Kiməsə ürəkdən vurulacağın
Yatsaydın, girməzdi sənin yuxuna.

Qəlbində doğulan sevdanı boğma!
Gözlərin yol çəkir, ürəyin təmiz.
Necə oldum sənə hamıdan doğma,
Necə oldum sənə hamıdan əziz?!

Məhəbbət çağlayır titrək səsində,
Gözünün önündən duman, çən keçir.
Ötən sevdaların xərabəsində
Məbəd ucaltmaqmı könlündən keçir?!

**02. 12. 2001**

## İLAHİ DÜNYA

"Sizə ömrümmü, günümmü deyim, ömür-gün etibarsız olur. Sizə aymı, günəşmi deyim, ay, günəş əlçatmazdır. Sizə coşub-daşan dənizmi deyim, dəniz çox şıltaq olur. Sizi hansı varlığa oxşadım ki, daima qəlbimdə yaşayasınız. Siz mənim ilahi dünyamsınız".

**Sevil**

Belə yazırsan ki, çoxdandır sənə
Ömründən, günündən əziz olmuşam.
Məhəbbət qol-qanad veribdir mənə,
Eşqin qüdrətindən dəniz olmuşam.

Sevirsən çəməni, şehli çiçəyi,
Ayı seyr edəndə titrəyir ürək.
Sənə yaşamağı, sənə sevməyi
Öyrədə bildimsə,
xoşbəxtəm demək!

Qəlbində mahnı tək dinmişəm sənin,
Şeirimi sanırsan İlahi sözü.
İlahi dünyana dönmüşəm sənin,
Qoy köməyin olsun İlahi özü!

**06. 12. 2001**

## ÇOX ŞÜKÜR

"Elə bil ki, Sizdə qızları özünə cəlb edən maqnit var. Ancaq bunu bilin ki, heç bir gözəl qız Sizi qara qız kimi sevə bilməz".

**Bir məktubdan**

– Möhkəm hazırlaşmışdım
Mən Sizinlə döyüşə!
İnanmazdım ki, birdən
Fikrim belə dəyişə!

– Məndən zəhlən gedirdi,
İndi nə oldu sənə?!
Hey üyüdüb tökürsən,
Dolu imiş ki, sinən?!

–Yaman acıqlı idim,
Təəccüblüdür ancaq:
Sizi gözəl qızlara
Qısqanıram yamanca!

– Qəlbində mənə nifrət
Alışırsan, yanırsan.
Əgər məni sevmirsən,
Bəs niyə qısqanırsan?!

– Günahkar deyilmişlər
Sevgidən yanan qızlar.
Sonradan anladım ki,
Sizdə maqnit gücü var!

– Özgədən danışırsan,
Heç özünü demirsən.
Əgər mən maqnitəmsə,
Sən bir qara dəmirsən.

– Üzümə baxmırsınız,
Soyuqsunuz buz kimi.
Kim sevə bilər axı
Sizi qara qız kimi?!

– Bir zaman danışırdın
Qəlbimin qarasına.
Çox şükür, sən də keçdin
Sevənlər sırasına!

**07. 12. 2001**

## SƏN DÜNYAYA GƏLƏN GÜN

Sən dünyaya gələn gün
Qəribə bir iş olub.
Ürəyim sevincindən
Durnalara qoşulub.

Dönmüşəm bəxtəvərə,
Varlığıma nur çöküb.
Dikilib uzaqlara,
Gözlərim hey yol çəkib…

Ondakı həyəcanı
Anlayıram indi mən.
O gün ilham pərisi
Doğulubmuş sən demə…

**06. 06. 2001**

* * *

Sənə zəng elədim,
ürəyim baxmadı sözümə.
Səsimi eşidəndə
telefonu söndürdün,
Elə bil sevgi qapısı
çırpıldı üzümə!

**02. 11. 2001**

## ÜRƏK SEVƏNLƏR ÜÇÜNDÜ

**Validə üçün**

Bəbəklərdəki həsrəti
Naşı gözlə görmək olmaz.
Ürək sevənlər üçündü,
Ora zorla girmək olmaz.

Sındırmaq olmaz ürəyi,
Çörəkçiyə ver çörəyi.
Səni sevməyən çiçəyi
Əl uzadıb dərmək olmaz.

Kim sevirsə xəyanəti,
Dada bilməz səadəti,
Yad önündə məhəbbəti
Süfrə kimi sərmək olmaz.

Üstümdən tufanlar əsdi,
Mənə bir çiçək də bəsdi.
Ürək ki, var, müqəddəsdi
Kimə gəldi vermək olmaz…

**08. 12. 2001**

## QAYA OLSAYDIM

"Qaya ki, qaya!"

**Bir məktubdan**

Acığından odlanırsan,
Sevgin dilində ah olub.
Sən mənə qaya deyirsən,
Daş qayaya ürcah olub.

De, necə çəkə bilərəm
Gözəllərdən gözlərimi?!
Qısqanclığın təhqir edir
Mənim təmiz hisslərimi.

Sən gözəllik aşiqini
İncitmə, rüsvay eləmə!
Mənim ilahi sevgimi
Hər sevgiyə tay eləmə!

Daş olsaydım, məni görcək
Qəlbin dil-dil ötərdimi?
Qaya olsaydım, köksümdə
Bu qədər gül bitərdimi?!

**14. 12. 2001**

## QƏLBİNƏ İLAHİ BİR SEVGİ DÜŞÜB

"Sizdə cazibə qüvvəsi çox böyükdür. Şeirlərinizə o qədər bağlısınız, onları o qədər sevirsiniz ki, nəinki qızlara, hətta şeirlərinizə də qısqanıram Sizi".

**T. Mehriban**

Yazırsan: göz yaşın quruyub daha,
Hər gecə əllərin uzanır göyə.
Dua eləyirsən ulu Allaha,
Məni bəlalardan hifz etsin deyə.

Zərifsən, körpəsən bənövşələr tək,
Yaxın gəl, qəlbimin oduna qızın!
Yəqin duasını qəbul edəcək
Tanrı sənin kimi qəlbi saf qızın!

Bəlkə də salmazdı qızlara meyil,
Əzizim, kim mənim olsa yerimə.
Sən təkcə sevdalı qızlara deyil,
Məni qısqanırsan şeirlərimə.

Sevənlər yanında ucadır yerim,
Hər sözüm sayrışan ulduz kimidir.
Yaman düz tapmısan: hər sevgi şeirim
Cildini dəyişən bir qız kimidir.

Ürəyin titrəyir, qabarır döşün,
Baş aça bilmirsən özün özündən.
Qəlbinə ilahi bir sevgi düşüb,
Dünya gözəlləşib sənin gözündə.

Sözlərin şairin ürəyincədi,
Elə ilk baxışdan sənə vurulub.
Qəlbin elə təmiz, elə incədi,
Sevgim ürəyində bəxtiyar olub.

Qovaram ömrümdən dumanı, çəni,
Sevincdən ürəyim dönər bir dağa.
Bəlkə də Allahım göndərib məni,
Yaralı qəlbini ovundurmağa?!

Kövrəltdin qəlbimi, ay qəlbi kövrək,
Əllərim titrədi, yaşardı gözüm.
Bu eşqin önündə baş əyim gərək,
Ürəyinə görə sağ ol, əzizim!

Bəzəkdi məhəbbət, insaf ürəyə,
Sevənlər hamısı bəxtiyar olsun!
Bəndə layiq deyil o saf ürəyə,
Qoy ona Tanrının özü yar olsun!

**17. 12. 2001**

## ŞEİR

"Mümkünsə elə bir şeir yazın ki, ona ya nifrət edim, ya da unudum".

**Bir məktubdan**

Haqqım yox, ayrı eşqin
Səmasında sayrışım!
Özgəsinin işinə
Axı necə qarışım?!

Mənim məhəbbətimə
Nə üçün göz yumursan?
Sən özgəni sevirsən,
Məndən kömək umursan!

Unutma, şeir nifrət
Toxumu səpə bilməz!
Dənizin ürəyindən
Keçəni ləpə bilməz.

Şair sevgilisinə
Söz çələngi göndərər.
Şeir qəlbdəki qoru
Gur alova döndərər…

**23. 12. 2001**

## YENİ DALĞA

"Sizin həm zahiri görünüşünüzün, həmdaxili aləminizin, həm də yazdığınız şeirlərin vurğunuyam. Şeir Sizin ürəyinizin şah damarıdır. Dənizi də sevirəm, Sizin də vurğununuzam. Ancaq təəssüf ki, bunu hiss etmirsiniz".

**A. Leyla**

Həm sözümün, həm özümün
Vurğunu olan gözələ,
Əgər könlümü verməsəm,
Bu sevgi dönər xəzələ.

Məni sevirsən, qəlbimdə
Həsrət daşıdığım üçün.
Bu şəhərin vurğunusan,
Orda yaşadığım üçün.

Sağ ol ürəyinə görə,
Ömrünü sevgi bəzəsin!
Mənə olan məhəbbətin
Bir ağ yelkənə bənzəsin!

Gəl titrək barmaqlarımla
Tellərinə daraq çəkim!
Qəlbimin şah damarından
Ürəyinə bir arx çəkim!

Yazırsan: – Həyat dənizdi.
Adamlar ləpəyə bənzər.
Hər insanın ürəyini
Bir ilahi sevgi bəzər.

Dərd məni üstələyəndə
İmdadıma yetən oldun.
Mənim sevgi dənizimin
Bir dalğası da sən oldun!

**24. 12. 2001**

*** * ***

"Bəlkə də mənim qədər şeir sevən yoxdur. Ancaq Sizə dedim ki, şeiri sevmirəm. Şeir ədəbiyyatın şahıdır. Bu şah həmişə mənə kömək edərdi. Ancaq Sizin qarşınızda şah başını əydi.

**M. Dilarə**

– Təsəllilər deyil mənim gərəyim,
Ağrılardı indi könül sirdaşım.
Yaralandı sevda dolu ürəyim,
Şeirə döndü kirpiyimdə göz yaşım.

– Sözlərimdən inciyən qız, küsən qız
Baş açmırsan hələ şərdən, xeyirdən.
Şeir üçün qəlbi tir-tir əsən qız,
Niyə dedin xoşun gəlmir şeirdən?!

Sözləriniz salıb onu bir oda, –
Ürəyimə kaş yolunuz düşəydi!
Sanırdım ki, şeir şahdı dünyada,
O şah Sizin qarşınızda baş əydi.

Mən neyləyim, tufan yatır könlümdə,
Bulud kimi boşalaram, dolaram.
Müəllim kimi güzəşt yoxdu elmdə,
Şair kimi qadanı da alaram!…

**27. 12. 2001**

## DƏNİZ QƏDƏR

"Siz dənizi nə qədər sevirsinizsə,
mən də Sizi o qədər sevirəm".

**Q. Vüsalə**

Məktubunu oxuduqca
titrəyir dilim.
Duyuram ki,
sevgin çox böyükdü,
gülüm!
Xoşbəxtəm,
məni sevirsənsə əgər,
mən dənizi
sevən qədər!
Dəniz məni çağıranda

yanına qaçıram,
Mən də səni çağırsam,
gələrsənmi?
Ürəyim istəyəndə
qağayıya dönüb,
dalğaların üstündə
uçuram, –
Sən də mənim
sevgi dünyama
baş vura
bilərsənmi?!

**30. 12. 2001**

*** * ***

“Sizə olan sevgim qranit
parçalarına bənzəyir”.

**Q. Vüsalə**

Sağ ol, əzizim!
Ümid dolu sözlərinlə
yaralı ürəyimi yaşadırsan!
Mənə olan sevgini
qranit parçalarına oxşadırsan…
Sevgi dolu məktubunu
ürəyin kimi mənə
göndərmisən!
Qəlbimi
bəxtəvərlər bəxtəvərinə
döndərmisən!

**30. 12. 2001**

## UNUTMA Kİ…

“Ümidimi itirsəm də, yaşayıram.
Ancaq bilmirəm nə üçün, kim üçün?
Siz deyin, mən nə etməliyəm?!”

**H. Sahilə**

Taleyinin üzü dönüb,
Verdiyini geri alıb.
Sənin məsum qız ürəyin
Dərdin əkin yeri olub.

Davam edir həyat hələ,
Bədbinliyə salma meyil.
Unutma ki, dünya yaxşı
Adamlardan xali deyil!

Çalış heç vaxt tərk etməsin
Ürəyini sevinc, qürür.
Hələ yolunun üstündə
Sevgilər, sevinclər durur…

Əzizim, sınağa çəkir
Yaradan öz bəndəsini.
Bir gün Tanrı eşidəcək
Ülvi qəlbinin səsini!…

**30. 12. 2001**

# TƏSƏLLİ

"Özümü daima Sizə borclu sanıram. Çünki təsəllisiz qalan könlüm təsəllini ilk dəfə məhz Sizdən, Sizin şeirlərinizdən alıb."

**M. Yeganə**

– Zülmətə düşən kəslərin
Qəlbinə nur eləmisiz!
Siz neçə qız ürəyini
Sevgiylə fəth eləmisiz!

–Xoşbəxt ol, ürəyindəki
Ülvi məhəbbətə görə!
Sağ ol mənim sözlərimə
Verdiyin qiymətə görə!

– Bilmirəm heç hara gedim,
Yol ayrıcında qalmışam?!
Ən ağır anımda belə
Sizdən təsəlli almışam.

– Bilirəm, dərd tikan kimi
Ürəyini dəlir, gülüm!
Təsəlli verməkdən özgə
Əlimdən nə gəlir, gülüm?!

– Sevgimin ünvanı birdi,
Gəzsəm də neçə ölkəni.
Sizin eşqiniz əridib,
Qəlbimə düşən kölgəni.

– Özünü üzmə, əzizim,
Hər qəlbin sevinc payı var.
Ürəyin sevgi dünyası,
Göyün ulduzu, ayı var!…

Şirindi sevgi əzabı,
Şirindi eşqin nübarı!
Sevmək üçün yaradıbdır
Qəlbimizi ulu Tanrı!

**31. 12. 2001**

## QIZLAR, MƏNİ XATIRLAYIN

**Tələbələrimə**

Uca dağlara çıxanda,
Dənizə yağış yağanda,
Göylərdə şimşək çaxanda,
Qızlar, məni xatırlayın!

Çəməndə bihuş olanda,
Çiçəklərə qoşulanda,
Ürəyiniz quş olanda,
Qızlar, məni xatırlayın!

Çiçəkli budaq görəndə,
Titrəyən yarpaq görəndə,
Ağlayan uşaq görəndə,
Qızlar, məni xatırlayın!

Zirvələrə çən düşəndə,
Saçınıza dən düşəndə,
Qəlbinizə qəm düşəndə,
Qızlar, məni xatırlayın!

Xumar gözünüz axanda,
Gecələr aya baxanda,
Ayrılıq Sizi yaxanda,
Qızlar, məni xatırlayın!

Ömür bir şirin röyadı,
Şairlər sizi oyadır,
Dünya sevməli dünyadı,
Qızlar, məni xatırlayın!

Qorxmayın hara düşsəniz,
Çovğuna, qara düşsəniz,
Nə zaman dara düşsəniz,
Qızlar, məni xatırlayın!

**29. 06. 2001**

## ŞİRİN QIZA SALAM OLSUN

Dedin mənə: – Şirinsiniz!
Şirin dilin işə düşdü.
Sənin sevdalı sözündən
Qəlbimə bir rişə düşdü.

Ötüb-keçən sevdaları
Bir yolluq çıxart ağlından.
Salam olsun şirin qıza
Sevdiyi şirin oğlandan.

Ürəyim dediyin sözün
Oduna gərək qızına!
Şirin bir oğlan yaraşır
Dünyanın şirin qızına…

**06. 01. 2002**

## OLAYDIM

**Gülnurə üçün**

Qışda qonaq çağıraydın,
Qəlbim güllü yaz olaydı!
Sən tək qızın yarı olmaq
Qismətimə yazılaydı!

Qıyma bu eşq qalsın yetim,
Əlindədir səadətim.
Ürəyində məhəbbətim
Sinən üstə saz olaydım!

Gəzib Tovuzu, Qazağı,
Yaxın edərdik uzağı.
Əritmək üçün sazağı
Ürəyində köz olaydım!

Qəlbimdə eşq naxışları,
Yağır sevgi yağışları,
Hər gün həsrət baxışlarım
Gözlərinə göz olaydı!

Saçında  yelə dönəydim,
Köksündə selə dönəydim,
Sazında telə dönəydim,
Dodağında söz olaydım!

**06. 01. 2002**

# MƏNİM SEVGİ ŞEİRLƏRİM

"Şeirləriniz sübut edir ki, Sizin tək bir sevgiliniz var. Ayrı-ayrı ünvanlı sevgi şeilərinin hamısını ona yazırsınız. O elə gözəgörünməz bir sevgidir ki, onu Sizdən başqa heçkəs bilmir. Onu Siz də görə bilmirsiniz, yalnız hiss edib duyursunuz. Heç bir kəsi sevməmişdən əvvəl də o sevgi Sizin içinizdə yaşayırmış"…

**M. Səlbinaz**

Deyirsən ki,
mənim sevgi şeirlərim
möcüzədi, sirdi…
Onların ünvanı çox olsa da,
hamısının mənbəyi birdi.
Sevdayla dolu ürəyim
məni sevənlər üçün
cənnətin bir guşəsidi.
Yazdıqlarım eyni
sevginin nəğmələri,
daddıqlarım eyni
sevginin nəşəsidi…
Düz deyirsən, gülüm!
Ömrüm boyu
eyni sevginin
ləzzətini duyuram,
eyni sevginin
əzabını yaşayıram.
Ürəyimdə eyni sevdanın
odunu daşıyıram!
Neçə qəlbə
sevgi tumu salıram,
neçə həsrət ürəyi
qanadıram.

Qəlbim yenə də
ovuna bilmir,
təzə-təzəsevdalara doğru
can atıram!
Mənim sevdiklərim,
məni sevənlər
çox olduğu üçün
boldu sevgi şeirlərim…
Tanrı dərgahına
doğru gedən yoldu
sevgi şeirlərim!

**06. 01. 2002**

## İŞIQ

İçinə zülmət
çökməkdən böyük
dərd ola bilməz!
Ürəyində işıq olanlar
namərd ola bilməz!
Allahdan başqa
hər şey
sevgidən aşağıdı.
Ürəyimizdəki məhəbbət
Tanrı işığıdı.
Bu işıq
nur  salır ömrümüzə,
bu işıq
qəlbimizin aynası,
ruhumuzun gözüdü.
Bu işıq elə
Tanrının özüdü…

**06. 01. 2002**

# MƏHƏBBƏTİN SEVİNC FƏSLİ

## ÜLÜ TANRI, ÜRƏYİMƏ TƏPƏR VER

Qəlbim əsir, bulud kimi dolmuşam,
Uzaqlara dikilibdir gözlərim.
Neçə qızın ümid yeri olmuşam,
Neçə qəlbə nur ələyib sözlərim.

Çoxdu sevda göylərimin ülkəri,
Gözəl-gözəl qızlar çıxıb qarşıma.
Heç bilmirəm onlar məndə nə görüb,
Pərvanə tək dolanırlar başıma?!

Taqətim yox hər boyuna qol salam,
Ulu Tanrı, özün yetiş köməyə!
Nə qıyıram ürəklərə xal salam,
Nə gücüm var hamısını sevməyə…

Necə yanım yüz həsrətin oduna? –
Adım düşmür gözəllərin dilindən.
Ömrüm-günüm, tez elə çat dadıma,
Qurtar məni bu qızların əlindən!

Həyatıma bəzək olsun səadət,
Görüşümə sevənləri haylayım.
Tükənməsin ürəyimdə məhəbbət,
Məndən sevgi umanlara paylayım.

Yusifoğlu, qəlbindəki nuru gör,
Özün kimi duya bilər kim səni?!
Ulu Tanrı, ürəyimə təpər ver,
Ürəyinə toxunmayım kimsənin!

**29. 11. 2001**

## SEVGİ PAYI

Sənin titrək saçlarını
Oxşamaq keçir könlümdən.
Neyləyim, sevməkdən özgə
Ayrı iş gəlmir əlimdən.

Gücüm çatmaz ulduzlardan
Nurlu çələng hörüm sənə.
Aç qəlbinin qapısını,
Sevgi payı verim sənə!

**21. 04. 2001**

## GÖZLƏYİR MƏNİ

Taleyin payından çox razıyam mən,
Təzə bir sevdaya olmuşam əsir.
Sənin saçlarına gözüm dəyəndə
Ürəyim bir sarı yarpaq tək əsir.

Hələ kam almayıb qəlbim doyunca,
Ülvi bir məhəbbət gözləyir məni.
Təzə sevdalara gedən yolumun
Üstündə səadət gözləyir məni…

**21. 04. 2001**

## SƏN MƏNƏ YUXUNU DANIŞDIN

Səhra da gözümdə oldu bir çəmən,
Elə ki, yuxunu danışdın, gülüm.
Dediyin sözləri dinlədikcə mən,
Sevdalı ürəyim alışdı, gülüm!

Ətirli bir gülə salmışam meyil,
Kaş onu qoxlaya, dərə biləydim.
Gün o gün olaydı yuxuna deyil,
Sənin ürəyinə girə biləydim!

**03. 06. 2001**

## SƏN MƏNƏ DOĞRU GƏLİRSƏN

Xoşbəxtliyim, səadətim,
Sən mənə doğru gəlirsən.
Gözlərində həyat eşqi,
Qəlbində ağrı gəlirsən.

Ancaq bizim aramızda
İllər durur, aylar durur.
Körpüsünü sellər yumuş
Qıjıltılı çaylar durur.

Məhəbbətim ürəyində
Cücərə, bitə biləydi.
Mən son mənzilə yetməmiş,
Sən mənə yetə biləydin…

**06. 06. 2001**

## UNUTMA

Sənə yazdığım sözləri
Ayaqlar altına atma!
Şair sözü haqdan gəlir,
Əzizim, günaha batma!

Qəlbimdə adın alışır,
Gözümdə sevgi sayrışır,
Ay bizə nağıl danışır,
Göylərə bax, gülüm, yatma!

Ötən günləri anarsan,
Özünü xoşbəxt sanarsan,
İçində özün yanarsan,
Ürəyimdə ocaq çatma!

Bu bir şair gileyidi,
Qəlbim həsrət muzeyidi,
Sevgi ömrün bəzəyidi,
Məhəbbəti ucuz tutma!

Pozulacaq indi sükut,
Bəbəklərin qara bulud.
Dünyada hər şeyi unut,
Sevən qəlbimi unutma!

**08. 06. 2001**

## DƏNİZ VƏ GÜNƏŞ

Qəlbim elə bəxtəvərdi ki,
inanmıram
ürəyimdə həsrət odunun
sönməsinə.

Sübh tezdən
dənizə gəlmişəm,
Günəş sarışın saçlarını
dağıdıb
dənizin sinəsinə…
Axşamdan
kükrəyən fırtına
sovuşub.
Dəniz bəxtəvərdi,
öz səadətinə qovuşub!
Ürəyimdə nurlu surətin
Ayna sularda
baxıram
öz əksimə.
Mən dəniz olaydım,
sən günəş;
Sarışın saçlarını
dağıdaydın
köksümə…

**10. 06. 2001**

## MƏN SƏNİ DÜŞÜNƏNDƏ

Mən səni düşünəndə
Bəxtəvərə dönürəm.
Bir gündə neçə dəfə
Alışıram, sönürəm.

Ayla söhbət edirəm,
Yuxu getmir gözümə.
Göylər gülür üzümə,
Dəniz gülür üzümə.

Gözlərin cüt ulduz tək
Şəfəq saçır qarşımda.
Təbəssümün nur olur
Ürəyimin başında.

Qollarımı səninçün
Açmaq istəyirəm mən.
Quşa dönüb yanına
Uçmaq istəyirəm mən.

Ayrılıq sazağında,
Gülüm, üşümürsənmi?
Bəs sən necə, arabir
Məni düşünürsənmi?

**11. 06. 2001**

## ELƏ SƏN ÖZÜNSƏN TALE ULDUZUM

Təzə sevdalara gedən yolumun
Üstündə günəş tək, ay tək yanırsan.
Eşitdim baxırsan ulduz falına,
Mənim taleyimlə maraqlanırsan.

Sağ ol bu qayğıya, diqqətə görə,
Məni nə gözləyir? – Falımı söylə!
Elə sən özünsən tale ulduzum,
Ürəyinə baxıb, halımı söylə!

**13. 06. 2001**

* * *

Həsrətli nəğmələrimdə
İztirab bol, sevinc boldu.
Mənim kövrək misralarım,
Mənə doğru gələn yoldu.

Oxuyub şeirlərimi
Ağlaya, gülə bilərsən.
Düşüb misra cığırlara
Qəlbimə gələ bilərsən…

**16. 06. 2001**

## SONUNCU MƏHƏBBƏT DAYANACAĞIM

Dərdimə olmayıb hələ bir əlac,
Sevdalı gözlərin yaşı olmuşam.
Məhəbbət yolunda ağartsam da saç,
Hər dəfə sevəndə naşı olmuşam.

Hicran pəncəsində inləmişəm mən,
Səni axtarmışam illər uzunu.
Elə bil səsini dinləmişəm mən,
Görə bilməsəm də bir yol üzünü.

Bir tük də yayınmaz mənim gözümdən,
Hazıram nə işə buyursan məni.
Elə bilirəm ki, bircə sözümdən,
Bircə baxışımdan duyursan məni.

Bəxtəvər olmuşam ömrün qışında,
Bir payız çiçəyi vurulub mənə.
Mənim səadətim durub qarşımda,
Axır ki, taleyim yar olub mənə.

Yenidən közərir sevgi ocağım,
Ürəyim yenəmi naşı olacaq?
Sonuncu məhəbbət dayanacağım
Sənin ürəyinin başı olacaq…

**16. 06. 2001**

## HANI?

Yazın titrək nəfəsindən
Məst olmayan budaq hanı?
Məhəbbətin qarşısında
Keçilməyən bir dağ hanı?

Payızım, qışım, yayımsan,
Nurlu ulduzum, ayımsan,
Mənim səadət payımsan,-
Var olsun səni doğanı!

Baxışın nələr danışır?
Gözündə sevgi sayrışır,
Köksümdə eşqin alışır,
Belə isti ocaq hanı?

Saçında titrəyir əlim,
Bəxtəvərdi sevən könlüm,
Bu sevdaya baş əy, gülüm,
Bəzəyəcək o, cahanı!

Səda gəldi göy üzündən,
Verdin mənə pay üzündən,
Öpdüm sənin ay üzündən,
Belə dadlı yanaq hanı?

**18. 06. 2001**

* * *

Nur çilənir varlığıma
sevda dolu gözündən,
Həsrətindən sevənlərin
ürəyi cadar-cadar.
Gəl, gözəlim, bir də öpüm
şəfəq saçan üzündən,
Ayın yanağına çatsa,
şair dodağı çatar!

**18. 06. 2001**

## SARI ÇİÇƏYİM

Ürəyimdə yerin boşdu,
Gəl mənə sarı, çiçəyim!
Şəfəq saçan ləçəyinlə
Yaramı sarı, çiçəyim!
Ay mənim sarı çiçəyim!

Ayrı çiçəklər solacaq,
Qara gözlərin dolacaq.
Sevdalı qəlbin olacaq
Könlümün yarı, çiçəyim,
Ay mənim sarı çiçəyim!

Bəlkə qəlbim gərəyindi?
Nə olacaq görək indi?
Sənin sevən ürəyindi
Eşqimin barı, çiçəyim,
Ay mənim sarı çiçəyim!

Gözlərinə vurulmuşam,
Bulanmışam, durulmuşam,
Həsrətindən saralmışam,
Şahiddi Tanrı, çiçəyim,
Ay mənim sarı çiçəyim!

**18. 06. 2001**

## SƏNDƏN AYRILMAĞA TƏLƏSİRƏM MƏN

Sənsiz vətənimdə qərib oluram,
Üstümə dünyanın zülməti çökür.
Sənsiz boşalıram, sənsiz doluram,
Bizim görüşümüz bircə an çəkir.

Qəlbimə damıb ki, sənə gərəyəm,
Tale öz sözünü söyləyəsidi.
Məhəbbət təşnəsi olan ürəyə
Bir çimdik səadət neyləyəsidi?!

Ürək sözlərindir mənə hədiyyə, –
Üst-üstə yığıram məktublarını.
Sinəmdə dincəlsin, ovunsun deyə,
Köksümə sıxıram məktublarını!

Xoşbəxtik, durmuşuq nəfəs-nəfəsə,
Əzizim, hər şeyə mən müntəzirəm!
Təzə görüşmüşük, ancaq nədənsə
Səndən ayrılmağa məqam gəzirəm…

Ülvi bir sevdayla göynəyir içim,
Sevgi sazağında hey əsirəm mən.
Sənin məktubunu oxumaq üçün
Səndən ayrılmağa tələsirəm mən…

**19. 06. 2001**

# DƏNİZ NECƏ BƏXTİYARDI

"Dəniz mənim sevgilimdir. Mən dənizin günəşi olmaq istəyirəm. Hər səhər oyanıb hamıdan əvvəl dənizi salamlamaq, hər gecə yatanda dənizlə sağollaşmaq istəyirəm. Qısqanıram hər gün dənizin qoynuna atılan yüzlərlə gözəlləri. Dənizin qəlbi genişolanda nə olar ki! İstəyirəm dəniz ancaq günəşin məhəbbətindən coşsun, dalğaları qalxıb günəşəçatsın…Amma günəş çox uzaqdır…

**Bir məktubdan**

Dəniz necə bəxtiyardı,
Günəş ona "yarım" – deyir.
Köksündəki qaranlığı
Gəl nurumla yarım! – deyir.

Qızlar dənizə baş vurur,
Günəş qısqanır yamanca.
Deyir ki, sevgilim dəniz
Mənim olmalıdır ancaq.

Günəş istəyir dənizin
Qəlbindəki tufan arta.
Günəş istəyir dənizin
Dalğaları ona çata!

Ürəkdəki eşq tufanı
Sevgisiz arta bilərmi?!
Heç dənizin dalğaları
Günəşə çata bilərmi?!

Nə qədər uzaq olsa da,
Günəş dənizi isidir.
Onun nurlu təbəssümü
Sevən bir qəlbin bəsidir…

PS. Heç bilmirəm gözəllərdə
Bu qısqanclıq nə adətdi?!
Bu dünyadan umacağım,
Xoşbəxtlikdi, səadətdi!

**20. 06. 2001**

## İKİMİZ DƏ BƏXTƏVƏRİK

Gözlərini görən gündən
Gözümün yuxusu yoxdu.
Sevgi hər şeydən ucadı,
Sevənin qorxusu yoxdu.

Nə deyirlər qoy desinlər,
Biz almayaq vecimizə.
Sevirik bir-birimizi
Çəkilib öz içimizə.

Ehtiyac yoxdu sübuta,
Ehtiyac yoxdu dəlilə;
İkimz də bəxtəvərik, –
Xoşbəxtdi bütün dəlilər!

**20. 06. 2001**

## SƏNİN YUXUN

Görüşümə gecikmisən bu səhər,
Yenə qara bulud kimi dolmusan.
Gülə-gülə baxıb mənim üzümə
Dedin: –Yatıb mən yuxuya qalmışam.

Söylədin ki, öz məhəbbət bağıma
Təzə düşən titrək izi görürdüm.
Heç oyanmaq istəmirdim yuxudan, –
Mən yuxumda axı Sizi görürdüm?!

**21. 06. 2001**

## NAĞILLAR DÜNYASI

"Hər şeirinizdən sehrlənmişəm, nağıllar dünyasına düşmüşəm elə bil".

**Bir məktubdan**

Gözüm gözünə tuş oldu,
Qəlbim quşlara qoşuldu.
Üstümə çiçək ələndi,
Bu dünya nura bələndi.
Nəğmə oxudu böcəklər,
Yuxuya gedib çiçəklər.
Könlümdə bir eşq doğuldu,
Dünya bir şirin nağıldı.
Bu çiçək deyil özündə,
Şeh gülür onun gözündə.
Kirpiklərində yaşa bax,
Necə gözəldi yaşamaq!
Başını söykə sinəmə,
Nağıl danışım sənə mən!
Gülüm, bəxtiyar olarsan,
İnansan şair sözünə!
Göydən üç alma yerinə
Damcılar düşər üzünə…

**23. 06. 2001**

## BÖYÜK SEVGİ

Şair qəlbi geniş olur, –
Neçə sevgiylə dolmayıb.
Nə qədər gözəl sevmişəm,
Məni qınayan olmayıb.

Ömrüm boyu sevilmişəm,
Məhəbbətdən doymamışam.
Hansı sevdalı ürəyin
Arzusunu duymamışam?!

Gözəllər mənim üstümdə
Bir-biriylə dava salıb.
Eşqə həris ürəyimdə
Neçə sevgi yuva salıb.

Ancaq səni görən gündən
Başımda ildırım çaxıb.
Özüm də çaşıb qalmışam,
Sevdiklərim yaddan çıxıb.

Solğun bir ayın işığı
Varlığımı isidərmiş.
Böyük olanda, ürəyə
Bir sevgi də bəs edərmiş!

**23. 06. 2001**

## SEVGİ YAĞIŞI

"Hər kəlmənizdən, hər misradan qanad açıb uçmaq istəyirəm. Elə bil illərlə həsrətində olduğum ürəkdən gələn səmimi, xoş sözlər üst-üstə yığılıb qalıbmış bu gün üçün. Sevgi yağışı kimi yağır bu kəlmələr. İtib-batmışam onların içində. İstəmirəm ayılmaq, bu xoş dünyadan ayrılmaq"…

**Bir məktubdan**

Sevda dolu sözlərini
Çox çətin ki, unudam mən.
Üstünə sevgi yağışı
Səpələyən buludam mən.

Könlün nəğmə oxuyacaq,
Məhəbbətlə dinəcəksən.
Sən bu yağışın altında
Bəxtəvərə dönəcəksən.

Ürəyinin yarasına
Sözlərim məlhəm olacaq.
İlk dəfə bəxtiyarlıqdan
Kirpiklərin nəm olacaq.

Ürəyini sağaltmağa
Şair eşqi lazım imiş!
Səni bəxtəvər eləmək
Mənim alın yazım imiş!…

**24. 06. 2001**

## EHTİYAC

"Bircə onu bilirəm ki, Sizə böyük ehtiyacım var".

**Bir məktubdan**

Qəlbim tutulub bir şirin dərdə,
Nə bir dərmanım, nə əlacım var.
Nağıllaşıbdır sevdalı ömrüm,
Sizə çox böyük ehtiyacım var…

Qoyma yollarda həsrət gözümü,
Xoşbəxt sayıram indi özümü,
İşıqlandırıb sevgi üzümü,
Sanki başımda qızıl tacım var.

Demək olmayır hər şeyi sözlə,
Oynamaq olmaz alovla, közlə.
Yana bilərsən, özünü gözlə,
Ürək göynədən gizli sacım var.

Alov geyərəm əynimə bir gün,
Alaram səni qoynuma bir gün,
Saçlarım keçər boynuna bir gün.
Həsrət adlı bir dar ağacım var…

**24. 06. 2001**

* * *

Baş-başa vermişik
sübh tezdən;
Günəş, dəniz və mən…
Külək haray qoparır,
Ancaq üşümürəm.

Dəniz öz hayındadı,
Günəş öz hayında,
Mən isə
səni düşünürəm…

**24. 06. 2001**

## BİZ GÖRÜŞƏNDƏ

Görüş həsrətiylə sanki yüz ildi
Hicra bir guşəyə boylanırıq biz.
Üzür qəlbimizi xoş bir gizilti,
Vüsal arzusuyla hey yanırıq biz.

Ürəyi tərk etmir qorxu, əndişə,
Qalıb gözümüzdə çox arzu, muraz.
Fürsət axtarırıq bir məqam düşə,
Əl-ələ, göz-gözə dayanaq bir az!

Yaxşı ki, gəlirik hərdən üz-üzə,
Sevda buludu tək hey doluruq biz.
Deməyə söz çoxdu bir-birimizə,
Ancaq görüşəndə lal oluruq biz…

**24. 06. 2001**

## SƏN ÜZÜMƏ GÜLÜMSƏ

Sən güləndə, qəlbimdə
Arzular çiçək açır.
Sən qaş-qabaq tökəndə
Dünyanın rəngi qaçır.

Ürəyimdə məhəbbət
Yetim quzuya dönür.
Səni qəmli görəndə
Yaşamaq eşqim sönür.

Səadətim, sevincim,
Çiçəyimsən, gülümsən.
İstəyirsən yaşayım,
Sən üzümə gülümsə!

**27. 06. 2001**

## BU DA BİR FÜRSƏTDİ

Eşqin qəlbimin içindədi,
Özünsə dayanmısan
qarşımda.
Sənə deyiləsi sözlərim
illər boyu yatıb qalıb
ürəyimin başında.
Bu da bir fürsətdi,
cəsarətin çatmasa,
arzular puç olacaq.
Məhəbbətlə döyə bilsən,
Könlümün qapıları
üzünə taybatay
açılacaq…

**27. 06. 2001**

## ÜZ-ÜZƏ

Düşüb misra cığırlara
Gəlib mənə çatmısan.
Ancaq yaman fikirlisən,
Qaşlarını çatmısan.

Gözlərindən görürəm ki,
Fırtına var içində.
Açıq-aşkar qovrulursan
Tərəddüdlər içində.

Hər gözələ nəsib olmur
Eşq yolunda boy atmaq.
Böyük işdi ziyanların
Yarısından qayıtmaq.

Sevdiyindən ayrılanın
Qəlbi çətin kiriyə.
Heç bilmirəm bu sevgidə
Yol qalıbmı geriyə?!

Bir zamanlar can atardın
Çatmaq üçün mənə sən.
Yaxşı düşün, hələ vaxt var,
Bəlkə geri dönəsən?!

Ürəyində təpər varmı
Son addımı atmağa?
Bəlkə qəlbim layiq deyil
Səadətə çatmağa?!

**27. 06. 2001**

## BU GÜN SƏNİN GÖRÜŞÜNƏ GƏLMƏDİM

Bu nə işdi, baş açmıram özümdən,
Təzə eşqə düşənlərə dönmüşəm.
Damla-damla həsrət axır gözümdən,
Neçə dəfə alışmışam, sönmüşəm.

Sənin adın çiçək açıb dilimdə,
Ürəyimə bir pozulmaz iz düşüb.
Əllərinin istisi var əlimdə,
Dodağıma yanağından köz düşüb.

Qismətimi hər yetənlə bölmədim,
Xəzan əsdi, sevgi gülüm solmadı.
Bu gün sənin görüşünə gəlmədim,
Ancaq sənsiz bircə anım olmadı…

**28. 06. 2001**

## İZİ QALIR

Gözümüz görüb zövq alır,
Alovlara bizi salır.
O dünyaya köçənlərin
Bu dünyada gözü qalır.

Yağış yağıb dönür selə,
Arzuları vermə yelə!
Yaşamağa dəyər hələ,
Od sönsə də közü qalır.

Təzə bir eşqə susadım,
Dərmanım odlu busədi.
Ömür an kimi qısadı,
Şair gedir, sözü qalır.

Əllərinə əlim yetmir,
Başımdan xəyalın getmir,
Hər şey itir, sevgi itmir.
Ürəklərdə izi qalır…

**28. 06. 2001**

## DÖNÜB

Mənim sevdalı ürəyim
Çox qadalı başa dönüb.
Desələr inanarsanmı
Şair qəlbi daşa dönüb?!

Həsrətin əli yaxamda,
Səni görmüşəm yuxumda,
Gözün gözümə baxanda
Könlüm qızıl quşa dönüb…

Ömrünü sevgiyə həsr et,
Komamı eşqinlə qəsr et!
Ürəyimə hopan həsrət
Gözlərimdə yaşa dönüb.

Səadət hara, mən hara?
Durub həsrətlə baxaram,
Əlim yetişməz bahara,
Ömrün üzü qışa dönüb…

**29. 06. 2001**

## ÜRƏYİM DARIXIB GÖYNƏRTİ ÜÇÜN

"Qorxuram bu sevginin ürəyimizdə qalacaq izindən, ağrısından. Qorxuram yanıb kül olmuş ürəyi yenidən alışdırıb oduna Sizi də yandırmaqdan. Əlimdən təkcə təbəssümümü Sizə bəxş etmək gəlir ki, onu heç vaxt əsirgəməyəcəyəm."

**Bir məktubdan**

Həsrət gözlərimi hərdən yumuram,
Eşqini qəlbimə nəqş eləyirsən.
Mən səndən sevdalı ürək umuram,
Sən mənə təbəssüm bəxş eləyirsən.

Əgər döyünürsə ürəklər qoşa,
Ömrün acısına bal qatmaq olar.
Şair də uşaqdı, sadəlövh uşaq,
Onu təbəssümlə aldatmaq olar.

Əsrarlı baxışın günəş saçağı,
Sevdalı gözündən öpəcəyəm mən.
Sənin ürəyində sönən ocağın
Külünü qəlbimə səpəcəyəm mən.

Sevda göylərində şimşəklər çaxsın,
Bircə təbəssümlə göyərdi içim.
Qoy eşqin qəlbimi yandırıb yaxsın,
Ürəyim darıxıb göynərti üçün…

Qovuşa biləydi əlinə əlim, –
Diləyim tək budur ulu varlıqdan.
Sən məni qoynuna alanda, gülüm.
Bağrım çatlayacaq bəxtiyarlıqdan…

**30. 06. 2001**

# BÖYÜK SƏADƏT

"Nə geriyə yol var, nə də irəli getməyə cəsarətim çatır. Geriyə dönüb yenidən o qaranlıq aləmə qayıtmaq, bu xoşbəxt nağıl dünyasından ayrılmaq istəmirəm. Qəlbiniz böyük səadətə layiqdir."

**Bir məktubdan**

Fürsət varkən qoy sözümü söyləyim,
Bir gün çəkib gedəcəyəm köçümü.
Ürəyimlə bacarmıram, neyləyim?
Bəxtiyarlıq doldurubdur içimi.

Özün qədər gözəl imiş qəlbin də,
Məhəbbətim bir kükrəyən dənizdi.
Bir gözəllik sərgisi var qəlbimdə,
Ruhun mənə cismindən də əzizdi…

Ürəyinin başında bir sirr yatır,
Qəvvas kimi dərinlərə enirəm.
Hər kəlmənin altında bir dürr yatır,
Oxuduqca bəxtəvərə dönürəm.

Gözlərində ilahi nur görübsə,
Bəxtiyarlıq daşmasınmı könlümdən?!
Səadəti mənə Tanrı veribsə,
Bəndə onu ala bilməz əlimdən…

**30. 06. 2001**

# BU MƏHƏBBƏT ÖLMƏYƏCƏK

"Xoşbəxtlik sevməyi bacarmaq və sevilməkdədir. Siz sevməyi hamıdan gözəl bacarırsınız, hamıdan çox sevilirsiniz".

**Bir məktubdan**

Bir kimsə mənim gözümlə
Gözlərinə baxa bilməz.
Təbəssüm çiçəklərini
Yanağından yığa bilməz.

Göz yaşımdan su içirsə,
Həsrət gülləri solarmı?
Dodağından qopan sözlər
Hər qəlbdə nəğmə olarmı?

Bir ürəyi isitməyə
Bəs edər alovum, odum.
Ciyərindən çıxan nəfəs –
Mənim sevgi kislarodum.

Ürəyində nur olmayan
Ay üzünə baxa bilməz.
Heç kəs, heç kəs ayrılıqdan
Mənim kimi qorxa bilməz.

Xallarının qiymətini
Hər baxan verə bilərmi?
Gözlərindəki həsrəti
Adi göz görə bilərmi?

Əbədidi dünya qədər,
Bu məhəbbət ölməyəcək.
Bir də heç kəs mənim kimi
Səni sevə bilməyəcək…

**01. 07. 2001**

## SEVGİDƏN BÖYÜK NƏ VAR Kİ…

Mənim sevdalı qəlbimi
Əgər başına çevirsən,
Uf demərəm! Əzabınla,
Gülüm, xoşbəxt elə məni!
Sən desən də, deməsən də,
Bilirdim məni sevirsən,
Bir dəfə də aldatmayıb
Şair qəlbim hələ məni.

Bəxtəvərə dönəcəyəm
Əllərinə əlim çatsa,
Sənsiz yaman darıxıram,
Hərdən gəlirəm yanına.
Sevən qəlbin bəxtiyardı,
Ancaq yaman narahatsan,
Qorxu ac qarışqa kimi
Darışıb şirin canına…

Həsrət şimşəkləri çaxır,
Bəbəyimdə alov gəzir,
Göz yaşımla sulamağa
Kaş bir sevgi bağım ola!
Elə mən də bəxtəvərəm,
Eşqindən ürəyim əsir,
Sevgidən böyük nə var ki,
Ayrı umacağın ola?!

**01.07.2001**

* * *

Qəlbini sıxıb
yuxuda səndən
üz döndərməyim.
Elə iş tut ki,
bir də mən səndən
üz döndərməyim!

**03. 07. 2001**

## TİLSİMLİ QAPILAR

Sözümdən incimə, yaxşı bilirsən,
Sevgiylə yoğrulur şair gileyi.
Bizim boyumuza biçilib sanki,
Gülüm, Ay taleyi, Günəş taleyi.

Bu da bir qismətdi, ulu göylərin
Gecəsində mənəm, gündüzündə sən.
Düşüb aramıza bağlı bir qapı,
Bu üzündə mənəm, o üzündə sən…

Qəlbimiz can atır görüşmək üçün,
Sevgi başımızda tac olacaqdır.
Sehrli açara dönəcək eşqim,
Tilsimli qapılar açılacaqdır…

**04. 07. 2001**

## EŞQ QATARI

Bir əbədi yadigardı yarımdan,
Zaval yoxdu qəlbimdəki yaraya.
Gələcəyə yol gedirik yanaşı,
Həsrət adlı qılınc düşüb araya.

Heç olmasa, məni hərdən yada sal,
Çətindimi halımı bir soruşmaq?
Qoşa rels tək uzansaq da yanaşı,
Bizə qismət olacaqmı qovuşmaq?

Əgər yoxsa yaxın dostu, həmdəmi,
İnsan oğlu qərib olur vətəndə.
Bəxtəvərə dönəcəyik, bilirəm,
Üstümüzdən eşq qatarı ötəndə…

**04. 07. 2001**

## SƏNİN DEYİLMİ

Söylədim ki, eşq oduna
Biz yanırıq için-için.
Qaydadı sevən ürəklər
Can atar səadət üçün…

Əhdinə dönük çıxana
Eşq özü qənim olacaq.
Bir belə ki, həsrətliyəm,
Səadət mənim olacaq.

Gülümsündün: – Axı hər şey,
Əzizim, sözlə deyilmir!
“Mənim olacaq” nə sözdü,–
Səadət sənin deyilmi?!

**04. 07. 2001**

## BƏNZƏYİR

Qəlbim sənə vurulandan, əzizim,
Darıxıram, yer tapmıram özümə.
Bu dünyanın bəxtəvəri oluram,
Qonur gözün qonur mənim gözümə.

Üzündəki sevda dolu təbəssüm,
Bizim dağın çiçəyinə bənzəyir.
Dodaqlarım ac arıdı elə bil,
Dodağın gül ləçəyinə bənzəyir…

**04. 07. 2001**

* * *

Deyirlər
sevgi əzabının
dərmanı vüsaldı.
Qəlbinin ağrılarını
unutdurmaq istədim,
ancaq ürəyinə
təzə-təzə
ağrılar saldım!
Görünən dağa
bələdçi nə
gərək, əzizim?!
Təzə ağrıların,
əzabların
mübarək, əzizim!

**05. 07. 2001**

## QƏND

Mənə çay verdin, nədənsə
Qənd vermək yadından çıxdı.
Birdən pərt oldun, elə bil
Başında ildırım çaxdı.

Dedin: – Məni bağışlayın,
Qənd verməyi unutmuşam.
Heç ağlım başımda deyil,
Elə bil ki, mən bihuşam.

Gülümsünüb söylədim ki,
Günahlarından keçərəm.
Qəndi neynirəm, üzünə
Baxıb, çayımı içərəm.

Qalmadın sözün altında,
Yar hikməti dərin olar.
Dedin: – Üzümə baxsanız,
Çayınız çox şirin olar!

**05. 08. 2001**

## TORT

Rəfiqən söylədi ki,
Bax, sən düz iş görmədin.
Nə üçün çay içəndə
Şairə tort vermədin?

Zarafatla dedin ki,
Gör bu qız nə söyləyir?-
Axı mən olan yerdə
Şair tortu neyləyir?

**05. 08. 2001**

## SƏNİN CAVABIN

Sənə dedim ki, qorxuram
Bu sevgi bitə, tükənə.
Narahatam, elə bil ki,
Birə darışıb kürkümə.

Dedin: – Qorxma, ölməmişəm,
Sizi tənha qoymayacam!
Bağrınızın başındakı
Közü tənha qoymayacam.

Qəlbim çat-çatdı, təşnəyəm,
Dəli sevdadan doymaram
Sevgi dəyirmanınızı
Heç zaman susuz qoymaram…

## DAHA

Sənin nəmli kirpiklərin
Tikanlı ox olub daha!
Ürəyimə qılınc kimi
Həsrətin soxulub daha!

Gözümüzə getmir yuxu,
İçimizdə qara qorxu,
Qəlbimizin rahatlığı
Əriyib, yox olub daha.

Göylərdə şimşəklər çaxdı,
Üstümüzə leysan yağdı,
Gülüm, geriyə yol yoxdu,
Evimiz yıxılıb daha!

**05. 07. 2001**

## MƏN SİZƏ BU YAŞINIZDA GƏRƏYƏM

– Kaş gəncliyimdə sənə rast gələydim.
–Yox, mən Sizin bu dövrünüz üçün yaranmışam.

**Bir söhbətdən**

– Kaş gənclikdə rast gələydim sənə mən,
Qoyardımmı eşq odunu sönə mən?!
Gülüb dedin baş qoyaraq sinəmə:
– Köksünüzdə bir sevdalı ürəyəm,
Mən Sizə bu yaşınızda gərəyəm!

Kölgəsində dincəldiyim palıdsan,
Könlüm ağlar, əgər məni unutsan.
Sən üstümə leysan səpən buludsan,
Sinəsində sellər axan dərəyəm,
Mən Sizə bu yaşınızda gərəyəm!

Dad çatarmı vüsalının dadına?
Verərəmmi Sizi ayrı qadına?
Sevda dolu şeirlərin oduna
Təndir kimi közərən bir kürəyəm,
Mən Sizə bu yaşınızda gərəyəm!

Sözlərimi söyləyirəm pərdəsiz,
Ürəyimi salmısınız dərdə Siz.
Özünüzə qoca deyib bir də Siz,
Toxunmayın ürəyimə, kövrəyəm,
Mən Sizə bu yaşınızda gərəyəm!

Ürəyimi bumbuz bilmə, əzizim,
Heç özünü yalqız bilmə, əzizim,
Məni adi bir qız bilmə, əzizim,
Yaradanın göndərdiyi mələyəm,
Mən Sizə bu yaşınızda gərəyəm!…

**06. 07. 2001**

## SEVGİ GÖYLƏRİ

Həyatıma sən gələndən
Qəlbim nura boyanıb,
Mənim sevgi üfüqümdən
Günəş kimi boylanıb,
Şəfəq saçan tellərini
Nurlu ox eləmisən,
Məhəbbətin göylərindən
Ayı yox eləmisən.
Gəlişinlə neçə-neçə
Ulduzları söndürmüsən,
Mənim sevgi göylərimi
Çırağbana döndərmisən!

**07. 07. 2001**

## BAL SEVDASI

Bəlkə də mənim halıma
sən gülüb için-için
Soruşursan: – İş yoxdursa
gəlmisiniz nə üçün?
Gözlərini gözlərimə
yaxın simsar bilmişəm,
Mən arıyam, çiçəklərdən
bal çəkməyə gəlmişəm.

**07. 07. 2001**

## GÜNƏŞLƏ AY ARASINDA

Ayrılığın gecə-gündüz sıxır məni,
Şimşək çaxır gözlərimin qarasında.
Biri səhər, biri axşam yaxır məni,–
Sərgərdanam günəşlə ay arasında.

***

Bu sevdalı ömrümüzü
tale verib bizə pay,
Ürəyinə sevgi düşən
nə yatar, nə dincələr.
Dünyanın iki gözü var,
biri gündü, biri ay,
Gün gözüylə səhər baxır,
ay gözüylə gecələr.

Ürəyimdə sənin eşqin
gecə-gündüz sayrışır,
Gözlərini düşünəndə
mən bəxtəvər olmuşam.
Sübh çağıdı, dünya mənə
sanki nağıl danışır,
Qəlbim əsir, ayla günəş
arasında qalmışam.

Sevda dolu qəlbimizə
gecə-gündüz nur ələ,
Qoru bizi hicranlardan,
qoru bizi pis gündən.
Ulu Tanrı, sevib dərdə
düşənlərə rəhm elə,
Nəzərini əskik etmə
sevənlərin üstündən!…

**08. 07. 2001**

# SEVİNC YAŞLARI

"Həmişə Siz məni qabaqlayırsınız.
Ürəyimdətutduğum sözü məndən əvvəl deyirsiniz"

**Bir qızın sözlərindən**

Sevdayla yoğrulan misralar həzin,
Siz mənə səadət bəxş edirsiniz.
Heç nə gözünüzdən yayınmır Sizin,
Qəlbimin səsini eşidirsiniz.

Mən həyat eşqini Sizdən alıram,
Zülməti əridən titrək nursunuz.
Bəzən öz-özümə çaşıb qalıram,
Sanki ürəyimi oxuyursunuz.

Ruhumu isidir od nəfəsiniz,
Eşqiniz qəlbimə olub yaraşıq.
Elə bil tufandı Sizin səsiniz,
Əlimi titrədir dəstək qarışıq…

Yoxdur bir təmənnam ulu varlıqdan,
Bir həsrət yuvası olub gözlərim.
Ürəyim uçunur bəxtiyarlıqdan,
Sevinc yaşlarıyla dolub gözlərim…

**08. 07. 2001**

# İNCİDİM

"Başqa problemlər başımı elə qatıb ki,
məktubyazmağa vaxtım yoxdu"…

**Bir qızın sözlərindən**

Məhəbbətə nə vaxt-vədə?–
Gülüm, sözündən incidim.
Nəfəsinlə alovlanan
Qızıl közümdən incidim.

Sönmüş odu eşələyən,
Ürəyimi pörşələyən,
Qədəminə yaş ələyən
Ağlar gözümdən incidim.

Düşdüm ayrılıq çəninə,
Söz dedim bir gül şəninə!
Sənin sevgi gülşəninə
Düşən izimdən incidim.

Sevgidə yoxmuş pənahım!
Dağ yaxacaq bir gün ahım,
Sənin yoxdu bir günahın,
Özüm özümdən incidim…

**10. 07. 2001**

# SEVGİ

Döndüm bəxtəvərə bir an içində,
Baxışın qəlbimdə oyatdı sevgi.
Mənim ürəyimi eşq dənizində
Tənha qayıq kimi oynatdı sevgi.

Ürəyə qadağa qoymaq hədərdi,
Bu tale işidi, qəza-qədərdi,
Yaşı bu dünyanın yaşı qədərdi,
Kim deyir köhnədi, boyatdı sevgi?!

Sızladı, göynədi bağrımın başı,
Sevib əzizlədim atdığın daşı,
Ələndi üstümə həsrət yağışı,
Qəlbimdə böyüdü, boy atdı sevgi.

Havadan nəm çəkən qəlbim incədi,
Səndən yox, özündən küsdü, incidi.
Bəlkə də səninçün bir əyləncədi,
Ancaq mənim üçün həyatdı sevgi …

**10. 07. 2001**

* * *

Bəzən qəlbimin xətrinə
Mən çox şeyə göz yummuşam.
Səhərəcən göynəmişəm,
Elə bilmə göz yummuşam.

Bu sevda bir nağıl, röya,
Göz dikmişəm üç almaya…
Haqqım olmaya-olmaya
Səndən çox şeylər ummuşam…

**10. 07. 2001**

## MƏNİM YARIM LEYLİ OLMAQ İSTƏMİR

Bu qız körpə uşaq kimi danışır,
Eşq yolunda yaşa dolmaq istəmir.
Söyləyir ki, elə belə yaxşıdı, –
Ürəyimlə yaşıd olmaq istəmir.

Dodaqları bal süzülən ləçəkdi,
Dəli könlüm onu görüb nə çəkdi?!
Mənim yarım bir ətirli çiçəkdi,
Tez açılıb, vaxtsız solmaq istəmir.

Gəncliyində görüb ömrün qışını,
Sinəsindən keçib həsrət qoşunu,
Təzə sevda yaman qatıb başını,
Ötənləri yada salmaq istəmir.

Qulaq asır könlümdəki səsə o,
Məhəbbətdə ola bilməz kəsə yol…
Mən varamsa, könül verməz Qeysə o,
Mənim yarım Leyli olmaq istəmir.

Baş açmıram gözlərinin felindən,
Yapışacam bir gün incə belindən,
Öpəcəyəm şirin-şəkər dilindən,
Yusifoğlu borclu qalmaq istəmir…

**11. 07. 2001**

## SEVƏ-SEVƏ

Göylərdə ay güləndə
Qəlbim nura boyanır.
Xəyalım ay üzlümlə
Gedib qoşa dayanır.

Arzular gözlərimdə
Ulduzlar tək sayrışır.
Pıçıldaşan yarpaqlar
Nələr, nələr danışır!

Dalğalar şahə qalxır,
Dənizdə fırtına var.
Gözlərimdə təbəssüm,
İçimdə fırtınalar.

Sevgiylə dolu ürək
Quş olmağa can atır.
Qəlbim qağayılara
Qoşulmağa can atır.

Yarpaqları sevirəm,
Xəzəlləri sevirəm.
Mən təkcə dənizi yox,
Gözəlləri sevirəm.

Məhəbbət əzabıyla
Göynəyir yaram, Allah!
Dünya necə gözəldi,
Nə bəxtiyaram, Allah!

Həyatda sevə-sevə
Yaşamaq səadətdi.
Məni cavan saxlayan
Dənizdi, məhəbbətdi…

**11. 07. 2001**

* * *

Mənim sevdalı ürəyim
Səni itirməkdən qorxdu.
Gülümsünüb dedin: – Məni
Sizdən başqa sevən yoxdu!
Arxayın olun yüz faiz,
Sözlərim deyil havayı!
– Bəs sənin necə, sevdiyin
Adam var məndən savayı?!

* * *

Deyirsən:
– Ruhunuzu sevirəm,
Üzünüzə həmişə
açıqdır qapım!
İndi mən neyləyim,
bədənim üçün də
Ayrı sevgili tapım?!

* * *

Deyirsən ruhun yanında
Bədən ucuz bir şeydi.
Siz gəldiniz taleyimə,
Qəlbim zərxara geydi.

Gülüm, məni cırnatmağa
Əlində bəhanə var.
Qəlbini mənə vermisən,
Ürəkdən baha nə var?

Yanağından bircə öpüş
Almağa da qoymursan.
Ən bahalını verirsən,
Ən ucuzu qıymırsan?!

* * *

Deyirsən ki, gözəlləri
Yoldan çıxarmaqdır işim.
Kim nə deyirsə, qoy desin,
Bilirəm ki, haqdır işim!

Gözəllərin qəlbindəki
Ağrıları götürürəm.
Mən yoldan çıxartmıram ki,
Gülüm, yola gətirirəm…

## BU VAXTACAN

Ömrüm boyu
adi bir sevgini də
ürəyimin oduyla
ilahi bir eşq eləyirmişəm!
Sən demə bu vaxtacan
səni sevmək üçün məşq
eləyirmişəm…

**12. 07. 2001**

## SÖZLƏRİNİ DİNLƏDİKCƏ

Zəng eləyib söylədin ki,
neçə gün bundan qabaq,
İstədik ki, özümüzə
dəniz paltarı alaq.
Gördük dəniz dalğalıdı,
bu fikirdən daşındıq.
Sahildə Sizi görəndə
biz utandıq, yaşındıq.
Dedik: – Sevgi belə olar! –
qibtə elədik Sizə,
Gördük yenə durmusunuz
dəniz ilə üz-üzə…
Ürəyimə tufan saldı,
gülüm, sənin sözlərin,
Dalğalı bir dəniz idi
sevda dolu gözlərin.
Sözlərini dinlədikcə
dərindən köks ötürdüm,
Səni dalğalar qoynunda
xəyalıma gətirdim.
Su süzülən saçlarını
hörmək keçdi könlümdən,
Səni dəniz paltarında
görmək keçdi könlümdən…

**12. 07. 2001**

## BİZ AYRILANDA

Ayrılanda həyətəcən
gəlib məni ötürdün,
Əlim əlindən üzüldü,
gizlicə köks ötürdün.
Bizi gözdən qoymayanlar
sinəmizə çəkdi dağ,
Qoymadılar qəlbimizcə
biz görüşüb ayrılaq.
Gözün bulud tək dolmuşdu,
su səpirdi dalımca,
Kürəyimdə baxışların
döndü oxa, qılınca.
Görüşəndə uşaq kimi
yüyürüb gəl qarşıma!
Ömrüm-günüm,
məni hər gün
sən ötür, sən qarşıla!

**13. 07. 2001**

## SƏSLƏRİMİZ QOVUŞUR BİR-BİRİNƏ

İkimiz də bulud kimi dolmuşuq,
Bu sevgidən nələr umdu ayrılıq?
Sən o tayda, mən bu tayda qalmışıq,
Aramızda uçurumdu ayrılıq.

Nəfəsinlə kövrək qəlbim isinir,
Sevənlərin nə vecinə uçurum?!
Eşidəndə sevda dolu səsini,
Sevincimdən qanad açıb uçuram.

O sözləri, o qaməti, o boyu,
Unutmaram ötsə də yüz qərinə.
Nə yaxşı ki, hər gün olub qol-boyun
Səslərimiz qovuşur bir-birinə.

**14. 07. 2001**

## TƏZƏ ƏSRİN İLK SEVDASI

İkibaşlı sözlərinlə
Sən heyran qoyursan məni.
Hər şeyi başa düşürsən,
Özüm tək duyursan məni.

Xəzan vuran sevgi bağım
Elə bil ki, bahar olub.
Xoşbəxtlərin xoşbəxtiyəm,
Səadət mənə yar olub.

Sevda dolu gözlərinin
İçindəki dəli şeytan
İlahi bir təbəssümlə
Könlümə oxuyur meydan.

İnanıram, əridəcək
Bu ilahi sevgi daşı.
Ürəyimdə fırtına var,
Bəbəyindən sevgi daşır.

Hər şey, hər şey təzələnib,
Elə bil dünya dəyişib,
Təzə əsrin ilk sevdası
Mənim ürəyimə düşüb…

**14. 07. 2001**

## MƏNİM EŞQİM

Ürəyimi oda salan
Sözlərin tilsim olacaq.
Titrək əllərim dəyəndə
Hər telin bir sim olacaq.

Səni bəxtəvər eyləyən,
Saçını gül tək iyləyən,
Hər sözünə can söyləyən
Məndən başqa kim olacaq?

Ayaq tuta bilməz yalan,
Boşalacaq bir gün dolan,
Bu dünyada sənə qalan
Tək mənim eşqim olacaq…

**14. 07. 2001**

## HEÇ BİLMİRƏM SƏNİ NECƏ XİLAS EDİM

Allah bilir nə çəkirsən içində sən?–
Nəfəsimlə əllərini gəl isidim!
Duyuram ki, burulğanlar içindəsən,
Heç bilmirəm səni necə xilas edim?

Üşüyürsən ayrılığın yellərindən,
Qəlbindəki həsrət odu çətin sönə.
Ayrı bir iş gəlməsə də əllərimdən,
Bir sevdalı ürəyim var, qurban sənə!

Xoşun gəlmir bəlkə çiçək yağışından?–
Külək səpir başımıza ləçəkləri.
Gecə-gündüz gizli axan göz yaşından
Qidalanır həsrətimin çiçəkləri.

Ot basıbdır təzə düşən cığırları,
Vəfasız yar deyil sənin gərəyinə.
Guya azmış saf qəlbinin ağrıları,
Bir yara da mən vurmuşam ürəyinə!

Allah bilir nə çəkirsən içində sən,
Nəfəsimlə əllərini gəl isidim.
Duyuram ki, burulğanlar içindəsən,
Heç bilmirəm səni necə xilas edim?!

**14. 07. 2001**

## BU SEVGİ DEYİLSƏ BƏS NƏDİ, GÜLÜM?

Ruhuma od salıb mehrin, ülfətin,
Qonur gözlərini unutmaq çətin!
Çıxmır xəyalımdan əziz surətin,
Bu sevgi deyilsə, bəs nədi, gülüm?!

Nəfəsim dəyəndə telin titrəyir,
Səsimi eşitcək əlin titrəyir,
Mənə söz deyəndə dilin titrəyir,
Bu sevgi deyilsə bəs nədi, gülüm?!

Məni itirməkdən yaman qorxursan,
Sən belə deyildin, niyə fağırsan?!
Gecələr ah çəkib aya baxırsan,
Bu sevgi deyilsə, bəs nədi, gülüm?!

Alovlara düşdük könül verəndə,
Əllərin titrəyir çiçək dərəndə,
Gözlərin sevinir məni görəndə,
Bu sevgi deyilsə, bəs nədi, gülüm?!

Özgəni isidən sehrli odam,
Şəhdi-şəkərindən qoymursan dadam,
Dönüb kəpənəyə dağ boyda adam,
Bu sevgi deyilsə, bəs nədi, gülüm?!

Məni xilas edib qəlbi korluqdan,
Daha nə diləyim ulu varlıqdan?!
Ürəyim titrəyir bəxtiyarlıqdan,
Bu sevgi deyilsə, bəs nədi, gülüm?!

**15. 07. 2001**

## BƏS SƏN MƏNİ İTİRMƏKDƏN QORXMURSAN?

Əllərinə nə vaxt çatar əllərim?–
Gecə-gündüz hey sayıram günləri.
Həsrətimdən solur sevgi gülləri,
Yağış olub ürəyimə yağmırsan,
Bəs sən məni itirməkdən qorxmursan?!

Sədaqətli olanları kim söyər?
Öz eşqimlə yük olmadım kimsəyə,
Təbəssümün niyə dönmür şimşəyə?-
Daha sevgi göylərimdə çaxmırsan,
Bəs sən məni itirməkdən qorxmursan?!

Ömrüm boyu bir ilahi nurlayam,
Ürəyimə sevgi düşə, parlayam,
Eşq toxumu cücərdən bir tarlayam,
Selə dönüb sinəm üstdən axmırsan,
Bəs sən məni itirməkdən qorxmursan?!

Qəlbindəki həsrət iynə-iynədi,
Heç bilmirsən torpaq nədi, göy nədi?!
Ürəyini ayrı sevgi göynədir,
Utanırsan, gözlərimə baxmırsan,
Bəs sən məni itirməkdən qorxmursan?!

**15. 07. 2001**

## GƏRƏK

Bir dəfə verilir ömür insana,
Dünyaya gəlmişik sevinək, gülək.
Qəlbimdə gah bahar, gah da qış olub,
Bir hava gətirib hər əsən külək.

Kim ilk məhəbbəti yadına salmır?
Sevgi çiçəkləri heç zaman solmur,
Könül işlərindən baş açmaq olmur,
Hər eşq küləyindən titrəmir ürək.

Durmuşam səninlə nəfəs-nəfəsə,
Sevdalı ürəyim gəlib həvəsə,
Mən baş əyməmişəm hələ heç kəsə,
Ancaq dizlərimi büküb bir çiçək.

Bizi mərd eləyən ismətimizdir,
Sevib əzab çəkmək xislətimizdir,
Səadət halalca qismətimizdir,
Dünyaya gəlmişik ağ günlər görək.

Yarpağa döndərmək olmaz xəzəli,
Yıxar öz evini bir gün öz əlin,
Mən tək sevgilisi olan gözəlin
Könlü ayrı sevgi ummasın gərək…

**15. 07. 2001**

## MUŞTULUQ

Sən bu sevda yollarında
De, nə qədər at çapmısan?
Gözün aydın, yarın gəlir,
Axtardığını tapmısan.

Get bir muştuluq hazırla,
Tale üzünə güləcək.
İllər boyu axtardığın
İnsan yanına gələcək.

Oxunmamış nəğmə kimi
Həmişə belə həzin ol!
Həsrət qollarım açılıb,
Muştuluğum sən özün ol!

**15. 07. 2001**

## BİLMİRƏM

Çevrilsəm də bəxtəvərə,
Özümü öyə bilmirəm.
Sevgi adlı bir donum var,
Əynimə geyə bilmirəm.

Gör harda qarşıma gəldi,
Hər sözü xoşuma gəldi,
Nə işdi başıma gəldi,
Bəxtimi öyə bilmirəm.

Bəyənməzdim hər adamı,
Bu, deyilmiş yer adamı,
Atam yaşda bir adamı
Sevmişəm niyə, bilmirəm?

Gözüm tutanı sevmişəm,
Eşqin odunda bişmişəm,
Elə bir dərdə düşmüşəm,
Heç kəsə deyə bilmirəm…

**15. 07. 2001**

## DEYİRSƏN Kİ…

Deyirsən ki, ömrüm boyu
Tapa bilmirdim tayımı.
Allahımdan çox razıyam,
Göndərdi sevgi payımı…

Qanadı yoxdu ki, uçsun,
Bəxtəvərə dönüb ürək.
Üstümə eşq nəğmələri
Yağır sevgi yağışı tək.

Gecələr aya baxıram,
Gözümün yuxusu qaçıb.
Ürəyimdə viran qalan
Neçə arzu çiçək açıb.

Beş-on günün içindəcə
Duydum əsl səadəti.
Tanrı mənə çox görməsin
Bu gecikmiş məhəbbəti!

**15. 07. 2001**

## KÖVRƏK SEVGİ NƏĞMƏLƏRİ

Biz bu ömür yollarında
Gizli yanan bir ocağıq.
Kimin ağlına gələrdi
Belə doğma olacağıq?!

Təzə əsrin ilk sevdası
Sanki uzun bir yol keçib.
Kövrək sevgi nəğmələri
Ürəyimizdən su içib.

Ötüb gedən sevdalara
Bu gün mən qəbir qazacam.
Yüzüncü şeiri alnına
Dodaqlarımla yazacam…

**15. 07. 2001**

## QOYMARAM

Qoymaram qəlbinə xal düşə,
Mən sənə qıymaram, qıymaram!

Sözündən, gözündən, özündən
Doymaram, doymaram, doymaram!

Sən varkən hər ötən gözələ
Uymaram, uymaram, uymaram!

Mən səni zülmətə düşməyə
Bir daha qoymaram, qoymaram!…

**15. 07. 2001**

## SƏNİN GÖZ YAŞLARIN

Məhəbbətlə baxanda
Torpaq gülür, daş gülür.
Bəxtəvərə dönmüsən,
Gözlərində yaş gülür.

Könülləri güldürmək
Olub mənim adətim.
Göz yaşları içində
Bərq vurur səadətim.

**16. 07. 2001**

## BÖYÜK ADAM

Heyrətlənib deyirsən ki,
Siz çox böyük adamsınız!
Bir əbədi güvənc yerim,
Gizli sevgi adamsınız…

– Qəlbimi eşqin yaxmasa
Görüşünə gələrdimmi?!
Böyük adam olmasaydım,
Səni sevə bilərdimmi?!

**16. 07. 2001**

## BÖYÜK ADAMIN SEVGİSİ

Mənə böyük adam deyirsən –
Böyük adamın sevgisi də
böyük olur, sevgilim!
Başqasını sevib,
çilikləmə bu sevgini!

**18. 07. 2001**

## SİZİ MƏNƏ ÇOX GÖRMƏSİN TALEYİM

Ömrüm boyu düşünürdüm, görəsən
Niyə belə soyuq olur adamlar?!
Ürəyimə dammışdı ki, dünyada
Ürəyimi duya bilən adam var.

Eşq bağımda hər gül kolu bitmədi,
Havasını, torpağını dəyişdim.
Aylar keçdi, illər keçdi, ağaclar
Neçə dəfə yarpağını dəyişdi.

Qəlblərində bir yırtıcı təmənna,
Sevdiklərim ruhu incə olmadı.
Gecə-gündüz mənə əzab verdilər,
Heç birisi ürəyimcə olmadı.

Bir gün Sizə rast gələndə titrədim,
Birdən-birə qəlbimi od götürdü.
Elə bil ki, xəzan vuran könlümə,
Sözləriniz yaz havası gətirdi…

Yenə göydə şəfəq saçdı ulduzlar,
Bomboz dünya gül-çiçəyə büründü.
Arzularım qönçələdi qəlbimdə,
Gözlərimdə sevinc yaşı göründü…

Dünya necə gözəl imiş, ay Allah,
Daha yoxdu bir təmənnam, gileyim.
Eşqinizlə bəxtəvərə dönmüşəm,
Sizi mənə çox görməsin taleyim…

**18. 07. 2001**

## ALLAH MÜKAFATI

Döndərməyib öz yolundan məni əzablar,
Ağrılardan neçə dəfə ürək çat verib.
Görüb ülvi məhəbbətə ehtiyacı var,
Allah səni mənim üçün mükafat verib…

**21. 07. 2001**

## MÜKAFAT

– Sevgi nəğmələrimin
sayı düz yüzə çatıb,
Bəs nə zaman olacaq
onların mükafatı?
– Qəlbində sevgi olan
eşq yolunda mat olmaz,
Sizi sevən qəlbimdən
böyük mükafat olmaz…

**18. 07. 2001**

* * *

Bu sevgi ilahi bir sevgidi,
Yox bunun şəkk gətirəni,
şübhə edəni də.
Ancaq arabir
mükafatlandırmaq lazımdı
ruhumuzun beşiyi olan
bədəni də…

**21. 07. 2001**

## DƏLİ KÖNÜL

Dözə bilmir yarım qara, sazağa,
Ancaq qoymur cilovlayım şaxtanı.
Sözlərimə qoyub qoruq-qadağa,
Yüz ölçməyə, bir biçməyə vaxt hanı?!

Məcnun kimi sev çiçəyi, sev gülü,
Qoy sirdaşın dərə olsun, dağ olsun.
Dəli könül, ağıllanıb sevgilin,
Qəm eləmə, sənin başın sağ olsun!

**20. 07. 2001**

## EL-ALƏMİN GÖZÜ BİZİM SEVGİMİZDƏDİ

Eşq odunun közü bizim sevgimizdədi,
Bir-birinə doğmalaşıb ruhlar, bədənlər.
El-aləmin gözü bizim sevgimizdədi,
Çoxdu baxıb köks ötürən, qibtə edənlər…

Ürəyimi bir ilahi sevgi isidər,
Odur mənə dayaq olan darda, çətində.

Öz sevincim, səadətim mənə bəs edər,
Gözüm yoxdu bir kimsənin səadətində.

**20. 07. 2001**

## MƏHƏBBƏTİN SEVİNC FƏSLİ

Sevgilimin dan yerinə bənzəyir üzü,
Sevinirik biz görəndə bir-birimizi.
Gözlərimiz məhəbbətlə danışır, dinir,
Hər təbəssüm bir sehrli  çiçəyə dönür.
Ürəyimiz bu sevgidən bəxtiyar olub,
Məhəbbətin sevinc fəsli bizə yar olub…

**21. 07. 2001**

## HƏR GÖZƏLƏ QİSMƏT DEYİL

Hər qadadan, hər bəladan
Eşqim səni qoruyacaq.
Bu sevgiyə daş atanın
Əli bir gün quruyacaq.

Nə deyirlər qoy desinlər,
Heç nəyi alma vecinə.
Ürəyin bələd deyilmi
Sevginin qadir gücünə?

Ürəkdə sevgini boğmaq
Cinayətdi, ismət deyil.
Şair sevgilisi olmaq
Hər gözələ qismət deyil…

**21. 07. 2001**

## NƏYİNƏ GƏRƏKDİ?

Şair qəlbim divanədi,
Hər bir gözəldən pay umur.
Hay-hayım gedib, əzizim,
Neyləyirsən vay-vayımı?!

Əzablarla dolu ömür
Quzuları qurd eləyib.
Nə qədər sevgi qoşunu
Ürəyimi yurd eləyib.

Yüz gözəlin qoxladığı
Çiçək nəyinə gərəkdi?
Sevdalardan çat-çat olan
Ürək nəyinə gərəkdi?

## GÜZƏŞT

Bizi salıb yaman günə,
Kor olsun hicranın gözü.
Özün mənə dedirdirsən
Xoşuna gəlməyən sözü.

Ürək yaxan ayrılıqla
Sən əlbəyaxa olmusan.
Heç vaxt güzəştə getməzdin,
Nə qəlbi yuxa olmusan?!

**22. 07. 2001**

## BİZİ HİCRAN QOVUŞDURDU

Uzaqdan da isidirsən,
Sanki sehrli ocaqsan.
Bilməzdim ki, mənim üçün
Heç belə darıxacaqsan!

Səsin necə titrəyirmiş,
Qəlbin necə kövrək imiş!
Eşqi sınağa çəkməyə
Ayrılıq da gərək imiş!

Daha uf da eləmərəm
Başına çevirsən məni.
Götürüldü qadağalar,
Bildim ki, sevirsən məni.

Sən yaşıl işıq yandırdın,
Sevda yolunun üstündə.
Baş qoyub yata biləydim
Titrək qolunun üstündə.

Bizi hicran qovuşdurdu,
Əzizim, gör nələr oldu?
Üstünə dağlar çəkilən
Qəlbimiz bəxtəvər oldu…

**2001**

## DARIXIRAM MƏN

Baxır kol dibindən küskün bənövşə,
Ruhumu oxşamır nə dağ, nə meşə,
Ögey tək baxıram aya, günəşə,
Səninçün yamanca darıxıram mən.

Halımı soruşur budaqlar mənim,
Eşqimdən söz açır yarpaqlar mənim,
Yanğımı söndürmür bulaqlar mənim,
Səninçün yamanca darıxıram mən.

Yenə ürəyimə yağışlar yağır,
Buludlar gözünün yaşını sıxır,
Həsrətin qəlbimin başını sıxır,
Səninçün yamanca darıxıram mən.

Ovundura bilmir çiçəklər məni,
Alır qanadına küləklər məni,
Çaxır ürəyimdə şimşəklər mənim,
Səninçün yamanca darıxıram mən.

Bir vaxt bu yerlərdən ilham almışam,
İndi vətənimdə qərib olmuşam,
Saçının ətrinə həsrət qalmışam,
Səninçün yamanca darıxıram mən…

**22. 07. 2001**

## ÖMRÜN QARLI AŞIRIMI

Ötənləri, keçənləri salsam da yada,
Taleyimdən uçub gedən illər quş olub.
Ömrün qarlı aşırımı qalıb arxada,
Səadətim gör nə yaşda mənə tuş olub?!

Bu dünyanı, bu həyatı sevəsən gərək,
Bəxtəvərsən, əgər varsa könül sirdaşın.
Saçlarına dən düşsə də, qocalmır ürək,–
Öz sevgisi, öz sevinci varmış hər yaşın…

**22. 07. 2001**

## MƏHƏBBƏT CƏBHƏSİNDƏ

Qəlbim eşq dənizində bir yelkənsiz gəmidir,
Ürəyimi göynədən sənin məhəbbətindir.
Deyirlər ki, məhəbbət müharibə kimidir,
Onu başlamaq asan, qurtarmaq çox çətindir.

Arabir zəng edirsən, fırtına var səsində,
Qüvvə varmı bizi bu eşq yolundan qaytara?
Qızğın döyüşlər gedir
məhəbbət cəbhəsində,
İstəmirəm bu döyüş nə zamansa qurtara!

**23. 07. 2001**
**Qusar**

## SƏN GƏRƏK…

Sən gərək
ürəyimi özünə
sonuncu sığınacaq
biləsən!
Mənim taleyimə
bahar kimi gələsən!
Sən gərək
sevincini, kədərini
mənimlə böləsən!
Sən gərək
odlu dodaqlarınla
dodaqlarımdakı
öpüş izlərini siləsən!
Sən gərək…
Nəyi gözləyirsən,
di başla görək!…

**24. 07. 2001**

## BU GECƏ QƏRİBƏ BİR GECƏ İDİ

Hər sözün nur saçan bir böcək idi,
Tale mənim üçün göndərmişdi pay.
Bu gecə qəribə bir gecə idi,
Üzünü üzümə söykəmişdi ay.

Bəxtəvər olmuşdu qəlbimin simi,
Köksümdə bir qırıq ney titrəyirdi.
Telefon dəstəyi biləyin kimi
Ovcumun içində hey titrəyirdi.

Sehrli mizrabmı dəymişdi simə?-
Uzaqda ləpələr işıldayırdı.
Başını qoyaraq mənim köksümə,
Bəxtəvər-bəxtəvər pıçıldayırdın…

Sevincə vermişdi yerini kədər,
Hopmuşdu səs-səsə, nəfəs nəfəsə.
Durmuşduq bu gecə səhərə qədər
Üz-üzə, göz-gözə, nəfəs-nəfəsə…

Toxunub qəlbimin kövrək yerinə,
Olmuşdun həsrətə qənim bu gecə.
Elə bil köksümdə ürək yerinə
Bir ulduz yanırdı mənim bu gecə…

Sevincdən dönmüşdük quşa, uçurduq,
Necə xoşbəxt idim sənin yanında!
Eşqin göylərində qoşa uçurduq,
Bəs niyə ayrıldıq yerə qonanda?!

Qəlbim təşnə idi titrək səsinə,
Sənin də ürəyin sevincək idi.
Bir az bənzəyirdi toy gecəsinə,
Bu gecə qəribə bir gecə idi…

**27. 07. 2001**

## İNDİ ELƏ XOŞBƏXTƏM Kİ…

Qəlbinə sevgi düşəndə
Sevənlər köks ötürür.
İlk dəfədir ürəyimə
Sevgi sevinc gətirir.

Dönüb tale ulduzuma
İşıq saçan gözləri.
Ağrı çəkən ürəyimə
Sığal olub sözləri.

Sanki bu qız doğulubmuş
Ömrümə nur saçmağa.
İndi elə xoşbəxtəm ki.
Qanadım yox uçmağa…

## BARINI DƏRMƏYƏKMİ?

Məni odlara salan
Sevgilimin səsidi,
Məhəbbət ağacının
Bar vermək vədəsidi.

Qoymur ki, əzab çəkən
Ürəyimi güldürüm,
Qıymır ki, dodağından
Dodağımla gül dərim.

Cəfanı çox çəkmişik,
Səfanı görməyəkmi?!
Əkmişik, becərmişik,
Barını dərməyəkmi?!

**28. 07. 2001**

## SIĞINACAQ

Xoşbəxtlərin xoşbəxtiyəm,
Qibtə edirəm özümə.
Ürəyinin qapıları
Açılıb mənim üzümə.

Sevdalı dodaqlarında
Abi-zəmzəmin dadı var.
Ürəyinə qurban olum,
İçində sevgi odu var.

Elə bil məni isidir,
Məhəbbətin ocaq olub.
Sağ ol, bir sərsəri eşqə
Qəlbin sığınacaq olub!

**28. 07. 2001**

## MƏNDƏN BAŞQA…

Məndən ayrılanda
bəbəklərin dolursa,
gözlərin gözümə
baxanda,
əllərin ovcuma
sığınanda
bəxtəvər olursa,
sən təpədən dırnağa
mənimsən, əzizim!
Vüsalıma sirdaş,
hicranıma
qənimsən, əzizim!
Ayrılıq günlərində

mәni hәsrәtlә xatırlayıb,
mәni hәsrәtlә
yar anıbsa,
bu saçlar sığallanmaq,
bu dodaqlar
öpülmәk üçün
yaranıbsa,
onları mәndәn başqa
kim sığallaya,
kim öpә bilәr, әzizim?!
Ayaqlarının altına
bәxtiyarlığın göz yaşlarını
mәndәn başqa
kim sәpә bilәr, әzizim?!

**28. 07. 2001**

## MӘN BURDA OLMAYANDA

Mәn burda olmayanda
sığınmısınız bir-birinizә;
Dәniz sәnә, sәn dәnizә.
Mәn burda olmayanda
gözlәriniz yolda qalıb,
Sәn mәnim әtrimi
dәnizdәn almısan,
Dәniz mәnim әtrimi
sәndәn alıb!
Gah sәrsәri küləklərdәn,
gah da ayın
solğun işığından
mәnә salam göndәrmisiniz.
Sevdalı ömrümü

çırağbana döndərmisiniz!
Kaş eşqin göylərində
şimşək kimi
çaxa biləydim!
Kaş bu qayğının,
Diqqətin əvəzini
çıxa biləydim!
Sağ ol, Ayım!
Sağ ol, Dənizim!
Sağ ol, mənim əzizim!

**28. 07. 2001**

## DEYİL

Bu da alın yazısıdı,
üzümüzə tale gülüb,
Ürəkdə həsrət yoxdusa,
gözlər yaşla dolan deyil.
Heç özüm də gözləmirdim,
bu sevgi göylərdən gəlib,
Mənim sənə məhəbbətim
həqiqətdi, yalan deyil.

Harda olsan səslə məni,
harayına hay verərəm,
Gözlərimin işığından
gözlərinə pay verərəm,
Eşqin mənə qanad verib,
sənə ulduz, ay dərərəm,
Əkdiyim sevgi gülləri
illər ötsə, solan deyil.

Bağışlaya bilərəmmi
mənə olan xəyanəti?
İndi sığmır yerə-göyə
ürəyimin məhəbbəti,
Özün söylə, neyləyirəm
mən yarımçıq səadəti,
Divanədi mənim könlüm,
aza qane olan deyil…

**01. 08. 2001**

## BƏXTƏVƏRƏ DÖNDƏRDİN

Ürəyim danışsa da,
özüm lal oldum,
susdum,
Düşdüm qəlb döyüntünü
dinləmək həvəsinə.
Sən dəstəyi
köksünə qoydun,
mən qulaq asdım
Həyəcanla döyünən
ürəyinin səsinə…
Qəlbinin pıçıltısı
ürəyimi bəzədi,
Heyf, baxa bilmədim
sənin xoşbəxt üzünə.
Hər döyüntü bir sevgi
dalğasına bənzədi,
Həyəcanla baş vurdum
məhəbbət dənizinə…
Xoşbəxtlərin xoşbəxti
sanıram mən özümü,

Titrək döyüntüləri
sən mənə pay göndərdin.
Sağ ol, yerə salmadın,
gülüm, mənim sözümü,
Sevda dolu qəlbimi
bəxtəvərə döndərdin…

**01. 08. 2001**

## EŞQ MƏBƏDİ

Mən səndən ayrılanda
köksümü ötürürəm,
Sən məndən ayrılanda
köksünü ötürürsən;
Mən hara gedirəmsə,
sənə daş gətirirəm,
Sən hara gedirsənsə,
mənə daş gətirirsən…
O daşlar dilə gəlir,
ürəkdən sevgi daşır.
Dedim: – İndi neyləyək
axı bir belə daşı?!
Gülüb dedin: – Bu sevda
əbədidir, əbədi.
Biz o daşları yığıb,
tikərik eşq məbədi…

**01. 08. 2001**

## GÖYƏRÇİNLƏRİN SÖHBƏTİ

– Mənim ağ göyərçinim!
Mən qapqarayam,
sən dümağ.
Bizə qismət olacaqmı
birgə yaşamaq?!
– Mənim qara göyərçinim!
Sevgisiz ürək
göylər kimi
əngin olmur.
Məhəbbətin yaşı,
rəngi olmur.
Hələ heç kəs
poza bilməyib
taleyin əmrini.
Gəl verib
dimdik-dimdiyə
uzadaq
Səadətli günlərin
ömrünü!…

**05. 08. 2001**

## ÇARƏSIZLİK

Sənə layiqli cavab verməyə
qüdrətim çatmayanda
“Öpürəm!” kəlməsi
karıma gəlir.
Ancaq bu sözü dinləmək
sənin arına gəlir.
Neyləyim?

Sənin yanında xəcil eləyən
Könlümdür məni!
O sözü deməsəm ölərəm,
qoy deyim, heç olmasa
sən öldür məni!

**05. 08. 2001**

*** * ***

Deyirsən ki, bir də mənə
Öpürəm sözünü demə,
Arzusu gözündə qalan
Ürəyim bürünür qəmə.

Mənim bir günahım yoxdu,
Özün sərhəd qoy sözünə,
Sən elə danışırsan ki,
Öpülürsən öz-özünə!

**21. 07. 2001**

## ÜŞÜYƏN ÇİÇƏK

Üşüyürsən, gözündə
Bərq vurur bir gilə şeh,
Ləçəyini oxşayır
Arada bir əsən meh.

Həyəcanla döyünür
Mənim sevən ürəyim,
Səni necə isidim,
Ay üşüyən çiçəyim?

Qorxuram ləçəyini
Odlu nəfəsim qarsa,
Niyə üşüməlisən
Qəlbində sevgi varsa?

Gör nə günlərə salıb
Sevdalı ürək məni?
Ürəyimin başında
Bitəydin gərək mənim!

**05. 08. 2001**

## YARAŞMAZ

Niyə xəstələnmisən,
Niyə dəyişib səsin?
Mənimlə danışmağa
Sanki yoxdu həvəsin.

Deyirsən ki, verərsən,
Mən səndən nə pay umsam!
Gündüzlər günəşimsən,
Gecələrsə ayımsan!

Qəlbində sevgi olan
Qaranlıqla barışmaz,
Nə günəşə, nə aya
Xəstələnmək yaraşmaz!…

**06. 08. 2001**

## SEVƏ BİLMƏZ

Səni qısqanım deyə
yadlara salma meyil,
Ürəyimlə oynama,
o bir oyuncaq deyil.
Gülüm, məni sevən kəs,
Özgəni sevə bilməz…

**10. 08. 2001**

## MƏNİM SEVDA ÇİÇƏYİM

Mənim sevda çiçəyim,
Gizlicə ağlayırsan,
Ləçəyinin balını
Kiminçün saxlayırsan?

Niyə qoymursan səni
Sığallayım, qoxlayım?!
Ətrini yadigar tək
Ciyərimdə saxlayım.

Qamətini, boyunu
Gözlərimə təpim mən,
Diz çöküb sənin şehli
Bəbəyindən öpüm mən.

Bir kimsə səni öpüb,
Göz üstə qoya bilməz,
Qəlbinin istəyini
Mənim tək duya bilməz.

Çiçəyin qiymətini
Verə bilməz hər naşı,
Ləçəyində şeh olar
Mənim qanlı göz yaşım.

Doğrudanmı üzünə
Dodağım çatmayacaq?!
Bir danaya yem olsan,
Ürəyim çatlayacaq!

Mənim sevda çiçəyim,
Gizlicə ağlayırsan,
Ləçəyinin balını
Kiminçün saxlayırsan?!

**11. 08. 2001**

## AYLA GÖRÜŞ

Gecə yuxudan ayıldım,
Gördüm ay çöküb sinəmə.
Oxşadım sarı saçını
Mən onu çəkib sinəmə.

Göylərin nur şəlaləsi
Sevdalı qəlbimə axdı.
Yağdı sevgi yağışları,
Gözlərimdə şimşək çaxdı.

Elə bil ay dilə gəlib,
Baş əydi məhəbbətimə.
Söylədi ki, a bəxtəvər,
Mən sənin səadətinəm!

**12. 08. 2001**
**Qayabulaq**

## AYIRMAQ OLMAZ

Gülüm, hələ indiyəcən
Bir gül ilə yaz olmayıb.
Deyirsən ki, mənə sevgin
Zərrə qədər azalmayıb!

Deyirəm kaş ki, bu eşqin
Ömrü bir az uzun olsun!
Sevda dolu pıçıltılar
Qoy həmişə həzin olsun!

Deyirsən: neçə ki, varam,
Mən Sizinlə olacağam!
Gecə-gündüz yorulmadan
Qəlbinə od salacağam!

Deyirəm ki, parçalayır
Ürəyimi bir əndişə;
Qorxuram ki, aramıza
Bir əbədi hicran düşə!

Deyirsən: həsrət ürəyi
Vüsalla doyurmaq olmaz.
Elə qovuşmuşuq, bizi
Heç zaman ayırmaq olmaz!

**12. 08. 2001**
**Qayabulaq**

## BU YANMIŞ

Sevdalı gözləriylə
Qəlbim nura boyanmış,
Cızdağımı çıxardır
Gecə-gündüz bu yanmış.

Düşüb mənim püşkümə,
Könül verməz heç kimə,
Mənim təmiz eşqimə
Simsar imiş, həyanmış,
Bü yanmış!

Arzu çox, ömür qısa,
Sevən qəlb çətin susa.
Dönüb aya, ulduza
Başım üstə dayanmış,
Bu yanmış!

Qovub dumanı, çəni,
Nurlandırıb gecəni.
Ürəyimdən keçəni
Bir baxışla duyanmış,
Bu yanmış!

**14. 08. 2001**

## BİLMƏSİN

Qəlbində eşq olmayanlar
Dünyada qala bilməsin.
Sənin sevdalı ürəyin
Nə dərd, nə bəla bilməsin.

Pozmaq olarmı yazını?
Gülləndir eşqin yazını!
Könlümün sevgi sazını
Yad əllər çala bilməsin.

Əlimə ver əllərini,
Öpüm titrək tellərini!
Əkdiyim eşq güllərini
Hər naşı yola bilməsin.

Düşmənimdi qəlbi buzlar,
Gözəl görcək qəlbim sızlar,
Elə et ki, məni qızlar
Əlindən ala bilməsin!

**15. 08. 2001**

## MƏŞQ

Sözsüz ki, eşq yolunda
sən də məşq eləmisən,
Yoxsa mənimlə
sevda döyüşünə çıxanda
həyəcanlana,
qorxa bilərdin!
Əgər döyüşə
hazır olmasaydın,
belə peşəkar oyunçu ilə
necə rinqə çıxa bilərdin?!

**15. 08. 2001**

## GƏLDİ

Ömrün qarlı dolayında
Çiçək tək qarşıma gəldin.
İçində şeytan oynayan
Gözlərin xoşuma gəldi.

Necə mehribandı səsin,
Üzümə dəydi nəfəsin.
Bir qərib sevgi nəğməsi
Təzədən huşuma gəldi.

Həsrət məni buz tək kəsir,
Daha aramızda nə sirr?!
Ürəyim sevgidən əsir,
Bu nəydi başıma gəldi?!

**18. 08. 2001**

## DODAQLARIMIZIN ARASINDA

Kim inciyər
gecələr bizi tək qoymayan
Tanrı qonağından?
Ay – dodaqlarımızın arasında
bəxtəvərdi;
Sən o yanağından öpürsən,
Mən bu yanağından…

**19. 08. 2001**

## KİMSƏYƏ YÜK OLMAMIŞAM

Məni sevənlər çox olub,
taleyim gülüb üzümə,
İnanmıram nə zamansa
gözəllərə sevgim ölə!
Qayğılısan, narahatsan,
nahaqdan özünü üzmə,
Kimsəyə yük olmamışam
hələ mən öz sevgim ilə…

**19. 08. 2001**

## DÖNMÜŞƏM

Sənin sevgi kamanında
Bir qırıq telə dönmüşəm.
Bu dərdi heç kəs çəkəmməz,
Dözümdə filə dönmüşəm.

Qonur gözünə əsirəm,
Görüşünə tələsirəm,
Hara gəldi hey əsirəm,
Ünvansız yelə dönmüşəm.

Tənhaydım, yalquzaq idim,
Dərddən, qəmdən uzaq idim,
Billur sulu bulaq idim,
Bulanıq selə dönmüşəm.

Sönən bir eşqin qoruyam,
Gərək o nuru qoruyam,
Sənsiz yarpağı quruyan,
Soluxan gülə dönmüşəm…

Gözümə şəbnəm düzürsən,
Niyə qəlbimi üzürsən?
Sən mənsiz necə dözürsən?–
Mən sənsiz külə dönmüşəm…

**22. 08. 2001**

## NƏ YAXŞI KI…

Sənə dediyim sözlərin
Qəşəngi unudularmı?
Qəlbimizə sevgi nuru
Düşən gün unudularmı?

Şairin arabir səndən
Küsməsi yadındadırmı?
Əllərinin yarpaq kimi
Əsməsi yadındadırmı?

Mənim sevgi göylərimdə
Ulduzların sanı yoxdu.
Nə yaxşı ki, məhəbbətin
Əvvəli var, sonu yoxdu…

**22. 08. 2001**

## ODLA KÖZ ARASINDA

Nə vaxtdandı üstümüzə
Ayrılıq dumanı çöküb.
Hicran sevən qəlbimizə
Çalın-çarpaz bir dağ çəkib.

Yer tapmırıq özümüzə,
Qaşla göz arasındayıq.
Nə yerdəyik, nə göydəyik,
Odla köz arasındayıq.

Sevən qəlbimizdən özgə,
Müqəddəs pirimiz yoxdu.
Nə ölüyük, nə diriyik,
Heç harda yerimiz yoxdu.

Məhəbbətin qəm yükünü
Təkcə necə daşıyırsan?
Sənsiz gözümə ağ gəlib,
Mənsiz necə yaşayırsan?

**22. 08. 2001**

## XOŞBƏXT ANLAR

İlk dəfəydi gördüm sənin sinəni,
Əl-ayağım yerdən-göydən üzüldü.
Başı qarlı iki dağın üstünə
Baxışlarım şəfəq kimi süzüldü…

Həyəcandan tir-tir əsdi əllərim,
Xəzan vuran ürəyimdə yaz oldu.
Necə gözəl, xoşbəxt anlar yaşadım,
Qismətimə bəxtəvərlik yazıldı.

Köksün oldu gözlərimin yurd yeri,
Ürəyimdə bir fırtına qabardı.
İki dağın arasından keçən yol
Məni ülvi bir diyara apardı…

**23. 08. 2001**

## UÇURUM

Mənim sənə
qovuşmaq istəyimlə
İmkansızlıq arasında
dərin bir uçurum.
Qüdrətim çatacaqmı
bütün sədləri
yıxım, uçurum?!
Buludlar arasında
şimşək tək çaxım?!
Solğün bir
sıldırım çiçəyini
köksümə sıxım?–
Onu sevgi ilə, məhəbbətlə
dindirim?!
Göz yaşlarımı
ləçəyində
şehə döndərim?!

**24. 08. 2001**

## SƏN MƏNİM ALIN YAZIMSAN

Taleyimin bəxşişisən,
Sən mənim alın yazımsan.
Ömrümün qürub çağında
Son baharım, son yazımsan.

Qorxur məni itirməkdən,
Dəli bəbəklər dolubdur.
Dünyanın gözəllikləri
O gözlərdə cəm olubdur.

Ömrün qarlı dağlarını
Kaş ki, ləyaqətlə aşım.
Gözlərinə baxa-baxa
Dünya ilə vidalaşım.

Gəl yaxına, halallaşaq,
Yaxındı sonuncu səfər.
Ay üzünün əksi qalsın
Gözümdə sonuncu dəfə.

Taleyimin bəxşişisən,
Sən mənim alın yazımsan.
Ömrümün qürub çağında
Son baharım, son yazımsan…

**25. 08. 2001**

## SONUNCU QİSMƏT

Üstümü alan hicran səsidi,
Nəfəsinizlə məni isidin!

Qovun ömrümdən dumanı, çəni,
İtirin məni, arayın məni!

Bəbəklərimdə həsrəti görün!
Sevən qəlbimə Siz könül verin!

Laqeyd olmayın qismətinizə,
Bəlkə sonuncu qismətinizəm?!

**25. 08. 2001**

## HARDAN BİLƏYDİM Kİ…

Hardan biləydim ki, yenidən mənim
Yaralı qəlbimə köz düşəcəkdir?
İnana bilməzdim şair könlümə
Belə pozulmayan iz düşəcəkdir.

Ağlıma gəlməzdi bir gün gələcək,
Yolumun üstündə sən duracaqsan.
Ötən sevgiləri alaq otu tək
Yolub, sinəm üstə yandıracaqsan…

**26. 08. 2001**

## MƏNİM EŞQİM

Mənim sevgim
qaraçı köçü kimi bir şeydi;
bir yerdə yurd sala,
qərar tuta bilməyib…
Ömrün ixtiyar çağında
elə bildim ki,
taleyim üzümə güldü.
Eşqim sənin ürəyini
güvənc yeri, yurd yeri bildi.
Döndüm bəxtəvərlər bəxtəvərinə,
sərgərdan günlərim  qaldı geridə.
Eşqimi ləngitdi,
ancaq özünə bağlaya bilmədi
güvəndiyim bu yurd yeri də…
Yenə ayım gülümsəyir,
yenə dan yeri ağarır.
Mənim sevdalı könlümü
üzaqdan kimsə çağırır…

**27. 08. 2001**

## BU SƏHƏR İLK ŞEİRİ ÖZGƏYƏ YAZDIM

Əllərim tutsa da ayrı əlləri,
Sanma sənə sevgim tükəndi, gülüm!
Bu səhər qəlbimin incə telləri
Ayrı bir havaya kökləndi, gülüm!

Yol çəkən gözlərin buluda döndü,
Göz yaşın parladı bəxt ulduzu tək.
Bir qəfil xəyanət ac qurda döndü,
Bir sevgi mələdi yetim quzu tək.

Yeridi üstümə yenə dərd, ələm,
Bir anlıq bu qatı dumanda azdım.
Niyə qırılmadı əlimdə qələm? –
Bu səhər ilk şeiri özgəyə yazdım…

**22. 09. 2001**

## BU RÖYA

Bir dəli həsrətin əli yaxanda,
Sevdalı bülbüllər ötər içində.
Deyirsən: görmüsən məni yuxunda,
Sonra ayılmısan qan-tər içində…

Həyəcan, iztirab qəlbini üzüb,
Gözünün önündə şimşəklər çaxıb.
Zərif qamətini həsrətlə süzüb,
Cavab istəyirəm gözünə baxıb…

Ürəkdə eşq odu çətin ki, sönə,
Gözlərin dikilib ulduza, aya.
Danışa bilmirsən yuxunu mənə,
Tale yazısıdı bəlkə bu röya?!

**22. 09. 2001**

## YALAN DONLU HƏQIQƏT

Sağ ol, hərdən zəng eləyib əhvalımı soruşursan,
Bu qayğıya, bu diqqətə heç bilmirəm nə ad qoyum?
Özün etiraf edirsən: hərdən yalan danışırsan,
Ancaq elə edirsən ki, yalan dediyini duyum…

Özün yaxşı bilirsən ki, kül içindən köz tapanam,
Tale mənə çox görməsin bu sevinci, səadəti.
Düzü yalana büksən də, söz içindən söz tapanam,
Ürəyimə sıxıram mən yalan donlu həqiqəti…

**21. 09. 2001**

## SƏNİN GƏTİRDİYİN DAŞLAR

Mənə üç daş gətirmisən
Təngə altındakı çaydan;
bir daş ağ,
bir daş qəhvəyi,
bir daş qara…
Deyirsən bu daşlar
suda gözəl görünür, –
Neynək, göz yaşlarımla isladıb,
yenidən baxaram o daşlara…

**27. 09. 2001**

## SƏNİN VERDİYİN ÜÇ DAŞ

Hər gün öpürəm, gülüm,
Sən verdiyin üç daşı.
Eh, necə bəxtəvərəm,
Qəlbimdə sevgi daşır.

Hey öpürəm, vecimə
Almıram qınaqları.
Biri dodaqlarındı,
İkisi yanaqların.

Qorxuram ki, o daşlar
Gözümdə yaşa dönə.
Qıyma ki, daş öpməkdən
Dodağım daşa dönə!

**27. 09. 2001**

## HAQQIM VAR

Deyirsən ki, Tanrı səni
Mənə mükafat göndərib.
Sözlərin mənim qəlbimi
Bir çırağbana döndərib.

Gündüzlər nurlu günəşim,
Gecələr solğun ayımsan.
Sən təpədən dırnağacan
Mənim qismətim, payımsan.

Könül sevəndən ayrılmaq,
Aralanmaq istəmirsən.
Bütövlüyü xoşlayırsan,
Paralanmaq istəmirsən.

Öz sevgi çələngim varsa,
Niyə ayrı çiçək yığım?!
Səni bir dəstə gül kimi
Haqqım var köksümə sıxım?!

**01. 10. 2001**

## SƏNİN SƏSİN

Sənin dəstəkdə
Titrəyən səsin,
Nə qədər doğma,
Nə qədər həzin…

Qəlbim sevincdən
Uçan quş olub,
Könül səsimə
Səsin qoşulub.

Billur tək şəffaf,
Təmizdi o səs,
“Yox” deyəndə də
Əzizdi o səs.

Heç bilmirəm o
Nəyə bənzəyir?
Sənin “yox”un da
“Hə”yə bənzəyir!

Üzümü qarsır
Bir qaynar nəfəs,
Sanki sevgiylə
Yoğrulub o səs.

Bəbəklərimdə
İldırım çaxır,
Səsin ruhuma
İşıq tək axır.

Ciyərlərimdə
Can olur səsin,
Damarlarımda
Qan olur səsin…

Səs olub səsə
Qoşuluram mən,
Eşq səmasında
Quş oluram mən…

Əngin göylərə
Biz ucalırıq,
İkimiz qoşa
Qanad çalırıq…

**27. 09. 2001**

## MƏNİM ZƏNGLƏRİM

Gecə-gündüz zəng edirəm,
Götürən yoxdu dəstəyi.
Bilirsən sənin səsini
Ürəyim necə istəyir?!
Bəxtəvərəm, bu dünyada
Məni də bir duyan olub.
Sən olmayanda zənglərim
Evinizə həyan olub…

**27. 09. 2001**

## YAĞIŞ ALTINDAKI ÇİÇƏK

Yağış altındakı çiçək,
Ağlımı aldın başımdan.
Süzdüm şehli qamətini,
Adım da çıxdı huşumdan.

Göyün yağış dodaqları
Səni öpür, doya bilmir.
Üzündəki gözəlliyi
Heç leysan da yuya bilmir.

Ləçəklərində bərq vuran
Hər damla bir zərə dönüb.
Şehli köksünə yapışan
Donun bəxtəvərə dönüb.

Yağış altındakı çiçək,
Qoy sevgim çətirin olsun!
İzn ver səni qoxlayım,
Dərmanım ətirin olsun!

**02. 10. 2001**

## EŞQ MƏBƏDİ

Gözlərini görən gündən
Yuxu da getmir gözümə.
Məni qul kimi işlədib
Saray tikdirdin özünə.

Köksümə meydan oxuyan
Ülvi sevgini görmürsən?!
Eşq məbədi tikdirmisən,
Haqqını niyə vermirsən?!

**02. 10. 2001**

## İNTİQAM

Fillər götürməyən dərdi
Yük eləmişəm kağıza.
Mənə zülmlər etmisən,
Canım yığılıb boğaza!

Əl uzadıb ayrılığı
Uca taxtından salacam.
Əvvəl-axır dözməyəcəm,
Səndən intiqam alacam!

Əkdiyim sevgi gülləri
Qışda belə solmayacaq.
Ürəyimin arzuları
Gözlərimdə qalmayacaq.

Yekə bir daş endirəcəm
Ayrılığın kəlləsinə.
Səhər-axşam qərq edəcəm
Səni öpüş gülləsinə…

**02. 10. 2001**

* * *

Elə bil
qaratikan kolları ilə
bəzəmisən
məhəbbətin yollarını.
Əlin qəflətən uzandı
çiynimə doğru,
Elə bildim
boynuma dolayırsan qollarını.
Sevinirəm, bilmirəm ki,
neyləyim indi mən?!
… Boynumdakı qarışqanı
götürürmüşsən
sən demə!

**5. 10. 2001**

## ƏGƏR

Əl uzadıb
bir tük götürdün
paltarımdan,
Saçın nə gəzirmiş
dizimin üstündə?!
Əgər o sarı simə
bənzəyən saçı
küləyə verməsəydin,
öpüb saxlayardım onu
gözümün üstündə!

**05. 10. 2001**

## SƏNİ SEVGİM QORUYACAQ

Ürəyimin sevincisən,
Gözəlimsən, göyçəyimsən.
Mənim heç zaman solmayan
Möcüzəli çiçəyimsən.

Qəlbinə vurduğum yara
Ləçəyində şehə dönüb.
Üstündə şair nəfəsi
Görünməz zirehə dönüb.

Səni dərmək istəyənin
Əli mütləq quruyacaq.
Yüz xətadan, yüz bəladan
Səni sevgim qoruyacaq…

**09. 10. 2001**

## ELƏ BİL Kİ…

Sənə baxanda göz gülür,
Çiçəyisən bizim elin.
Yamanca gəlir xoşuma
Şux qamətin, incə belin.

İnləyirəm için-için,
Sənin də göynəyir için.
Çox əzizdi mənim üçün
Sevirəm söyləyən dilin.

Sən güldün, ürəyim güldü,
Eşqimizi hamı bildi.
Ovcumu yuvamı bildi
Sevgidən titrəyən əlin?

Eşqinlə ürəyim dindi,
Səni məncə sevən kimdi?!
Elə bil ki, sarı simdi
Həsrətdən saralan telin…

**10. 10. 2001**

## BU GÜN SƏNİ GÖRMƏMİŞƏM

Nə yerdəyəm, nə göydəyəm,
Gözlərim səni arayır.
Bəbəklərimdə yaş olub,
Sevən qəlbimin harayı…

Çiçəklərin rəngi qaçıb,
Bozarıb dünyanın üzü.
Yarpaq bəbəkləri dolub,
Ağacın yol çəkir gözü.

Yoxsan, kimə bağışlayım
Təzə şeir çələngini?!
Bu gün səni görməmişəm,
Dünya dəyişib rəngini…

**10. 10. 2001**

## DUYA BİLMƏK ÜÇÜN

Gileyli sözlərim alır canını,
Mənim hər şeirimdə qəm, iztirab var.
Duymursan qəlbimin həyəcanını,
Deyirsən: – Yersizdi bu iztirablar.

Sevgi alovuyla əsmirsə ürək,
Çətin ki, sözlərim xoşuna gəlsin!
Duya bilmək üçün məni, mənim tək
Sevmək qoy sənin də başına gəlsin!

**11. 10. 2001**

## ELƏMİŞƏM

Üzüqara ürəyimi
Mən üzü ağ eləmişəm.
Sənin solğun həyatını
Qəmdən uzaq eləmişəm.

Dinləyib haqqın səsini,
Udmuşam yar nəfəsini,
Neçə sevgi təşnəsini
Eşqə qonaq eləmişəm.

Oda döndərdin közümü,
Ahların tutub gözümü,
Xəyala dalıb, özümü
Cavan uşaq eləmişəm.

Dalğa sanmışam ləpəni,
Başıma inci səpəni,
Neçə xırdaca təpəni
Ucaldıb dağ eləmişəm…

Məhəbbət başımın tacı,
Vüsal şirin, hicran acı!
Tikanlar bitən yamacı
Meyvəli bağ eləmişəm.

Sevgisiz arzular solar,
Qəlbim əsər, gözüm dolar.
Heç bu yaşda sevgi olar? –
Deyəsən ağ eləmişəm!

**15. 10. 2001**

## QURTARA BİLMƏYƏCƏKSƏN

Hamını aldadan qoca dünyanın
Felindən qurtara bilməyəcəksən.
Gör kimi sevirsən? – Qonum-qonşunun
Dilindən qurtara bilməyəcəksən.

Qəlbində məhəbbət get üzü qışa,
Sevdalı ürəyin dönməsin daşa,
Neçə ki, fürsət var, sevgiylə yaşa,
Ölümdən qurtara bilməyəcəksən.

Könlümün başında yara olmusan,
Gözümün yaşında qora olmusan,
Bir də görəcəksən Sara olmusan,
Selimdən qurtara bilməyəcəksən.

Üşüyən ürəyin məndən qor umur,
Ocaq eləyirsən uçan qorumu,
Tale toxuyubsa sevgi torumu,
Əlimdən qurtara bilməyəcəksən!…

**15. 10. 2001**

## YAĞIŞDAN ÖZÜNÜ QORUYAN GÖZƏL

Bulud gözlərindən leysan yağdıran
Sənin şimşək donlu məhəbbətindi.
Yağışdan özünü qoruyan gözəl,
Alın yazısını pozmaq çətindi.

Vüsal həsrətiylə əsən küləkdən
Üstünə yağmurlar yollayacağam.
Alıb çətirini bir gün əlindən
Dərənin dibinə tullayacağam.

Dadlı öpüşlərdən məst olacaqsan,
Neçə gün özünə gəlməyəcəksən.
Tanrı buyruğuyla göylərdən enən
Yağışdan qoruna bilməyəcəksən…

**18. 10. 2001**

## ÇƏTİNDİ

Bilmirəm ki, niyə belə xəsissən
Qışda səndən qar ummaq çox çətindi!
Ocağına su səpdiyin ürəkdən
Yenidən köz, qor ummaq çox çətindi!

Yağış yağır, yaş göynədir gözünü,
Sən çətirlə gizləyirsən üzünü,
Nahaq yerə, gülüm, yorma özünü,
Bu leysandan qorunmaq çox çətindi!

**30. 11. 2001**

**BİLİRSƏN HEÇ NECƏ BƏXTƏVƏRƏM MƏN**

Həsrətin qəlbimi yandırıb yaxır,
Bir ildırım vuran palıd olmuşam.
Eşqin göylərində şimşəklər çaxır,
Başının üstündə bulud olmuşam.

Ələnir gözümdən sevgi yağışı,
Leysanın altında gülə dönmüsən.
Dəli bəbəyimdən məhəbbət daşır,
Sinəmin üstündə selə dönmüsən.

Qəlbimin başında yatan, uyuyan
Şirin əzablarım uzanar mənim.
Sənin köynəyindən keçib soyuyan
Damlalar köksümdə qızınar mənim.

Sevgim tükənməzdir, uzundur dilim,
Eşqin yollarında şirü-nərəm mən.
Ağrılar, əzablar içində, gülüm,
Bilirsən heç necə bəxtəvərəm mən?!

**15. 10. 2001**

**YAĞIŞIN ALTINA CAN ATAN ÇIÇƏK**

Yağışın altına can atan çiçək!
Sən şüşəyə söykəmisən üzünü,
Mən yağışa dönüb,
şüşəyə çırpıram özümü!…
Bu qədər yaxın,
bu qədər doğma ikən

qovuşa bilmirik bir-birimizə.
Ürəyimizi nəzir demişik
sevgi pirimizə…
Yağışın altına can atan çiçək!
Sevənləri bir-birindən ayırmaqdı
ürəyi buzların peşəsi.
Yağışın altına can atan çiçək!
Yağışla sənin aranda
hasara dönüb
pəncərə şüşəsi…

**27. 10. 2001**

## BU YAĞIŞ

Göylərdən leysan ələnir,
Az qalıram sevgidən,
sevincdən
kükrəyəm, daşam!
Sən çətirin altında qupqurusan,
Mən yağışın altında yamyaşam…
Qıymırsan mənə
yarımçətirlik
sığınacağı.
Ancaq qorxum yoxdu,
Göylərin leysanı da
söndürə bilməz
içimdəki ocağı…
Bilmirsən neyləyəsən,
Yağışın altındakı dəliyə
baxırsan fağır-fağır.
Bu yağış mənim üstümə,
səninsə ürəyinə yağır…

**30. 10. 2001**

## SEVDA BULUDU

Sevgiylə yoğrulan hisslərimi
həsrət dolu misralara bələdim.
Bir sevda buluduna dönüb,
üstünə sevgi yağışı ələdim!…
Bu sehrli yağışın altında
saymazyana dayanmaq
təhqirdən də betərdi.
Bu yağışın bircə damlası
qayanın üstünə düşsəydi,
qoynunda çiçək bitərdi…
Gözlərin çağırır məni,
dilin deyir ki, yaxına gəlmə!
Həsrətim səpilir ürəyinə
söz-söz, misra-misra, kəlmə-kəlmə…
Ancaq yenə də səni
arzularına yetirə bilmirəm,
ürəyində bircə sevgi çiçəyi də
bitirə bilmirəm!…

**01. 11. 2001**

## SEHRLİ YAĞIŞ

Qorxma sevgi leysanından,
qorxma sınaq günlərinin
qarından, sazağından!
Gərək elə bir
sehrli yağış yağa ki,
təmizləyə ürəyimizi
ötən sevgilərin
hisindən, pasağından…

**01. 11. 2001**

* * *

İki daşın arasında
qaçıb görüşümə gəldin,
əlimi əlinə verdim ki,
sevincimi duyasan!
Diqqətin oynatdı məni
yerimdən.
Sevda dolu gözlərində,
mehriban təbəssümündə
elə bir məhəbbət gördüm ki,
utandım sənin haqqında
düşündüklərimdən…

**01. 11. 2001**

* * *

Təbəssümün qəlbimdə
sevda oyatdı,
Ömrümün payızında
içimdə arzular boy atdı!
Xoşbəxtlik bu deyilmi elə? –
Daha heç nə
deyil gərəyim!
Günəş təbəssümünü görəndə
dirçələn payız otlarına
bənzədi ürəyim…

**01. 11. 2001**

## SEVGİ DUASI

Özümü xoşbəxt sanıram,
dönmüşəm sənin kimi
duyumlu bir insanın
sirdaşına!

Dodaqlarının titrəməsi
əbədi həkk olunub, əzizim,
dodaqlarımın yaddaşına!…
O günü xatırlayanda
ürəyim köksümdə
dönür günəşə!
Titrək "sağ ol!" sözün
qulağımda sevgi duası kimi
səslənir həmişə!…

**19. 10. 2001**

## BƏLKƏ ELƏ BUDU SƏADƏT?

İnsana nə lazımdısa,
varımdı!
Sevgi, məhəbbət,
intizar, həsrət
tükənməz varımdı…
Məni sevənlər də çoxdu,
mənim sevdiklərim də
az deyil…
Ancaq yenə də dünya
taraz deyil!
Qışda yazı arzulayıram,
yazda payızı.
Divanə ürəyimin
nə abırı var, nə həyası!
Bəzən bir anlıq olur
könül xoşluğu.
Özümü oda, közə vururam,
doldurmaq istəyirəm
içimdəki boşluğu…

Neyləyim? – Elə buyam:
kiməmsə, nəyəmsə…
Hər şeyim ola-ola
çatışmır nəyimsə!…
Nələrə hazır deyiləm
o bir "nə"dən ötrü?!
Yovşanlığa can atır ürəyim
içimdə ola-ola
nərgiz, bənövşə ətri…
Tərk eləmir məni
bu narahatçılıq, bu adət!
Allahım, keç günahımdan!
Bəlkə elə budu xoşbəxtlik,
bəlkə elə budu səadət?!

**20. 10. 2001**

* * *

Dünya necə gözəldi, Allahım!
Adam heyrətdən donur,
Yamyaşıl payız otlarının üstünə
sarı-sarı yarpaqlar qonur.
Bu yaşıl otlar
son baharın son sözüdü,
Xəzan yarpaqları isə
elə bil həsrət közüdü…
Əlimdə bir qızılı yarpaq,
gözümdə bir damla
payız yağışı
səni anıram.
İçimdə sevgi çiçəkləyir,
özümü bəxtəvərlər bəxtəvəri
sanıram…

**28. 10. 2001**

## SƏN ZƏNG ELƏYƏNDƏ

Sən mənə zəng eləyəndə
ürəyimə sevgi seli axır.
Ay da göydən mənə
qibtə ilə baxır!
Bürünüb onun işığına
qəlbimdə həsrətin
gecələyir.
İçimdə sevgi çiçəkləri
qönçələyir.
Yolumuzun üstündəki
qırmızı işıqlar sönür,
Telefon xətti aramızda
həsrət körpüsünə dönür…
O körpüdən gizlicə keçib,
səsimlə qol-boyun olur səsin.
Dəstəyi üzün bilib
söykəyirəm üzümə,
ciyərlərimi səadətlə doldurur
nəfəsin…

**29. 10. 2001**

## SİZİN ZƏNGİNİZ

Bilmirəm əllərim titrəyir nədən,
Bu gecə almayıb gözlərim çimir.
Sizin zənginizi gözləyirəm mən,
Çiçəklər yağışı gözləyən kimi…

Qəlbimin telləri sarı sim olur,
Sevincim köksümə sığmayır mənim.
Səsiniz üzümdə təbəssüm olur,
İçimi səadət çulğayır mənim.

Duyuram sevginin şirin dadını,
Qəlbimin başında dinir zənginiz.
Mənim üzümdəki qəm buludunu
Doğrayan şimşəyə dönür zənginiz…

**14. 11. 2001**

## ÜZR DİLƏ

Ürəyimin sevinci,
gözümün işığımısan?
Zəngimi eşidib,
telefonun üstünəşığımısan…
Mənimlə danışa-danışa
titrəyib ürəyin.
Bir də ayılmısan ki,
əlində qalıb son tikə çörəyin…
Bağışla məni, əzizim,
bir yandan sevinirəm,
pərt olmuşam bir yandan…
Öp o çörəyi mənim əvəzimdən,
üzr dilə ondan!

**14. 11. 2001**

* * *

Payız yarpağından çələng toxuduq;
nə ağac bildi, nə budaq.
Gizlicə sevgi nəğməsi oxuduq;
nə dil bildi, nə dodaq.
İşlərimiz çətinə düşdü;
adamların arasında
necə söhbət edəydik bəs?
Baxışlarımız öpüşdü,
xəbər tutmadı heç kəs…

**03. 11. 2001**

## MEŞƏDƏN MƏKTUB

Az getdim, üz getdim,
axır ki,
meşədə azdım…
Əyləşib bir palıdın
dizinin üstündə,
dizimin üstündə sənə
məktub yazdım…
Hopdu kəlmələrimə
saralan yarpaqların rəngi.
Ancaq qurtardı
qələmimin rəngi,
zəhmətim getdi havayı.
Heç nə yaza bilmədim sənə
"Öpürəm!" sözündən savayı…

**17. 11. 2001**

## BİR YARPAQ SEVGİ PAYI

Dönmüsən qibləgahıma,
meşədə də üzümü
sənə sarı döndərirəm.
Qusar meşələrindən sənə
bir yarpaq
sevgi payı
göndərirəm…

**17. 11. 2001**

## SEVGİ HƏR ŞEYDƏN UCADI

Heç özüm də anlamıram
Öndə nə gözləyir bizi.
Gecə-gündüz usanmadan
Bədxahlar izləyir bizi.

Nə deyirlər qoy desinlər,
Sevgi hər şeydən ucadı.
Həvəsdən düşən ürəyim
Təbəssümündən güc aldı.

Qorxmursan dedi-qodudan,
Mənim kimi divanəsən.
Ürəyimin işığına
Can atan bir pərvanəsən.

Şairdən sevgi umanın
Üstünə nur ələnəcək.
Sevən qəlbin başdan-başa
Səadətə bələnəcək…

**03. 11. 2001**

## OLARAM

Bu qəlb ki, səndə var, təşnə könlünü
Söndürən bir sərin bulaq olaram.
Sənin ürəyinə xoş gəlsin deyə,
Ayağın altında torpaq olaram.

Elə bil köz yanır yanaqlarında,
Silinməz iz qalıb dodaqlarında,
Ömür ağacının budaqlarında
Titrəyən sonuncu yarpaq olaram.

Üzümə bir həsrət buludu çökər,
Cəfakeş ürəyim nazını çəkər,
Ətrimə həsrətsə ürəyin əgər,
Dönüb bir çiçəkli budaq olaram.

Sevdalı qəlbimi yüz yerə bölüb,
Küskün baxışların qəlbimi dəlib,
Əgər razı olsan, gizlicə gəlib,
Sevgi gülşəninə qonaq olaram…

**12. 11. 2001**

## HARA GEDİRƏMSƏ…

Həsrətim qəlbinə olubdur qənim,
Əzizim, nə yaman fağır olmusan!
Gül olub yolumda bitmisən mənim,
Gözəlliyə gedən cığır olmusan.

Bulud tək üstümə kölgə salmısan,
Ayağım altında yola dönmüsən.
Hara getmişəmsə, mənzil başında
Bir cüt gen açılan qola dönmüsən.

Əyilib çəməndən çiçək dərəndə,
Ürəyim odlara qalanıb mənim.
Zirvəyə qalxanda ruhun quş olub,
Başımın üstündə dolanıb mənim.

Dərinə enəndə dərəyə dönüb,
Ucaya qalxanda təpə olmusan.
Dənizin qoynuna baş vuran zaman,
“Sevirəm” söyləyən ləpə olmusan!

Bir ocaq çatmısan qızdıra məni,
Kül altda işaran közə dönmüsən.
Kirpiyim ucunda gülən göz yaşı,
Dilimin ucunda sözə dönmüsən.

Məhəbbət üzünü işıqlandırıb,
Bilirsən nə qədər gözəl olmusan?!
Payızda meşədə gəzdiyim zaman
Başıma səpilən xəzəl olmusan…

Hara gedirəmsə, orda izin var,
Mənim təkliyimə qıymamısan sən.
Səndən uzaq qaçıb, səni anmağa
Bircə kol dibi də qoymamısan sən…

**13. 11. 2001**

## KÖNÜL SAZIM

Sən tək bir gözəli sevmək
Düşübdür alın yazıma.
Saçlarından bir tel verdin,
Sim etdim könül sazıma.

Sevda dolu gözlərinlə
Məni odlara salırsan.
Sən mənim könül sazımı
Kirpiklərinlə çalırsan.

O sazın hicran harayı
Ürəyimi qanadacaq.
Qəlbim sehrli nəğmədən
Az qalır ki, qanad aça!

**21. 11. 2001**

## GƏL BAĞRIMA BASIM SƏNİ

Eşqin bağında açılan
hər çiçəyi dərmək olmaz,
Bilirsənmi könlüm necə
arzulayır, sazım, səni?!
Bu qədər böyük sevgiyə
sözlə cavab vermək olmaz.
Ürəyim quş tək çırpınır,
gəl bağrıma basım səni!…

**25. 11. 2001**

## NƏ GECƏM VAR, NƏ GÜNDÜZÜM

– Ürəyim yarpaq tək əsir,
Aşiqmi oldum yenidən?
Özümü işə salmışam!
– Tək özünü yox, məni də!

Soluxan sevgi gülləri
Ətirlənib, çiçək açıb.
Ürəyimin rahatlığı,
Gözümün yuxusu qaçıb.

Dikilibdir uzaqlara
Həmişə yol çəkən gözüm.
Qəlbimə sevgi düşəndən
Nə gecəm var, nə gündüzüm…

**13. 09. 2001**

## ARAMIZDAKI MƏSAFƏ

– Sənə qovuşa bilməsəm,
Arzularım hədər olar.
Aramızdakı məsafə,
Əzizim, nə qədər olar?!

– Ölçünü dəqiq bilmirəm, –
Belə dedin gülə-gülə:
Ancaq bir cüt həsrət qolun
Arasındasınız hələ…

**24. 09. 2001**

## SİZİN CANINIZI ALSAM

– Bu dünyada gözəllərsiz
Mənim bir günüm keçmədi,
Qısqanıb canımı alsan,
Pətəksiz arı olaram.

– Sizin canınızı almaq
Mənim əlimdə heç nədi,
Ancaq canınızı alsam,
Mən kimin yarı olaram?!

## QƏLBİM ÇƏKƏNİ BİLSƏNIZ

Hər sözü deyə bilmirəm,
içimdə həsrət at çapar,
Özümə zülm eləsəm də,
hələ məqam gözləyirəm.

Qəlbim çəkəni bilsəniz,
qəlbinizdə tufan qopar,
Ona görə içimdəki eşq
odunu gizləyirəm…

**24. 09. 2001**

## MƏHƏBBƏT ƏLİFBASI

– Əlifba dəyişildi,
bəs indi biz neyləyək,
Təzə əlifba ilə
oxuyub yazmaq çətin…
Şeytan-şeytan gülərək
baxdın mənim üzümə,
Dedin ki, əlifbası
dəyişmir məhəbbətin…

**18. 07. 2001**

## SAÇLARINDA YARPAQ GƏTİR

– Bəxtəvərsən, gülüm, kəndə gedirsən,
Bircə ovuc torpaq gətir mənimçün.
Ciyərində çiçəklərin ətrini,
Saçlarında yarpaq gətir mənimçün.

– Mən yarpaq da gətirərəm saçımda,
Sizin üçün şehli gül də dərəcəm.
Ancaq yaman çətin işə düşmüşəm,
Bəs onları Sizə necə verəcəm?!

– Ömrüm-günüm, bundan asan nə var ki,
Çəkinmədən qarşında diz çökərəm.
Qollarını dolayarsan boynuma,
Nəfəsini ciyərimə çəkərəm…

**27. 09. 2001**

## SÜBUT

Ürəyinə xal salmışam,
Mənim günahsız mələyim!
Deyirsən: – Bilmirəm necə
Sevgimi sübut eləyim?!

Bundan asan nə var axı
Gözlərini dik gözümə.
Qolunu dola boynuma,
Üzünü söykə üzümə!

**09. 10. 2001**

*** * ***

– Əzizim, mən haqqın
danışan diliyəm,
Nə vaxtdır eşqindən
divanə, dəliyəm.
Deyirsən: – Qısqanıb,
üzməyim özümü, –
Ağıllı məsləhət
verməzlər dəliyə!

**13. 10. 2001**

* * *

– Bilmirəm mənim kimi
Duyacaqdır kim səni?!
– Arxayın ol, sevmirəm
Səndən başqa kimsəni!

* * *

– Ürəyinə eşqim düşüb,
Göynəyirsən için-için.
– Özümü xoşbəxt sayıram,
Sizsiz darıxdığım üçün…

* * *

– Mənsiz darıxmırsan, gülüm, deyəsən,
Bu gecə yenə də qarışıb yuxum.
Gülüb cavab verdi sevgilim mənə:
– Sənsiz olurammı, sənsiz darıxım?!

* * *

– Payız çiçəyi kimi
Qorxuram sevgi sola.
– Əbədi ömür varmı,
Əbədi sevgi ola?!

* * *

– Gözəl görəndə ah çəkmək
Şairlərdə nə adətdi?
– Səadət yolunda ölmək
Elə özü səadətdi.

## NƏ ÜÇÜN

– Nə üçün uzun
geyinirmişsən,
bu qədər ki gözəl
ayaqların varmış?!
Qamətinə baxıb,
lal olmuşam heyrətimdən,
qəlbimi bəxtiyarlıq
sarmış…
– Canım da qurbandı
gözəllikdən zövq alana,
gözəllikdən doymayana!
Ayaqlarımı
necə göstərəydim
gözəlliyi duymayana?!

**07. 07. 2001**

* * *

– Nə üçün məni görəndə
Gözün dönüb yana baxır?
– Özgəyə könül vermisən…
– Sən özgə deyilsən axı?!

**08. 11. 2001**

## SƏN ÖZÜNÜ İTİRƏNDƏ

– Gözlərinə vurulandan
Gözümə getməyir yuxu.
Qəlbim sözünə həsrətdi,
Bir sevgi duası oxu.

– Xəyalımda sənin üçün
Eşq çələngi toxumuşam.
O duanı mən özümü
İtirəndə oxumuşam…

– Əlin əlimdə olanda
Ürəyim dinclik tapacaq.
İndicə dodaqlarından
Bir ilahi söz qopacaq.

– Qorxuram ki, dodağımda
Öpəsən titrək sözümü.
O anlar qayıtsa, yenə
İtirərəm mən özümü…

– Bəxtəvərə dönəcəyəm
Sözlərini bitirəndə.
Gülüm, mən səni tapıram,
Sən özünü itirəndə!

**22. 11. 2001**

## NECƏ QORUNARAM

–Telefonda həyəcan,
Utanmaq unudulur.
Bəs üz-üzə gələndə
Niyə dilin tutulur?

– Elə danışsam, sözüm
Bilirəm, xoşa gələr.
Ancaq bu mənim üçün
Çox baha başa gələr.

Utanıb, əriyərəm
Həsrət baxışlarından.
Necə qorunaram mən
Öpüş yağışlarından?!

**22. 11. 2001**

## ƏZİZ SÖZÜNÜ DEMİRSƏN

– Çox adama söyləsəm də,
Mən "əzizim" kəlməsini,
İntizarla gözləmişəm
Əzizimin gəlməsini.

Ancaq bu sözü heç zaman
Sizə deməmişəm hələ.
Ürəyimdən keçənləri
Üzə deməmişəm hələ…

– Məni sındıra bilərsən,
Ancaq çətin ki, əyiləm.
Yəqin, "əzizim" sözünə
Mən hələ layiq deyiləm.

Zərrəcə sevgin yoxdumu
Sevgisi dəniz olana?
"Əziz" sözünü demirsən
Hamıdan əziz olana!

**28. 11. 2001**

## MƏNƏ "ƏZİZİM" DEMƏYƏN QIZIN CAVABI

Ürəyimdəki
ülvi sevgini görüb,
qəlbiniz nura
bürünəcək!
Sizi elə bir adla
çağıracağam ki,
"əzizim" sözü
onun yanında
çox adi görünəcək!
Ancaq bu sözü
dilim yox, ürəyim
deyəcək həmişə!
Qəlbinizin
qırxıncı qapısını
nəmli kirpiklərim
döyəcək həmişə…

**28. 11. 2001**

* * *

Çox adidi
hamıya deyilən
"əzizim" sözü.
Lüğətdə adınıza layiq
elə bir söz
tapa bilmirəm ki,
onunla çağırım Sizi!

**09. 12. 2001**

## ŞILTAQ QIZLA SÖHBƏT

– Sənə meyvə almışam.
– Yeməyəcəm.
– Məni sevirsənmi?
– Deməyəcəm…
– Onda mən səni yeyəcəm,
Sonra “sevirəm” deyəcəm…

**29. 11. 2001**

*** * ***

Sizinlə çəkdirdiyim şəklə baxıb,
Soruşanda ki, məndən:
“Bu kimdi qoluna giriib,
şəkil çəkdirmisən?” –
görün gülə-gülə
necə cavab vermişəm:
Qoluna girsəydim dərd yarı idi,
o insanın ürəyinə girmişəm…

**26. 12. 2001**

## ÜRƏKDƏ DEYİLƏN SÖZ

– Gülüm, ayrılığın
Çəni ürəyində,
Nə cür çağırırsan
Məni ürəyində?

– Sizi düşünəndə
Qanım sel tək axır,
O sözü deməyə
Utanıram axı?

– Mənə bir pay göndər
Sevgi diyarından,
Utanarmı, gülüm,
Adam öz yarından?!

**30. 11. 2001**

## AXI NİYƏ UTANIRSAN

Sevirsən, əzizləyirsən
Ürəyində sən adımı.
Bəlkə elə mənəm, gülüm,
Taleyinin son adamı?!

Qorxursan sirrini biləm,
Kağız kimi ağarırsan.
Hansı ilahi sözləsə
Hər gün məni çağırırsan.

O söz sənin qəlbindədi,
Gülüm, gedirsənsə hara.
O söz ilə işıqlanıb,
Ürəyin qərq olub nura.

Könlünə bu eşqi salan
Tanrımız yetsin köməyə.
Axı niyə utanırsan
O sözü mənə deməyə?

Ürəyimə bir od salıb,
İncidirsən özünü də.
Sən məndən əsirgəyirsən
Allahın xoş sözünü də!

O sözü bir yol eşitsəm,
Bəxtəvərə dönəcəyəm.
Yoxsa eşqin göylərindən
Çamurluğa enəcəyəm…

**01. 11. 2001**

## BU VAXTACAN

Düzü, Sizi sevənəcən
Tamam ayrı bir qız idim.
Adamların arasında
Tənha idim, yalqız idim.

Heç nədən qorxum yox idi,
Utancaq deyildim belə.
Bir vaxt ayılıb gördüm ki,
İlləri vermişəm yelə.

Neçəsinə rast gəlsəm də,
Könlüm belə dinməmişdi.
İndiyəcən qəlbim bu cür
Bəxtəvərə dönməmişdi.

Dağılan eşq məbədimi
Bir kimsə tikə bilmirdi.
Ağrılar çəkən qəlbimə
Sevinc üzükə bilmirdi.

Xəyalların qanadında
Səmalara uçmamışdım.
Şair qəlbinə bənzəyən
Aya könül açmamışdım.

Namərd əllər qırmışdılar
Xəyalımın qanadını.
Bu vaxtacan duymamışdım
Sevginin şirin dadını.

Eşqə həsrət ürəyimi
Bir kimsəyə qıymamışdım.
Dünyanın bu qədər gözəl
Olduğunu duymamışdım…

**23. 12. 2001**

## ƏSRARLI RÖYA

Dilim utanır desin
sevdalı bir şairə
könül verdiyimi.
Qəsdən demədim
Sizi yenə də
yuxuda gördüyümü!
Bildim ki,
israr edəcəksiniz
yuxumu danışım!
O yuxunu xatırlayanda
az qalıram həyadan
od tutum, alışım!
gözlərimdəşimşəklər çaxır,
üstümə həsrət yağışları yağır,
Ay da bizəqibtə ilə baxır…
O əsrarlı yuxunu
Sizə necə
danışaydım axı?!

**11. 01. 2002**

# SEVGİ DALĞALARI

## ÖLƏRƏM

Hamını almışdı qoynuna,
Dəniz dalğasız idi
bu səhər.
Qısqansam da,
dözdüm birtəhər.
Kimsənin qismətində
gözüm yoxdu,
Ömrüm boyu hamıya
səadət, xoşbəxtlik
dilərəm!
Dənizimə şərik çıxdılar,
dözdüm,
səadətimə şərik çıxsalar,
ölərəm!…

**18. 07. 2001**

## DƏNİZ DALĞALI OLANDA

Mən öz eşqimə sadiqəm,
Sevgili yarımdı dəniz.
Özümü xoşbəxt sayıram,
Dövlətim, varımdı dəniz.

Neçə aydı aram tapmır,
Kükrəyib daşır dalğalar.
Ləpədöyəndə gəzirəm,
Başımdan aşır dalğalar.

Dilini bilməyənlərə
Gözəllik də qənim olur.
Gülüm, dalğalı olanda
Dəniz təkcə mənim olur…

**12. 07. 2001**

## BU DƏNİZƏ NƏ OLUB HEÇ BİLMİRƏM

Səhərəcən dəniz məni çağırır,
Deyir: niyə görüşünə gəlmirəm?!
Hey kükrəyir, nərə çəkir, bağırır,
Bu dənizə nə olub heç bilmirəm?!

Dalğa səsi xatırladır "Cəngi"mi,
Gecə-gündüz yuxu getmir gözümə.
Neçə aydı dalğaları səngimir,
Neçə aydı gələ bilmir özünə.

Əgər qəlbin məhəbbətlə dinməsə,
Solacaqdır sənin çiçək bənizin.
Gülüm, gəlib mənimlə bir çimməsən,
Dalğaları yatmayacaq dənizin…

## QISQANC DƏNİZ

Dəniz məni qısqanır,
Əsəbidi gülüşü.
Hiss edir ki, qəlbimə
Bir ayrı sevgi düşüb.

Hey kükrəyir, qoynuna
Məni buraxmır yaxın.
Üstümə hücum çəkir
Dalğalar axın-axın.

Keşik çəkir yuxuma,
Gecələr də o yatmır.
Mən səni sevən gündən
Dənizdə dalğa yatmır…

**16. 07. 2001**

## DALĞALARLA ÜZ -UZƏ

Səhərlər günəşdən qabaq
Sahillərə mən bəzəyəm.
Qəlbimdə eşq firtınası
Dalğalarla üz-üzəyəm.

Köksümə meydan oxuyur,
Ürəyim baxmır sözümə.
Dənizdə özümdən başqa
Bir adam dəymir gözümə.

Dalğalar səadət kimi
Hey üstümə səpələnir.
Tanrım, necə bəxtəvərəm,
Qəlbimdə eşq ləpələnir.

Dənizin ilhamı gəlib,
Kükrəyir, coşur, bağırır.
Dalğa qollarını açıb,
Məni qoynuna çağırır.

Dəniz sevən dostlarımın
Danışmağa dili yoxdu.
Deyəsən heç bu şəhərdə
Məndən başqa dəli yoxdu…

## XOŞBƏXTLİKDƏN LAL OLMUŞAM

Sevda dolu sözləriniz
Yamanca gəlir xoşuma.
Gizli sevgi dalğaları
İncilər səpir başıma.

Mənim yaralı qəlbimdə
Yer yoxdu fəğana, aha.
Xoşbəxtlikdən lal olmuşam,
Söz tapa bilmirəm daha…

**16. 07. 2001**

## DƏNİZ GÜVƏNC YERİMDİ

Bəlkə də ürəyində
qısqanırsan,
"şairdən küs!" –
deyirsən dənizə.
Sənə yazılan
sevgi dolu nəğmələri
ilk dəfə o dinləyirsə,
nə üçün pis
deyirsən dənizə?!
Şərikdi könlümün harayına,
Qəlbimin həyəcanına.
Dəniz mənim
güvənc yerimdi;
Sənə əlim çatmayanda
qaçıram onun yanına!

**14. 07. 2001**

## MƏHƏBBƏT LƏPƏDÖYƏNİ

Dəniz
şəhərdən ayrı cür,
sahildən ayrı cür görünür.
Ləpədöyəndən baxanda
daha da gözəlləşir.
Dalğaların qoynunda isə
qəlbim xoşbəxtliyə bürünür…
Qamətinəuzaqdan baxa-baxa
əriyirəm gilə-gilə.
Getdikcə sənə yaxınlaşıram,
ancaq məhəbbət
ləpədöyənindəyəm hələ…

**07. 07. 2001**

* * *

Sən də mənim
eşqimin ləpədöyənindəsən.
Sevgi şəfəqləri
qızardıb yanaqlarını.
Dalğa qollarımla
qucaqlayıram,
ləpə dodaqlarımla
öpürəm ayaqlarını.
Gözəlliyindən
heyrətə gəlmişəm,
həyəcandan hey
əsirəm.
Mən səni
qoynuma almağa
tələsirəm…

## YENƏ MƏNİ DƏNIZ ALDI QOYNUNA

İndən belə istəyirəm ömrümü
Məhəbbətə, səadətə həsr edəm.
Səhər-axşam atılsam da qoynuna,
Elə bil ki, mən dənizə həsrətəm.

Dalğasında gözlərinin odu var,
Ləpəsində dodağının dadı var.
Yenə məni dəniz aldı qoynuna,
Dalğa qollar kəmənd oldu boynuma.

**18. 07. 2001**

## DƏNİZİN GİLEYİ

Yamanca tələsirsən,
arzu çox, ömür qısa,
Sevgilində soyuqluq
duyanda qəm yemisən.
Bir gün həyəcanlanıb,
pıçıltıyla o qıza
"Mən səni dənizdən də
çox sevirəm" – demisən.
Səpiləcək üstümə
arzüların xəzəli,
Həqiqəti bir şirin
yalandan çoxmu sevdin?
Səni bir yol ürəkdən
öpməyən o gözəli,
Səni hər gün qoynuna
alandan çoxmu sevdin?

**01. 08. 2001**

* * *

Nigaran qalmayın, əzizim,
Sizi sevən bəndənizdən.
Bir-birinizdən muğayat olun;
Dəniz səndən, sən dənizdən.
Gələcəyəm bu gün-sabah,
nə sızlayın, nə ağlayın,
Özünüzü mənim üçün
qoruyub saxlayın!…

**21. 07. 2001**

* * *

Deyirsən ki,
məni sevirsən
dəniz qədər!
Küsüb getsən, minnətinə
Dəniz gedər!
Görüşə nə özün gəlirsən,
nə məni gəlməyə
qoyursan!
Qalmışam sərgərdan;
nə yaşamağa,
nə də ölməyə
qoyürsan!
Səndən incidiyimi
duyursan,
"günah"ını
təbəssümünlə
yuyursan…

**18. 08. 2001**

## EŞQİN DƏNİZDİSƏ…

Deyirsən ki, ürəyimi
Almasın zərrəcə kədər,
Mənə sevgin çox böyükdü, -
Ümman qədər, dəniz qədər…

Eşqin dənizdirsə, gərək
Soyuqluğu tərgidəsən,
Dəniz kimi sən də məni
Öpüşlərə qərq edəsən!…

**22. 08. 2001**

## DƏNİZLƏ SÖHBƏT

– Dəniz, səndən incimişəm,
Nə üçün əsib-coşmadın?!
Sən o qızı yadla gördün,
Niyə kükrəyib daşmadın?!

– Şair, sənin məhəbbətin
Neçə dərdə əlac olur.
Məgər bilmirdin sevdiyin
Qızların bəxti açılır?!

Sevdalı qəlbin kövrəkdi,
Ancaq ah-uf da hədərdi!
Özün yaxşı bilirsən ki,
Gözəllər gəldi-gedərdi…

Hisslərin təmizdi, safdı,
Şair qocalmaz, qarımaz.
Mənim kimi yarı olan
Ayrı sevgili aramaz!

**27. 08. 2001**

* * *

Deyirdin: məni
dəniz qədər sevirsən! –
Sözlərin hədərdi.
Məni dəniz qədər sevən
dənizə özgə iləgedərdi?!

**27. 08. 2001**

## İÇİMDƏKİ FIRTINALAR

Özgə ilə getməmisən
Söylədin ki, sən dənizə.
Yenə də zülm elədiniz
Sizi sevən bəndənizə…

Çətin ovuna biləcək,
Mən öz könlümə bələdəm.
İçimdəki fırtınalar
Səngiməyibdir hələ də.

Qəlbimə damıb, rəqibim
Muradına çatmayacaq.
Mənim olmasan, içimdə
Qasırğalar yatmayacaq.

Özün fikirləş, özün seç,
Bu daşın, o da tərəzin.
Gülüm, bəxtəvər başına
Sənə doğma olan kəsin!

**28. 08. 2001**

* * *

Sirdaşım, sevgilim dəniz,
Yenə gəldim hüzuruna!
Sən şeir dedin, mən yazdım,
Nazir oldum hazırına.

Sanki məhəbbətdən doyub,
Kiminsə sözünə uyub,
İnsafsız təzə nırx qoyub,
Təzə sevgi bazarına.

Yalan şirin, doğru acı,
Dilənçiyəmmi əl açım?!
Qəlbimin yoxdu əlacı,
Düşüb sevgi azarına…

**28. 08. 2001**

* * *

Mən sənin, sən mənim xətrimə dəydik,
Alışıb kül olduq biz yana-yana.
Acıqla ayrıldıq bir-birimizdən,
Sən bir yana getdin, mən də bir yana.

İtirmək ağırmış doğma adamı,
Gizlicə hıçqırdıq, fəğan qopardıq.
Mən səndən, sən isə məndən xəbərsiz
Sevdalı dənizə pənah apardıq.

Demə ikimiz də bir-birimizə
Gizlicə səadət diləyirmişik.
Demə ikimiz də bir-birimizdən
Dənizə şikayət eləyirmişik…

**30. 08. 2001**

## DEYİRƏM, DEYİRSƏN…

Deyirəm ki, mənə sevgin
Elə bil ki, azalıb.
Həyəcanlar, iztirablar
Taleyimə yazılıb.
Deyirsən bu narahatlıq,
Vallah, hədərdir, hədər!
Sizi dənizcə sevirəm,
Dənizi Sizin qədər!

**14. 09. 2001**

## SU PƏRİSİ

Su pərisi,
bu nə iş idi
gəldi başıma? –
Mən səni
dənizdə axtarırdım,
sən sahildə
çıxdın qarşıma!
Bircə dəfə görməklə
mən üzünü,
göz yaşlarım
dalğalandırdı
sevgi dənizini…
Toz-torpaqlı dünyamızda
yaşaya bilərdimi
su pərisi?
Qıyardımmı
quruda zillət çəkə
su hərisi?!

Sənə olan təptəzə,
tərtəmiz hisslərim
heç zaman
qocalıb qarımayacaq!
Dönə bilərmi, əzizim,
səni sevən şairin
bu böyük
sevgidən üzü?!
Neçə ki,
həsrətin var,
göz yaşım
qurumayacaq,
neçə ki,
göz yaşım var,
dalğalanacaq
sevgi dənizi!…

**18. 10. 2001**

* * *

Dedim: – Gedək sahilə,
Əzizim, gəzək bir az.
Dedin: – Belə havada
Dənizə getmək olmaz.

Həmişə firtınaya
Həyəcanla baxıram.
Dalğaların qoynunda
Qərq olmaqdan qorxuram.

– Nə olsun ki, havadan
Gəlir tufan qoxusu,
Qəlbində eşq olanın
Dənizdən nə qorxusu?!

Ürəyimdən keçəni
Başa düşdün elə bil.
Dedin ki, dalğalardan
Qurtarmaq çətin deyil!

Məni xəbərdar edir
Ürəyimdən gələn səs:
Sevgi dalğalarından
Necə qurtararam bəs?!

**23. 12. 2001**

## AĞ ATLI OĞLAN

Qədəm qoydu həyatıma
Bu il "sevgilim" sözüylə.
Ağ at gəldi çapa-çapa,
Sevinc gətirdi özüylə.

Bir il getdi, bir il gəldi,
Məhəbbətim yaşa doldu.
Sənin dediyin bir kəlmə
İlin təməl daşı oldu.

Titrək səsin ürəyimdə
Şeirə döndü, nota döndü.
Xəyalımda dəniz özü
Ağ yalmanlı ata döndü.

Nəfəsinlə alışdırdın
Kül altında yatan közü.
Nə gözəlmiş sevgilimin
Dilində "sevgilim" sözü.

Dodağından qopan kəlmə
Qəlbimdə tufana döndü.
Sevgi yolunda at çapan
Ağ atlı oğlana döndüm…

**01. 01. 2002**

## DALĞALARIN SƏSİ İLƏ

Sübh tezdən dənizə getdim,
İçimdə sevgi boy atdı.
Dözə bilmədim, zəng edib
Səni yuxudan oyatdım.

Ürəyim yenə döyündü
İlk gənclik həvəsi ilə.
Sənə "sevirəm" söylədim
Dalğaların səsi ilə.

**01. 01. 2002**

## DƏNİZLƏ GÖRÜŞ

Qəlbimin sirdaşı dəniz
Sənsiz yaman darıxmışam.
Elə bil dalğalarının
Üstündə uçan bir quşam.

Təzə ilin ilk günündə
Səni ziyarətə gəldim.
Gözəlliyin qarşısında
Titrədim, heyrətə gəldim.

Axışıb gəldi qarşıma,
Dalğaların qoşun oldu.
Mən keçirəm əlli üçə,
Sənin neçə yaşın oldu?!

**01. 01. 2002**

## DƏNİZƏ BƏNZƏYƏN SEVGİ

"Sizin sevginiz dənizə bənzəyir, dalğaları çoxdur"…
**M. Səlbinaz**

Yazırsan ki, gözlərimdə
Səma, torpaq, yer gözəldi.
Mənim eşqim bir dənizdi,
Hər dalğası bir gözəldi.

Sevda dolu köksümdəki
Damlaların sanı yoxdu.
Göylərdən gələn sevginin
Əvvəli var, sonu yoxdu…

Şad olaram, ağuşumda
Dalğaya dönsən, əzizim!
Bəlkə həmin dalğalardan
Biri də sənsən, əzizim?!

Doğrudan da, ilahi eşq
Qayada gül bitirəndi.
Əsl sevgi ümmanları
Təlatümə gətirəndi…

**13. 01. 2002**

# HƏSRƏT SAZAĞI

## NƏ ZAMANSA

Nə zamansa bu sevdanın
Üstünü çən alacaq.

Ömür yaman vəfasızdı,
Açılanlar solacaq.

Əzizlərim, doğmalarım
Məni yada salacaq.

Bu dünyadan mən köçəndə
Qonur gözün dolacaq.

Xoşbəxtəm ki, ürəyində
Məndən nəsə qalacaq…

**18. 07. 2001**

## HƏZZ VƏ İZTİRAB

Ürək sevməyi
bacarmayanda,
Səadət adi bir söz olur.
Məhəbbət
iztirabla yoğrulanda,
Həzz olur…

* * *

Məhəbbət –
hər qapıya düşməyən
qəribə açardı.
Paslı qıfılını götürüb,
yanıma
gələcəksənmi?
Mən ötən sevdaları
sənə qurban
verməyi bacardım,
Sən necə,
öz ürəyinlə
bacara biləcəksənmi?

**15. 07. 2001**

## ƏLVİDA

Ürəyim zərrəcə
laqeydlik görsə,
ən dolu xəzinənin
qapısından belə
geriyə əliboş qayıdandı…
Hərdən mənə elə gəlir ki,
sənin qəlbindəki
əsl sevgi deyil,
məni şeir yazmağa
şirnikdirən şeytandı…
Hisslərimə lağ eləmək,
gülməkdirsə diləyin,
Əlvida, əzizim!
Əlvida,
sevgi mələyim!

**15. 07. 2001**

## MEŞƏDƏ BİR YARPAQ DÜŞDÜ ÇİYNİMƏ

Möcüzəli bir diyara girmişəm,
Hey gedirəm, sağım-solum ağacdı.
Gözümdə yaş şehli çiçək dərmişəm,
Neçə-neçə gədik keçdim, dağ aşdım.

Səhər-səhər alov geyib əyninə
Günəş çıxdı, üstümə nur ələndi.
Meşədə bir yarpaq düşdü çiynimə,
Elə bildim sənin titrək əlindi…

Qəlbim əsdi, dərindən köks ötürdüm,
Ayrılığın qoyub məni pis günə.
O yarpağı həyəcanla götürdüm,
Öpüb qoydum gözlərimin üstünə…

**20. 08. 2001**

## MEŞƏDƏ

Gözəllik məni
qoynuna alsa da,
Elə bil heç nə
deyildi gərəyimə.
Meşədə gəzirdim,
çat-çat çöllərə yağan
yaz yağışı kimi
səsin dəstəkdən səpildi
təşnə ürəyimə.
Əlédin üstümə
sevgi dolu nəfəsinin işığını,
təbəssümünün şəfəqlərini…

Mən səndən
nə qədər uzaqlaşıramsa,
bir o qədər genişləndirirəm
bu sevginin üfüqlərini…

**19. 08. 2001**
**Qayabulaq**

## AYRILIQ SAZAĞI

Səsin telefonda titrəyir,
Ayrılıq sazağıdı üşüdən səni.
Ürəyim daha çox istəyir
dənizdən, meşədən səni!
Ömrün boyu
sevgini, sevincini
mənimlə böləcəksən.
Bu dünyada qalacaq şeyləri
niyə səndən çox sevim ki?!
Dənizdən, meşədən vəfalısan,–
O dünyada belə
yanıma gələcəksən…

**21. 07. 2001**

## QAYIT

Mən elə bilirdim bu sevda sönər,
Onsuz da qəlbimin çoxdu simsarı.
Bir səhər dənizi tapşırıb sənə,
Sakitcə üz tutdum meşəyə sarı.

Çıxdı yollarıma nərgiz, bənövşə,
Dörd yanım laləzar, dörd yanım çiçək.
Könlümə yatmadı nə dağ, nə meşə,
Səni arzuladı sevdalı ürək.

Hicran günlərində gözlərim dolar,
Kefə yox, gəlmişəm sanki biyara.
Sən qəlbimə gircək, ötən sevdalar
Utanıb, könlümdən çıxıb bayıra.

Qonur gözlərinə elə vuruldum,
Eşq odu qəlbimdə çətin ki, sönə.
Ömrün payızında bəxtəvər oldum,
Taleyim səadət bəxş etdi mənə.

Üstündə əsirəm bu səadətin,
Gözümə ayrılıq dumanı çökdü.
Mən gəldim, sən getdin, bu məhəbbəti
Tale bir dəfə də sınağa çəkdi…

Mənə qanad verən məhəbbətindi,
Sevda göylərində uçan quşa bax!
Göylərdən qəlbimə məhəbbət endi,
Duydum ki, çətindi sənsiz yaşamaq.

Məndən uzaqdasan, əzizim, sənə
Nə əlim yetişir, nə də ki, ünüm.
Vüsal həsrətiylə göynəyir sinəm,
Qayıt gəl yanıma, başına dönüm…

Sellər yaman günə qoyub gölləri,
Qayıt gəl, bulanıq sular durulsun.
Qayıt gəl, qəlbimin solan gülləri
Sənin göz yaşınla bəxtəvər olsun.

Həsrətdən qamətim bükülüb mənim,
Ayrılıq azaldıb dəyanətimi.
Gözlərim yoluna dikilib mənim,
Qayıt, yetim qoyma səadətimi!

**31. 07. 2001**

## ŞƏRİKLİ SƏADƏT NƏYİNƏ GƏRƏK

Niyə dalğaları daşa dönməyib?–
Daha ümidimi kəsdim dənizdən.
Səni özgəsiylə görüb, dinməyib,
Ömrümdə ilk dəfə küsdüm dənizdən.

Qızmar yay günündə bu nə soyuqdu?–
Əlində qırılan sarı siməm mən.
Səni qısqanmağa haqqım da yoxdu,
Niyə inciyirəm, axı kiməm mən?!

İnsan övladını sevərmi pəri?–
Daha aramıza uca dağ düşüb.
Mənim qismətimə əzəldən bəri
Sevgi əzabları daşımaq düşüb.

Özgə qismətinə yaxın gəlmərəm,
Qəlbim inləsə də darda, çətində.
Sevgiyə mən şərik ola bilmərəm,
Gözüm yox kimsənin səadətində.

Sevəndə vəfalı bir gözəl sev ki,
Xəyanət qurbanı olmasın ürək!
Şərikli səadət, şərikli sevgi
Təşnə bir ürəyin nəyinə gərək?!

**25. 08. 2001**

## EŞQİN DAĞLARINA SAZAQ DÜŞÜBDÜR

Şaxta diş qıcayır tər bənövşəmə,
Yazın ortasında sazaq düşübdür.
Sevgi gülşənimə, sevgi meşəmə
Bu gecə ilk sarı yarpaq düşübdür.

Əgər yarımçıqsa, yoxdur səadət,
Qəlbimdə müqəddəs bir iztirab var.
Yox, bu nə gileydi, nə də şikayət,
Halalca haqqımdı bu iztirablar.

Sevgidə sədəqə deyil gərəyim,
Elə bəlli olar ocaq közündən.
Yaman ərköyündü mənim ürəyim,
Heç vaxt çıxmamışam onun sözündən.

Mənə dinclik vermir ilahi səslər,
Şair öz yolundan hələ sapmayıb.
Onun ürəyinə toxunan kəslər
Hələ indiyəcən xeyir tapmayıb.

Sevgimə lağ edib gülürsən bəlkə?
Elə düşünmə ki, qəddim əyildi.
Günəşin üzünə yaraşmır ləkə,
Bu eşq xəyanətə layiq deyildi…

İçimdə göyərmir hər sevgi tumu,
Ruhum hər gözəllə danışa bilmir.
Ürəyim ilahi bir sevgi umur,
Üzü dönüklərlə barışa bilmir.

Bütün ağrıları o yazıq çəkər,
Xəyanət görsə də dinməyəcəkdir.
Mənim məhəbbətim periksə əgər
Bir daha geriyə dönməyəcəkdir.

Yolumu gözləyir ayrı bir afət,
Yaramı sevgiylə sarıyacaqdır.
Sərgərdan qalmağı sevmir məhəbbət,
Özünə təzə yurd arayacaqdır…

Şaxta diş qıcayır tər bənövşəmə,
Eşqin dağlarına sazaq düşübdür.
Sevgi gülşənimə, sevgi meşəmə
Bu gecə ilk sarı yarpaq düşübdür…

**26. 08. 2001**

## DEYƏSƏN YENƏ DƏ YANILMIŞAM MƏN

Hansı bir gözəlin eşqinə düşüb,
İlham köhlənini çapmamışam mən?!
Aylar karvan çəkib, illər ötüşüb,
Qəlbim istəyəni tapmamışam mən.

Zərif bir çiçəkdən könlüm pay umdu,
Birdən gözlərimdə hər şey dəyişdi.
Sanırdım o mənim tale payımdı,
Qəlbimi qəlbinə qurban demişdim.

Üstündən aşmışam qarlı bir dağın,
İsti yuva gəzən qərib quşam mən.
Bir gözəl sevmişdim ruhuma yaxın,
Deyəsən yenə də yanılmışam mən.

Ürəyim üşüyür qarda, sazaqda,
Könül dostu tapmaq asan deyilmiş.
Əlləri əlimdə, fikri uzaqda, –
Bu da axtardığım insan deyilmiş…

**26. 08. 2001**

## HARDASAN

Ayrılıq – cılız hissləri
söndürür,
Böyük məhəbbəti
alova döndərir.
Təpədən dırnağa
od tutub,
Kərəm kimi yanıram…
Əslimin sehrli düymələrini
anıram…
Deyəsən sən də şam kimi
əriyirsən,
deyəsən sən də
dardasan.
Hardasan,
mənim yanğınsöndürənim,
hardasan?!

**01. 08. 2001**

* * *

Söndürdülər telefonu,
Bir namərd aranı kəsdi
Bizim nurlu eşqimizin
Üstünə qara yel əsdi.

Səsin kəsildi elə bil,
Qəlbimdə qırıldı bir tel.
Bəlkə də qara keşişin
Nəfəsiydi o qara yel?!

Yoxsa indi ağlayırsan
Başını salıb aşağı?
Bəndələr söndürə bilməz
Ürəkdə yanan işığı.

İçimdə ildırım çaxıb,
Qara buludları biçdi.
Sənin nurlu baxışların
Ürəyimi vətən seçdi…

**01. 08. 2001**

## BİR ÇİMDİK KƏDƏR

Gözlərinin həsrətindən
Gözlərimdə qəm sayrışır.
Mənim sevgi sevincimə
Bir çimdik kədər qarışıb.

Ürək köksümdə titrəyir,
Nəğməli budaq kimidi.
Bu kədər ağaca düşən
İlk sarı yarpaq kimidi.

Payızın qoxusu gəlir,
Dönüb buluda bu kədər.
Mənim sevgi sevincimi
Qorxuram uda bu kədər…

Qorxuram bülbül könlümün
Üstünü qırğı, sar ala.
Yaşıl sevinc yarpaqları
Həsrət odunda sarala…

**04. 08. 2001**

## QORXMURSANMI?

Ayrılıq günlərində
hövsələm yamanca
daralıb;
Xəbərin yoxdumu
həsrətli qəlbimin
için-için
qovrulmağından?
Üzün xəzan yarpağı kimi
saralıb,
Qorxmursanmı
yaşıl eşqimizin
sapsarı
saralmağından?!

**05. 07. 2001**

## AYRILIĞIN QƏM HASARI

Aramızda
ayrılığın qəm hasarı,
Mən üzü sənə sarı
yatıram,
sən üzü mənə sarı…
Səhərə qədər yuxumuz
ərşə çəkilir,
İkimizin də gözlərimiz

aya dikilir.
Ay işığında ürəyim
riqqətə gəlir,
dodağımda sevgi nəğmələri
sətirlənir.
Bir az sənin,
bir az mənim
sevdalı baxışlarımızdan
nur alıb,
Ay daha da bədrlənir…
Aramızda
ayrılığın qəm hasarı,
mən üzü sənə sarı yatıram,
sən üzü mənə sarı…

**06. 08. 2001**

## MƏNİ DÜŞÜNÜRSƏN

Gecələr məni düşünürsən,
Səhərə qədər yuxu da getmir
gözünə.
Ay işığına bürünüb, gizlicə
Pəncərəndən girirəm içəri,
üzümü qoyuram
üzünə…
Mane ola bilərmi bizə
ayrılığın qara-qara buludu?
Gözlərimiz ay,
ürəyimiz sevgi işığıyla
doludu…

**06. 08. 2001**

## İLHAMIM GƏLƏNDƏ

Hərdən-birdən başına
çiçək səpmək istəyirəm,
Mehriban baxışlarınla çalınır
qəlbimin simi.
Ürəyim riqqətə gələndə
səni öpmək istəyirəm,
İlhamım gələndə
qələmə əl atdığım kimi…
Çox pis şeydi,  əzizim,
bir dilbilməzin
əlində qalmaq.
Bilirsən nə deməkdi
ilhamı gələn şairin əlindən
qələmini almaq?!

**08. 08. 2001**

## SƏNİ GÖRMƏK ARZUSU

Səni görmək arzusu
kəsibdir kələyimi.
Buludlar arasından çıx üzə,
nurla doldur ürəyimi!
Mənim qəlbim
dəymədüşərdi,
həssasdı,
kövrəkdi…
Üzünü həsrət gözlərimə
göstərməyən ay
nəyimə gərəkdi?!

İncilərinə əlim çatmayan
dəniz olmusan mənə,
Kimliyini bilməsəm də,
əziz olmusan mənə!

**09. 08. 2001**

* * *

Səbəbsiz heç nə yoxdu,
canım-gözüm!
Hər şeyin bir "nə üçün"ü,
"niyə"si var…
Arabir zəng elə,
bilim ki,
mənim də ürəyimin
yiyəsi var…

**09. 08. 2001**

* * *

Sərgərdanam,
gah məni
dəniz qoynuna alır,
gah meşə.
Nə yaxşı ki,
günəşim-ayım
mənimlədi
həmişə…

**10. 08. 2001**

* * *

Nəfəsinə həsrət ciyərlərim
para-paradı.
Bu dağlarda, bu meşələrdə
sənə layiq bir hədiyyə aradım…

Duydum ki,
ay üzünün yanında
hər yarpaq,
hər çiçək
gözəlliyini itirəcək,
solğun görünəcək…
Səndən ayrı düşən gündən
bircə kərə gülmədim.
Sənə gətirməyə
özümdən layiq bir hədiyyə
tapa bilmədim!

**10. 08. 2001**

## ÜZÜ QÜRUBA SARI

Mənim sarı çiçəyim!
Ləçəklərinlə
yaramı sarı!
Həsrətimin rəngi
saçların kimi sarı.
Sənin ömür günəşin
göylərə meydan oxuyur,
mənim ömür günəşim
yol gedir
üzü qüruba sarı…
Ömrüm boyu
sevgi ocağı çatmışam
çiçək közündən.
Sən sevginin
ilk ləzzətini dadırsan,
mən son dəfə öpürəm
çiçək gözündən!

Deyirsən aldadırıq özümüzü,
qovuşmaq istəyimiz
hədərdi.
Dünyaya ilk dəfə
baxmaqla
son dəfə baxmağın fərqi
yerlə göy
qədərdi…

**24. 08. 2001**

## MƏNİ SEVƏN TAPILACAQ

Tanrı sevmir yalan, hiylə,
Zarafat eləmə göylə!
Hələ Fərhad külüngüylə
Neçə dağlar çapılacaq.

Bağrım olub cadar-cadar,
Öz qismətim mənə çatar!
Nə qədər ki, sevənlər var,
Eşq məbədi yapılacaq.

Yuxu getmirdi gözümə,
Xoşbəxt deyirdim özümə!
Nə biləydim ki, üzümə
Sənin qapın çırpılacaq?!

Yalan dönüb oldu gerçək.
Dərd əlindən hara köçək?!
Sən gedib öz dərdini çək.
Məni sevən tapılacaq!

**27. 08. 2001**

## BİLMƏSİN

Sevincindən qəlbim quş tək uçardı,
Qonur gözlər ömrümə nur saçardı.
Bir vaxt mənim ürəyimi açardı,
O gözəlin hər sözü, hər kəlməsi.

Ay üzündə buludlar var bu gecə,
Aman Allah, vəfasızmış yar necə!
Başqasına könül verib gizlicə, –
Deyin daha görüşümə gəlməsin!

Ürəkləri məhəbbətlə bəzərəm,
Özümə bir ayrı simsar gəzərəm.
Xoşbəxt olsun! Bu dərdə də dözərəm,
Təki o qız hisslərimə gülməsin!

Bəxtəvərəm, neçə çiçək dərmişəm,
Sevənlərə söz çələngi hörmüşəm.
Könüllərə həyat eşqi vermişəm,
Bilən bilir, bilməyən heç bilməsin!

**27. 08. 2001**

## KÜSÜŞƏN ULDUZLAR

Eşqin uca budağına
Yapalaqlar qona bilməz.
Əzizim, məni bağışla,
Sevməyən qısqana bilməz.

Bilirsən ki, sənə hər vaxt
Mən səadət diləmişəm.
Məhəbbətin gücündəndi,
Qəlbinə qəm ələmişəm.

Əcəl uyğusuna getsəm,
Diriləröm "Oyan!" – desən!
Qəlbimə yara vuran da,
Ona məlhəm qoyan da sən.

Küsülü ulduzlar kimi
Gəl biz yenidən barışaq.
Eşqin uca göylərində
Yenə də qoşa sayrışaq…

**27. 08. 2001**

## HƏYAT UCUZ, ÖLÜM BAHA

Arxayın ol, əllərindən
Tutmayacaq əlim daha.
Sənə bir söz deməyəcək
Mənim acı dilim daha.

Tərgitmədin bu küsməyi?
Sən gözləyirdin bəs nəyi?
Üstümə əcəl əsnəyir,
Yaxındadır ölüm daha.

Sinəmdə köz daşıyıram,
Ellərə söz daşıyıram,
Ölməmişəm, yaşayıram,
Həyat ucuz, ölüm baha!

**28. 08. 2001**

## ÜÇ NÖQTƏ

Bulud aldı üzümüzü,
Yaş göynətdi gözümüzü,
Tikan diddi dizimizi,
Yolumuz daş-kəsək oldu.

Çağırdım, gəlmədi yarım,
Açıla qaldı qollarım,
Niyə bu eşqin yolları,
Gülüm, belə kəsə oldu?

Çən var eşqin dağlarında,
Bu dünya öz axarında.
Eşqimizin axırında
Üç nöqtə üç busə oldu…

**28. 08. 2001**

* * *

Üstümə yeridi bir qatı duman,
Bilmədim yarımın qəlbi nədəydi?
Qəlbim istəyəni eləyən zaman
Sevdiyim gözəlin qəlbinə dəydi.

Titrək dodaqları çevrildi közə,
Sevdalı pərimin gözləri doldu.
Baha başa gəldi üç busə bizə,
Bir eşqin sonunda üç nöqtə oldu…

**17. 09. 2001**

* * *

Arzuların qarşısına
Çəpər çəkib qadağalar.
Dodaqların qonduğu yer
Ya üz, ya da dodaq olar.

Gündə qaçırsan bir yana,
Vermirsən əlimə yaxa.
Deyirsən ki, sevgi gərək
Uzaqdan yandıra, yaxa.

Yaxşı bilirik eşq nədi,
Aç zülfünü tök üzünə.
"Boyunduruq öyrədirsən
Sən yüz ilin öküzünə!"

**29. 08. 2001**

* * *

Mənim eşqim tərtəmizdi,
Çətin kimsəyə yük ola!
Gülüm, gərək sevənlərin
Səbri bir az böyük ola.

Yenə xətrinə dəymişəm,
Yel tək kükrəyib əsmisən.
Bir günahım yoxdu mənim, -
Bir gör sən kimdən küsmüsən?

Dodağından gül dərmişəm,
Kobud qoymusan adımı.
Adam öz yarını öpər,
Gedib öpəydim yadımı?!

**30. 08. 2001**

## TƏNHA BİR SEVGİNİN YASI

Yenə səndən inciməzdim,
Gülüm, köksümə dağ çəksən.
Ürəyim yarpaq tək əsdi,
Deyəndə həmişə təksən…

Elə bilmə bəxtiyaram,
Dərddən, əzabdan uzağam.
Doğmaların arasında
Elə mən də yalquzağam.

Bu sevdanın taleyinə,
Qismətinə gün doğmadı.
Tənhalıq çox ağır dərddi,
Ancaq yamanca doğmadı…

Kimsənin xəbəri olmaz,
Xəlvətcə ağlayarıq biz.
Tənha bir eşqin yasını
Birlikdə saxlayarıq biz…

**30. 08. 2001**

## SƏNƏ NEYLƏMİŞƏM

Tapdayıb sevda qoşunu,
Sevən qəlbim olub qançır.
Bu qədər ayrılıq olar? –
Ağrıyır, ürəyim sancır.

Nə dərd varsa, məni tapıb,
Həsrətin qəlbimə hopub,
İçimdə bir tufan qopub,
Yaş gözümdə puçur-puçur.

Köksümə təzə dağ düşdü,
Eşq bağına sazaq düşdü!
Özüm səndən uzaq düşdüm,
Xəyalım yanına uçur.

Yanında qısadır dilim,
Niyə gəlmir qəfil ölüm?!
Sənə neyləmişəm, gülüm,
Gözlərin gözümdən qaçır?!

**31. 08. 2001**

## ELƏ DÜŞÜNDÜM Kİ…

Tufanlar neyləyər sevda közünə? –
Qorxuda bilmədi duman, çən bizi.
Uşaq tək aldandım sənin sözünə,
Elə düşündüm ki, sevirsən məni.

Qəlbimə toxundun de, nədən ötrü,
Yarını oxşamaq məgər ardımı?
Sevən bir həsrətli busədən ötrü
Belə haray-həşir qopardardımı?

Məndən üz döndərmə sən nifrət ilə,
Çiçəkli bir yazdan qışa düşərsən.
Sevgi yollarında körpəsən hələ,
Məni böyüyəndə başa düşərsən…

**31. 08. 2001**

## DEYİLSƏN

Gör kimdən nələr ummuşam? –
Özüm özümü danladım.
Səni bəxt ulduzu sandım,
Ancaq ki, bir gün anladım:
Qismətim, payım deyilsən!

Qəlbində sevgi olmayan
Könül qapımı döyməyib.
Nə günəş, nə ulduz, nə ay
Bir yol qəlbimə dəyməyib, –
Günəşim, ayım deyilsən.

Ömrü nurla dolsun deyə
Hər kəs özünə yar seçər.
Bablı babını tapmasa,
Günü ah-vay ilə keçər,
Sən mənim tayım deyilsən…

**01. 09. 2001**

## ÖMRÜN SONUNACAN

Səni də göynətdi bəlkə bu hicran,
Məndən ayrılanda gözün dolacaq.
Bəlkə incitdiyin şair ürəyi
Yenidən qəlbinə simsar olacaq?!

Yalanlar üyütdü yüz gerçək ömrü,
Qüdrətimiz hanı biz seçək ömrü?!
Gülüm, uzun olmur gül-çiçək ömrü,
Bir dəfə açılan bir gün solacaq.

Danmıram, vurğunam qonur gözünə,
Ürəyim təşnədi bir xoş sözünə,
Qəlbimin qapısı sənin üzünə
Ömrün sonunacan açıq qalacaq…

**01. 09. 2001**

## SALAM, AY ÖZGƏNİN SƏADƏT QUŞU

Hələ çatmamısan öz ünvanına,
Ancaq gözlərinə çöküb qaranlıq.
Salam, ay özgənin səadət quşu,
Yorulub çiynimə qondun bir anlıq.

Kimsənin qisməti deyil gərəyim,
Qəlbimə yüz həsrət sığınacaqdır.
Taleyim belədi, mənim ürəyim
Qərib sevgilərə sığınacaqdır.

Duyuram, ürəyin safdı, təmizdi,
Olmayıb heç zaman zaval yaxşıya!
Adın da, eşqin də mənə əzizdi,
Qalsan şad olaram, getsən yaxşı yol!

Hansı ürəyəsə düşən açarsan,
İlk dəfə qalxırsan göyə sən hələ.
Bir az dincini al, sonra uçarsan,
Mənzilin uzaqdı deyəsən hələ…

Xalisdən ayıra biləndə qəlpi,
Nakam taleyinə qərib söyəcək!
Bəlkə nə zamansa sevdalı qəlbin
Mənim ürəyimçün qəribsəyəcək?!

Şairin başından çıxıbdır huşu,
Sevgi çəmənindən çiçək dər mənə.
Salam, ay özgənin səadət quşu,
Bircə lələyin də bəs edər mənə!

**01. 09. 2001**

## BU SEVGİ ÖTƏRİ DEYİL

Bağrımın başından bir ağrı qopub,
Ömrümə, günümə hardan gün düşüb?!
Üstümə bir kədər dumanı hopub,
Sevgi sevincləri didərgin düşüb.

Yoxsa taleyindən çıxıb gedərəm,
Eşqin qarşısında əyil, əzizim!
Əgər bürünübsə zərif kədərə,
Bu sevgi ötəri deyil, əzizim!

**01. 09. 2001**

## ÜZÜMƏ BAĞLANAN QAPI

Sirkə nə qədər tünd olsa,
Sınacaq onun öz qabı;
Tək qaldım eşq meydanında,
Varmı könlümün bir babı?!

Zərrəcə qorxum yox oddan,
Soruş məni dostdan, yaddan,
Gülüm, çıxmır heç nə yaddan,
Hər şeyin var haqq-hesabı!

Haram olub yuxu mənə,
Qu nəğməsi oxu mənə!
Niyə verdun axı mənə
Bu ağrını, bu əzabı?!

Yaraladım, qaçdı ovum,
Bu nisgili hara qovum?!
Ovulacaq ovum-ovum,
Üzümə bağlanan qapı…

**01. 09. 2001**

## SƏN MƏNİM ÖMRÜMƏ QAYIDACAQSAN

Eşqin göylərində bir ulduz söndü,
Ətrini itirdi şux nərgizlərim.
Getdin, bir məhəbbət yetimə döndü,
Ardınca su səpdi bulud gözlərim.

Sənsiz darıxacaq ayım, dənizim,
Bir də görüşümə gəlməyəcəksən.
Məndən ayrılmağa nə var, əzizim,
Özündən ayrıla bilməyəcəksən!

Ürəyim çevrilib öz mehvərindən,
Qonur gözlərini hey anıram mən.
Bir də görəcəksən bəbəklərindən
Bir cüt göz yaşı tək boylanıram mən.

Sevdalı qəlbimin dinəcək simi,
Mürgülü hissləri oyadacaqsan.
Baharda qayıdan durnalar kimi
Sən mənim ömrümə qayıdacaqsan…

**02. 09. 2001**

## TİKANLI GÜL

Bir gülü sıxdım köksümə,
Ürəyim murada çatdı.
Ləçəklərini öpəndə
Tikanı köksümə batdı.
Şirin ağrıdan göynədim,
Gözlərimə zülmət çökdü.
Xoş ləzzəti dodaqlarım,
Ağrını ürəyim çəkdi…

**03. 09. 2001**

## OLARDIMMI?

Sevməsəydin, ayrılanda
Qonur gözün dolardımı?
Məni anıb, gizli-gizli
Xəyallara dalardınmı?

Doğma sanardınmı qəmi?
Dinməsə qəlbinin simi,
Dincliyimi şüşə kimi
Qayalara çalardınmı?

O qədər də deyil asan,
Bulaq gözünə daş basaq!
Gözündən sevgi daşmasa,
Qəlbimə od salardınmı?!

Anmasaydım əllərini,
Öpməsəydim tellərini,
Həsrətinin güllərini
Göz yaşımla sulardımmı?

Vurma məni oda, közə,
Eşqinlə ömrümü bəzə!
Qulaq assaydım hər sözə
Yusifoğlu olardımmı?!

**08. 09. 2001**

## QADAĞA YOXDU DƏLİYƏ

Hərdən qadağa qoyursan,
Hər sözün tikanlı oxdu.
Dadmışam ki, dadanmışam,
Daha geriyə yol yoxdu.

Əzizim, iş işdən keçib,
İndi yüz qoruq-qadağa
Məni həsrət qoya bilməz
O şəkər dilə, dodağa…

Bu dünya vecimə deyil,
Özün bilirsən: dəliyəm!
Könlüm nə desə, edəcəm,
Qadağa yoxdu dəliyə!…

**09. 09. 2001**

* * *

Ürəyim payız yarpağı kimi
eşqin budağında əsir;
az qalır köksümdən qopa,
vüsalına tələsir…
Qəlbimə qulaq asanda,
sən məndən küsürsən,

Sənə qulaq asanda,
qəlbim məndən küsür,–
İndi neyləyim mən yazıq,
başıma nə gəlir görək? –
Nə sən güzəştə gedirsən,
nə ürək!…

**10. 09. 2001**

## QORXURAM

Elə bilirdim ki, körpə əlinin
Səadət beşiyi ovcumdu mənim.
Yeri dar eləmək mənə yaraşmaz,
Xəbərdar eləmək borcumdu mənim!

Buludlar sıxlaşır sənin başında,
Şimşəklər oynayır, ayıq ol, gülüm!
Yollar haçalanıb indi qarşında,
Ülvi bir sevgiyə layiq ol, gülüm!

Hələ getdiyin yol cazibədardı,
Bu təklif bir qara keşişdən keçib.
Bir də görəcəksən saçların qardı,
Bir də görəcəksən iş işdən keçib…

Sevdalı ürəyim suluq-suluqdu,
Ayıl bircə anlıq şirin xəyaldan.
Qəlbimə damıb ki, işlər şuluqdu,
Sonra gec olacaq, qayıt bu yoldan!

İşıq zənn edirsən qaraltını da,
Hansı arzuylasa yanırsan hələ.
İlan gözündəki parıltını da
Xoşbəxtlik, səadət sanırsan hələ.

Duymaz azadlığı kölə, əzizim,
Bu fani dünyada dərd çeşid-çeşid.
Sən duza gedirsən hələ, əzizim,
Duzdan qayıdanın sözünü eşit!

Ürəyin təmizdi, ülvidi eşqin,
Hələ ağ günlərin sirdaşısan sən.
Bir də görəcəksən ülvi bir eşqin
Məzarı üstündə baş daşısan sən!

Hamı keçə bilməz həsrət çayından,
Qıymaram gözündə muradın qala.
Bir ömrün səadət, sevgi payından
Qorxuram quruca bir adın qala…

**14. 09. 2001**

## BİR ZAMAN DEYİRDİN MƏNİMSƏN, GÜLÜM

Ayrı bir diləklə yanırsan indi,
Yeni həyat dərsi mənimsə, gülüm!
Dediyin sözləri danırsan indi,
Bir zaman deyirdin mənimsən, gülüm!

İnci axtaranlar üzər dərində,
Qorxuram bu sevgi yarımçıq ölə.
Mənim ürəyimin incə yerində
Bir "kobud" damğası göynəyir hələ!

Nə qədər qoysan da dincə qəlbini,
Üstünü fırtına bürüyəcəkdir.
İncə sandıqların incə qəlbini
İyrənc bir diyara sürüyəcəkdir…

Qanad açacağam bir gün gizlicə,
Ayağım torpaqdan üzüləcəkdir.
Qəlbimdən süzülüb dərd incə-incə
Sənin kirpiyinə düzüləcəkdir…

Ayrı bir diləklə yanırsan indi,
Yeni həyat dərsi mənimsə, gülüm!
Dediyin sözləri danırsan indi,
Bir zaman deyirdin mənimsən, gülüm…

**14. 09. 2001**

## İTİRDİM, MƏN SƏNİ İTİRDİM

Bir zaman görüşdük, şad olduq,
Təmiz bir sevgidən od aldıq,
Bəs niyə çevrilib yad olduq?
Ah çəkdim, köksümü ötürdüm,
İtirdim, mən səni itirdim!

Sevdalı gözünü anırdım.
Eşqinlə sübhədək yanırdım,
Özümü bəxtəvər sanırdım,
Ürəyim bülbül tək ötürdü,
İtirdim, mən səni itirdim!

Bilmədim kim sənə tuş oldu?!
Baharım çevrilib qış oldu,
Gör gedib kimlərə qoşuldun?-
Söz dedin, payımı götürdüm,
İtirdim, mən səni itirdim!

Hicranı görəndə yaxında,
Qaməti əyilər dağın da!
Tər töküb bu sevda bağında
Gül əkdim,
tikanlar bitirdin,
İtirdim, mən səni itirdim!

Sanırdım könlümü yar alar,
Bilməzdim qəlbimi yaralar!
Köksümdə bir dərin yara var,
Gör kimi murada yetirdin? –
İtirdim, mən səni itirdim!

Məhəbbət yolunda yoruldun,
Sevdiyim, gör kimə yar oldun? –
İçimdə sarı sim qırıldı,
Ayrılıq ölümdən betərdi,
İtirdim, mən səni itirdim!

Köksündən vurdular sarvanı,
Başına səpdilər urvanı,
Yol azdı məhəbbət karvanım,
İlahi bir eşqə it hürdü,
İtirdim, mən səni itirdim…

**15. 09. 2001**

## ULDUZLAR DA MƏN DEYƏNİ SÖYLƏYİR

Əsəblərim dönüb iti qılınca,
Sevən qəlbin tez duyaydı kaş məni!
Yol getsən də, arzuların dalınca,
Tanımırsan hələ dostu, düşməni.

Bir günahım olmasa da qarşında,
Baxışların mənə sitəm eyləyir.
Ömrüm-günüm, təhlükə var başında,
Ulduzlar da mən deyəni söyləyir.

Haram tikə viran qoyub yurdları,
Xəbislərə göydəndüşmə ruzisən.
Tanımırsan qalstuklu qurdları,
Bilmirsən ki, bir qurbanlıq quzusan.

Hələ vaxt var, öz nəfsinlə sən bacar,
Bax gözümdə öləziyən ulduza.
Sevən qəlbin qoyulacaq hərraca,
Dönəcəksən tamam başqa bir qıza…

Bəxt ulduzum gözlərinin yaşında
Qərq olacaq…
Düşmən bizə güləcək!
Çat-çat olan ürəyimin başında
Səadətim can verəcək, öləcək…

Sən xalisə tay tutursan qəlpimi?!
Xəbislərin gözünü oy, əzizim!
Tərəzinin bir gözünə qəlbimi,
Bir gözünə onları qoy, əzizim!

Narahatdı mənim həssas ürəyim,
Ulduzlar tək sən də başa düş məni!
Onda sənə aydın olar diləyim,
Bilərsən ki, kimdi dostun, düşmənin.

Arzular çox, ömür qısa, yol uzaq…
Yağış yağır yanağıma, üzümə.

Gözlərində yaş dönəcək ulduza,
Gözün baxa bilməyəcək gözümə…

Bir günahın olmasa da qarşımda,
Duyan qəlbim mənə sitəm eyləyir.
Ömrüm-günüm, təhlükə var başında,
Ulduzlar da mən deyəni söyləyir…

**16. 09. 2001**

*** * ***

Qorxuram billur bir
eşqin üstünə
qapqara kölgə düşə,
qorxuram sənin adına,
mənim ürəyimə ləkə duşə…

**16. 09. 2001**

## ÖZÜN BİLƏRSƏN

Mənə qadağa qoymuşdun,
Kiməsə uğur dilərsən.
Yetişib arzularına
Sevən qəlbimə gülərsən.

Yaşayıb imanla, dinlə,
Qəlbinin səsini dinlə!
Sevincini sevdiyinlə,
Dərdi mənimlə bölərsən.

Qorxuram sevdiyim bütə
Qəlbimdə məhəbbət itə,
Sən uyuşsan o mühitə,
Yanıma çətin gələrsən.

Sevən qəlbi pərt eləmə,
Olanları pərdələmə,
Sözlərimi dərd eləmə,
Mən kiməm? – Özün bilərsən!…

**17. 09. 2001**

## SÜBUT

"Mən Sizə sübut eləyəcəyəm ki, çirkablar içindən də təmiz çıxmaq mümkündür."

**Bir qızın sözlərindən**

Bağışla, ürəyinə şübhələr ələyirəm,
Risq edəndə hamının gətirməyir naxışı.
Mən sənə gecə-gündüz səadət diləyirəm,
İncimə sözlərimdən, fikirləş yaxşı-yaxşı!

Kəmanəni neyləyir simi qırılmış kaman?
Özgələri isidən bir sehrli ocaqsan.
Pulun zoruyla qolun zoru birləşən zaman
Əjdaha olsan belə, yenə uduzacaqsan…

Nə yolla olur olsun istəyə çatacaqlar,
Nə qədər ki, gec deyil bu inadından əl çək!
Ətrini hərisliklə qoxlayıb atacaqlar,
Tufanla bacararmı zərif donlu bir çiçək?!

Qurtarmaq çox çətindir elin lağ-loğazından,
Onlar fitnəkardılar sümükdən iliyəcən.
Görəcək ki, çıxıbdır dərisi boğazından,
Tülkü tülkülüyünü sübut eləyənəcən…

**18. 09. 2001**

## ƏVƏZ EDƏCƏKMİ?

Qəlbimə damanı açıqca dedim,
İçimdə hisslərim qaldırıb qiyam.
Bir zaman fərəhin, sevincin idim,
İndi başın üstə qəm buluduyam.

Nurlu arzuların qalıb kölgədə,
Qəlbində sağalmaz azar olmuşam.
Məndən zəhlən gedir indi bəlkə də,
Yolunun üstündə hasar olmuşam.

Qıymadım iznsiz bir çiçək dərəm,
Sözümü eşitsən, xeyir görərsən!
Mən sənin ömründən çıxıb gedərəm,
Qəlbin istəyən tək ömür sürərsən…

Dilim topuq çalır, ürəyim sancır,
Görürəm hərdən köks ötürdüyünü.
Ancaq bilmirəm ki, sənin qazancın
Əvəz edəcəkmi itirdiyini?!

**18. 09. 2001**

## BİR DAHA XƏTRİNƏ DƏYMƏYƏCƏYƏM

Qəlbin yaralanıb acı dilimdən,
Qorxum yox hicrandan, qəfil ölümdən.
Canın qurtaracaq mənim əlimdən,
Nakam taleyimi söyməyəcəyəm,
Bir daha xətrinə dəyməyəcəyəm.

Axar sular kimi durulacaqsan,
Şimşək tək buluddan sıyrılacaqsan,
Başqa birisinə yar olacaqsan,
Dərdindən mən qara geyməyəcəyəm,
Bir daha xətrinə dəyməyəcəyəm.

Sevda alovu var hələ canımda,
Bil ki, əbəs deyil həyəcanım da.
Axı mən kiməm ki, sənin yanında? –
Bir daha özümü öyməyəcəyəm,
Mən sənin xətrinə dəyməyəcəyəm…

Dərdim çox ağacın ilk nübarını,
Özgəyə qıymazlar eşqin barını,
Sənin ürəyinin qapılarını
Həsrət baxışımla döyməyəcəyəm,
Bir daha xətrinə dəyməyəcəyəm.

Tufanlar əsnəyir, nə qalıb qışa?
Mənim sevgi oxum dəyibdir daşa,
Təki sən xoşbəxt ol, bəxtiyar yaşa,
Özüm gizli-gizli göynəyəcəyəm,
Bir daha xətrinə dəyməyəcəyəm…

**20. 09. 2001**

## BİLMİRDİN?

Sevgi nəğməsi tək bəstələnmisən,
Ruhuna, mayana eşq qatılıbdır.
Görürəm, yamanca xəstələnmisən,
İncə dodaqların çat-çat olubdur.

Əyninə alovdan bir don geyəndə,
Oyanır köksümdə mürgülü ocaq.
Məndən dodağını əsirgəyəndə,
Bilmirdin həsrətdən uçuqlayacaq?!

**21. 09. 2001**

## SEVGİ YAĞIŞLARI KƏSMƏYƏCƏKDİR

Həsrət gözlərimdə bir top bulud var,
Eşqim qayır-qayır qaynayacaqdır.
Bir gün boşalacaq dolan buludlar,
Gözümdə şimşəklər oynayacaqdır.

Nəğmə oxuyacaq həsrət dodaqlar,
Göydə ildırımlar şaqqıldayacaq.
Gözünü lil tutan küskün bulaqlar
Bir gün dözməyəcək, paqqıldayacaq…

Nə vaxtsa əlimə keçəcək yaxan,
Bir də qəlbin məndən küsməyəcəkdir.
Sənin dodağına, üzünə yağan
Sevgi yağışları kəsməyəcəkdir…

**21. 09. 2001**

## UZAQDAN-UZAĞA

Əgər suvarmasan saralar, solar,
Çiçək taleyini həll eləyirsən.
Uzaqdan-uzağa sevgimi olar? –
Uzaqdan-uzağa əl eləyirsən…

Ürəyim çat-çatdı, insafa gəl bir,
Axı niyə məni qoymursan yaxın?
Vüsal arzusuyla vurmursa qəlbin,
Nəyinə lazımam mən sənin axı?!

İçimdə sağalmaz bir yara sızlar,
Arzumun gülləri sazağa düşüb.
Dönüb sirdaşına ürəyi buzlar,
Ruhuna yaxınlar uzağa düşüb.

Eşqin almayıbsa öz qiymətini,
Önündə çətin ki, əyiləm daha!
İtirdim gecikən səadətimi,
Mən sənin gərəyin deyiləm daha!

**26. 09. 2001**

## BU DƏRD MƏNİM ÜRƏYİMİ AĞRIDIR

Elə bilmə bu adi bir həvəsdi,
Mənim kimi duya bilər kim səni?!
Deyirsən ki, qısqanclığım əbəsdi,
Məndən başqa sevmirsən bir kimsəni.

Onda niyə külək kimi həmişə
Gah o yana, gah bu yana əsirsən?
Gah deyirsən düşmə yersiz təşvişə,
Gah da mənim ümidimi kəsirsən…

Bil ki, səni itirmək çox ağırdı,
Ucalarsan eşq önündə əyilsən.
Bu dərd mənim ürəyimi ağrıdır,
Sən həm mənim, həm də mənim deyilsən…

**26. 09. 2001**

## HƏSRƏT

Qoymursan uçub gəlim yaxına,
Kəpənək kimi qonum yaxana.
Əlimdə əsmir əllərin daha!
Vüsalın ucuz, həsrətin baha…

**27. 09. 2001**

## SEVGİ XƏZANI

Uca zirvələrə təzə qar düşür,
Cığırlar uzanır, yollar uzanır.
Yarpaqlar tökülür, yarpaqlar düşür,
Qorxuram başlaya sevgi xəzanı.

Əsir yavaş-yavaş həsrət yelləri,
Meşədə gəzirsən, fikrin uzaqda.
Mənə yarpaq dərib titrək əllərin,
Ürəyin üşüyür qarda, sazaqda…

Yarpaqlar uçuşur, kövrəlib budaq,
Payızla baharın sözü tutarmı?
Əlində titrəyən o sarı yarpaq
Mənim ürəyimdi, xəbərin varmı?!

**29. 09. 2001**

## QIZILI YARPAQ YAĞIŞI

Yaxşı-yaxşı süpürdülər
Toy evinin həyətini,
Yel əsdi, qonaq gələn qız
Gizləmədi heyrətini:

– Oy, nə qəşəng yağış yağır,
Qızılı yarpaq yağışı
Həsrət ilə gözləyirmiş
Elə bil torpaq yağışı…

Xalanın acığı tutdu:
–Ay qız, niyə sevinirsən?
Barmağına sarımısan
Deyəsən toy evini sən?!

Heç bilirsən biz nə qədər
Çalışmışıq səhər-səhər?!
Külək əsməyə vaxt tapdı,
Zəhmətimiz getdi hədər.

Bu şeytan qız zarafatsız
Axı necə keçinəydi?!
Xalasının hirslənməyi
Küləyin nə vecinəydi?!

Əsib-coşur, dəliqanlı
Toybaşıya bənzəyirdi,
Toy evinin həyətini
Xəzəllərlə bəzəyirdi…

**01. 10. 2001**

## LEYSAN

Göydən bir leysan ələndi,
Xəzanlı telini yudu,
Şairin qanına batan
Günahkar əlini yudu.

İslatdı yanaqlarını,
Yumşaltdı günahlarını,
Boyalı dodaqlarını,
Yalançı dilini yudu.

Xoşu gəldi sözlərimdən,
Eşq bitirdi izlərimdə,
Yağış mənim gözlərimdən
Boylanan ölümü yudu…

Canı yanmış, nə göyçəksən,
Sanki şehli bir çiçəksən,
Mən bəşərəm, sən mələksən,
Ta səndən əlimi yudum!

**01. 10. 2001**

## GÜNAH İŞLƏTMİŞƏM DEYƏSƏN, GÜLÜM

Özgə qismətinə göz dikməmişdim,
Günah işlətmişəm deyəsən, gülüm!
Kimi sevdiyini mərdi-mərdana
Vaxtında demədin niyə sən, gülüm?!
Günah işlətmişəm deyəsən, gülüm!

Yarımaz sevgidən sədəqə uman,
Eşqimin gözünü tutub kor duman,
Kaş yalan olaydı qəlbimə daman,
Duraydın könlümə yiyə sən, gülüm,
Günah işlətmişəm deyəsən, gülüm!

Nə tez xəzan düşdü sevda bağına?
Fələklər alışır hər gün ahına!

Məni şərik etdin öz günahına,
Meydan oxuyursan niyə sən, gülüm?
Günah işlətmişəm deyəsən, gülüm!

Qismət eşq bağına ötürüb məni,
Ancaq yaman fikir götürüb məni,
Sevgi yollarında itirib məni,
Qorxuram dizinə döyəsən, gülüm.
Günah işlətmişəm deyəsən, gülüm!

**06. 10. 2001**

## UNUDULDUM

Ömrün ixtiyar çağında,
Bişdim həsrət ocağında,
Bar verən sevgi bağında
Bir quruyan palıd oldum,
Unuduldum, unuduldum…

Əsdi ayrılıq yelləri,
Soldu sevgimin gülləri,
Çağladı hicran selləri,
Kədər yüklü bulud oldum,
Unuduldum, unuduldum…

Yad əl dərdi çiçəyimi?
Əsən həsrət küləyimi?!
Sevda dolu ürəyimi
Gör mən kimə umud oldum? –
Unuduldum, unuduldum…

**07. 10. 2001**

## NƏYİNƏ GƏRƏKDİ

Mənim həsrət yüklü nəğmələrimi
Özünə cehizmi yığırsan, gülüm?!
Deyəsən sən mənim şeirlərimə
Elə şeir kimi baxırsan, gülüm!

Ürəyini yaxmır ordakı həsrət,
Bu hissi layiqmi bilirsən mənə?!
"Gör kimi uşaq tək oynatdım",–deyə
Bəlkə için-için gülürsən mənə?!

Günahkar özüməm, bilirəm bunu,
Özgədən nə üçün inciyim axı?!
Sıxıb ürəyimi içirdim sənə, –
Nəyinə gərəkdi cəciyim axı?!

**07. 10. 2001**

## TALEYİN BƏXŞİŞİ

Şair sevgilisi olmaq
tale işi,
bəxt işidi.
Mənim yazdıqlarım
adicə şeirlər deyil,
sənə taleyin
bəxşişidi, –
Unutsan bunları
ilahi sevgi gülləri
saralacaq, solacaq.
Laqeyd olsan
sevgiylə yoğrulan
şeirlərə,

ürəyin zülmətə
qərq olacaq;
taleyin bir də
üzünə gülməyəcək.
Simurğ quşu da səni
işıqlı dünyaya
çıxara bilməyəcək!

**07. 10. 2001**

## ÖZÜNÜ NİYƏ ÇƏKİRSƏN

Sevgidən söhbət düşəndə
dəyişirsən sözünü.
Qorxursan sirrini faş eləyə,
aşağı dikirsən gözünü.
Məni görəndə
əllərin əsirsə,
saçların üzümə toxunmağa
tələsirsə,
sən niyə
çəkirsən özünü?!

**07. 10. 2001**

## SƏN ÖMRÜMƏ GƏLƏN GÜNDƏN

Bahar gələndə
ağaclar çiçəklədiyi kimi,
sən də ömrümə
gələn gündən
içimdə şeirlər qönçələyib.
Yol çəkən gözlərimin
qarasında,
ağrıyan ürəyimin

parasında
qərib bir yolçu kimi
həsrətin gecələyib…
Bir-birimizin yanına
can atsaq da,
görüş anları uzanıb…
ayaqlarımın altında
zillət çəkib,
ötən sevdaların xəzanı…
Uzun bir yol getmişəm
sənə doğru.
Həsrət dolu misralarımın
bir ucu qalıb
illərin, ayların arxasında,
bir ucu həsrətin əl çatmayan
yaxasında…
Hələ qovuşa bilməmişik,
Ayrılıq aramızda dönüb
iti bir qılınca…
Sən gedirsən,
Ürəyim –
bir sevgi yumağı kimi
misra-misra çözələnir
dalınca…
Yaxşı ki, sən varsan!
Könlümə səpilən intizar,
saçıma ələnən qarsan!
Bəbəklərimdəki sevgi nuru,
qəlbimdə gülümsəyən
baharsan…
Desəm ki, səni sevmirəm,
inanarsan?!

**08. 10. 2001**

## İLĞIM

Aldanmaq, unudulmaq
dərdlərin ən ağırıdı.
Özü yıxılan ağlamaz,
bu yolu, bu ünvanı
özüm seçmişəm…
Ona yazdığım şeirlər
uzun, upuzun
bir sevgi cığırıdı;
ürəyimi ağrıdan budur ki,
o yolu təkcə keçmişəm…
Min ağrıya,
min əzaba dözmüşəm!
Sən demə məni aldadırmış
zalım balası!
İlğımdan, sərabdan başqa
bir şey deyilmiş
qoynunda dincəlmək istədiyim
sevgi qalası!…

**08. 10. 2001**

## SONUNCU MÜKAFAT

Bəxtiyar ola bilmədim,
Həsrət dolu misralar
üstümə qayıtdı,
dönüb kədər arxına…
Bir çimdik sevinc
neyləyəsiydi axı
bu güclü axına?!
Heç nəylə
sağaltmaq olmazmış
ürəyə düşən çatı!

Ağrılar, əzablar imiş
sevginin sonuncu
mükafatı…

**08. 10. 2001**

* * *

Qəlbimə çökən
dumanı görəndə
şükür elədim çənə,
çisəyə də!
Bu ağrılar, bu əzablar
dəyməzmiş
bir yalançı busəyə də!

**08. 10. 2001**

* * *

Qətrə-qətrə yığdığım
sevgi sevincləri
selə dönüb çağladı
gözümdən.
Bu ürək məni rüsvay elədi,
zəhləm getdi
özümün özümdən…

**08. 10. 2001**

* * *

Həyəcanlar, iztirablar
ürəyə yük olurmuş…
Böyük sevginin əzabı da
böyük olurmuş!

*** * ***

Mən –
kədərə bələnmiş
öləziyən nuram!
Laqeydliyinlə
son qoydun
axır sən
bu sevgiyə…
Mən –
ağrılardan, əzablardan
ilan kimi qıvrılıram,
Sən –
adicə bir
əyləncə kimi
baxırsan
bu sevgiyə…

**08. 10. 2001**

*** * ***

Deyirsən ki, belə olmaz,
Bu qədər ki, qısqancsınız,
Sevgi həmişə
Sizə əzab gətirəcək!
Birdən elə bir şeyin
üstü açılacaq ki,
onda ürəyiniz bu xəbərə
necə tab gətirəcək?
Mənim də günahlarım var,
insanam, göydən gəlməmişəm.
Bir də ki,
Sizə nə dəxli var
mənim şəxsi həyatımın?

– Mən elə bilirdim dəxli var;
bağışla, bilməmişəm,
məhəbbət tutub gözümü,
doğmalar sırasında
sanmışam özümü…

**09. 10. 2001**

## DEYƏSƏN YANILMIŞAM

Əli, ayağı
yerdən-göydən üzülüb,
Göz yaşları
üsyan tumurcuqları kimi
kirpiklərinə düzülüb.
Özündə-sözündə deyil
mənim ilham pərim.
Ürəyinə çalın-çarpaz
dağ çəkib,
sonuncu şeirlərim.
Giley dolu misralar
kəsibdir kələyini.
"Əyləncə kimi baxırsan
bu sevgiyə"– deməklə
yaralamışam sevdalı ürəyini…
Deyəsən yanılmışam,
sevməsə, onun üzünə
qəm buludu
çökərdimi?!
Ürəyində sevgi olmayan
bu qədər
əzab çəkərdimi?

**09. 10. 2001**

* * *

Zülmətin içindən təzəcə çıxmışam,
həvəsim yoxdu özümü
dumana, çənə vurmağa!
Bu qədər şeirlə dediklərim
sənə çatmayıbsa əgər,
dəyərmi yenidən
söz güləşdirməyə,
çənə vurmağa?!

**13. 10. 2001**

## BİR ÖTƏN SEVGİNİN YETİM NƏĞMƏSİ

Təzə sevdalara doğru
yol gedirəm,
Həmişə səfərdə,
həmişə yoldayam.
Şeirlərimi oxuya-oxuya
səni fikir götürübsə,
bir ötən sevginin yetim nəğməsi
üzünə qəm buludu gətiribsə,
gör indi mən nə haldayam?!

**14. 10. 2001**

* * *

Nəğmələrim
saçlarında dönüb
sevgi çələnginə.
Misralarım da boyanıb
həsrətimin rənginə.
Sevdayla yoğrulmuş
şeirlərimi oxuyub,

için-için yananlar var.
Bircə nəğməmin
həsrətini çəkənlər,
səni bəxtəvər sananlar var.
Ancaq alpinist kəndirinə
dönən şeirlərim də
səni zülmətin dibindən
qaldıra bilmir…
Gör qəlbindəki boşluq
nə qədər dərindi ki,
onu bu boyda sevgi də
doldura bilmir!…

**16. 10. 2001**

## TALEYİN İSTEHZASI

Səadətə doğru yol gedir
qoca da, cavan da.
Özün səadət ola-ola,
Gözün səadət axtarır
ayrı ünvanda…
Çaşıb qalmısan;
bilmirsən səni
ürəkdən sevən kimdi,
sevməyən hansıdı? –
Bu da taleyin bir istehzasıdı.
Qoruq-qadağalarınla
sevdalı ürəyi qanadırsan.
Sevəndən gen qaçır,
sevməyənin yanına
can atırsan!…

**16. 10. 2001**

KİTABIN İÇİNDƏKİLƏR

**“Ömür ağacından düşən yarpaqlar” kitabından**

Döyüşlərdə həlak olan dayılarımın xatirəsinə.........................3
Növbəsiz buraxın...............................................................4
“Heç zaman...” ....................................................................4
“Uşaqlıq çağlarımda” ........................................................4
Əlimdə əlacım ola...............................................................5
Ağ yalan və qırmızı həqiqət................................................5
“Çiçək kimi dərildim” ........................................................5
“Üzündəki o məsumluq” ...................................................6
Bu gecə.................................................................................6
Dərdin varsa........................................................................7
Dəniz və sahil.......................................................................7
“Pay umuram...” .................................................................8
Bu gələn yar.........................................................................8
Sənin arşınınla, mənim arşınımla........................................10
Təbiətin bölgüsü...................................................................11
“Hərəmiz bir çayın qoluyuq” ...........................................12
Kənddə keçən bir ayım........................................................13
Qoca zurnaçının çaldığı hava..............................................14
“Ürəyinin ağrısını” ............................................................14
Alma almaya bənzər.............................................................14
Qızlar gölü...........................................................................15
Köç gedər..............................................................................16
Kəndimizə gedən cığır.........................................................17
İki beyt.................................................................................18
“Oğrun-oğrun” ..................................................................18
Mənə nə................................................................................18
Qurtarır................................................................................19
“Bir gözələ tuş oldum” ......................................................19
“Nə danışır” ........................................................................19
“Bir də dolanarmı...” ..........................................................19
“Gözəl gərək...” ..................................................................20
“Yola düşdü həsrətimin qatarı”..........................................20
Bir nəfərlik günəş.................................................................21
Bir gözələ..............................................................................21

Telefon nömrəsi haqqında rekviyem....................................22
Həzi Aslanovun ev muzeyində...........................................23
Üçüncü oğul...............................................................24
Tək qaldım.................................................................25
Nahaq küsmüşəm..........................................................26
Bu nə dəlilikdi...........................................................26
"O boy-buxun..." ........................................................27
İki evin arasında.........................................................27
"Sənin də evində..." ...................................................28
Sənə də qar yağdı.......................................................28
Bir dostuma...............................................................29
Adsız şeir..................................................................29
Yolotu.......................................................................30
"Cızığımdan çıxmadım..." ............................................30
"Başa düşər bu dünyada..." .........................................31
Araq. ........................................................................31
"Çöldə qarələnir" .......................................................31
"Ürəkdə məhəbbət yoxsa" ...........................................31
"Mənə xəyanət edən" ...................................................32
"Vidalaşasan gərək" .....................................................32
"Dərd torpağı..." .........................................................32
Dalğalar.....................................................................32
Zarafat......................................................................33
"Qalmamışam bu dünyadan..." .....................................34
Eşq ildırımı vuran ağac.................................................34
"Əgər nəfəs dəysə" ......................................................34
Zəfər yolu (poema).......................................................35

**Təmsillər və satirik şeirlər**

Qarğa məhəbbəti..........................................................42
Ala qarğa...................................................................42
İş planı......................................................................43
İçi boş olmasa.............................................................43
Qənd və çay ...............................................................43
Xoruzlar və beçələr......................................................44
Kağız.........................................................................44
Cəcik.........................................................................44
Sel və bulaq................................................................44
Sarmaşıq....................................................................45

Quşun cavabı.....................................................................45
Beçə bəyin toyunda ..........................................................46
Odun və çırpı......................................................................48
Arı və kəpənək...................................................................48
İki qancıq............................................................................49
İki küçük ............................................................................49
Qurd və qoyun...................................................................50
Tısbağanın hədəsi..............................................................51
İki həpənd...........................................................................52
Sərxoşun arıya məsləhəti...................................................52
İclasbaz...............................................................................52
Aravuran.............................................................................53
